*Auditorlar Palatası Şurasının 2012-ci il*
*«18» dekabr tarixli 238/5 saylı*
*qərarı ilə təsdiq edilmişdir.*

# KƏND TƏSƏRRÜFAT MÜƏSSİSƏLƏRİNDƏ AUDİT APARILMASINA DAİR PROQRAM

## 1. Kənd təsərrüfat müəssisələrinin hüquqi əsasları və nizamnamə kapitalının formalaşması

Audit zamanı Kənd təsərrüfat müəssisələrinin yaradılması şərtləri, nizamnamədə göstərilmiş fəaliyyət növləri, nizamnamə kapitalının məbləği, idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi haqqında məlumatlar və təşkilatın ləğvi şərtləri öyrənilməlidir. Kənd təsərrüfat müəssisələrinin hüquqi əsasları, hansı təşkilati-hüquqi formada yaradılması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, idarəetmə, onların yenidən təşkili və ləğvi, nizamnamə kapitalındakı payın keçməsi, iştirakçının əmlakındakı payına tutmanın yönəldilməsi, iştirakçının təşkilatdan çıxması və çıxarkən hesablaşmalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinə əsasən və kənd təsərrüfat müəssisələrinin nizamnaməsi ilə müəyyən edilir.

Kənd təsərrüfat müəssisələrinin Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 130.1-ci və 130.3-cü maddələrinə uyğun olaraq dövlət reyestrində qeydə alınması (qeydə alınma tarixi, dövlət şəhadətnaməsinin nömrəsi) auditor tərəfindən müvafiq sənədlər əsasında yoxlanılmalıdır. Nizamnamə kapitalının formalaşdırılmasının auditi zamanı Mülki Məcəllədə nəzərdə tutulmuş şərtlərə riayət edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

Maddi dəyərlilər və qeyri-maddi aktivlərlə nizamnamə fondunun formalaşdığı hallarda bu əməliyyatların düzgünlüyünə əmin olmaq məqsədilə müvafiq bölmələrin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.Nizamnamə kapitalının həcminin artması və ya azalması şərtləri təhlil edilməlidir. Bunun üçün kənd təsərrüfat müəssisələrinin səhmdarlarının və ya təsisçilərinin ümumi yığıncağının qərarı (əmri) tələb edilməli, artma və ya azalma şərtlərinin qanuna müvafiq olduğu qiymətləndirilməlidir. Nəzərə alınmalıdır ki, kənd təsərrüfat müəssisələrinin nizamnamə kapitalı onun tam ödənilməsindən sonra Mülki Məcəllədə və Kənd təsərrüfat müəssisələrinin nizamnaməsində nəzərdə tutulmuş qaydada Kənd təsərrüfat müəssisələrinin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) təşkilata qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər.
Kənd təsərrüfat müəssisələrinin nizamnamə kapitalının kənd təsərrüfat müəssisələrinin əmlakı hesabına artırılması kənd təsərrüfat müəssisələrinin nizamnaməsində nəzərdə tutulmuş qaydada kənd təsərrüfat müəssisələrinin təşkilati-hüquqi formasından asılı olaraq ümumi yığıncağının və ya təsisçinin qərarı ilə həyata keçirilir. Belə qərar yalnız kənd təsərrüfat müəssisələrinin ötən il üçün mühasibat hesabatının göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının kənd təsərrüfat müəssisələrinin əmlakı hesabına artırılan miqdarı kənd təsərrüfat müəssisələrinin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və kənd təsərrüfat müəssisələrinin ehtiyat fondu arasındakı fərqi keçməməlidir. kənd təsərrüfat müəssisələrinin nizamnamə kapitalı bu cür artırıldıqda, iştirakçıların sərmayələrinin məbləği dəyişmədən bütün iştirakçıların sərmayələrinin nominal dəyəri proporsional surətdə artır.

Kənd təsərrüfat müəssisələrinin nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilməsi nəzərə alınmalıdır. İştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir. Nizamnamə kapitalının azaldılması haqqında qərar qəbul edildikdən sonra nizamnamədə və müəyyən edilmiş

müddətdə cəmiyyət özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməli və məlumat alındığı gündən bir ay müddətində kənd təsərrüfat müəssisələrinin kreditorlarının kənd təsərrüfat müəssisələrinin müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, çəkdikləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Ona görə də nizamnamə kapitalının azaldılması hallarında kreditorlara bildirişlərin göndərilib-göndərilmədiyi müəyyən edilməli, onların tələbləri öyrənilməli, tələblərin nə dərəcədə ödənildiyi təhlil edilməlidir.

Audit zamanı auditor kənd təsərrüfat müəssisələrinin ümumi yığıncağının protokollarından və direktorlar şurasının (müşahidə şurasının) qərarlarından çıxarışlarla tanış olmalı, müvafiq bölmələrin auditi zamanı bu qərarların icrası vəziyyətini araşdırmalıdır.Nizamnamədə və ya nizamnamə kapitalında qeydə alınmış faktın yuxarıda göstərilən hər bir sonrakı faktik dəyişiklikləri olarsa, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 130.4-cü maddəsinə uyğun olaraq, faktiki dəyişikliyin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməsini auditor yoxlamalıdır. Nizamnamədə və nizamnamə kapitalında dəyişikliklər yalnız hüquqi şəxslərin reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## *2. Maliyyə-mühasibat hesabatları və mühasibat uçotu*

Kənd təsərrüfat müəssisələrinin hesabatlılığın və mühasibat uçotunun 29 iyun 2004-cü il tarixili №-IIQ saylı «Mühasibat uçotu haqqında» Qanuna və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi qaydalara müvafiq olaraq aparılması yoxlanmalıdır.

Qanunvericiliyə uyğun olaraq, mühasibat balansı, mənfəətin və zərərin hesabatı, auditlə əhatə edilən dövrün sonuna aktivlərin, passivlərin, gəlirlərin, xərclərin, hesabların qalığını əks etdirən dövriyyə cədvəli alınmalıdır.

Mühasibat balansının, mənfəətin və zərərin hesabatının dövriyyə cədvəlinə əsasən düzgün doldurulduğuna əmin olduqdan sonra məbləğlərin riyazi düzgünlüyü yoxlanılmalı və baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edildiyi və mövcud qanunvericiliyə uyğunluğu yoxlanılmalıdır.

Dövriyyə cədvəlinə əsasən hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar bölmələr üzrə qruplaşdırılmalı, daha çox maddi əhəmiyyətli (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan) məbləğlər müəyyənləşdirilməlidir.

Dövriyyə cədvəlində əhəmiyyətli olmayan (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan) məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Mərkəzi Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə düzgün qiymətləndirilərək hesabatlarda əks etdirildiyi yoxlanılmalıdır.

Keçən ilin hesabatları ilə bu ilin hesabatları müqayisə edilməli, hesabatlarda eyni tarixə (ilin sonuna və növbəti ilin əvvəlinə) balans hesabları üzrə göstəricilərin eyniliyi yoxlanılmalıdır. Ciddi kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Bütün bölmələr üzrə audit yekunlaşdırıldıqdan sonra audit prosedurları nəticəsində əldə edilmiş məlumatlar və lazımi düzəlişlər yekun dövriyyə cədvəlinə daxil edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə maddi əhəmiyyətli təsir göstərdiyi müəyyənləşdirilməli və bu barədə fikirlər auditor rəyində ifadə edilməlidir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

### 3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının, hesablaşmaların auditi

Təşkilatın kassa əməliyyatlarının, bank əməliyyatlarının, xarici valyutada aparılan bank əməliyyatları, bankda olan xüsusi hesablarının, digər pul vəsaitlərinin, pul sənədlərinin, hesablaşma və kredit əməliyyatlarının, malsatan və podratçı təşkilatlarla, alıcı və sifarişçilərlə, təhtəlhesab şəxslərlə hesablaşmalarının auditi, kənd təsərrüfat müəssisələrinin təşkilati-hüquqi formasından asılı olaraq, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərdə audit aparılmasına dair proqram»a, «Məhdud məsuliyyətli cəmiyyətlərdə audit aparılmasına dair proqram»a və digər normativ sənədlərə müvafiq olaraq aparılmalıdır.

### 4. Vergilər üzrə hesablaşmalar

Tikinti təşkilatlarında audit aparılarkən nəzərə alınmalıdır ki, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında"Azərbaycan Respublikasının 27 noyabr 2001-ci il tarixli 222-IIQ №- li Qanununa əsasən kənd təsərrüfatı məhsulları istehsalını artırmaq və bu sahədə sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə:

1. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) hüquqi şəxslər 2001-ci il yanvarın 1-dən başlayaraq 3 il müddətinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş hüquqi şəxslərin mənfəət vergisini, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar;
2. Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olan (o cümlədən sənaye üsulu ilə) fiziki şəxslər 2001-ci il yanvarın 1-dən başlayaraq 3 il müddətinə Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş əlavə dəyər vergisini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azaddırlar.
3. Bu Qanunun 1-ci və 2-ci maddələri ilə vergiləri ödəməkdən azad edilmiş hüquqi və fiziki şəxslər Azərbaycan Respublikası Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq torpaq vergisinin ödəyiciləridirlər. Həmin şəxslər digər fəaliyyət növləri ilə məşğul olduqda Azərbaycan Respublikası Vergi Məcəlləsinin müddəalarına uyğun olaraq həmin fəaliyyət üzrə vergiyə cəlb olunurlar.

Nəzərə alınmalıdır ki, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikası Qanununun qüvvədə olma müddətinin uzadılması barədə 28 noyabr 2003-cü il tarixli 520-IIQ №li Azərbaycan Respublikasinin Qanununa əsasən həmin Qanunun qüvvədə olma müddəti 5 il müddətinə, "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Azərbaycan Respublikasının 2001-ci il 27 noyabr tarixli 222-IIQ nömrəli Qanununun qüvvədə olma müddətinin uzadılması barədə 25 noyabr 2008-ci il tarixli 719-IIIQ №li Azərbaycan Respublikasinin Qanuna əsasən isə daha 5 il müddətinə uzadılmışdır.Bu Qanun 2009-cu il yanvarın 1-dən qüvvədədir.

Eyni zamanda nəzəzrə alınmalıdır ki, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əsasən (Maddə 206.1.) Torpaq vergisinin dərəcəsi kənd təsərrüfatı torpaqları üzrə 1 şərti bal üçün 0,06 manat müəyyən edilmişdir.Müvafiq icra hakimiyyəti orqanı tərəfindən kadastr qiymət rayonları və ora daxil olan inzibati rayonlar üzrə kənd təsərrüfatı torpaqlarının təyinatı, coğrafi yerləşməsi və keyfiyyəti nəzərə alınmaqla, şərti balları müəyyənləşdirilir (Maddə 206.2.)

Audit planlaşdırılarkən, auditor kənd təsərrüfatı müəssisəsinin gəlirin və xərcin müəyyənləşdirilməsinin hansı metodundan (kassa və ya hesablama metodlarından) istifadə

etməsi, ödədiyi bütün vergilər barədə dəqiq məlumatlar toplamalı və hər bir vergi növünün necə yoxlanılacağını müəyyənləşdirməlidir.

## 5. Digər hesablaşma əməliyyatlarının auditi

Audit zamanı daha çox əhəmiyyətli sayılan əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə yolu ilə öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır. Xərclərin tərkibində olan sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə tutuşdurulmalıdır.

İşçi heyəti ilə və icra sənədləri üzrə əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli, bu hesablaşmaların düzgün aparıldığı yoxlanılmalıdır.

Mövcud olduğu hallarda birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtləri öyrənilməli, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğun olduğu və hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalı və birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş mənfəətin və ya zərərin hesabatlarda necə əks etdirildiyi yoxlanılmalı və onların maliyyə hesabatlarında düzgün əks etdirilib-etdirilmədiyi müəyyənləşdirilməlidir.

## 6. Kreditlər və borclar üzrə əməliyyatların auditi

Audit zamanı alınmış kreditlərin və borcların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirildiyi yoxlanılmalı, kredit və borc müqavilələrinin şərtləri öyrənilməli, onların qaytarılması vaxtının uzadılması və ya vaxtı ötmüş kimi qiymətləndirilməsi şərtlərinə diqqət yetirilməlidir.

Faizlərin hesablanmasının və hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalığın hesabatda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kredit və borclar üzrə qalıqların audit dövrünün sonuna hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə bu məbləğin arayış ilə təsdiq edilməsi digər tərəfdən tələb edilməlidir.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyi, bu növ maliyyələşmələrdən məqsədyönlü və təyinatı üzrə istifadə edildiyi və düzgünlüyü yoxlanılmalıdır.

Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla auditor tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməli, alınmış ktedit və borc ödənilmədən növbəti kreditin alınması hallarının olub-olmamasına diqqət yetirilməlidir.

## 7. Əsas vəsaitlər və qeyri-maddi aktivlər

Audit zamanı nəzərə alınmalıdır ki, kənd təsərrüfatı müəssisələrində binalar, qurğular, ötürücü qurğular, iş-güc maşınları (avadanlıqları), ölçü tənzimləyisi cihazlar (qurğular), hesablama texnikası, nəqliyyat vəsaitləri, alətlər, istehsalat-təsrrüfat inventarları (ləvazimatları), işçi-məhsuldar heyanlar, çoxillik əkmələr, daxili təsərrüfat yolları, öz mülkiyyəti olan torpaq sahələri, torpaqların yaxşılaşdırılmasına (meliorasiya, qurudulma, irriqasiya və s.), həmçinin başqa işlərə (məqsədlərə) qoyulan kapital qoyuluşları və başqa vəsaitlər (əmək vəsaitləri) əsas vəsaitlərə aid edilir.

Müəssisənin öz mülkiyyətində olan torpaq sahələri uçotda onların alınmasına çəkilən faktiki xərclər üzrə əks etdirilir.

Əsas vəsaitlər uçotda ilkin dəyəri ilə, yəni onların alınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən faktiki xərc məbləğində əks etdirirlir. Öz mülkiyyətində olan torpaq sahələrindən başqa əsas vəsaitlərin ilkin dəyəri onlar yenidən qiymətləndirildikdə, yenidən qurulduqda, onlarda yeni tikinti işləri aparıldıqda, onlarayeni avadanlıqlar quraşdırıldıqda və onların müvafiq obyektləri qismən ləğv edildikdə dəyişdirilə bilər.

İş heyvanları aşağıdakı qruplara bölünür:

1. İşçi heyvanlar: - atlar, öküzlər, dəvələr və başqa işçi heyvanlar (idman atları və başqa nəqliyyat heyvanları da daxil olmaqla);

2. Məhsuldar və damazlıq heyvanlar: - inəklər, döl öküzləri, camışlar, döl kəlləri, döl ayğırları, ilxıya qoşulmuş damazlıq madyanlar, damazlıq dəvələr, döl nərləri, ana marallar, döl üçün erkək marallar, döl qabanları, damazlıq donuzlar, damazlıq qoyunlar, damazlıq keçilər, dölük qoçlar, döllük təkələr və başqaları.

Digər əsas vəsaitlər aşağıdakı kimi qruplaşdırılır:

1. Çoxillik əkmələr: - yaşından asılı olmayaraq mədəni çoxillik əkmələr, bütün növ meyvə və giləmeyvə çoxillik əkmələri (ağaclar və kollar) , küçələrdə, meydanlarda, parklarda, bağlarda, müəssisələrin ərazi bağçalarında, yaşayış binalarının həyətlərində və bu kimi başqa yerlərdə əkilən yaşıllaşdırma və dekorativ çoxillik əkmələr, qumsallığın və sahillərin bərkidilməsi məqsədilə əkilən çoxillik əkmələr elmi-tədqiqat institutlarında, botanika bağlarında və bu kimi başqa yerlərdə tədqiqat və başqa məqsədlər üçün əkilən çoxillik əkmələr;

2. Torpaqların yaxşılaşdırılması üzrə əsaslı məsrəflər: - kapital qoyuluşu hesabına aparılan torpaq sahələrinin əkin üçün planlaşdırılması, ərazinin kötükdən təmizlənməsi və əkinə hazırlanması, sahələrin daşlardan, kəsəklərdən, alaqlardan və başqa lüzumsuz bitkilərdən təmizlənməsi, kiçik təpəciklərin düzəldilməsi, nohurların təmizlənməsi və s. bu kimi torpaqların yaxşılaşdırılması işləri (tikinti və quraşdırma işləri ilə əlaqəsi olmayan işlər);

Eyni zamanda nəzərə alınmalıdır ki, «Kapital qoyuluşları» hesabı tikinti aparan təşkilatın əsas vəsaitləri investisiya qoyuluşları, müəssisənin torpaq sahələrinə və təbiətdən istifadə obyektlərinə, qeyri-maddi aktivlərə investisiya qoyuluşları, eləcə də məhsuldar və iş heyvanlarından ibarət əsas sürünün yaradılması üzrə məsrəflərə (dəyərindən asılı olmayaraq müəssisənin dövriyyə vəsaitlərinə aid edilən quşlardan, xəz dərili heyvanlardan, ev dovşanlarından, arı ailələrindən, minik və keşikçi itlərdən və təcrübə heyvanlarından başqa) investisiya qoyuluşları haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur.

«Kapital qoyuluşları» hesabına aşağıdakı subhesablar açıla bilər:

1 «Torpaq sahələrinin əldə edilməsi»
2 «Təbiətdən istifadə obyektlərinin əldə edilməsi»
3 «Əsas vəsait obyektlərinin inşası»
4 «Ayrı-ayrı əsas vəsait obyektlərinin əldə edilməsi»
5 «Əsas vəsaitlərin dəyərini artırmayan məsrəflər»
6 «Qeyri-maddi aktivlərin əldə edilməsi»
7 «cavan heyvanların əsas sürüyə keçirilməsi»
8 «Yaşlı heyvanların əldə edilməsi»
9 «Əvəzsiz alınmış heyvanların gətirilməsi» və başqaları

«Torpaq sahələrinin əldə edilməsi» subhesabında müəssisənin mülkiyyətinə aid edilən torpaq sahələrinin əldə edilməsi üzrə məsrəflər uçota alınır.

«Təbiətdən istifadə obyektlərinin əldə edilməsi» subhesabında müəssisənin mülkiyyətinə aid edilən təbiətdən istifadə obyektlərinin əldə edilməsi üzrə məsrəflər uçota alınır.

«Əsas vəsait obyektlərinin inşası» subhesabında əsaslı kənd təsərrqfatı təyinatlı tikinti üzrə smetalarda, maliyyə-smeta hesablamaları və titul siyahılarında bina və qurğuların inşası, avadanlığın quraşdırılması üzrə məsrəflər, quraşdırılmağa verilmiş avadanlığın dəyəri və digər xərclər (tikintinin təsərrüfat və ya podrat üsulu ilə aparılmasından asılı olmayaraq) uçota alınır.

«Ayrı-ayrı əsas vəsait obyektlərininəldə edilməsi» subhesabında quraş¬dırıl¬ması tələb olunmayan avadanlıq, maşın, alət, inventar və digər əsas vəsait obyektlərinin əldə edilməsi üzrə məsrəflər uçota alınır.

«Əsas vəsaitlərin dəyərini artırmayan məsrəflər» subhesabında müəyyən olumuş qayda üzrə əsas vəsait obyektinin ilk dəyərinə daxil edilməyən əsas vəsaitlərin inşası və alınması ilə əlaqədar məsrəflər uçota alınır.

«Qeyri-maddi aktivlərin əldə edilməsi» subhesabında qeyri-maddi aktivlərin əldə edilməsi üzrə məsrəflər uçota alınır.

«Kapital qoyuluşları» hesabının debetində təşkilatın müəyyən olunmuş qayda üzrə əsas vəsait obyektlərinin ilk dəyərinə daxil edilən, eləcə də əsas vəsaitlərin inşası və əldə edilməsi ilə əlaqədar olan, lakin həmin obyektlərin ilk dəyərinə daxil edilməyən faktiki məsrəfləri əks etdirilir.

«Cavan heyvanların əsas sürüyə keçirilməsi» subhesabında əsas sürüyə keçirilən cavan məhsuldar və iş heyvanlarının təsərrüfatda böyüdülməsi ilə əlaqədar məsrəflər uçota alınır.

«Yaşlı heyvanların əldə edilməsi» subhesabında daşınma xərcləri də daxil edilməklə əsas sürü üçün əldə edilən yaşlı və iş heyvanlarının dəyəri uçota alınır.

«Əvəzsiz alınmış heyvanların gətirilməsi» subhesabında digər müəssisələrdən əvəzsiz alınan yaşlı və iş heyvanlarının təsərrüfata gətirilməsi üzrə xərclər uçota alınır.

Əsas sürüyə keçirilən cavan heyvanlar faktiki maya dəyəri ilə qiymətləndirilir. Əsas sürüyə keçirilən bütün növlərdən olan cavan məhsuldar və iş heyvanları, onların ilin əvvəlindən olan balans dəyəri üzrə (ilin əvvəlindən heyvanların əsas sürüyə keçirilənədaək olan dövr ərzində çəki artımı, yaxud böyüməninin plan maya dəyəri əlavə edilməklə) 11 № -li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabından, 08 № -li «Kapital qoyuluşları» hesabının debetinə silinir. Bununla birlikdə cavan heyvanlar əsas sürüyə keçirilərkən, 01 № -li «Əsas vəsaitlər» hesabının debetinə və 08 № -li «Kapital qoyuluşları» hesabının kreditinə yazılış edilir. İlin axırında hesabat kalkulyasiyası tərtib edildikdən sonra il ərzində əsas sürüyə keçirilən cavan heyvanların yuxarıda göstərilən dəyəri ilə onun faktiki maya dəyəri arasındakı fərq əlavə olaraq, yaxud «storno, edilməklə 11 № -li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabından 08 № -li «Kapital qoyuluşları» hesabına (01 № -li «Əsas vəsaitlər» hesabında heyvanların qiymətini dəqiqləşdirməklə) silinir.

Kənardan alınmış yaşlı heyvanların dəyəri, daşınma üzrə xərclər də daxil edilməklə onların alındığı faktiki maya dəyəri ilə «Kapital qoyuluşları» hesabının debetinə mədaxil edilir.

Əsas sürünün yaradılması əməliyyatlarının başa çatması üzrə məsrəflər «Kapital qoyuluşları» hesabından «Əsas vəsaitlər» hesabının debetinə silinir.

Müəssisənin başa çatmamış tikinti, əsas vəsait, qeyri-aktivlərin əldə edilməsi və əsas sürünün təşkili üzrə başa çatdırılmamış məsrəflərin məbləğləri 08 № -li «Kapital qoyuluşları» hesabında qalıq kimi göstərilir.

«Kapital qoyuluşları» hesabı üzrə analitik uçotun quruduşu: tikinti işlərinə və yenidənqurmaya; qazma işlərinə; avadanlıqların quraşdırılmasına; quraşdırılması tələb olunan və olunmayan avadanlıqların, habelə kapital qoyuluşları smetalarında nəzərdə tutulan alət və inventarların əldə edilməsinə; layihə-axtarış işlərinə məsrəflər; əsas sürünün yaradılması ilə əlaqədar məsrəflər (heyvanların növləri üzrə /iribuynuzlu mal-qara, donuzlar, qoyunlar, atlar və s./) kapital qoyuluşu üzrə sair məsrəflər haqqında məlumatların alınmasının mümkünlüyünü təmin etməlidir.

Hazırlanmış mühasibat hesabatlarında əks etdirilmiş əsas vəsaitlərın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar alınmalıdır.

Əsas vəsaitlərın hesabat dövrünün sonuna analitik uçot məlumatları əldə edilməli, sintetik hesabın qalıqları ilə tutuşdurulmalı, kənarlaşmalar müəyyən edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

Əsas vəsaitlərin üzərində daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparılması və nəticələrinin mühasibat uçotunda düzgün əks

etdirilməsi yoxlanılmalıdır. İnventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktları tələb edilməlidir.

Əsas vəsaitlərin alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və mühasibat uçotunda əks etdirilməsi yoxlanılmalıdır. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə qiymət verilməlidir. Əsas vəsaitlərın alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin onların ilkin dəyərinə həqiqətən daxil edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

Əsas vəsaitlər xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyi və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyi yoxlanılmalıdır.

Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədlər yoxlanılmalıdır.

Əsas vəsaitlərin alınması zamanı malgöndərən və podratçı təşkilatlara ödənilmiş onların ilkin dəyərinə daxil edilmədiyi, 68 saylı balans hesabına aid edildiyi yoxlanılmalıdır.

Əsas vəsaitlərin alınması, quraşdırılması və sazlanması üzrə bütün xərclərin əvvəlcə kapital qoyuluşları hesabında yığıldığı, istifadəyə verildikdə isə əsas vəsaitlər hesabına keçirildiyi yoxlanılmalıdır.

Əsas vəsaitlərkateqoriyalar üzrə düzgün qruplaşdırıldığı, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının düzgünlüyü, bu normaların mövcud qanunvericiliyin tələbləri həddində olduğu yoxlanılmalıdır. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablandığının düzgünlüyü yoxlanılmalıdır.

Əsas vəsaitlərın xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyi, əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyi yoxlanılmalıdır.

Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalı, lizinq müqaviləsinin şərtləri öyrənilməlidir.

Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyi, görülmüş təmir işlərinin xarakteri və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığı yoxlanılmalııdır. Müəyyən edilmiş normalardan artıq olan təmir xərclərinin hər bir kateqoriyaya dair əsas vəsaitlərin balans üzrə qalıq dəyərinə düzgün aid edildiyi yoxlanılmalıdır.

Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirilməli və bu zaman vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi yoxlanılmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## 8.Mal-material dəyərlilərinin və istehsal ehtiyatlarının auditi

Mal-material dəyərlilərinin və istehsal ehtiyatlarının auditi Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərdə audit aparılmasına dair proqram»a, «Məhdud məsuliyyətli cəmiyyətlərdə audit aparılmasına dair proqram»a və digər normativ sənədlərə müvafiq olaraq aparılmalı, lakin bu zaman kənd təsərrüfatı müəssisələrinin xüsusiyyətləri nəzərə alınmalıdır. Kənd təsərrüfatı müəssisələri toxumların, yemlərin və əkilməli materialların (alınan və özündə istehsal olunan), mineral gübrələrin, kənd təsərrüfatı bitkilərinə zərər vuran ziyanvericilərə və xəstəliklərə qarşı mübarizədə istifadə olunan zəhərli kimfəvi maddələrin, kənd təsərrüfatı heyvanlarında olan xəstəliklərə qarşı mübarizədə istifadə olunan dərmanların, bioloji və kimyəvi maddələrin və s. uçotunu aparmaq üçün 10 № -li «Materiallar» hesabına xüsusi subhesablar aça bilər.

Eyni zamanda nəzərə alınmalıdır ki, Kənd təsərrüfatı müəssisələrində 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesab istifadə olunur. 11 №-li

«Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabı müəssisəyə məxsus cavan heyvanların, otlaqda və kökəldilməkdə olan yaşlı heyvanların, quşların, dovşanların, vəhşi heyvanların, arı ailələrinin, satılmaq üçün əsas sürüdən çıxdaş olunan yaşlı heyvanların (kökəldilməyə qoyulmadan), satılmaq üçün əhalidən qəbul olunan heyvanların mövcudluğu və hərəkəti haqqında məlumatları ümumiləşdirmək üçün nəzərdə tutulmuşdur. Bu heyvanların böyüdülməsi yaxud kökəldilməsi ilə əlaqədar xərclərin uçotu 20 №-li «Əsas istehsalat» hesabında aparılır.

Digər müəssisə və şəxslərdən heyvanların alınması 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabının debetində 60 №-li «Mal satan və podratçılara hesablaşmalar» hesabının (mal satanlar tərəfindən sənədləşdirilmiş məbləğdə) və başqa müvafiq hesabların (daşınıb gətirilməsi və buna bənzər sair xərclər məbləğində) kreditində əks etdirilir.

Artımdan (balavermədən) alınan cavan heyvanlar 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabının debetinə, bala vermiş heyvanların saxlanılmasına çəkilən xərclərin uçotu aparılan hesabların isə kreditinə yazılmaqla mədaxil olunur.

Cavan iribuynuzlu malqaranın, donuzların və kökəldilməkdə (otlaqda) olan heyvanların çəki artımının, həmçinin cavan heyvanların (dayçalar və başqaları) boy artımının dəyəri böyüdülmə məsrəflərini, böyüdülmənin plan maya dəyəri üzrə uçota alan hesablardan hər ay 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabının debetinə silinir. İlin sonunda göstərilən hesablarda il ərzində böyüdülmənin plan maya dəyəri ilə uçota alınan, çəki yaxud boy artımının dəyərini böyüdülmənin faktiki maya dəyərinə çatdırmaq üçün düzəliş («storno» yaxud əlavə) yazılışı tərtib edilir.

Cavan heyvanlar əsas sürüyə keçirilərkən onların dəyəri 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabından silinərək, 08 №-li «Kapital qoyuluşları» hesabının debetinə yazılır. Burada yazılan məbləğ eyni zamanda 01 №-li «Əsas vəsaitlər» hesabının debetinə və 08 №-li «Kapital qoyuluşları» hesabının kreditinə yazılmaqla uçotda əks etdirilir.

11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabında uçota alınan heyvanların kənara verilməsi (o cümlədən əsas sürüdən çıxdaş olunaraq tədarük müəssisələrinə təhvil verilən heyvanlar) 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabının kreditində və 46 №-li «Məhsul (iş, xidmət) satışı» hesabının debetində əks etdirilir. Eyni zamanda satılan heyvanlara görə mal alandan gözlənilən məbləğ 46 №-li «Məhsul (iş, xidmət) satışı» hesabının kreditinə və 62 №-li «Alıcılar və sifarişçilərlə hesablaşmalar» hesabının debetinə yazılır.

Heyvanların kökəltməsi məqsədi ilə əsas sürüdən çıxdaş olunan heyvanlar 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabının debetində və 01 №-li «Əsas vəsaitlər» hesabının kreditində (məhsuldarheyvanlar ilk dəyərlə, işçi heyvanları isə onların satışı və çıxdaşından əldə olunmuş məbləğlə) yazılmaqla uçota alınır.

Əsas sürüdən çıxdaş olunan heyvanlar, kökəlməyə qoyulmadan tədarük müəssisələrinə təhvil verildikdə hesabının kreditinə və 47 №-li «Əsas vəsaitlərin satışı və sair xaricolmaları» hesabının debetinə yazılır.

Tələf olmuş və məcburi kəsilmiş (təbii fəlakət və yoluxucu xəstəliklər vaxtı tələf olanlardan başqa) heyvanların dəyəri sərvətlərin xarab olmasında olduğu kimi 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabından silinərək, 84 №-li «Sərvətlərin əskikgəlməsi və xarabolmasından itkilər» hesabının debetinə yazılır. Məcburi kəsilmiş və tələf olmuş heyvanların dərisi, buynuzu, dırnağı, texniki piyi və s. mümkün istifadə yaxud satış qiyməti ilə qiymətləndirilməli və həmin heyvanların saxlanılması xərclərini uçota alan hesabların kreditindən əlavə məhsul kimi mədaxil olunmalıdır. Təbii fəlakət və yoluxucu xəstəliklər zamanı kəsilmiş və tələf olmuş heyvanlar 11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabından bilavasitə 80 №-li «Mənfəət və zərər» hesabının debetinə silinir.

11 №-li «Böyüdülməkdə və kökəldilməkdə olan heyvanlar» hesabı üzqə analitik uçot heyvanların böyüdülməsi və kökəldilməsinə məsrəflərin uçotu üçün müəyyən edilmiş heyvanların saxlanılma yerləri, növləri, yaş qrupları, cinsi üzrə aparılır.

Kənd təsərrüfatı müəssisələrində əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmalar, istehsal xərclərinin auditi, Kapital qoyuluşları və uzunmüddətli investisiyalar, malların satışı, mənfəət (zərər), fondlar və ehtiyatlar, maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərdə audit aparılmasına dair proqram»a, «Məhdud məsuliyyətli cəmiyyətlərdə audit aparılmasına dair proqram»a və digər normativ sənədlərə müvafiq olaraq aparılmalıdır.

**Proqramı tərtib etdi: Azərbaycan Respublikası**
**Auditorlar Palatası sədrinin**
**elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov**

***Auditorlar Palatası Şurasının***
***2012-ci il «17 »iyul tarixli***
***233/3 saylı qərarı ilə***
***təsdiq edilmişdir.***

# SIYASI PARTIYALARDA AUDIT APARILMASINA DAIR P R O Q R A M

## *MÜNDƏRICAT*

***1. Giriş***
***2. Siyasi partiyaların yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi***
***3. Kassa və bank əməliyyatlarının auditi***
***4. Hesablaşma və kredit əməliyyatlarının auditi***
***5. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi***
***6. Xərclərin və maya dəyərinin auditi***
***7. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi***
***8. Mühasibat uçotunun vəziyyətinin auditi***
***9. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər***

## *1. Giriş*

Siyasi partiyaların yaradılmasının, idarə edilməsinin və fəaliyyətinin tənzimlənməsinin spesifik xüsusiyyətlərə malik olması, onların fəaliyyətində şəffaflığın təmin edilməsinin günün aktual mövzusuna çevrilməsi, habelə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya» da siyasi partiyaların maliyyələşdirilməsi və vəsaitlərinin xərclənməsində şəffaflığın artırılmasına dair müddəalarıdan irəli gələn vəzifələr, Siyasi partiyalarda audit aparılmasına dair proqramın hazırlanması zəruri hesab etmişdir. Proqram Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Siyasi partiyalar haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında», «Qrant haqqında» və «Mühasibat uçotu haqqında» qanunları, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı

mübarizə üzrə Milli Strategiya» , digər normativ hüquqi aktlar və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının normativ sənədləri rəhbər tutulmaqla tərtib edilmişdir.

Proqramın məqsədi respublikanın ərazisində fəaliyyət göstərən Siyasi partiyalarda aparılan auditor yoxlamalarının keyfiyyətini yüksəltməkdən, audit zamanı tətbiq edilməsi zəruri hesab edilən audit prosedurlarını müəyyən etməkdən və bunlarla əlaqədar müvafiq tövsiyələr verməkdən, həmçinin siyasi partiyaların fəaliyyətində şəffaflığı təmin etməkdən ibarətdir.

## *2. Siyasi partiyaların yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi*

Audit zamanı ilk növbədə aşağıdakılar nəzərə alınmalıdır:

Siyasi partiya dedikdə ümumi siyasi ideyaları və məqsədləri olan, ölkənin siyasi həyatında iştirak edən Azərbaycan Respublikası vətəndaşlarının birlikləri nəzərdə tutulur.

Siyasi partiyalar Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğun olan vəzifələrini və məqsədlərini əsas götürərək Azərbaycan Respublikası vətəndaşlarının siyasi iradəsinin formalaşdırılmasında fəal iştirak edirlər.

Siyasi partiyaların təşkilinin və fəaliyyətinin qanunvericilik əsası Azərbaycan Respublikasının Konstitusiyasından, "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının 3 iyun 1992-ci il № 147 nömrəli Qanunundan (25 iyun 1992-ci il tarixli, 184 nömrəli; 5 noyabr 1996-cı il tarixli, 188-IQD nömrəli; 5 oktyabr 2001-ci il tarixli, 190-IIQD nömrəli; 2 iyul 2002-ci il tarixli, 356-IIQD nömrəli; 30 dekabr 2003-cü il tarixli, 568-IIQD nömrəli; 4 may 2004-cü il tarixli, 646-IQD nömrəli; 11 iyun 2004-cü il tarixli, 688-IIQD nömrəli; 4 mart 2005-ci il tarixli, 856-IIQD nömrəli; 15 aprel 2005-ci il tarixli, 887-IIQD nömrəli; 3 mart 2006-cı il tarixli, 82-IIIQD nömrəli; 1 oktyabr 2007-ci il tarixli, 424-IIIQD nömrəli; 9 oktyabr 2007-ci il tarixli, 430-IIIQD nömrəli qanunlara əsasən dəyişikliklər və əlavələrlə) və bunlara uyğun olaraq qəbul edilən Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından ibarətdir.

Nəzərə alınmalıdır ki, Siyasi partiyalar ərazi əlaməti üzrə qurulur. Siyasi partiyaların ilk təşkilatlarının, komitələrinin və digər təşkilat strukturlarının Azərbaycan Respublikasının dövlət orqanlarında fəaliyyətinə yol verilmir.

Siyasi partiya yaradılmasının təşəbbüsçüləri təsis qurultayı (konfransı) və ya ümumi yığıncaq çağırır, orada nizamnamə qəbul olunur və rəhbər orqanlar təşkil edilir.

Siyasi partiyanın qeydə alınması üçün Azərbaycan Respublikasının azı 1000 vətəndaşı onun üzvü olmalıdır.

Məqsədi və ya fəaliyyət metodu Azərbaycan Respublikasının Konstitusiya quruluşunu devirməkdən, zorakılıqla dəyişdirməkdən və ya ərazi bütövlüyünü pozmaqdan, müharibəni, zorakılığı və qəddarlığı təbliğ etməkdən, habelə irqi, milli və dini ədavəti qızışdırmaqdan, Azərbaycan Respublikasının Konstitusiya quruluşuna zidd olan və beynəlxalq-hüquqi öhdəlikləri ilə bir araya sığmayan digər əməllər törətməkdən ibarət olan siyasi partiyaların yaradılmasına və fəaliyyətinə yol verilmir.

Azərbaycan Respublikasının ərazisində xarici dövlətlərin siyasi partiyalarının, habelə onların bölmələrinin və təşkilatlarının yaradılmasına və fəaliyyətinə yol verilmir.

Audit zamanı nəzərə alınmalıdır ki,

Siyasi partiyanın hər bir şəxsin tanış olmaq imkanı olan nizamnaməsi olmalıdır.

Nizamnamədə aşağıdakılar nəzərdə tutulmalıdır:

- siyasi partiyanın adı, məqsədləri və vəzifələri;
- siyasi partiyanın strukturu;
- siyasi partiyanın üzvlüyünə qəbul olunmağın və ondan çıxmağın şərtləri və qaydası;
- siyasi partiyanın üzvlərinin hüquqları və vəzifələri;
- siyasi partiyanın üzvləri barəsində Azərbaycan Respublikasının qanunlarına zidd olmayan intizam tədbirləri və bunların tətbiqinin əsasları;
- ərazi təşkilatlarına Azərbaycan Respublikasının qanunlarına zidd olmayan təsir tədbirləri;
- siyasi partiyanın rəhbər orqanlarının səlahiyyəti və təşkili qaydası, onların səlahiyyət müddətləri;
- qərarların qəbul olunması, həyata keçirilməsi qaydası və nəzarət formaları;
- partiya üzvlərinin və onların nümayəndələrinin yığıncağının çağırılması şərtləri, formaları və müddətləri;
- siyasi partiyanın vəsaitinin və başqa əmlakının əmələ gəlməsi mənbələri;
- siyasi partiyanın nizamnaməsinə dəyişikliklər və əlavələr edilməsi qaydası;
- siyasi partiyanın fəaliyyətinə xitam verilməsi qaydası və onun əmlakının taleyi.

**Nəzərə almaq lazımdır ki,** Bütün səlahiyyəti müddətində Azərbaycan Respublikasının bütün məhkəmələrinin sədrləri, sədr müavinləri və hakimləri, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), hərbi qulluqçular, köməkçi-texniki heyət istisna olmaqla prokurorluq, ədliyyə, daxili işlər, milli təhlükəsizlik, sərhəd xidməti, gömrük, maliyyyə, vergi, feldyeger rabitəsi orqanlarının, dövlət mətbuatı orqanlarının işçiləri, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım şurasının üzvləri, baş direktoru və onun müavinləri, Azərbaycan Respublikası Milli Bankının İdarə Heyətinin üzvləri, din xadimləri siyasi partiyaların üzvü ola bilməzlər.

Siyasi partiyalar beynəlxalq ictimai (qeyri-hökumət) birliklərə daxil ola bilər, birbaşa beynəlxalq əlaqələr saxlaya, müvafiq sazişlər bağlaya bilərlər.

Nəzərə almaq lazımdır ki,

Siyasi partiyaların fəaliyyəti xalq deputatları seçkiləri haqqında Qanuna müvafiq surətdə seçki kampaniyalarının maliyyələşdirilməsi istisna olmaqla, dövlət büdcəsindən təxsisat ayrılmadan bu partiyaların vəsaiti hesabına maliyyələşdirilir.

Partiyaların fəaliyyətinin xarici dövlətlər, habelə xarici dövlətlərin hüquqi və fiziki şəxsləri tərəfindən maliyyələşdirilməsi qadağandır

Siyasi partiyaların pul və ya pul ifadəsi olan sərvətlər şəklində əldə etdikləri vəsait onların mədaxilidir. Partiyanın hamılıqla qəbul olunmuş öhdəliklərdən azad edilməsi nəticəsində alınan səmərə də mədaxil sayılır.

Aşağıdakılar siyasi partiyaların mədaxili sayılır:

- üzvlük haqları;
- əmlakdan götürülən gəlir;
- tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlərlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir;
- ianələr şəklində gəlir;
- seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait;
- aşağı təşkilatların ödəncləri;
- qalan gəlir.

Aşağıdakılar məxaric sayılır:

- cari işlərə çəkilən xərclər;
- siyasi partiyanın idarələrinin işinə və informasiyaya çəkilən xərclər;
- ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər;
- aşağı təşkilatlara ödənclər;
- kreditlər üzrə faizlər;
- fərdi xərclər;
- qalan xərclər.

Siyasi partiyaların gəlir mənbələrinə, əldə edilən vəsaitin məbləğinə və vergilərin ödənilməsinə vergi qanunvericiliyinə uyğun olaraq dövlət vergi orqanları nəzarət edirlər.

Partiyaların ianələr almaq hüququ vardır. Siyasi partiyalara aşağıdakıların ianə vermək hüququ yoxdur:

- dövlət idarələri;
- öz nizamnamələrinə (təsis sənədlərinə) uyğun olaraq faktik fəaliyyətinin xarakteri baxımından yalnız və yalnız bilavasitə ictimai, xeyriyyə məqsədlərinə və ya dini məqsədlərə xidmət edən təşkilatlar;
- həmkarlar ittifaqları;
- kütləvi hərəkatlar.

Bundan başqa, partiyalar iqtisadi və ya siyasi səmərə əldə etmək məqsədi ilə verilən ianəni qəbul edə bilməzlər.

Siyasi partiyaların xeyrinə verilən ianələrin məbləği maliyyə hesabatına daxil edilməli və ianəçinin adı (familiyası), ünvanı, ianənin məbləği göstərilməlidir.

Partiyaların mülkiyyətində binalar, avadanlıq, nəşriyyatlar, mətbəələr, nəqliyyat vasitələri, habelə nizamnamə vəzifələrini yerinə yetirmək üçün lazım olan digər əmlak ola bilər.

Partiyaların mülkiyyət hüququ Azərbaycan Respublikasının qanunvericiliyi ilə qorunur.

Partiyalar borc və ya icarə barəsində başqa şəxslərlə bağladıqları müqavilələrə uyğun olaraq binalardan və başqa əmlakdan istifadə edə bilərlər.

Partiyaların mülkiyyətində torpaq, sənaye müəssisələri, istehsal birlikləri və kooperativlər ola bilməz, partiyalar təsərrüfat və ya kommersiya fəaliyyəti ilə məşğul ola bilməzlər.

Partiyaların silaha, partlayıcı maddələrə və vətəndaşların həyatı və sağlamlığı üçün təhlükə (o cümlədən ekoloji təhlükə) törədən başqa materiallara malik olması, bunları anbara vurması və ya saxlaması qadağandır.

Partiyalar hesabat verməli olduqları mədaxili və məxarici, habelə əmlak vəziyyətini əks etdirən mühasibat sənədlərini tərtib etməlidirlər.

Siyasi partiyanın maliyyə hesabatı mədaxil və məxaric hissələrindən, habelə əmlakı barəsində hesabatdan ibarət olur.

Ərazi təşkilatlarının hesabatları da partiyanın maliyyə hesabatına daxil edilir.

Hər təqvim ilinin axırında tərtib edilən hesabatda üzvlük haqqı ödəyən partiya üzvlərinin sayı göstərilməlidir.

## *3. Kassa və bank əməliyyatlarının auditi*

### 3.1. Kassa əməliyyatlarının auditi

Kassa əməliyyatlarının auditi zamanı auditor, ilk növbədə, kassada olan nağd pul vəsaitinin, qiymətli kağızların və ciddi uçot blanklarının faktiki mövcudluğu üzrə inventarizasiyasını aparmalıdır. Inventarizasiya başlanmazdan əvvəl kassada saxlanılan vəsaitlərin faktiki mövcudluğuna dair kassirin iltizamı alınmalı və inventarizasiya baş mühasib və kassirin iştirakı ilə aparılmalıdır.

Inventarizasiya başa çatdıqdan sonra inventarizasiya nəticəsində kassada faktiki müəyyən edilən pul vəsaitlərinin, qiymətli kağızların və ciddi uçot blanklarının qalığı onların mühasibat uçotu üzrə qalıqları ilə müqayisə edilməlidir. Müqayisə nəticəsində kənarlaşma halları aşkar edilərsə, onda inventarizasiyanın nəticəsinə dair baş mühasib və kassirin iştirakı ilə üzləşdirmə cədvəli tərtib edilməli və kənarlaşma hallarının səbəbləri araşdırılmalıdır.

Rəhbərlik ilə kassir arasında maddi məsuliyyət haqqında bağlanmış müqavilənin mövcudluğu, kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin sərəncamının olub-olmaması və həmin sərəncama əməl edilməsinin düzgünlüyü yoxlanılmalıdır. Kassa kitabının səhifələnməsi, qaytanlanması, möhürlənməsi və müvafiq imzalarla təsdiqlənməsinin vəziyyəti yoxlanılmalı və kassa otağının müvafiq tələblərə cavab verib-verməməsinə (yanmayan seyflə təmin edilməsi, qapı və pəncərələrin dəmir haşiyələrlə bağlanması və s.) yəqinlik əldə edilməlidir.

Kassa mədaxil və məxaric orderlərinin tərtib edilməsinin, kassa kitabında onların müvafiq ardıcıllıqla yazılışının düzgünlüyü yoxlanılmalıdır. Bu zaman ciddi uçot blankları olan kassa mədaxil orderlərinə daha çox diqqət yetirilməli, həmçinin ləğv edilmiş kassa mədaxil orderlərinin faktiki mövcudluğu araşdırılmalıdır.

Kassadan nağd pul vəsaitinin verilməsinə dair tərtib edilmiş kassa məxaric orderlərində müvafiq kredit sərəncamçılarının imzalarının olub-olmamasına diqqət yetirilməli, kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Baş kitaba əsasən, kassa üzrə pul vəsaitinin hərəkətinə dair cədvəllər tərtib edilməli və həmin məlumatlardan müvafiq audit bölmələrində istifadə edilməlidir.

Vəkalətnamələrə əsasən, digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyü yoxlanılmalı, vəkalətnamələrin ciddi uçot blanklarında olmasına diqqət yetirilməli və əldə edilmiş məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə edilməlidir.

Xarici valyutada kassa əməliyyatı aparılıbsa, əməliyyatın ayrıca kassa kitabında aparılmasına diqqət yetirilməklə, kassa kitablarında və əmək haqqı üzrə ödəniş cədvəllərində hesab səhvinə yol verilib-verilməməsi yoxlanılmalıdır.

Xarici valyutada nağd qaydada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün müəyyən edilməsini və məzənnə fərqinin hesablanmasının düzgünlüyünü yoxlamaq lazımdır.

Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitləri üzrə qalıq məbləğlərinin kassaya vaxtında qaytarılması araşdırılmalı və bununla bağlı məlumatdan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Aparılmış kassa əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

### 3.2. Bank əməliyyatlarının auditi

*a) Bankda olan hesablaşma hesablarının auditi*

Auditlə əhatə olunan dövrün sonuna bankda olan bütün hesablar barədə arayış alınmalı, həmin hesablarda mövcud olan qalıq məbləğləri təsdiq olunmuş bank çıxarışlarında, baş kitabda və maliyyə hesabatlarında göstərilən qalıqlar ilə müqayisə edilməli, kənarlaşma halları olarsa, bunun səbəbləri araşdırılmalıdır. Bank çıxarışlarında göstərilən məbləğlərin təsdiqi ilkin sənədlərə əsasən yoxlanılmalıdır. Bundan başqa, bank çıxarışlarında düzəlişlər olduqda, onların bank tərəfindən təsdiqlənməsi tələb edilməli, həmçinin ilkin sənədlərdə bankın ştampı olmadığı halda, əməliyyatın düzgünlüyü barədə bankdan arayış alınmalıdır.

Auditlə əhatə olunan dövrdə hesablaşma hesabları üzrə pul vəsaitlərinin hərəkəti cədvəli tərtib edilməli və həmin cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir.

Hesablaşma hesabları üzrə ilkin sənədlərə əsasən aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar xüsusi əhəmiyyət kəsb etdiyi hallarda, aparılmış əməliyyatların düzgünlüyü yoxlanılmalı və əldə edilmiş məlumatlardan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir.

*b) Xarici valyutada aparılan bank əməliyyatlarının auditi*

Xarici ölkələrin banklarında açılan valyuta hesabları barədə arayış alınmalıdır. Əgər bir neçə valyuta üzrə hesablar açılmışdırsa, onda onların nə dərəcədə qanunamüvafiq olması araşdırılmalıdır.

Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların aparılması zamanı bank xidmətləri, birжa rüsumları və yaranmış məzənnə fərqlərinin uçotda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirilməsinin düzgünlüyü müəyyən edilməlidir.

Xarici banklara köçürülmüş pul vəsaitlərinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və hesablaşma əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilərək, valyuta hesabı üzrə verilmiş mühasibat yazılışlarının düzgünlüyü araşdırılmalıdır.

Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, onda qeyri-rezidentin mənfəətindən gəlir vergisinin və əlavə dəyər vergisinin tutulmasının düzgünlüyü yoxlanılmalı və əldə edilmiş məlumatlar vergilər üzrə hesablaşmaların auditi zamanı aparılan audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir.

*c) Xüsusi vəsaitlər üzrə hesablaşma hesablarının auditi*

Ödəniş məbləğləri ilkin sənədlərlə müqayisə edilməli, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir. Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tərtib edilməsinə yəqinlik əldə etmək məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydaları və ödəniş müddətləri öyrənilməli, əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və həmin vəsaitlərin başqa məqsədlər üçün istifadə edilib-edilməməsi müəyyənləşdirilməlidir.

Elektron kredit kartlarından və limitləşdirilmiş çeklərdən istifadənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü, onlarla aparılmış əməliyyatların məqsədəuyğunluğu, çeklər və kartlar təqdim edilən şəxslərlə müqavilələr bağlanmasının və onlardan qəbul edilən hesabatların düzgünlüyü yoxlanılmalıdır.

Qiymətli sənədlərin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş təyyarə biletləri və s.) kassada saxlanmasının, hesabat sənədlərinin tərtib edilməsinin və pul sənədlərinin analitik uçotunun aparılmasının düzgünlüyü yoxlanılmalıdır. Yenidən satılmaq və ya ləğv edilmək üçün səhmdarlardan alınmış səhmlərin faktiki mövcudluğu yoxlanılmalıdır.

Yolda olan ödəniş köçürmələrinin hesabatlarda əks etdirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə, təqdim edilmiş ilkin sənədlərə əsasən, balans hesabından daxil olan vəsaitlər müqayisə edilməli, kənarlaşma halları aşkar edildikdə, səbəbləri araşdırılmalıdır.

Maliyyə hesabatlarında qısamüddətli maliyyə qoyuluşları kimi əks etdirilən qiymətli kağızların, depozitlərin və verilmiş borclar üzrə subhesabların aparılmasına və müddətinin həqiqətən bir ildən çox olmamasına diqqət yetirilməklə, depozit hesabların yaradılması şərtləri təhlil edilməli və bu əməliyyatlar üzrə alınmış faizlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Əgər qiymətli kağızların alış dəyəri nominal dəyərindən fərqlənirsə, fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olmasının düzgünlüyü və xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü müəyyən edilməklə, səhmlərin və digər qiymətli kağızların satışı üzrə əməliyyatların nəticələrinin mənfəətin və ya zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Auditlə əhatə olunan dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox əhəmiyyət kəsb edirsə, banklardan bu barədə təsdiqləyici arayış alınmalı, hesablaşma hesabı ilə aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

## *4. Hesablaşma və kredit əməliyyatlarının auditi*

### 4.1. Əmək haqqı üzrə hesablaşmaların auditi

Işçi və qulluqçularla bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğu seçmə qaydasında yoxlanılmalı, işçilərin orta siyahı sayı, onların kateqoriyaları, həmçinin tətbiq edilən əmək haqqı sistemi və forması öyrənilməlidir.

Vaxtamuzd ödəniş sistemində əmək haqqının ştat cədvəlinə uyğun olaraq hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalı, əmək haqqının hesablanması cədvəli tabellərdə göstərilmiş iş vaxtı ilə müqayisə edilməlidir. Artıq işlənmiş vaxta görə (istirahət və bayram günləri də daxil olmaqla) ödənişlərin Əmək Məcəlləsinə uyğunluğuna yəqinlik əldə edilməli və məzuniyyət haqlarının, sosial təyinatlı ödənişlərin hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Əmək haqqından gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma, icra vərəqələri və s. üzrə tutulmaların müvafiq qanunvericilik aktlarının və normativ sənədlərin tələblərinə uyğunluğu seçmə qaydasında yoxlanılmalı, fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin tətbiq edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının düzgünlüyü hesab qaydasında təkrar yoxlanılmalı, əmək haqqı üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin və əmək haqqı üzrə xərclərin fondun xərclərinə aid edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesab cədvəlləri tərtib edilməli, bu cədvəllərdə gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və digər tutulmaların məbləğləri əks etdirilərək, həmin məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə edilməlidir.

### 4.2. Malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi

Təşkilatın mühasibatından malsatan və podratçı təşkilatlar üzrə mövcud borcların siyahısı alınaraq, həmin təşkilatlarla bağlanmış müqavilələrin mövcudluğu və tərtib edilməsinin düzgünlüyü araşdırılmalı, tərəflərin öhdəlikləri və müqavilə məbləğinin ödənilməsi şərtləri öyrənilməlidir.

Malsatan və podratçı təşkilatlarla hesablaşmalar üzrə borcların əmələ gəlməsinin tarixi və səbəbləri müəyyən edilməklə, bu növ hesablaşmalar üzrə aparılmış əməliyyatların mühasibat uçotunda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyən edilməlidir.

Mühüm əhəmiyyət kəsb edən borcların əmələ gəlməsinin səbəbləri və reallığı araşdırılaraq, həmin borclar üzrə üzləşmə aktları tələb edilməli, əgər üzləşmə aparılmayıbsa, borcların reallığını təsdiq etmək məqsədilə, üzləşmənin aparılması və nəticəsi üzrə müvafiq aktın tərtib edilməsi təşkilatın rəhbərliyindən tələb edilməlidir.

Məbləğcə daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünü yoxlamaq məqsədilə təhtəlhesab şəxslərlə hesablaşmaların, kassa və bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə edilməli və əsassız ödənişlərin mövcud olub-olmaması müəyyənləşdirilməli, debitor borclarının iddia müddətinin keçib-keçməməsi dəqiqləşdirilməli, həmin borcların ödənilməsi üçün tədbirlərin görülməsi tələb edilməlidir.

Alınmış qiymətli kağızların və maddi dəyərlilərin tam mədaxil edilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə ödəniş sənədlərində göstərilən məbləğlər mədaxil sənədləri ilə müqayisə edilməli, əgər xidmət göstərilmişdirsə, onda məsrəflərin gəlirdən çıxılmalı olan xərclərin tərkibinə aid edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bütün iri malsatan və podratçı təşkilatlar üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalı və bununla əlaqədar alınan izahatlar təsdiqedici sənədlərə isnad edilməklə, audit materiallarına əlavə edilməlidir.

Malsatan və podratçı təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğun olması araşdırılmalı və müqavilə üzrə nəzərdə tutulan şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmaların hesabına silinməsinin düzgünlüyü yoxlanılmalı, hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə aparılmışdırsa, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir.

Qaldırılmış iddiaların nə dərəcədə əsaslı olması araşdırılmalı və bununla əlaqədar aparılmış əməliyyatların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Əvvəlki audit zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olaraq, bu ilki audit zamanı onların təkrar olunub-olunmaması xüsusi diqqətlə araşdırılmalıdır.

### 4.3. Büdcədənkənar fondlarla hesablaşmaların auditi

Büdcədənkənar fondlarla hesablaşmaların auditi aparılarkən baş kitabda, dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında göstərilən qalıq məbləğləri üzləşdirilməli və kənarlaşma hallarının olub-olmaması müəyyənləşdirilməlidir.

Büdcədənkənar fondlara ödəmələrin hesablanması bazasının və tətbiq edilmiş normaların düzgünlüyü araşdırılmalı və qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin hesablaşmalarda nəzərə alınmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır. Nəzərə alınmalıdır ki, dövlətlərarası (hökumətlərarası) sazişlərə əsasən alınmış qrantlardan büdcədənkənar fondlara ayırmaların fərqli qaydaları müəyyən edilə bilər. Belə hallarda həmin sazişin tələbləri əsas götürülməlidir.

Büdcədənkənar fondlara ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Büdcədənkənar fondlara ödənişlərin təyinatı üzrə vaxtında edilməsi və hesabatların vaxtında təqdim edilib-edilməməsi araşdırılmalı, nöqsan və çatışmazlıq halları aşkar edilərsə, bu barədə fondun rəhbərliyinə yazılı məlumat verilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində əldə edilən məlumatlar bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə üzləşdirilərək, büdcədənkənar fondlara ödəmələr üzrə qalıq məbləğləri müəyyən edilməli və alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıq məbləğlərinə uyğunluğu yoxlanılmalıdır.

### 4.4. Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi

Təhtəlhesab şəxslərlə tam maddi məsuliyyət haqqında bağlanmış müqavilələrin mövcudluğu müəyyənləşdirilməli, onlar tərəfindən təqdim edilmiş avans hesabatlarının tərtib edilməsinin və

xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarılmasının düzgünlüyü, həmçinin avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, nəqliyyat biletləri və s.) mövcudluğu və məbləğlərin avans hesabatlarında əks etdirilməsinin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara uyğun olaraq hesablanıb ödənilməsinin və təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə əməliyyatların maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdr.

Bu prosedurların nəticələrindən seçmə qaydasında kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə edilməlidir.

### 4.5. Vergilər üzrə hesablaşmaların auditi

Təşkilatın fəaliyyətindən asılı olaraq, hesablanan, tutulan və ödənilən vergilər barədə məlumat alınmalı, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirilməsinin və hər bir vergi növü üzrə analitik uçotun aparılmasının düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Siyasi partiyaların gəlirlərinin formalaşması nəzərə alaraq, əvəzsiz maliyyə yardımı (qrant vəsaiti) hesabına malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiqliyi diqqətlə yoxlanılmalıdır.

### 4.6. Kreditlər, borclar və digər hesablaşmalar üzrə əməliyyatların auditi

Alınmış kreditlər və borc məbləğlərinə dair bağlanmış müqavilələrə əsasən, ödəmə şərtləri öyrənilməli, onların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilərək, kredit və borclardan istifadəyə görə hesablanmış faizlərin və xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalıqların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü araşdırılaraq, bu növ maliyyələşmələrdən təyinatı üzrə istifadə edilib-edilməməsinin düzgünlüyü yoxlanılmalı və kənarlaşma halları aşkar edildikdə, səbəbləri müəyyənləşdirilməlidir.

Əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə qaydasında öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, xərclərin tərkibinə daxil edilən sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə üzləşdirilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli və bu hesablaşmaların aparılmasının düzgünlüyü yoxlanılmalıdır.

## *5. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi*

Siyasi partiyalarda audit aparılarkən mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları haqqında məlumatlar əldə edilməli və onların hesabat dövrünün sonuna analitik və sintetik uçot qalıqları ilə müqayisə edilməlidir. Kənarlaşma halları müəyyən edilərsə, səbəbləri araşdırılmalıdır.

Hesabat dövrünün sonuna fondun əsas vəsaitlərinin inventarizasiyasının aparılıb-aparılmaması müəyyənləşdirilməli, əgər aparılıbsa, nəticələrinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin əsas vəsaitlərin silinməsi halları olarsa, bunun qanunauyğunluğu təhlil edilməlidir.

ƏV, QMA və MMD-nin alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və onların alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin ilkin dəyərlərinə əlavə edilib-edilməməsi müəyyənləşdirilərək, mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Əgər ƏV, QMA və MMD xaricdən idxal edilərək alınmışdırsa, onda gömrük bəyannamələrində onların gömrük dəyərinin müəyyən edilməsinin

düzgünlüyü araşdırılmalı, həmçinin gömrük dəyərinə gömrük prosedurları ilə əlaqədar ödənilmiş vergi və rüsum məbləğlərinin əlavə edilərək mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

ƏV, QMA və MMD-nin kateqoriyalar üzrə qruplaşdırılmasının düzgünlüyü, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının mövcud qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmalı və QMA-nın amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablanmasına yəqinlik əldə edilməlidir.

ƏV, QMA və MMD-nin xaric olunmasının maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin müəyyən edilməsinin düzgünlüyü araşdırılmalıdır. Əgər ƏV qalıq dəyərindən aşağı qiymətləndirilmişdirsə, onda tətbiq edilən qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətlərinə uyğun olması barədə qiymətləndirici ekspertin rəyi tələb edilməli və xaricolmanın nəticələrinin mənfəətin və ya zərərin hesabatında sair satışın nəticələri kimi əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Azqiymətli və tezköhnələn əşyaların istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

### *6. Xərclərin auditi*

Siyasi partiyalarda xərclərin auditi zamanı xərclərin tərkibinə aid edilmiş məsrəflər və məbləğlər araşdırılaraq, aşağıdakı elementlər üzrə qruplaşdırılmalıdır:

- mal-material xərcləri;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;
- sair xərclər.

Mal-material dəyərlilərinin alınması, saxlanılması və silinməsi prosesi öyrənilməlidir.

ƏV, QMA və MMD bölməsində istifadə edilmiş audit prosedurları nəticəsində əldə edilmiş məlumatlardan bu bölmənin auditi zamanı istifadə edilməli və təyinatından asılı olaraq, auditin aparılması proqramında müəyyən edilən yoxlama metoduna əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Sair xərclərin tərkibində mühüm əhəmiyyətə malik olan xərclərin düzgünlüyü ilkin sənədlərə əsasən təhlil edilməli və həmin xərclərin tərkibinə daxil edilən müxtəlif xərc elementləri (təbii qaz, elektrik enerжisi, su, kommunal xərclər və s.) təqdim edilmiş kalkulyasiyalarda göstərilən hesablamalarla müqayisə edilməlidir. Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədlərin düzgünlüyü yoxlanılaraq, göstərilən təşkilatlarla bağlanmış müqavilə şərtləri öyrənilməli və əldə edilən məlumatlardan həmin təşkilatlarla aparılmış hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Işçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olub-olmamasını müəyyənləşdirmək məqsədilə ezamiyyə xərcləri üzrə təqdim edilmiş hesabatlar seçmə qaydasında yoxlanılmalıdır. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu sahənin auditi zamanı istifadə edilməlidir.

Xərclərin tərkibi təhlil edilərək, onların aidiyyəti üzrə mühasibat uçotunda, həmçinin mənfəətin və zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bu bölmədə istifadə edilən audit prosedurları nəticəsində əldə edilən məlumatlardan maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyünün auditi zamanı istifadə edilməlidir.

### *7. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi*

Siyasi partiyaların maliyyə hesabatları və dövriyyə-qalıq cədvəllərinə əsasən, qalıqlar dəqiqləşdirilməli, uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparılmasına yəqinlik əldə edilərək, onların riyazi düzgünlüyü yoxlanılmalıdır.

Mülkiyyətçisi olduğu hallarda, səhmlərin və qiymətli kağızların dəyərinin onların nominal dəyərindən artıq və ya əskik olması hallarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilərək, bu prosedurların nəticələri maliyyə vəziyyətinin təhlili bölməsində aparılmış prosedurların nəticələri ilə müqayisə edilməlidir.

Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılması nəzərə alınaraq, bu məqsədlə yerinə yetirilən prosedurların nəticələri müqayisə edilməlidir.

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz verilməsi və ya alınması halları təhlil edilməli və bu əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Uçot siyasətinə və təsis sənədlərinə əsasən, xüsusi təyinatlı fondların yaradılmasının qanunauyğunluğu yoxlanılmalı və bu məlumatlardan səhmlərlə bağlı əməliyyatların auditi zamanı istifadə edilməlidir.

Smetaya əlavə edilən ilkin sənədlərə əsasən, çəkilmiş xərclərin əsaslılığı təhlil edilməlidir.

## *8. Mühasibat uçotunun vəziyyətinin auditi*

Mühasibat balansının, mənfəət və zərər hesabatlarının dövriyyə cədvəllərinə əsasən düzgün tərtib edilməsinə yəqinlik əldə edilməli, məbləğlərin riyazi düzgünlüyü yoxlanılaraq, baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edilməsi və tətbiq olunmuş hesabların mövcud normativ aktlara uyğun olub-olmaması müəyyən edilməlidir.

Dövriyyə cədvəlinə əsasən, hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar ayrı-ayrı bölmələr üzrə qruplaşdırılmalı, maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan məbləğlər müəyyənləşdirilməlidir. Dövriyyə cədvəlində maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Milli Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Balans hesabları üzrə cari ilin əvvəlinə mövcud olan qalıqlar əvvəlki ilin hesabatlarında ilin sonuna mövcud olan qalıqlarla müqayisə edilməli, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalıdır.

Aşkar edilmiş kənarlaşmalara görə edilməli mühasibat düzəlişləri nəzərə alınmaqla, yekun dövriyyə cədvəli tərtib edilməli və həmin məlumatların maliyyə (mühasibat) uçotunda tam əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara görə düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə təsir etməsi amilləri müəyyənləşdirilməli və həmin amillər auditin nəticəsi üzrə verilən rəydə öz əksini tapmalıdır.

## *9. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər*

Audit nəticəsində düzgün hesab edilmiş balans hesabatı və hesabata əlavələr araşdırılaraq, daha çox əhəmiyyət kəsb edən göstəricilər müəyyənləşdirilməli və həmin göstəricilər əvvəlki illərin nəticələrinə dair göstəricilərlə üzləşdirilərək, müqayisə cədvəli tərtib edilməli, iqtisadi göstəricilərin aşağı düşməsi halları müşahidə edilərsə, səbəbləri təhlil edilərək, rəhbərliyə təqdim olunan məlumatda əks etdirilməlidir.

Təşkilatın aktivlərinin dəyərinin aşağı düşməsi halları təhlil edilməli və onların qalıq məbləğinin nizamnamə kapitalından aşağı olmamasına yəqinlik əldə edilməlidir.

Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların auditlə əhatə edilən dövr ərzində aradan qaldırılıb-qaldırılmamasına xüsusi diqqət yetirilməlidir. Audit zamanı aşkar edilmiş

bütün nöqsan və çatışmazlıqlar, onların aradan qaldırılmasına dair rəy və təkliflər, həmçinin mühasibat uçotunun vəziyyətinə verilən qiymət barədə mülahizələr auditin nəticəsinə dair tərtib edilən auditor aktına daxil edilməklə, rəhbərliyə ünvanlanan məktubda əks etdirilməlidir.

**PROQRAMI TƏRTIB ETDI:**
***Nəcəf TALIBOV –***
***Auditorlar Palatası sədrinin***
***elmi-metodik məsələlər üzrə müşaviri***

***Auditorlar Palatası Şurasının***
***2012-ci il «17 »iyul tarixli***
***233/3 saylı qərarı ilə***
***təsdiq edilmişdir.***

## TİKİNTİ TƏŞKİLATLARINDA AUDİT APARILMASINA DAİR PROQRAM

### 1. Tikinti təşkilatlarının hüquqi əsasları və nizamnamə kapitalının formalaşması

Tikinti təşkilatlarının hüquqi əsasları, yəni tikinti təşkilatlarının hansı təşkilati-hüquqi formada yaradılması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, idarəetmə, tikinti təşkilatlarının yenidən təşkili və ləğvi, nizamnamə kapitalındakı payın keçməsi, iştirakçının əmlakındakı payına tutmanın yönəldilməsi, iştirakçının təşkilptdann çıxması və çıxarkən hesablaşmalar Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 87-96-cı maddələrinə əsasən və tikinti təşkilatlarının nizamnaməsi ilə müəyyən edilir.

Audit zamanı tikinti təşkilatlarının yaradılması şərtləri, nizamnamədə göstərilmiş fəaliyyət növləri, nizamnamə kapitalının məbləği, idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi haqqında məlumatlar və təşkilatın ləğvi şərtləri öyrənilməlidir.

Tikinti təşkilatlarının Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 130.1-ci və 130.3-cü maddələrinə uyğun olaraq dövlət reyestrində qeydə alınması (qeydə alınma tarixi, dövlət şəhadətnaməsinin nömrəsi) auditor tərəfindən müvafiq sənədlər əsasında yoxlanılmalıdır.

Nizamnamə kapitalının formalaşdırılmasının auditi zamanı Mülki Məcəllənin 90-cı maddəsində nəzərdə tutulmuş şərtlərə riayət edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

Audit zamanı «"Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların mühəndis-axtarış işlərinin Siyahısı"nın, "Dövlət standartlarına uyğun olaraq, I və II məsuliyyət səviyyəli bina və qurğuların layihələndirilməsi üzrə işlərin Siyahısı"nın və "Dövlət standartlarına uyğun olaraq I və II məsuliyyət səviyyəli bina və qurğuların tikinti-quraşdırma işlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin 27 fevral 2009-cu il tarixlt 34№li Qərarının, "Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ƏDV-nin məqsədləri üçün vergi tutulan minimum dövriyyənin hesablanması üçün ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsalları"nın təsdiq edilməsi barədə» Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin 29 fevral 2008-ci il il tarixli 62№li Qərarının, «"Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ödənilməli olan

sadələşdirilmiş verginin hesablanması üçün ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə əmsalları"nın təsdiq edilməsi barədə» Azərbaycan Respublikasının Nazirlər Kabinetinin, 25 sentyabr 2007-ci il tarixli 140 №li Qərarının və digər normativ aktların tələblərinə riayət edilməsi yoxlanılmalıdır. Eyni zamanda, zəruri hallarda Azərbaycan Respublikası Dövlət şəhərsalma və Arxitektura Komitəsinin Kollegiyasnın 12 iyun 2012-ci il tarixli 03№-li «"Tikinti üçün layihə işlərinə qiymətlər toplusu-Yaşayış və ictimai binalar", "Tikinti üçün layihə işlərinə qiymətlər toplusu-Rayon planlaşdırılması, yaşayış məskənlərinin planlaşdırılması və tikintisi" və "Tikinti üçün layihə işlərinə qiymətlər toplusunun tətbiqi üzrə Ümumi göstərişlər"in təsdiq edilməsi haqqında» qərarının tələblərinə əməl edilməsinə xüsusi diqqət yetirilməlidir.

Nizamnamə fondunun maddi dəyərlilər və qeyri-maddi aktivlərlə formalaşdığı hallarda bu əməliyyatların düzgünlüyünə əmin olmaq məqsədilə müvafiq bölmələrin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.

Nizamnamə kapitalının həcminin artması və ya azalması şərtləri təhlil edilməlidir. Bunun üçün Tikinti təşkilatlarının ümumi yığıncağının qərarı tələb edilməli, artma və ya azalma şərtlərinin qanuna müvafiq olduğu qiymətləndirilməlidir. Nəzərə alınmalıdır ki, tikinti təşkilatlarının nizamnamə kapitalı onun tam ödənilməsindən sonra Mülki Məcəllədə və tikinti təşkilatlarının nizamnaməsində nəzərdə tutulmuş qaydada tikinti təşkilatlarının əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) təşkilata qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər.

Tikinti təşkilatlarının nizamnamə kapitalının tikinti təşkilatlarının əmlakı hesabına artırılması tikinti təşkilatlarının nizamnaməsində nəzərdə tutulmuş qaydada tikinti təşkilatlarının təşkilati-hüquqi formasından asılı olaraq ümumi yığıncağının və ya təsisçinin qərarı ilə həyata keçirilir. Belə qərar yalnız tikinti təşkilatlarının ötən il üçün mühasibat hesabatının göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının tikinti təşkilatlarının əmlakı hesabına artırılan miqdarı tikinti təşkilatlarının xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və tikinti təşkilatlarının ehtiyat fondu arasındakı fərqi keçməməlidir. Tikinti təşkilatlarının nizamnamə kapitalı bu cür artırıldıqda, iştirakçıların sərmayələrinin məbləği dəyişmədən bütün iştirakçıların sərmayələrinin nominal dəyəri proporsional surətdə artır.

Nəzərə alınmalıdır ki, tikinti təşkilatlarının nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər. Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir. Nizamnamə kapitalının azaldılması haqqında qərar qəbul edildikdən sonra nizamnamədə və müəyyən edilmiş müddətdə cəmiyyət özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməlidir. Məlumat alındığı gündən bir ay müddətində tikinti təşkilatlarının kreditorlarının Tikinti təşkilatlarının müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, çəkdikləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Ona görə də nizamnamə kapitalının azaldılması hallarında kreditorlara bildirişlərin göndərilib-göndərilmədiyi müəyyən edilməli, onların tələbləri öyrənilməli, tələblərin nə dərəcədə ödənildiyi təhlil edilməlidir.

Auditor tikinti təşkilatlarının ümumi yığıncağının protokollarından və direktorlar şurasının (müşahidə şurasının) qərarlarından çıxarışlarla tanış olmalı, müvafiq bölmələrin auditi zamanı bu qərarların icrası vəziyyətini araşdırmalıdır.

Nizamnamədə və ya nizamnamə kapitalında qeydə alınmış faktın yuxarıda göstərilən hər bir sonrakı faktik dəyişiklikləri olarsa, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 130.4-cü maddəsinə uyğun olaraq, faktiki dəyişikliyin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməsini auditor yoxlamalıdır. Nizamnamədə və nizamnamə kapitalında dəyişikliklər yalnız hüquqi şəxslərin reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## 2. Maliyyə-mühasibat hesabatları və mühasibat uçotu

Təşkilatda hesabatlılığın və mühasibat uçotunun 29 iyun 2004-cü il tarixili №-IIQ saylı «Mühasibat uçotu haqqında» Qanuna və Azərbaycan Respublikası Maliyyə Nazirliyinin təsdiq etdiyi qaydalara müvafiq olaraq aparılması yoxlanmalıdır.

Qanunvericiliyə uyğun olaraq, mühasibat balansı, mənfəətin və zərərin hesabatı, auditlə əhatə edilən dövrün sonuna aktivlərin, passivlərin, gəlirlərin, xərclərin, hesabların qalığını əks etdirən dövriyyə cədvəli alınmalıdır.

Mühasibat balansının, mənfəətin və zərərin hesabatının dövriyyə cədvəlinə əsasən düzgün doldurulduğuna əmin olduqdan sonra məbləğlərin riyazi düzgünlüyü yoxlanılmalı və baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edildiyi və mövcud qanunvericiliyə uyğunluğu yoxlanılmalıdır.

Dövriyyə cədvəlinə əsasən hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar bölmələr üzrə qruplaşdırılmalı, daha çox maddi əhəmiyyətli (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan) məbləğlər müəyyənləşdirilməlidir.

Dövriyyə cədvəlində əhəmiyyətli olmayan (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan) məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Mərkəzi Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə düzgün qiymətləndirilərək hesabatlarda əks etdirildiyi yoxlanılmalıdır.

Keçən ilin hesabatları ilə bu ilin hesabatları müqayisə edilməli, hesabatlarda eyni tarixə (ilin sonuna və növbəti ilin əvvəlinə) balans hesabları üzrə göstəricilərin eyniliyi yoxlanılmalıdır. Ciddi kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Bütün bölmələr üzrə audit yekunlaşdırıldıqdan sonra audit prosedurları nəticəsində əldə edilmiş məlumatlar və lazımi düzəlişlər yekun dövriyyə cədvəlinə daxil edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə maddi əhəmiyyətli təsir göstərdiyi müəyyənləşdirilməli və bu barədə fikirlər auditor rəyində ifadə edilməlidir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## 3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının, hesablaşmaların auditi

Təşkilatın kassa əməliyyatlarının, bank əməliyyatlarının, xarici valyutada aparılan bank əməliyyatları, bankda olan xüsusi hesablarının, digər pul vəsaitlərinin, pul sənədlərinin, hesablaşma və kredit əməliyyatlarının, malsatan və podratçı təşkilatlarla, alıcı və sifarişçilərlə, təhtəlhesab şəxslərlə hesablaşmalarının auditi, ttikinti təşkilatının təşkilati-hüquqi formasından asılı olaraq, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərdə audit aparılmasına dair proqram»a, «Məhdud məsuliyyətli cəmiyyətlərdə audit aparılmasına dair proqram»a və digər normativ sənədlərə müvafiq olaraq aparılmalıdır.

## 4. Vergilər üzrə hesablaşmalar

Tikinti təşkilatlarında audit aparılarkən nəzərə alınmalıdır ki, Azərbaycan respublikası Vergilər Məcəlləsinin müvafiq maddələrinə əsasən:

- mənzillərin təmiri və tikintisi (maddə16) nağd pul hesablaşmalarını nəzarət-kassa aparatları vasitəsilə həyata keçirmək tələb olunmur;

-tikinti və təmir meydançaları, quraşdırma və ya yığma obyektləri, həmçinin bu cür obyektlərlə bağlı nəzarət fəaliyyəti göstərilməsi daimi nümayəndəlik hesab edilir ( maddə 19.2.5);

- tikinti və ya quraşdırma, yaxud bunlarla bağlı xidmətlərin və işlərin vergi ili ərzində başa çatdırılmadığı halda bağlanmış müqavilələr, habelə göstərilən işlərin başlandığı gündən 6 aydan çox müddət ərzində başa çatdırılmasını nəzərdə tutan müqavilələr "Uzunmüddətli müqavilə" hesab edilir (Maddə 138.1.).

Vergi ödəyicisi hesablama metodu ilə uçot aparırsa, uzun müddətli müqavilələrlə bağlı gəlir və bu gəlirdən çıxılan məbləğlər vergi ili ərzində müqavilələrin yerinə yetirilməsinin faktiki həcmlərinə uyğun olaraq uçota alınır (Maddə 138.2.).

Müqavilənin yerinə yetirilməsinin faktiki həcmi vergi ili ərzində çəkilmiş xərcin həmin müqavilədə nəzərdə tutulan ümumi qiymətləndirilən xərclərlə müqayisə edilməsi yolu ilə müəyyənləşdirilir(Maddə 138.3.).

Vergi Məcəlləsinin 138-ci maddəsinin müddəaları mənzil tikintisi fəaliyyəti üzrə sadələşdirilmiş vergi ödəyicilərinə şamil edilmir(Maddə 138.4.).

Aksizli malların istehsalçıları və mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər ƏDV-nin ödəyiciləri sayılır (Maddə 154.6.).

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ƏDV-nin məqsədləri üçün vergi tutulan minimum dövriyyə bu Məcəllənin 219.1.2-ci maddəsində müəyyən edilmiş vergitutma obyektinin hər kvadrat metri üçün 225 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır (Maddə 159.9.).

Vergi məqsədləri üçün işlərin görüldüyü və ya xidmətlərin göstərildiyi yer, tikinti, tikinti-quraşdırma, təmir, bərpa işləri icra olunduğu yer sayılır (Maddə 168.1.).

Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı yaşayış fondlarının həyətyanı sahələri və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar üzrə torpaq sahəsinin hər 100 kvadratmetrinə görə aşağıdakı cədvəldə göstərilən dərəcələr tətbiq olunur (Maddə 206.3.) :

| **Yaşayış məntəqələri** | **Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət-məişət xidməti və digər xüsusi təyinatlı torpaqlar *(manatla)*** | **Yaşayış fondlarının, həyətyanı sahələrin torpaqları və vətəndaşların bağ sahələrinin tutduğu torpaqlar *(manatla)*** |
|---|---|---|
| Bakı | 10 | 0,6 |
| Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu | 8 | 0,5 |
| Digər şəhərlər (rayon tabeliyində olan şəhərlər istisna olmaqla), rayon mərkəzləri | 4 | 0,3 |
| Rayon tabeliyində olan şəhərlərdə, qəsəbələrdə və kəndlərdə (Bakı və Sumqayıt şəhərlərinin, habelə Abşeron rayonunun qəsəbə və kəndləri istisna olmaqla) | 2 | 0,1 |

Audit zamanı xüsusən nəzərə alınmalıdır ki, mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər (mülkiyyətində və ya icarəsində olan, habelə məqsədli şəkildə ayrılan ərazidə (torpaq sahəsində)

özünəməxsus və ya cəlb edilən vəsait hesabına əhalinin fərdi (şəxsi) ehtiyaclarını ödəmək və ya kommersiya məqsədləri üçün öz gücü ilə və yaxud müvafiq ixtisaslı peşəkar sifarişçi və ya podratçı cəlb etməklə bina tikdirən, habelə bu tikintinin və ya başa çatmış obyektin mülkiyyətçisi olan hüquqi və ya fiziki şəxslər) sadələşdirilmiş verginin ödəyiciləri sayılırlar (Maddə 218.1.1.2.).

Mənzil tikintisi fəaliyyətini həyata keçirən şəxslər üçün zirzəmilər, mərtəbələr və çardaqlar daxil olmaqla tikilən binanın ümumi sahəsi (dövlətə ayrılan hissə, dövlət büdcəsi, büdcədənkənar fondlar, dövlət zəmanəti və dövlətə ayrılan yardımlar hesabına tikilən yaşayış sahəsi, başqa tikintilərlə təmasda olmayan ayrıca tikilən fərdi və ya şəxsi yaşayış və ya bağ evlərinin, yaxud tikililərinin sahəsi istisna olmaqla) vergitutma obyektidir (Maddə 218.1.2.).

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən sadələşdirilmiş vergi bu Məcəllənin 219.1.2-ci maddəsində müəyyən edilmiş vergitutma obyektinin hər kvadratmetri üçün 10 manat məbləğinə ölkənin şəhər və rayonlarının ərazilərinin zonalar üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi əmsallar tətbiq edilməklə hesablanır (Maddə 220.8.).

Mənzil tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər hər bir tikinti sahəsi üçün sadələşdirilmiş vergini bu Məcəllənin 220.8-ci maddəsində nəzərdə tutulmuş qaydada tikintinin təməl işlərinin başlandığı rübdə hesablayır və həmin rübdən sonrakı ayın 20-dən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi forma üzrə vergi orqanına bəyannamə təqdim edirlər (Maddə 221.5.).

Vergi Məcəlləsinin 218.1.1.2-ci maddəsində göstərilən vergi ödəyiciləri vergi ödəyicisi kimi uçota alındıqları yerdən asılı olmayaraq, mənzil tikintisi fəaliyyətinin faktiki həyata keçirildiyi (mənzil tikintisi meydançasının faktiki yerləşdiyi) ərazi (zona) üçün Məcəllənin 220.8-ci maddəsinə uyğun müəyyən edilən sadələşdirilmiş vergini ödəyirlər.

Həmin maddədə nəzərdə tutulmuş bəyannamə vergi orqanına təqdim edildikdən sonra hesablanmış vergi bərabər hissələrlə 12,5 faiz həcmində hər rübdən sonrakı ayın 20-dən gec olmayaraq öhdəlik tam yerinə yetirilənədək dövlət büdcəsinə ödənilir.

Vergi Məcəlləsinin 218.1.1-ci maddəsində göstərilən şəxslər digər fəaliyyət növü üzrə əldə etdikləri gəlirlərin və xərclərin uçotunu hər bir fəaliyyət növü üzrə ayrılıqda aparırlar. Həmin şəxslərin bu fəaliyyət növləri üzrə mənfəəti (zərəri) digər fəaliyyət növündən əldə edilmiş mənfəətə (zərərə) aid edilmir. (Maddə 221.6.).

Tikinti təşkilatlarının fəaliyyət növündən asılı olaraq, hesablanan və ödənilən vergilər barədə məlumat alınmalı, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirildiyinə və hər bir vergi növü üzrə analitik uçotun aparılmasının düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Audit planlaşdırılarkən, auditor tikinti təşkilatlarının gəlirin və xərcin müəyyənləşdirilməsinin hansı metodundan (kassa və ya hesablama metodlarından) istifadə etməsi, ödədiyi bütün vergilər barədə dəqiq məlumatlar toplamalı və hər bir vergi növünün necə yoxlanılacağını müəyyənləşdirməlidir.

Tikinti təşkilatlarının ödədiyi vergilər üzrə hesablamaların düzgünlüyünü müəyyən etmək üçün testlər tərtib edilməlidir.

Hər bir verginin hesabat dövründəki dövriyyəsi (ilin əvvəlinə qalıq, hesablamalar və ödənişlər, ilin sonuna qalıq əks etdirilməklə) araşdırılmalı və mühasibat uçotunun məlumatları ilə tutuşdurulmalıdır. Hər bir vergi üzrə riyazi hesablamaların düzgünlüyü yoxlanılmalıdır.

Auditor dövlət vergi orqanları tərəfindən hesabat dövründə aparılmış yoxlamaların (əgər hesabat dövründə aparılmamışdırsa, sonuncu yoxlamanın) nəticələri barədə aktla tanış olmalı, göstərilmiş nöqsan və çatışmazlıqların hesabatlarda necə əks etdirildiyi və aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməlidir.

Vergi orqanları ilə yazışmalar və tərtib edilmiş üzləşmə aktları ilə tanış olmaq, vergi borclarının qarşılıqlı əvəzləşdirilmə hallarına xüsusi diqqət yetirmək, vergilərin hesabat göstəricilərinə uyğun olduğuna əmin olmaq lazımdır.

Hesablanmış vergilərin mühasibat uçotunda mövcud qanunvericiliyə uyğun şəkildə əks etdirildiyi, vergi dərəcələrinin düzgün tətbiq edildiyi yoxlanılmalıdır.

Daha çox əhəmiyyətli olan vergi öhdəlikləri üzrə nəzarət testləri hazırlanmalıdır.

Əlavə dəyər vergisi (ƏDV) üzrə təqdim edilmiş və ya alınmış vergi hesab-fakturalarının mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyi, aylıq bəyannamələrin vaxtında və düzgün təqdim edildiyi yoxlanılmalıdır.

Satış əməliyyatlarının auditi zamanı tətbiq edilmiş prosedurların nəticələrindən ƏDV və mənfəət vergisinin auditi zamanı istifadə edilməlidir.

Vergilər hesablanarkən tətbiq edilən güzəştlərin mövcud qanunvericiliyə əsasən həyata keçirildiyi yoxlanılmalıdır.

Baş kitaba və ilkin sənədlərə əsasən, aylar üzrə vergilərin hesablanması və ödənilməsi haqqında məlumatlar əldə edilməli, vergilər üzrə vaxtı keçmiş və ya gecikdirilmiş ödənişlərin olmadığı yəqinləşdirilməlidir.

Vaxtı keçmiş, gecikdirilmiş ödənişlər, hesabatlarda düzgün əks etdirilməmiş vergilər üzrə yarana biləcək cərimə və maliyyə sanksiyalarının Tikinti təşkilatlarının maliyyə vəziyyətinə təsiri ehtimalı araşdırılmalı və bu barədə rəhbərliyə məlumat verilməlidir.

## 5. Digər hesablaşma əməliyyatlarının auditi

Sığorta ilə bağlı əməliyyatların analitik uçotu üzrə qalıqlar əldə edilməlidir.

Daha çox əhəmiyyətli sayılan əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə yolu ilə öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır. Xərclərin tərkibində olan sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə tutuşdurulmalıdır.

Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti ilə və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli, bu hesablaşmaların düzgün aparıldığı yoxlanılmalıdır.

Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtləri öyrənilməli, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğun olduğu və hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş mənfəətin və ya zərərin hesabatlarda necə əks etdirildiyi yoxlanılmalı və onların maliyyə hesabatlarında düzgün əks etdirilib-etdirilmədiyi müəyyənləşdirilməlidir.

## 6. Kreditlər və borclar üzrə əməliyyatların auditi

Alınmış kreditlərin və borcların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kredit və borc müqavilələrinin şərtləri öyrənilməli, onların qaytarılması vaxtının uzadılması və ya vaxtı ötmüş kimi qiymətləndirilməsi şərtlərinə diqqət yetirilməlidir.

Kredit və borclardan istifadəyə görə faizlərin hesablanmasının və hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalığın hesabatda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kredit və borclar üzrə qalıqların audit dövrünün sonuna hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə bu məbləğin arayış ilə təsdiq edilməsi digər tərəfdən tələb edilməlidir.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyi, bu növ maliyyələşmələrdən məqsədyönlü və təyinatı üzrə istifadə edildiyi və düzgünlüyü yoxlanılmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

Alınmış ktedit və borc ödənilmədən (buna maliyyə imkanları olduğu hallarda) növbəti kreditin alınması hallarının olub-olmamasına diqqət yetirilməlidir. Çünki belə hallar çirkli pullarla bağlı əməliyyatları şərtləndirə bilər.

**7. Əsas vəsaitlər və qeyri-maddi aktivlər**

Hazırlanmış mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar alınmalıdır.

ƏV və QMA-nın hesabat dövrünün sonuna analitik uçot məlumatları əldə edilməli, sintetik hesabın qalıqları ilə tutuşdurulmalı, kənarlaşmalar müəyyən edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

Əsas vəsaitlərin üzərində daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparılması və nəticələrinin mühasibat uçotunda düzgün əks etdirilməsi yoxlanılmalıdır. İnventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktları tələb edilməlidir.

ƏV və QMA-nın alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və mühasibat uçotunda əks etdirilməsi yoxlanılmalıdır. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə qiymət verilməlidir. ƏV və QMA-nın alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin onların ilkin dəyərinə həqiqətən daxil edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

ƏV və QMA xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyi və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyi yoxlanılmalıdır.

Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədlər yoxlanılmalıdır.

Əsas vəsaitlərin alınması zamanı malgöndərən və podratçı təşkilatlara ödənilmiş ƏDV-nin ƏV-nin ilkin dəyərinə daxil edilmədiyi, 68 saylı balans hesabına aid edildiyi yoxlanılmalıdır.

ƏV və QMA-nın alınması, quraşdırılması və sazlanması üzrə bütün xərclərin əvvəlcə kapital qoyuluşları hesabında yığıldığı, ƏV və QMA istifadəyə verildikdə isə əsas vəsaitlər hesabına keçirildiyi yoxlanılmalıdır.

Mənfəət vergisinin məqsədləri üçün istehsal təyinatlı kapital qoyuluşlarına tətbiq edilən amortizasiya normalarının düzgünlüyü yoxlanılmalıdır. Bu məlumatlardan mənfəət vergisinin auditi zamanı istifadə edilməlidir.

ƏV və QMA-nın kateqoriyalar üzrə düzgün qruplaşdırıldığı, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının düzgünlüyü, bu normaların mövcud qanunvericiliyin tələbləri həddində olduğu yoxlanılmalıdır. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablandığının düzgünlüyü yoxlanılmalıdır.

ƏV və QMA-nın xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyi, əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyi yoxlanılmalıdır.

Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalı, lizinq müqaviləsinin şərtləri öyrənilməlidir.

Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyi, görülmüş təmir işlərinin xarakteri və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığı yoxlanılmaıdır. Müəyyən edilmiş normalardan artıq olan təmir xərclərinin hər bir kateqoriyaya dair əsas vəsaitlərin balans üzrə qalıq dəyərinə düzgün aid edildiyi yoxlanılmalıdır.

İstehsal prosesi ilə bağlı olmayan ƏV və QMA-nın amortizasiya ayırmalarının satılmış malların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) gəlirdən çıxılan xərclərin tərkibinə aid edilmədiyi və təyinatı üzrə xərclərdə əks etdirildiyi yoxlanılmalıdır.

Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirilməli və bu zaman vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi yoxlanılmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## 8.Mal-material dəyərlilərinin və istehsal ehtiyatlarının auditi

İlin sonuna mühasibat hesabatlarinda əks etdirilmiş ehtiyatların (xammal və materialların, azqiymətli və tezköhnələn əşyaların, malların, ticarət əlavəsinin) qalığı sifarişçinin analitik uçot məlumatları ilə tutuşdurulmalıdır.

Uçot siyasətinə əsasən ehtiyatların qiymətləndirilməsində hansı (LIFO, FIFO və ya digər) metoddan istifadə edildiyi müəyyən edilməli və hesabat ilində uçot siyasətinin dəyişdirilmədiyi yəqinləşdirilməlidir.

MMD və İE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiyanın aparılması yoxlanılmalı və inventarizasiya aktları tələb edilməlidir. İnventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyi yoxlanılmalıdır. MMD və İE-nin subhesablar üzrə düzgün əks etdirildiyi yəqinləşdirilməlidir.

MMD və İE mədaxil edilərkən faktiki maya dəyərinin düzgün müəyyənləşdirildiyinə qiymət vermək məqsədilə onların əldə edilməsinə çəkilən xərclərin faktiki maya dəyərinə aid edilməsinin düzgünlüyü ilkin sənədlərdən istifadə edilərək seçmə yolu ilə yoxlanılmalıdır.

Sadələşdirilmiş vergi ödəyicisi olan tikinti təşkilatlarında alınmış MMD və İE-nin dəyərinə ƏDV-nin əlavə edilib-edilməməsi yoxlanılmalıdır. MMD və İE-nin anbarlarda saxlanması şəraiti öyrənilməli və bunun qəbul edilmiş tələblərə uyğunluğuna, anbar uçotunun, dəyərlilərin müəssisədaxili hərəkətinin necə təşkil edildiyinə və düzgün sənədləşdirildiyinə qiymət verilməlidir.

Maddi ehtiyatların istifadəsinin təsdiq edilmiş texnoloji normalara uyğunluğu yoxlanılmalı, fərqlər aşkar edilərsə, səbəbləri araşdırılmalıdır. Bu məlumatlardan istehsal xərcləri və maya dəyərinin auditi zamanı istifadə edilməlidir.

MMD və İE-nin əskik (və ya artıq) gəlməsi, xarab olması hallarının mövcudluğu, belə hallar baş vermişdirsə, təbii itki normaları və müəssisə tərəfindən görülmüş tədbirlər barədə məlumatlar alınmalıdır.

MMD və İE-yə görə tam maddi məsuliyyət barədə maddi məsul şəxslərlə bağlanmış müqavilələrin mövcudluğu yoxlanılmalıdır.

İstifadə edilməyən və ya artıq olan maddi dəyərlilərin satışının mühasibat uçotunda, mənfəətin və zərərin hesabatında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Azqiymətli və tezköhnələn əşyaların istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyü yoxlanılmalıdır.

Uçot siyasətinə əsasən, istehsal edilmiş hazır məhsulun hesabatlarda faktiki maya dəyəri ilə və ya normativ (plan) istehsal maya dəyəri ilə əks etdirildiyi müəyyənləşdirilməli və onların yükləmə anında mühasibat uçotunda necə əks etdirildiyi öyrənilməli, bu prosedurların nəticələrindən satış əməliyyatlarının, sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Tikinti müəssisələrində malların uçotunun alınma qiyməti və ya satış qiyməti ilə aparıldığı müəyyənləşdirilməlidir. Malların uçotu satış qiyməti ilə aparılarkən və onlar topdan satılarkən endirimlərin (və ya əlavələrin) tətbiq edilməsi hallarına xüsusi diqqət yetirilməli və bu qiymətlərin mövcud bazar qiymətlərinə uyğunluğu yəqinləşdirilməlidir. MMD və İE-nin yenidən qiymətləndirilməsinin səbəb və nəticələri, onların cari bazar qiymətlərinə uyğunluğu araşdırılmalı və qiymətləndirmənin nəticələrinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

MMD və İE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiyanın aparılması yoxlanılmalı və inventarizasiya aktları tələb edilməlidir.

İnventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyi və mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

İnventarizasiya aparılmayıbsa və ya inventarizasiya aktlarında nöqsanlar aşkar edilərsə, seçmə yolu ilə daha böyük maddi əhəmiyyət kəsb edən MMD və İE-nin həqiqi mövcudluğu maddi məsul şəxslərin iştirakı ilə yoxlanılmalı və nəticələri hesabatlarla tutuşdurularaq aktlaşdırılmalıdır.

## 9.Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmalar

Tikinti təşkilatlarında audit zamanı, ilk növbədə əmək haqqının hesablanılması üçün hansı metodlardan istifadə olunması müəyyənləşdirilməlidir. İşəmuzd əmək haqqı hesablanarkən, əmək haqqının hesablandığı işlərin, işlərin qəbulu və təhvili aktlarına, habelə texniki hesabatlara uyğunluğu yoxlanmalıdır. İşçilərin orta siyahı sayı və kateqoriyaları, müəssisədə tətbiq edilən əmək haqqı sistemi və formaları barədə məlumat alınmalıdır. İşçtlərin orta siyahı sayının görülmüş işlərə yetərlilil barədə məlumat əldə olunması zəruridir.

İşçilərlə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğu yoxlanılmalıdır.

Əmək haqqının, məzuniyyətlərin, sosial təyinatlı ödənişlərin hesablanmasının düzgünlüyü seçmə yolu ilə yoxlanılmalıdır.

Əmək haqqından tutulmaların (gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna tutulma, icra vərəqələri üzrə tutulma, borclar və s.) müvafiq qanunvericilik aktlarının, normativ və icra sənədlərinin tələblərinə uyğunluğu seçmə yolu ilə yoxlanılmalıdır. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin düzgün tətbiq edildiyi yoxlanılmalıdır.

Deponentləşdirilmiş əmək haqqının uçotunun düzgünlüyü yoxlanılmalı, analitik uçotun aparılması yəqinləşdirilməli və bu məlumatlar kassa əməliyyatları və ödəniş cədvəlləri ilə tutuşdurulmalıdır. Bu prosedurlar nəticəsində kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının riyazi düzgünlüyü yoxlanılmalıdır.

Əmək haqqı üzrə hesablamaların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə tərtib edilmiş mühasibat yazılışlarının düzgünlüyü, əmək haqqı üzrə xərclərin istehsal xərcləri maddələrinə düzgün aid edildiyi yoxlanılmalıdır.

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesablama cədvəli tərtib edilməli, bu cədvələ əsasən gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və tutulmaların məbləğləri hesablanmalıdır.

Bu prosedurlar nəticəsində əldə edilmiş məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə edilməlidir.

## 10. İstehsal xərclərinin auditi

Tikinti təşkilatlarında audit aparılarkən xysusi diqqət yetirilməlidir ki, digər sahələrdən fərqli olaraq material və xammal, tikinti üzrə mövcud olan texniki normalara tam müvafiq olaraq silinməlidir. Bu zaman material və xammalların silinməsi üçün mühəndis-texniki işçilərin müvafiq texniki hesabatları tərtib və təsdiq edilməlidir. Xərclərin tərkibinə aid edilmiş məsrəflərin siyahısı və məbləğlərini əks etdirən məlumat əldə edilməlidir.

Məhsulun (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilən xərclər aşağıdakı elementlər üzrə qruplaşdırılmalıdır:

- material xərcləri;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;

- sair xərclər.

Materialların təsdiq edilmiş məsrəf normaları tələb edilməli, bunların istehsala silinmə prosesi öyrənilməlidir.

İstehsal edilmiş məhsulun həcmi ilə faktiki silinmiş materialların həcmi müqayisə edilməli və düzgünlüyü qiymətləndirilməlidir.

Materialların artıq işlənməsi halları aşkar edilərsə, səbəbləri araşdırılmalı və kənarlaşmaların təsdiq edilmiş normalara uyğunluğu yoxlanılmalıdır.

Çatışmayan və ya itirilmiş maddi ehtiyatların təbii itki normaları çərçivəsində olduğu dəqiqləşdirilməlidir.

İstehsala aid olmayan digər materialların silinərək gəlirdən çıxılan xərclərin tərkibinə aid edildiyi hallarının mövcudluğu araşdırılmalıdır.

Zay məhsulun uçotunun necə aparıldığı yoxlanılmalı, istehsal maya dəyərinə aid edilən zay məhsulun texnoloji normalar çərçivəsində olduğu yəqinləşdirilməlidir.

İstehsal ehtiyatları və mallar bölməsində istifadə edilmiş audit prosedurları nəticəsində əldə olunmuş məlumatlardan istifadə edilməlidir.

İstehsal dövrünün müddətini, mərhələlərini və məhsulun həcmini nəzərə alaraq, bitməmiş istehsalın hesabat dövrünün sonuna, uçot siyasətinə uyğun olaraq, düzgün qiymətləndirildiyi və inventarizasiyasının aparıldığı yoxlanılmalıdır.

İstehsal xüsusiyyətlərindən asılı olaraq, auditin aparılması proqramında müəyyənləşdirilmiş yoxlama metoduna əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyü yoxlanılmalıdır.

İstehsal edilən hər bir növ məhsula görə tərtib olunmuş xərclərin kalkulyasiyası alınmalı və onların plan maya dəyəri müəyyənləşdirilməlidir.

Kalkulyasiyalardan istifadə edərək, əmək haqqının xərclərin tərkibinə düzgün silindiyi yoxlanılmalıdır.

Əldə edilmiş məlumatlardan əmək haqqı və sosial ehtiyaclara ayırmaların auditi zamanı istifadə edilməlidir.

Qaimə xərclərinin, ümumtəsərrüfat və ümumistehsal xərclərinin, köməkçi istehsal xərclərinin, qəbul edilmiş uçot siyasətinə uyğun olaraq, gəlirdən çıxılan xərclərin tərkibinə aid edildiyi yoxlanılmalıdır.

Amortizasiya xərclərinin istehsal prosesində həqiqətən istifadə edilən əsas vəsaitlərə aid olduğu dəqiqləşdirilməlidir.

Tətbiq edilən audit prosedurları nəticəsində əldə edilmiş məlumatlardan əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsində istifadə edilməlidir.

Sair xərclərin tərkibində daha çox maddi əhəmiyyəti olan xərclərin düzgünlüyü ilkin sənədlərlə tutuşdurulmalıdır.

Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədlər yoxlanılmalı və xidmətləri göstərən təşkilatlarla bağlanmış üzləşmə aktları tələb edilməlidir. Əldə edilən məlumatlardan alıcı və sifarişçi təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

İşçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olduğuna əmin olmaq məqsədilə ezamiyyə vərəqələri seçmə yolu ilə yoxlanılmalıdır. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu məqsədlə istifadə edilməlidir.

Gələcək dövrün xərclərinin uçotunun düzgünlüyü və bu xərclərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kommersiya xərclərinin tərkibi təhlil edilməli və onların aidiyyəti üzrə əks etdirildiyi yoxlanılmalıdır.

Xidmətedici istehsalat və təsərrufatlar üzrə çəkilmiş xərclər seçmə yolu ilə yoxlanılmalı və onların mühasibat hesabatlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mənfəət və zərərin hesabatında xərclərin tərkibinin düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Bu bölmədə istifadə edilən audit prosedurlarının nəticələrindən maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyü yoxlanılarkən istifadə edilməlidir.

### 11. Kapital qoyuluşları və uzunmüddətli investisiyalar

Maliyyə hesabatları və dövriyyə-qalıq cədvəlinə əsasən qalıqlar müəyyənləşdirilməlidir.

Uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparıldığı və riyazi düzgünlüyü yoxlanılmalıdır.

Kənar təşkilatlardan alınmış qiymətli kağızların həqiqətən uzunmüddətli qiymətli kağızlar olduğu yoxlanılmalıdır.

Kapital qoyuluşlarının hansı vəsaitlər hesabına və nə məqsədlə həyata keçirildiyi araşdırılmalıdır.

Kapital qoyuluşuna aid edilmiş xərclərin qanuniliyi və mühasibat uçotunda düzgün əks etdirildiyi ilkin sənədlərlə yoxlanılmalıdır. Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılmalı olduğu nəzərə alınmalıdır. Bu məqsədlə yerinə yetirilən prosedurların nəticələri əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsindəki prosedurların nəticələri ilə tutuşdurulmalıdır.

Başa çatmamış kapital qoyuluşlarının dəyərinin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalı, kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Vergiqoyma məqsədilə mənfəət vergisi üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrinə əsasən, istehsal təyinatlı kapital qoyuluşlarına hesablanmış amortizasiya ayırmalarının düzgünlüyü yoxlanılmalıdır.

Həyata keçirilmiş kapital qoyuluşlarının nə dərəcədə səmərəli olduğu təhlil edilməlidir.

### 12. Malların (iş və xidmətlərin) satışı

Maliyyə hesabatları (gəlirlər və xərclər barədə hesabat) və dövriyyə-qalıq cədvəli üzrə məlumatlar əldə edilməlidir.

Uçot siyasətinə və qəbul edilmiş uçot prinsiplərinə əsasən, satış əməliyyatlarının hansı metodla hesablandığı araşdırılmalı və hesabat dövrü ərzində uçot siyasətinin dəyişdirilmədiyi yəqinləşdirilməlidir.

İstehsal edilən malların çeşidlər üzrə siyahısı alınmalı, istehsal xərcləri və maya dəyəri bölməsində tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.

Satışla əlaqədar olan müqavilələrin mövcudluğu yoxlanılmalı və şərtləri öyrənilməlidir. Müqavilə qiyməti və ya razılaşma protokollarının mövcudluğu araşdırılmalıdır.

Satış qiymətlərinin müqavilənin şərtlərinə uyğun (yüklənmə, daşınma, gömrük rüsumları və s. xərclər əlavə edilməklə) müəyyən edildiyi yoxlanılmalıdır.

İstehsal edilmiş məhsulun sərbəst buraxılış qiyməti ilə və ya dövlət tərəfindən tənzimlənən qiymətlərlə satıldığı araşdırılmalıdır.

Satışla əlaqədar olan ilkin mühasibat sənədlərinin (qaimə, vergi hesab-fakturaları) düzgün tərtib edildiyi yoxlanılmalıdır.

Tətbiq edilmiş prosedurların nəticələrindən sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməli və nəticələrlə tutuşdurulmalıdır. Kənarlaşmalar aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

Maliyyə nəticələrinə təsir göstərən sair satış əməliyyatları və satışdankənar əməliyyatlar üzrə gəlirlər araşdırılmalı, onların mövcud mühasibat uçotu prinsiplərinə uyğun əks etdirildiyi yoxlanılmalıdır.

Aşağıdakı gəlir və xərclərə xüsusi diqqət yetirilməlidir:

- xarici valyutada aparılmış əməliyyatların məzənnə fərqlərindən gəlirlər və xərclər;
- alınmış cərimə və peniyalar;
- əmlakın icarəyə verilməsindən gəlirlər və xərclər;
- birgə fəaliyyətdən gəlirlər və xərclər;

- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaric olmasından gəlirlər və xərclər.

Sair satış üzrə əldə edilmiş gəlirlərin düzgünlüyünə əmin olmaq məqsədilə hesabat göstəriciləri müvafiq bölmələrdə aparılmış audit prosedurlarının nəticələri ilə üzləşdirilməli, bu növ satış əməliyyatlarının hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mallarin satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) zamanı xüsusi razılıq (lisenziya) tələb olunan halların mövcud olub-olmadığına diqqət yetirilməlidir.

Satış əməliyyatları üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyü, gəlirin maliyyə nəticələri barədə hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

## 11. Mənfəət (zərər), fondlar və ehtiyatlar

Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində daxilolma, il ərzində xaricolma və ilin sonuna qalığı əks etdirməklə, hesabat dövrü ərzində balans hesabları üzrə dövriyyə-qalıq cədvəli tərtib edilməli və bu məlumatlar baş kitabın məlumatları ilə tutuşdurulmalıdır.

Aşağıdakı balans hesabları araşdırılmalıdır:

- ehtiyat kapitalı;
- əlavə kapital;
- keçmiş illərin bölüşdürülməmiş mənfəəti;
- keçmiş illərin ödənilməmiş zərəri;
- xüsusi fondlar və ehtiyatlar.

Hesabat dövrü ərzində Tikinti təşkilatlarının ümumi yığıncağının protokolları, direktorlar şurasının (müşahidə şurasının) qərarlarının surəti tələb edilməli, qəbul edilmiş qərarların hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mənfəətin bölüşdürülməsinin auditi zamanı nəzərə alınmalıdır ki, Tikinti təşkilatlarının aşağıdakı hallarda mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edə bilməz:

- əgər qərar qəbul edildiyi anda cəmiyyət müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə;
- əgər qərar qəbul edildiyi anda tikinti təşkilatlarının xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa.

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz alınması və ya əvəzsiz verilməsi halları araşdırılmalı və onların mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Nizamnaməyə və uçot siyasətinə əsasən xüsusi təyinatlı fondların düzgün yaradıldığı yoxlanılmalıdır. Fondlar hesabına xərclənmiş vəsaitlərin smetasına əlavə edilmiş ilkin sənədlərə əsasən çəkilmiş xərclərin nə dərəcədə əsaslı və məqsədəuyğun olduğu qiymətləndirilməlidir.

Hesabat dövrü zərərlə başa vurularsa, zərərin örtülməsi və mühasibat uçotunda düzgün əks etdirilməsi yoxlanılmalıdır.

Mənfəətin maliyyə və vergi uçotu üzrə müxtəlif olduğu hallar araşdırılmalı və düzgünlüyü yoxlanılmalıdır.

## 12. Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər

Audit nəticəsində düzgün sayılmış balans hesabatı və hesabata əlavələr tərtib edildikdən sonra daha çox əhəmiyyətli olan aşağıdakı göstəricilər müəyyənləşdirilməlidir:

- Cari likvidlik əmsalı (dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə nisbəti);
- Xalis dövriyyə kapitalı (dövriyyə vəsaitləri ilə qısamüddətli öhdəliklərin fərqi);
- Fərdilik əmsalı (fərdi kapitalın aktivlərin məbləğinə nisbəti);
- Maliyyə asılılığı əmsalı (ödəniləsi kapitalın (passivlərin) fərdi kapitala nisbəti);
- Fərdi kapitalın rentabelliyi (mənfəətin fərdi kapitala nisbəti);
- Səmərəlilik və rentabellik səviyyəsi;

• Daha çox əhəmiyyətli sayılan digər göstəricilər.

Bu göstəricilər keçən illərin nəticələrinin göstəriciləri ilə üzləşdirilməli və üzləşdirmə üçün müqayisə cədvəli tərtib edilməlidir. İqtisadi göstəricilərin aşağı düşməsi halları aşkar edilərsə, səbəbləri təhlil edilməli və rəhbərliyə məktubda açıqlanmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqları, bu nöqsan və çatışmazlıqların aradan qaldırılması barədə lazımi təklif və tövsiyələri, mühasibat uçotunun vəziyyətinə verilən qiymət barədə mülahizələrini auditor aktına və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

**Proqramı tərtib etdi: Azərbaycan Respublikası**
**Auditorlar Palatası sədrinin**
**elmi-metodik məsələlər üzrə müşaviri N.Talıbov**

***AS1DS 035/086–2007***
**Azərbaycan Respublikasının**
***Auditorlar Palatası Şurasının***
***2007-ci il 14 noyabr tarixli***
***184/3 saylı qərarı ilə təsdiq edilmişdir***

## AZƏRBAYCAN RESPUBLIKASINDA DÖVLƏT ƏMLAKININ IDARƏ EDILMƏSININ TƏKMILLƏŞDIRILMƏSI ÜZRƏ TƏDBIRLƏRIN HƏYATA KEÇIRILMƏSINƏ DAIR SAHƏVI AUDIT PROQRAMI

M Ü N D Ə R I C A T:

*1. Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası zamanı auditor xidmətindən istifadə*

*2. Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsində auditorun iştirakı*

*3. Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi ilə bağlı araşdırmalarda auditorun iştirakı*

*4. Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi və audit*

### 1. DÖVLƏT MÜƏSSISƏLƏRININ ÖZƏLLƏŞDIRMƏQABAĞI SAĞLAMLAŞDIRILMASI VƏ RESTRUKTURIZASIYASI ZAMANI AUDITOR XIDMƏTINDƏN ISTIFADƏ

Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası müəssisələrin fəaliyyətinin tam və ya qismən bərpası, yenidən qurulması, özəlləşdirməyə hazırlanması, iş yerlərinin açılması, müasir texnologiyaların və investisiyaların cəlb edilməsi, maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə əsaslı şəkildə dəyişdirilməni və təkmilləşdirilməni əhatə edən təşkilati idarəetmə, istehsal, texnoloжi, struktur, hüquqi və maliyyə tədbirləri kompleksidir.

Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası zamanı auditorun işindən istifadənin hüquqi əsası Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli «Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında» fərmanı ilə təsdiq edilmiş «Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası Qaydaları» ilə təsbit olunmuşdur. Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası tədbirlərinin tətbiqinin məqsədəuyğun olduğu müəssisələr üzrə həmin tədbirlərin daha əlverişli formasını müəyyən etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən 1 (bir) ay müddətində müəssisələrin təqdim etdikləri layihələrin, müəssisələrin iqtisadi göstəricilərinin və maliyyə-təsərrüfat fəaliyyətinin təhlili aparılır. Bu məqsədlə maliyyə məsləhətçiləri, auditor, ekspertlər və digər mütəxəssislər cəlb oluna bilər.

Dövlət müəssisələrinin özəlləşdirməqabağı sağlamlaşdırılması və restrukturizasiyası tədbirləri aşağıdakı formalarda həyata keçirilə bilər:

1. Müəssisənin əmlak kompleksinin strukturunun dəyişdirilməsi, o cümlədən strukturların bölünməsi, birləşdirilməsi və digər səmərəli formada yenidən təşkili;

2. Əsaslandırılmış layihələr əsasında müəssisədə hər hansı məhsulun (işin və xidmətin) istehsalının maliyyə cəhətdən dəstəklənməsi və ya müəssisəyə digər məqsədli maliyyə yardımlarının göstərilməsi;

3. Müəssisənin texnoloжi cəhətdən yenidən qurulması və avadanlıqların modernləşdirilməsi;

4. Müəssisənin fəaliyyət profilinin dəyişdirilməsi və ya genişləndirilməsi;

5. Müəssisənin borclarının restrukturizasiyası və silinməsinə (və ya dondurulmasına) dair təkliflərin verilməsi;

6. Müəssisənin idarəetmə strukturunun yeniləşdirilməsi və ya idarəetməyə kənar idarəçinin cəlb olunması.

Bu zaman nəzərə alınmalıdır ki:

- həmin layihələr müəssisələr tərəfindən tərtib olunur;
- layihələrin, müəssisələrin iqtisadi göstəricilərinin və maliyyə-təsərrüfat fəaliyyətinin təhlili Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən 1 (bir) ay müddətində aparılır;
- auditor layihələrin, müəssisələrin iqtisadi göstəricilərinin və maliyyə-təsərrüfat fəaliyyətinin auditini yox, təhlilini apara bilər.

Təhlil zamanı auditor:

1. Müəssisənin əmlak kompleksinin strukturunun dəyişdirilməsi, o cümlədən strukturların bölünməsi, birləşdirilməsi və digər səmərəli formada yenidən təşkilinin iqtisadi və hüquqi nöqteyi-nəzərdən ekspertizasını aparmalıdır;

2. Əsaslandırılmış layihələr əsasında müəssisədə hər hansı məhsulun (işin və xidmətin) istehsalının maliyyə cəhətdən dəstəklənməsi və ya müəssisəyə digər məqsədli maliyyə yardımlarının göstərilməsinin düzgün əsaslandırılmasını yoxlamalıdır;

3. Müəssisənin texnoloжi cəhətdən yenidən qurulması və avadanlıqların modernləşdirilməsinin və fəaliyyət profilinin dəyişdirilməsi və ya genişləndirilməsinin, müəssisənin idarəetmə strukturunun yeniləşdirilməsi və ya idarəetməyə kənar idarəçinin cəlb olunmasının texniki-iqtisadi əsaslandırılmasının düzgünlüyünə və müəssisənin borclarının restrukturizasiyası və silinməsinə (və ya dondurulmasına) dair verilmiş təkliflərin məqsədəmüvafiqliyinə əmin olmalıdır.

Müəssisələrin iqtisadi göstəricilərinin və maliyyə-təsərrüfat fəaliyyətinin təhlili aşağıdakı istiqamətlərdə aparıla bilər:

- Göstəricilərin dinamikasının müəyyənləşdirilməsi;
- Müəssisənin maliyyə vəziyyətinə təsir edən faktorların müəyyənləşdirilməsi;
- Maliyyə vəziyyətindəki kəmiyyət və keyfiyyət dəyişikliklərinin qiymətləndirilməsi;
- Müəyyən tarixə maliyyə vəziyyətinin qiymətləndirilməsi;

• Maliyyə vəziyyətinin dəyişməsi meyillərinin istiqamətlərinin müəyyənləşdirilməsi.

Təhlil zamanı müəssisənin ödəmə qabiliyyətliliyi, xüsusi dövriyyə vəsaitləri ilə təmin olunması, maliyyə sabitliyi, müstəqillik və maliyyələşmə əmsalları, likvidlik dərəcəsi, rentabelliyi, fondverimi müəyyənləşdirilməlidir. Bu göstəricilərin hər biri müəssisənin sağlamlaşdırılması və restrukturizasiyası ilə bağlı tədbirlərin müəyyənləşdirilməsində istifadə olunmalıdır.

Nəzərə alınmalıdır ki:

1) Müəssisənin ödəmə qabiliyyətliliyini aşağıdakı düsturla ifadə etmək olar:

$$D \geq Q+K$$

Burada:

D - debitor borcları;

Q - qısamüddətli kreditor (borclar);

K - kreditor borcları və sair passivlərdir.

2) Müəssisənin xüsusi dövriyyə vəsaitləri ilə təmini əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$Ə^T=X^D:A^D$$

Burada:

$Ə^T$ - təmin əmsalı;

$X^D$ - xüsusi dövriyyə vəsaiti vahidi;

$A^D$ - dövriyyə aktivləridir.

3) Müəssisənin maliyyə sabitliyi belə müəyyənləşdirilir:

• Əgər müəssisənin xüsusi dövriyyə vəsaitləri vahidi ilə qısamüddətli kreditlərin cəmi onun ehtiyatlarından çoxdursa, onda müəssisənin maliyyə sabitliyi mütləq sabitlik sayılır;

• Əgər xüsusi dövlət vəsaitləri vahidi ilə qısamüddətli kreditlərin cəmi ehtiyatlara bərabərdirsə, onda müəssisənin maliyyə sabitliyi normal sabitlik sayılır;

• Əgər xüsusi dövlət vəsaitləri vahidi, qısamüddətli kreditlər və maliyyə gərginliyini zəiflədən mənbələrin (müvəqqəti sərbəst dövriyyə vəsaitləri, cəlb edilmiş vəsaitlər və s. borc alınmış əmlak) cəmi ehtiyatlara bərabərdirsə, onda müəssisənin maliyyə vəziyyəti qeyri-sabit hesab edilir;

• Əgər müəssisənin ehtiyatları xüsusi dövlət vəsaitləri vahidi ilə qısamüddətli kreditlərin cəmindən çoxdursa, onda müəssisənin maliyyə sabitliyi krizis vəziyyətində hesab edilir.

4) Müəssisənin müstəqillik əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$Ə^M=K:B$$

Burada:

$Ə^M$ - müstəqillik əmsalı;

K - kapital və rezervlər;

B - balansın yekunudur (valyutasıdır).

5) Müəssisənin maliyyələşmə əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$M^Ə=K:P^U+Q$$

Burada:

$M^Ə$- maliyyələşmə əmsalı;

K - kapital və rezervlər;

$P^U$ - uzunmüddətli passivlər;

Q - qısamüddətli kreditlər və sair passivlərdir.

6) Likvidlik aktivlərin pula çevrilməsinə sərf olunan vaxtla tərs mütənasib olan göstəricidir. Yəni aktivlərin pula çevrilməsinə nə qədər az vaxt sərf olunarsa, likvidlik bir o qədər yüksək olar.

Mütləq likvidlik əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$M_{LƏ}=QM:K+Q$$

Burada:

$M_{LƏ}$- mütləq likvidlik əmsalı;

QM - qısamüddətli maliyyə qoyuluşları;

Q - qısamüddətli kreditor (borclar);

K - kreditor borcları və sair passivlərdir.

Cari likvidlik əmsalı aşağıdakı düsturla ifadə olunur:

$$C_{LƏ}=Dv: K+Q$$

Burada:

$C_{LƏ}$- cari likvidlik əmsalı;

Dv - dövriyyə vəsaiti;

Q - qısamüddətli kreditor (borclar);

K - kreditor borcları və sair passivlərdir.

7) Müəssisənin rentabelliyi onun mənfəət və xərclərinin nisbəti, fondverimi isə gəlir və əsas fondlarının nisbətidir.

## 2. ÖZƏLLƏŞDIRILƏN VƏ IDARƏETMƏYƏ VERILƏN MÜƏSSISƏLƏRDƏ INVESTISIYA QOYULUŞLARI ÜZƏRINDƏ NƏZARƏTIN HƏYATA KEÇIRILMƏSINDƏ AUDITORUN IŞTIRAKI

Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsində auditorun iştirakının hüquqi əsası Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli «Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında» fərmanı ilə təsdiq edilmiş «Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsi Qaydaları» ilə təsbit olunmuşdur. Nəzərə alınmalıdır ki, həmin «Qaydalar» özəlləşdirilən və idarəetməyə verilən müəssisələrin yeni mülkiyyətçiləri (idarəetməyə götürən) tərəfindən bağlanmış müqavilələrdə nəzərdə tutulmuş öhdəlik və şərtlərin, o cümlədən investisiya qoyuluşu, sosial, iqtisadi və digər tələblərin yerinə yetirilməsi üzərində nəzarət mexanizmini müəyyən edir.

«Özəlləşdirilən və idarəetməyə verilən müəssisələrdə investisiya qoyuluşları üzərində nəzarətin həyata keçirilməsi Qaydaları»nın 3.1-ci bəndinə əsasən, dövlət müəssisələri fərdi layihələr üzrə və ya müsabiqə vasitəsilə özəlləşdirildikdə və idarəetməyə verildikdə alqı-satqı və idarəetmə müqaviləsində müəyyən edilmiş qaydada və müddətdə dövlət orqanı tərəfindən alıcının (investorun) və idarəetməyə götürənin hesabatları tələb edilir və hesabata hər bir istiqamət üzrə həyata keçirilmiş faktiki investisiya və çəkilən bütün xərcləri açıqlayan sənədlərin surəti və müəssisənin müstəqil auditor tərəfindən təsdiq edilmiş maliyyə hesabatları əlavə olunmalıdır. Eyni zamanda, alqı-satqı və ya idarəetmə müqaviləsində müəyyən edilmiş qaydada müəssisənin fəaliyyətinin, müqavilədən irəli gələn öhdəliklərin və investisiya proqramının icrası vəziyyətinin araşdırılması məqsədilə dövlət orqanı (Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsi) tərəfindən auditor, mütəxəssis və müvafiq icra hakimiyyəti orqanlarının nümayəndələri cəlb olunmaqla, monitorinq aparıla bilər.

Bu zaman nəzərə alınmalıdır ki, auditor tərəfindən maliyyə hesabatlarının təsdiqi müəssisənin sifarişi ilə, müəssisənin fəaliyyətinin, müqavilədən irəli gələn öhdəliklərin və investisiya proqramının icrası vəziyyətinin araşdırılması məqsədilə monitorinq aparıldıqda auditor cəlb olunması isə dövlət orqanının (Azərbaycan Respublikasının Dövlət Əmlakının İdarə Edilməsi üzrə Dövlət Komitəsinin) sifarişi ilə həyata keçirilməlidir.

Maliyyə hesabatlarının təsdiqi zamanı auditor, müəssisənin təşkilati-hüquqi formasından asılı olaraq (səhmdar cəmiyyəti, məhdud məsuliyyətli cəmiyyət və s.), Auditorlar Palatasının Şurası tərəfindən təsdiq edilmiş sahəvi auditlərin aparılmasına dair proqramların və normativ aktların tələblərinə əməl etməlidir.

Təşkilati-hüquqi formasından asılı olmayaraq, audit zamanı aşağıdakılar əhatə olunmalıdır:

1. Müəssisənin hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi;
2. Dövriyyə cədvəli və mühasibat hesabatlarının auditi;
3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi;
4. Hesablaşma və kredit əməliyyatlarının auditi;

5. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi;
6. Mal-material dəyərlilərinin və istehsal ehtiyatlarının auditi;
7. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmaların auditi;
8. Xərclərin auditi;
9. Kapital qoyuluşları və investisiyaların auditi;
10. Səhmlərlə bağlı əməliyyatların auditi (səhmdar cəmiyyətlərində);
11. Malların satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi;
12. Maliyyə nəticələrinin və fondlardan istifadənin auditi;
13. Maliyyə vəziyyətinin təhlili və auditin nəticələri üzrə təkliflərin verilməsi.

Qed etmək lazımdır ki, sifarişçinin tələbinə əsasən (audit müqaviləsində nəzərdə tutulmaqla), müəssisənin fəaliyyətinin, özəlləşdirilən və idarəetməyə verilən müəssisələrin yeni mülkiyyətçiləri (idarəetməyə götürəni) tərəfindən bağlanmış müqavilələrdən irəli gələn öhdəliklərin və investisiya proqramının icrası vəziyyətinin araşdırılması ilə bağlı müddəalar da auditlə əhatə edilə bilər. Bu zaman və alqı-satqı və ya idarəetmə müqaviləsində müəyyən edilmiş qaydada müəssisənin fəaliyyətinin, müqavilədən irəli gələn öhdəliklərin və investisiya proqramının icrası vəziyyətinin araşdırılması məqsədilə dövlət orqanı tərəfindən auditor cəlb edildikdə, aşağıdakılar yoxlanılmalıdır:

- investisiya proqramının mərhələlər üzrə yerinə yetirilməsinin vəziyyəti;
- hesabat dövründə hər bir texnoloжi sahə üzrə mənbəyi göstərilməklə həyata keçirilmiş faktiki investisiya və çəkilən bütün xərclərin təyinatı, vaxtı və məbləği;
- istehsal olunan məhsulun çeşidi və müəssisənin iştirakçısı olduğu bazarlarda struktur dəyişiklikləri;
- müəssisənin rəqabət qabiliyyətinin və istehsal olunan məhsulun keyfiyyətinin yüksəldilməsi üzrə tədbirlər;
- istehsal prosesində yeni texnologiyalardan və ixtiralardan istifadə;
- təsdiq edilmiş iqtisadi və maliyyə göstəricilərinə nail olunması;
- əməkhaqqı və ona bərabər tutulan borcların ödənilməsinin vəziyyəti;
- müəssisədə iş yerlərinin açılmasının vəziyyəti;
- müəssisənin fəaliyyət reжimi və maliyyə vəziyyəti üçün təhlükə yarada bilən hallar;
- müəssisənin torpaq sahəsindən təyinatı üzrə istifadənin vəziyyəti;
- ekoloжi və sosial tələblərin yerinə yetirilməsinin vəziyyəti;
- alqı-satqı və ya idarəetmə müqaviləsində nəzərdə tutulmuş digər tələblər.

Dövlət müəssisələrinin özəlləşdirmədən sonrakı fəaliyyətinin monitorinqinin aparılması zamanı isə, monitorinqin məqsədindən asılı olmayaraq, aşağıdakı məsələlərin araşdırılması məcburidir:

- müəssisəyə investisiya qoyuluşunun perspektivləri;
- faktiki qoyulmuş investisiyaların və çəkilən bütün xərclərin təyinatı, vaxtı və məbləği;
- istehsal olunan məhsulun çeşidi və müəssisənin iştirakçısı olduğu bazarlarda struktur dəyişiklikləri;
- müəssisənin rəqabət qabiliyyətinin və istehsal olunan məhsulun keyfiyyətinin yüksəldilməsi üzrə tədbirlərin görülməsi;
- istehsal prosesində yeni texnologiyalardan və ixtiralardan istifadə olunması;
- müəssisənin fəaliyyət reжimi və maliyyə vəziyyəti üçün təhlükə yarada bilən halların mövcudluğu;
- səhmdarların sayı və say tərkibində olan dəyişikliklər;
- icarəsində olan torpaq sahələrinin təyinatı üzrə istifadəsi və icarə müqaviləsinin şərtlərinə əməl olunması.

Torpaq sahələrindən istifadənin vəziyyəti üzrə aparılan monitorinqlər aşağıdakı məsələləri əhatə etməlidir:

- torpaq sahəsindən istifadənin hüquqi əsaslarının araşdırılması;
- istifadədə olan torpaq sahəsinin hüdudları, təyinatı və dəyəri;

• torpaq sahəsi üzərində olan məhdudiyyətlər və servitutların araşdırılması;

• torpaq sahəsinin üzərində yerləşən daşınmaz əmlak və infrastruktur obyektlərinin vəziyyəti;

• torpaq sahələrində tikinti, yenidənqurma və quraşdırma işlərinin aparılmasının vəziyyəti;

• torpaq sahələrinin başqa hüquqi və fiziki şəxslərə verilməsi, habelə əsassız istifadə hallarının araşdırılması;

• torpağa investisiyaların qoyuluşu, habelə investisiyaların cəlb edilməsi məqsədilə torpağın təminat vasitəsi kimi istifadə olunması vəziyyətinin araşdırılması;

• icarə müqaviləsinin şərtlərinə riayət edilməsi və icarə haqlarının (torpaq vergisinin) ödənilməsi vəziyyətinin araşdırılması.

## 3. SƏHMDAR CƏMIYYƏTLƏRINDƏ DÖVLƏTƏ MƏXSUS SƏHMLƏRIN IDARƏETMƏYƏ VERILMƏSI ILƏ BAĞLI ARAŞDIRMALARDA AUDITORUN IŞTIRAKI

Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi ilə bağlı auditorun işindən istifadənin hüquqi əsası Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyun tarixli «Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında» fərmanı ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi Qaydaları» ilə təsbit olunmuşdur.

«Qaydalar»ın 6.4-cü maddəsində göstərilir: «Idarəetməyə verən müqavilə şərtlərinin yerinə yetirilməsinə nəzarət edir və bununla bağlı idarəedəndən hesabatlar tələb etmək, monitorinq keçirmək və sənədli təftiş aparmaq hüquqlarına malikdir. Zərurətdən asılı olaraq, idarəetməyə verən bu məqsədlə müstəqil auditor və ekspertlər cəlb edə bilər».

Bu zaman nəzərə alınmalıdır ki, auditor xidmətlərindən istifadə səhmdar cəmiyyətlərində dövlətə məxsus səhmlərin idarəetməyə verilməsi prosesini yox, idarəetməyə verilmədən sonra idarəedənin idarəetmə müqaviləsinin şərtlərinə əməl etməsi vəziyyətinin yoxlanılmasını və ya həmin müəssisədə sənədli təftiş aparılmasını nəzərdə tutur.

Idarəetmə müqaviləsinin şərtlərinə əməl edilməsi vəziyyətinin yoxlanılması zamanı nəzərə alınmalıdır ki:

1) Idarəetmə müqaviləsində aşağıdakı müddəalar əks etdirilməlidir:

• səhmlərin idarəetməyə verilməsi qaydası və müddəti;

• tərəflərin öhdəlikləri və məsuliyyəti;

• müqavilə öhdəliklərinin yaranması və başa çatması müddəti;

• idarəedən tərəfindən təklif olunan fəaliyyət proqramının icrası mexanizmi;

• idarəedən tərəfindən idarəetməyə verənə təqdim olunmalı hesabatların təqdim edilməsinin qaydası və müddətləri;

• müqavilənin vaxtında və vaxtından əvvəl ləğv edilməsi nəticəsində qarşılıqlı hesablaşmaların aparılmasının şərtləri;

• müqavilənin müddətinin uzadılması qaydası;

• səhmləri idarəetməyə verilmiş səhmdar cəmiyyətinin ümumi yığıncaqlarının və idarəetmə orqanlarının iclaslarının keçirilməsi qaydası;

• idarəetmə müddətində səhmlərin özəlləşdirilməsi haqqında qərar qəbul edildikdə, idarəedənlə idarəetməyə verənin münasibətlərinin tənzimlənməsi qaydası;

• digər məsələlər.

2) Auditor tərəfindən tərəflərin öhdəlikləri ayrılıqda baxılmalı, hər bir öhdəliyin yerinə yetirilməsinin vəziyyəti araşdırılmalıdır. Eyni zamanda, müqavilə öhdəliklərinin yaranması və başa çatması müddətlərinə diqqət yetirilməli, idarəedən tərəfindən həyata keçirilən fəaliyyət proqramının icrası mexanizminin təklif olunan mexanizm ilə eyniliyinə əmin olunmalı, idarəedən tərəfindən idarəetməyə verənə təqdim olunmalı hesabatların təqdim edilməsi qaydası və müddətlərinə əməl edilməsinin vəziyyəti yoxlanılmalı, idarəetmə müqaviləsinin şərtlərindən

irəli gələn digər məsələlər araşdırılmalıdır.

Sənədli təftiş aparılan zaman auditor Auditorlar Palatası Şurasının 2005-ci il 19 yanvar tarixli 144/2 saylı qərarı ilə təsdiq edilmiş «Səhmdar cəmiyyətlərində audit aparılmasına dair proqram»ın və normativ aktların tələblərinə əməl etməlidir.

## 4. ÖZƏLLƏŞDIRILƏN DÖVLƏT ƏMLAKININ QIYMƏTLƏNDIRILMƏSI VƏ AUDIT

Nəzərə alınmalıdır ki, dövlət müəssisələrinin (obyektlərinin) və birgə müəssisələrin nizamnamə kapitalında dövlətin payının özəlləşdirilməsi zamanı əmlakın real qiymətləndirilməsini həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 6 iyul tarixli "Dövlət əmlakının qorunub saxlanılması və səmərəli istifadə edilməsinin təkmilləşdirilməsi haqqında" fərmanı ilə təsdiq edilmiş "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq, qiymətləndiricilər və maliyyə məsləhətçiləri cəlb edilə bilər. Ona görə də özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi zamanı auditorun iştirakı mümkündür. Odur ki, özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi zamanı auditor nəzərə almalıdır ki:

- Əsasnamə dövlət əmlakının özəlləşdirilməsi prosesində müəssisə və obyektlərin start (satış) qiymətini və ya dövlət müəssisələrinin bazasında yaradılan səhmdar cəmiyyətlərinin nizamnamə kapitalını hesablamaq məqsədilə onların əmlakının, habelə birgə müəssisələrin nizamnamə kapitalındakı dövlət paylarının qiymətləndirilməsi qaydalarını müəyyən edir.
- Birgə müəssisələrin nizamnamə kapitalındakı dövlət paylarının inventarizasiya olunaraq qiymətləndirilməsi nizamnamə kapitalında iştirak payına uyğun olaraq və müəssisə tərəfindən təqdim olunmuş son balansın məlumatları əsasında aparılır. Birgə müəssisənin qiymətləndirilməsini həyata keçirmək məqsədilə qiymətləndiricilər və maliyyə məsləhətçiləri cəlb edildiyi hallarda, qiymətləndirmə müəssisənin kommersiya fəaliyyətinin gəlirliliyi, o cümlədən gözlənilən gəlirlərin proqnozu (diskontlaşdırılmış həcmi), fəaliyyət göstərdiyi sektordakı xüsusi çəkisi, müəssisənin bazardakı mövqeyi və digər bu kimi amillər nəzərə alınmaqla həyata keçirilir.
- Səhmdar cəmiyyətinin nizamnamə kapitalı təqdim edilmiş son balansın məlumatları əsasında aşağıdakı qayda ilə müəyyən edilir:

$$N_k = (A_d - Ö_d) \times M_a \times X_ə \times G_ə \times Z_ə$$

- Kiçik dövlət müəssisəsinin start (satış) qiyməti təqdim edilmiş son balansın məlumatları əsasında aşağıdakı qayda ilə müəyyən edilir:

$$K_q = (A_d - Ö_d) \times M_a \times G_ə \times Y_ə$$

- Dövlət müəssisəsinin hüquqi şəxs olmayan struktur bölməsi (filial, istehsal sahəsi, sex və s.) ayrıca özəlləşdirildikdə, onun start (satış) qiyməti və ya nizamnamə kapitalı özəlləşdirmə anına tərtib olunmuş bölünmə balansının (bölünmə aktının) məlumatları əsasında aşağıdakı qayda ilə müəyyən edilir:

$$S_q = (A_d - Ö_d) \times M_a \times Y_ə$$

- Icarəyə verilmiş və ya istifadəsiz olan daşınmaz dövlət əmlakının start (satış) qiyməti aşağıdakı qayda ilə müəyyən edilir:

$$I_q = I_d \times Y_ə$$

Burada:

$N_k$ - səhmdar cəmiyyətinin nizamnamə kapitalı;

$K_q$ - kiçik dövlət müəssisəsinin start (satış) qiyməti;

$S_q$ - dövlət müəssisəsinin hüquqi şəxs olmayan struktur bölməsinin start (satış) qiyməti;

$I_q$ - icarəyə verilmiş və ya istifadəsiz olan daşınmaz dövlət əmlakının start (satış) qiyməti;

$A_d$ - müəssisənin balans aktivlərinin ümumi dəyəri;

$Ö_d$ - müəssisənin balans öhdəliklərinin ümumi dəyəri;

$M_a$ - müəssisənin maliyyə asılılığı əmsalı;

$X_ə$ - müəssisənin yerli xammalla təchiz olunma əmsalı;

$G_ə$ - müəssisənin gəlirlilik əmsalı;

$Z_ə$ - müəssisənin zona əmsalı;

$Y_ə$ - müəssisənin (obyektin) yerləşmə əmsalı;

$I_d$ - icarəyə verilmiş və ya istifadəsiz olan daşınmaz dövlət əmlakının müəssisənin mühasibat uçotu məlumatlarına və ya "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsti haqqında Əsasnamə"nin 28-ci bəndinə əsasən hesablanmış qalıq dəyəridir.

- Dövlət müəssisəsinin balansında olan daşınar əmlak (əsas vəsaitlər) ayrıca qanunvericilikdə nəzərdə tutulmuş qaydada özəlləşdirildikdə, onun start (satış) qiyməti müəssisənin məlumatları əsasında həmin daşınar əmlakın (əsas vəsaitlərin) qalıq dəyəri kimi müəyyən edilir.
- Müəssisənin maliyyə asılılığı əmsalı qiymətləndirmə anına onun maliyyə vəziyyətini xarakterizə edir və təqdim edilmiş son balansın məlumatları üzrə kreditor borclarının (bank kreditləri, kreditorlarla hesablaşmalar və sair kreditorlar) onun qiymətləndirilən aktivlərinin dəyərinə (özəlləşdirilən müəssisənin əmlakının tərkibindən çıxarılan əmlakın dəyəri nəzərə alınmamaqla) olan nisbəti əsasında müəyyən edilir. Müəssisənin maliyyə asılılığı əmsalı müəyyən edilərkən qanunvericiliyə əsasən silinməsi nəzərdə tutulan borclar nəzərə alınmır. Lakin həmin borcların uçotdan silinməsi müvafiq qaydada rəsmiləşdirilənədək müəssisənin balansında qeyd olunur.
- Müəssisənin yerli xammalla təchiz olunma əmsalı onun yerli xammaldan (və ya idxal olunan xammaldan) asılılığını xarakterizə edir və istifadə olunan yerli xammal növlərinin (xammal, yarımfabrikat, komplektləşdirici məmulat və s.) ümumilikdə istifadə olunan xammal növlərinə olan nisbəti kimi müəyyən edilir.
- Müəssisənin gəlirlilik əmsalı onun fəaliyyətinin rentabellik səviyyəsini xarakterizə edir və müəssisənin balans mənfəətinin onun qiymətləndirilən əsas vəsaitlərinin dəyərinə olan nisbəti kimi müəyyən edilir.
- Müəssisənin zona əmsalı və müəssisənin (obyektin) yerləşmə əmsalı müəssisə və obyektin yerləşdiyi əraziyə görə şərti müəyyən olunmuş əmsallardır.
- Özəlləşdirilən dövlət müəssisəsinin (obyektinin) qiymətləndirilən əmlakının tərkibinə onun əsas vəsaitləri və sair dövriyyədənkənar aktivləri, ehtiyat və məsrəfləri, pul və sair maliyyə vəsaitləri, digər maddi və qeyri-maddi aktivləri daxildir.
- Əsas vəsaitlərə və sair dövriyyədənkənar aktivlərə aşağıdakılar daxildir:

a) Binalar, qurğular, ötürücü qurğular, maşın və avadanlıqlar, nəqliyyat vasitələri, iş alətləri, istehsal və təsərrüfat inventarları, iş heyvanları, məhsuldar heyvanlar, çoxillik əkmələr, digər növ əsas vəsaitlər, torpaqların yaxşılaşdırılmasına (meliorasiya, qurudulma, irriqasiya və s. işlər), habelə başqa işlərə qoyulan kapital qoyuluşları və başqa əmək vasitələri;

b) Balansda əks olunan qeyri-maddi aktivlər, torpaq, su və təbii ehtiyatlardan (sərvətlərdən) istifadə hüquqları, əmlak hüquqları, patentlər, lisenziyalar, «nou-hau», proqram məhsulları, inhisar və imtiyaz (üstünlük) hüquqları (xüsusi fəaliyyət növünə verilən lisenziyalar da daxil olmaqla), təşkilati xərclər, ticarət markaları, əmtəə nişanları və digər qeyri-maddi aktivlər;

c) Müəssisənin quraşdırılmamış avadanlıqları və başa çatdırılmamış əsaslı tikintisi;

ç) Müəssisənin uzunmüddətli maliyyə qoyuluşları, o cümlədən digər müəssisələrin qiymətli kağızlarına (səhm, istiqraz və s.), dövlət və digər borclar üzrə faizli istiqrazlara, ölkə ərazisində yaradılmış digər müəssisələrin nizamnamə fondlarına, müəssisənin xaricdəki kapitalına və sair uzunmüddətli maliyyə qoyuluşları;

d) Müəssisə balansının aktivindəki «Əsas vəsaitlər və sair dövriyyədənkənar aktivlər» bölməsinin digər maddələri.

- Ehtiyatlar və məsrəflər istehsal ehtiyatları (xammal, yanacaq, ehtiyat hissələri, yarımfabrikat və komplektləşdirici məmulatlar, əsas və köməkçi materiallar, taralar və material ehtiyatları), azqiymətli və tez köhnələn əşyalar, bitməmiş istehsal, gələcək dövrün xərcləri, hazır məhsul, mallar və müəssisə balansının aktivindəki «Ehtiyatlar və məsrəflər» bölməsinin digər maddələrindən ibarətdir.
- Pul vəsaitləri, hesablaşmalar və sair aktivlərə müəssisənin banklardakı hesablarında və kassasında olan pul vəsaitləri, yüklənmiş malların dəyəri, debitorlarla hesablaşmaları,

qısamüddətli maliyyə qoyuluşları (bir ildən çox olmayan) və balansın aktivindəki «Pul vəsaitləri, hesablaşmalar və sair aktivlər» bölməsində əks etdirilən dövriyyə aktivlərindən ibarətdir.

- Qiymətləndirilən əmlakın tərkibinə müəssisənin mühasibat uçotunda müxtəlif səbəblərdən əks etdirilməyən əmlak, müvəqqəti olaraq təmirdə və ehtiyatda olan əmlak, icarədə və ya müddətli istifadədə olan əmlak da daxil edilir.
- Özəlləşdirilən dövlət müəssisəsinin (obyektinin) yerləşdiyi torpaq sahəsi "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq, qiymətləndirilən əmlakın tərkibinə daxil edilmir və Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən müəyyən edilmiş qaydada ayrıca özəlləşdirilir. Özəlləşdirilən torpaq sahəsinin qiymətləndirilməsi müvafiq normativ hüquqi aktlarla tənzimlənir.
- Dövlət müəssisəsinin əmlakının icarəyə verilməsi yolu ilə yaradılmış icarə müəssisələrinin və icarəyə verilmiş əmlakın özəlləşdirilməsi zamanı qiymətləndirmə "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq aparılır.
- Icarəçinin öz gəliri hesabına əldə etdiyi əmlakın tərkibi müvafiq sənədlər əsasında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Azərbaycan Respublikasının Dövlət Əmlakının Idarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən müəyyən edilir.
- Müəssisənin balans öhdəliklərinə borc vəsaitləri və kreditlər, kreditorlarla hesablaşmalar, alıcı və sifarişçilərdən alınmış avanslar və sair cəlb edilmiş vəsaitlər daxildir.
- Müəssisənin balans aktivlərindən çıxılan balans öhdəliklərinə gələcək dövrün gəlirləri, qarşıdakı xərclər və ödəmələr üzrə ehtiyatlar, şübhəli borclar üzrə ehtiyatlar, balansın hesablaşmalar və sair passivlər bölməsində əks etdirilən digər öhdəliklər də aiddir.
- Özəlləşdirilən dövlət müəssisəsinin start (satış) qiyməti və ya səhmdar cəmiyyətinin nizamnamə kapitalı müəyyən edilərkən əmlakın tərkibindən "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"nin 13-cü bəndində göstərilən balans öhdəlikləri ilə yanaşı, qüvvədə olan qanunvericiliyə əsasən, özəlləşdirilməsi qadağan olunmuş əmlakın, dövlət mülkiyyətində saxlanılan, habelə yerli özünüidarəetmə (bələdiyyə) orqanlarının və müvafiq təşkilatların balansına verilən sosial-mədəni və məişət-kommunal təyinatlı obyektlərin, habelə müəssisənin əmlak kompleksinin tərkibindən çıxarılaraq ayrıca özəlləşdirilən əmlakın dəyəri də çıxılır.
- Özəlləşdirmə prosesində dövlət müəssisələrinin əmlakının "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq qiymətləndirilməsi müəssisə rəhbərliyinin iştirakı ilə özəlləşdirmə komissiyası (kiçik müəssisələr istisna olmaqla) tərəfindən müəssisənin əmlakının inventarlaşdırılması əsasında həyata keçirilir.
- Özəlləşdirmə prosesində kiçik dövlət müəssisələrinin (obyektlərinin) əmlakının "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq qiymətləndirilməsi müəssisə rəhbəri və baş mühasib tərəfindən müəssisənin (obyektin) əmlakının inventarlaşdırılması əsasında həyata keçirilir. Kiçik dövlət müəssisələri (obyektləri) özəlləşdirilərkən "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə" ilə özəlləşdirmə komissiyasının hüquqlarına aid edilən digər hüquqlar da göstərilən qaydada həyata keçirilir.
- Əsas vəsaitlər onların balans dəyərindən qiymətləndirmə dövrünə amortizasiya normaları əsasında köhnəlmə məbləği çıxılmaqla müəyyən edilmiş qalıq dəyəri ilə qiymətləndirilir.
- Əsas vəsaitlərin (daşınmaz və daşınar əmlakın) bu qayda ilə hesablanmış dəyəri qiymətləndirmə dövrünə eyni və ya analoжi növlü əsas vəsaitlərin qiymətlərinə uyğun gəlmədikdə (az və ya çox olduqda), müəssisənin özəlləşdirmə komissiyası qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən müəssisənin əmlakının qiymətləndirilməsini təşkil edir. Bu halda əsas vəsaitlərin dəyərini bazar prinsipləri əsasında müəyyən etmək məqsədilə aparılan qiymətləndirmə müəssisə rəhbərinin və ya özəlləşdirmə komissiyasının təşəbbüsü ilə qanunvericiliyə uyğun olaraq, qiymətləndiricilər və maliyyə məsləhətçiləri tərəfindən həyata keçirilir.

Həmin məqsədlə müəssisə ilə qiymətləndiricilər arasında müqavilə bağlanılır.

Qiymətləndiricilər (hüquqi və fiziki şəxslər) dövlət əmlakının düzgün qiymətləndirilməsinə görə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq qaydada məsuliyyət daşıyırlar.

• Əsas vəsaitlərin balans dəyəri inventarlaşdırmanın nəticələri nəzərə alınmaqla, mühasibat uçotunun məlumatları (uçot kitabları, inventar kartları və s.) əsasında müəyyən edilir.

• Inventarlaşdırma nəticəsində qalıq kimi aşkar edilmiş, lakin mühasibat uçotunda əks etdirilməyən əsas vəsaitlərin balans dəyəri "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"nin 16-cı bəndinə uyğun olaraq qiymətləndirilir.

• Normativ istismar müddəti bitmiş, lakin istifadəyə yararlı olan əsas vəsaitlərin və ya onların ayrı-ayrı hissələrinin (detallarının, qovşaqlarının və s.) gələcəkdə istifadə olunmaq dərəcəsi nəzərə alınmaqla, qalıq bərpa dəyəri müəyyən edilir. Istifadəyə yararlı olan əsas vəsaitlərin qalıq bərpa dəyəri fiziki və mənəvi aşınma vəziyyəti nəzərə alınmaqla, müəssisənin özəlləşdirmə komissiyası tərəfindən qiymətləndirilir.

• Tikintisi başa çatdırılmamış obyektlərin və quraşdırılmamış avadanlıqların özəlləşdirmə dövründə dəyəri "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"nin 16-ci bəndində nəzərdə tutulmuş qaydada müəyyən edilir. Özəlləşdirilməsi nəzərdə tutulan tikintisi başa çatdırılmamış perspektivsiz obyektlər özəlləşdirmə komissiyası və ya qiymətləndirici tərəfindən onların tikintisinə sərf olunmuş yararlı tikinti materiallarının (konstruksiyalarının) dəyəri nəzərə alınmaqla qiymətləndirilir. Bu zaman obyektin perspektivsizlik göstəricilərinin müəyyən edilməsi Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalara uyğun aparılır.

• Azqiymətli və tezköhnələn əşyaların dəyəri onların balans dəyərindən hesablanmış köhnəlmə çıxılmaqla müəyyən edilir.

• Uzunmüddətli maliyyə qoyuluşları balans dəyəri üzrə qiymətləndirilir.

• Qeyri-maddi aktivlər onların balans dəyərindən köhnəlmə məbləği çıxılmaqla qiymətləndirilir.

• Ehtiyatlar və məsrəflər mövcud vəziyyətə olan balans dəyəri ilə qiymətləndirilir.

• Pul vəsaitləri, hesablaşmalar və sair dövriyyə aktivləri balans dəyəri ilə qiymətləndirilir.

• Müəssisənin valyuta hesablarında olan pul vəsaitləri, valyuta ilə ödənilməsi nəzərdə tutulan debitor borcları qiymətləndirmə tarixinə manatın Azərbaycan Respublikasının Milli Bankı tərəfindən müəyyən edilmiş məzənnəsi əsasında qiymətləndirilir.

• "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"yə uyğun olaraq, müəssisənin hesablanmış ilkin qiymətinə tətbiq edilən əmsallar (bazar konyunkturu nəzərə alınmaqla) Azərbaycan Respublikasının Dövlət Əmlakının Idarə Edilməsi üzrə Dövlət Komitəsinin təqdimatı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

• Bina və tikililərin bir hissəsində yerləşən qeyri-yaşayış sahələrinin qalıq dəyəri aşağıdakı qaydada müəyyən edilir:

$$Q_d = K \times S_ü \times B_ə \times H_ə \times M_ə \times A_ə$$

Burada:

$Q_d$ - bina və tikililərin bir hissəsində yerləşən qeyri-yaşayış sahəsinin qalıq dəyəri;

K - özəlləşdirmə zamanı 1 kv.m sahənin qəbul edilən normativ dəyəri;

$S_ü$ - qiymətləndirilən ümumi sahə;

$B_ə$ - bina əmsalı;

$H_ə$ - hündürlük əmsalı;

$M_ə$ - mərtəbəlilik əmsalı;

$A_ə$ - bina və tikilinin köhnəlmə əmsalıdır.

• Bina və tikililərin bir hissəsində yerləşən qeyri-yaşayış sahəsinin qalıq dəyərinin müəyyən edilməsi üçün tətbiq edilən əmsallar Azərbaycan Respublikasının Dövlət Əmlakının Idarə Edilməsi üzrə Dövlət Komitəsinin təqdimatı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilir.

• Bina və tikililərin bir hissəsində yerləşən dövlət müəssisə və obyektlərinin start (satış)

qiyməti və ya səhmdar cəmiyyətinin nizamnamə kapitalı müəyyən edilərkən onlara aid olan sahələrin (qeyri-yaşayış, istehsal və digər təyinatlı sahələrin) "Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə"nin 28-ci bəndinə uyğun olaraq hesablanmış qalıq dəyəri qiymətləndirilən əsas vəsaitlərin ümumi dəyərinə daxil edilir.

- Müəssisə rəhbərliyi əmlakın (səhmlərin və ya hissələrin) satışa çıxarıldığı tarixə müəssisənin (obyektin) start (satış) qiyməti və ya səhmdar cəmiyyətinin nizamnamə kapitalı hesablanarkən qiymətləndirmə aktlarında göstərilmiş əmlakın tərkibində (dəyərində) baş vermiş dəyişikliklər barədə Azərbaycan Respublikasının Dövlət Əmlakının Idarə Edilməsi üzrə Dövlət Komitəsinə zəruri məlumatları (sənədləri) təqdim etməlidir. Əmlakın tərkibində (dəyərində) baş vermiş dəyişikliklərə dair müəssisə tərəfindən təqdim edilən sənədlərə Azərbaycan Respublikasının Dövlət Əmlakının Idarə Edilməsi üzrə Dövlət Komitəsi tərəfindən baxılır və həmin dəyişikliklər nəzərə alınmaqla, satışa çıxarılanadək müəssisənin start (satış) qiyməti və ya səhmdar cəmiyyətinin nizamnamə kapitalı dəyişdirilir.

**TƏRTIB ETDI:**
***Nəcəf TALIBOV,***
***AUDİTORLAR PALATASI SƏDRİNİN***
***ELMİ-METODİK MƏSƏLƏLƏR ÜZRƏ MÜŞAVİRİ***

***AS1DS 032/083-2005***
***AZƏRBAYCAN RESPUBLİKASININ***
***Auditorlar Palatası Şurasının***
***2005-ci il 20 oktyabr tarixli***
***153/4 saylı qərarı ilə təsdiq edilmişdir***
**(Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2008-ci il 27 may tarixli**
**192/5 saylı qərarı ilə edilmiş əlavə və dəyişikliklərlə)**

## QEYRI-HÖKUMƏT TƏŞKILATLARINDA AUDIT APARILMASINA DAIR P R O Q R A M

***MÜNDƏRICAT:***

***10. Giriş***
***11. Qeyri-hökumət təşkilatlarının yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi***
***12. Kassa və bank əməliyyatlarının auditi***
***13. Hesablaşma və kredit əməliyyatlarının auditi***
***14. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi***
***15. Xərclərin və maya dəyərinin auditi***
***16. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi***
***17. Mənfəət (zərər), fondlar və ehtiyatların auditi***
***18. Mühasibat uçotunun vəziyyətinin auditi***
***19. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər***

### *1. Giriş*

Qeyri-hökumət təşkilatlarının yaradılmasının, idarə edilməsinin və fəaliyyətinin tənzimlənməsinin spesifik xüsusiyyətlərə malik olması, onların fəaliyyətində şəffaflığın təmin edilməsinin günün aktual mövzusuna çevrilməsi, habelə qeyri-hökumət təşkilatlarının məcburi audit subyekti olması nəzərə alınaraq, qeyri-hökumət təşkilatlarında audit aparılmasına dair proqramın hazırlanması zəruri hesab edilmişdir. Proqram Azərbaycan Respublikasının Mülki Məcəlləsi, «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında», «Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında», «Qrant haqqında» və «Mühasibat uçotu haqqında» qanunları, Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 28 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya», digər normativ hüquqi aktlar və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının təsdiq etdiyi milli audit standartları rəhbər tutulmaqla tərtib edilmişdir.

Proqramın məqsədi respublikanın ərazisində fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarında aparılan auditor yoxlamalarının keyfiyyətini yüksəltməkdən, audit zamanı tətbiq edilməsi zəruri hesab edilən audit prosedurlarını müəyyən etməkdən və bunlarla əlaqədar müvafiq tövsiyələr verməkdən, həmçinin qeyri-hökumət təşkilatlarının fəaliyyətində şəffaflığı təmin etməkdən ibarətdir.

## *2. Qeyri-hökumət təşkilatlarının yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi*

Audit zamanı ilk növbədə aşağıdakılar nəzərə alınmalıdır:

Ictimai birlik – təsis sənədlərində müəyyən olunmuş məqsədlərlə ümumi maraqlar arasında birləşmiş bir neçə fiziki və (və ya) hüquqi şəxsin təşəbbüsü ilə yaradılmış könüllü, özünüidarəedən, öz fəaliyyətinin əsas məqsədi kimi gəlir əldə etməyi nəzərdə tutmayan və əldə edilən gəliri öz üzvləri arasında bölməyən qeyri-hökumət təşkilatlarıdır.

Fond – üzvləri olmayan, bir və ya bir neçə fiziki və (və ya) hüquqi şəxs tərəfindən könüllü əmlak haqqı əsasında təsis edilən və sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədləri daşıyan qeyri-hökumət təşkilatlarıdır.

Qeyri-hökumət təşkilatı Azərbaycan Respublikası Prezidenti, Azərbaycan Respublikası Milli Məclisi və bələdiyyə seçkilərində iştirak edə bilməz, siyasi partiyalara maliyyə və başqa maddi yardım göstərə bilməz.

Qeyri-hökumət təşkilatları daimi əsaslarla və ya konkret məqsədlərə nail olmaq üçün istənilən təşkilati-hüquqi formada təsis oluna bilər.

Nəzərə alınmalıdır ki, qeyri-hökumət təşkilatlarının fəaliyyət göstərdiyi əraziyə görə aşağıdakı 3 növü var:

- Ümumazərbaycan – Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir;
- regional – Azərbaycan Respublikasının iki və ya daha çox inzibati ərazisini əhatə edir;
- yerli – respublikanın yalnız bir inzibati ərazisində fəaliyyət göstərir.

Beynəlxalq qeyri-hökumət təşkilatları – öz fəaliyyət dairəsi ilə azərbaycan respublikasının və ən azı başqa bir xarici dövlətin ərazilərini əhatə edən ictimai birliklərdir.

Audit zamanı nəzərə alınmalıdır ki, qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasında və xaricdə yaradılan və açılan filialları və nümayəndəlikləri hüquqi şəxs deyil, onları yaratmış təşkilatın əmlakından pay alır və onun adından təsdiq etdiyi əsasnaməyə əsasən fəaliyyət göstərir.

Nəzərə alınmalıdır ki, qeyri-hökumət təşkilatı onun təsis edilməsi nəticəsində, habelə mövcud olan qeyri-hökumət təşkilatının yenidən təşkili nəticəsində yaradıla bilər. Qeyri-hökumət təşkilatının təsis etmə nəticəsində yaradılması təsisçilərin (təsisçinin) qərarı ilə həyata keçirilir. Bu halda təsis yığıncağı çağırılır və təşkilatın nizamnaməsi qəbul olunur.

Qeyri-hökumət təşkilatının nizamnaməsində qeyri-hökumət təşkilatının adı və yerləşdiyi yer, fəaliyyətinin məqsədləri və idarəolunma qaydası, üzvlərin hüquq və vəzifələri, ictimai birliyin üzvlüyünə qəbulun və ondan çıxmanın şərtləri və qaydası, qeyri-hökumət təşkilatının əmlakının formalaşma mənbələri, nizamnamənin qəbulu, ona əlavə və dəyişikliklərin edilməsi qaydası,

qeyri-hökumət təşkilatının ləğv edilməsi və ləğv edildiyi halda əmlakdan istifadə qaydası müəyyən edilməlidir.

Audit zamanı fondun nizamnaməsində həm də fondun «fond» sözü daxil edilmiş adı, onun olduğu yer, fondun məqsədi, onun orqanları, o cümlədən himayəçilik şurası və onun formalaşması qaydası, fondun vəzifəli şəxslərinin təyin edilməsi və azad edilməsi, fond ləğv edildiyi halda onun əmlakının müqəddəratı haqqında məlumatların olmasına diqqət yetirilməlidir.

Nəzərə almaq lazımdır ki, qeyri-hökumət təşkilatlarının təsisçiləri hüquqi şəxslər (dövlət hakimiyyəti və yerli özünüidarə orqanları istisna olmaqla) və ya 18 yaşına (gənclərin ictimai birliklərinin təsisçiləri – 16 yaşına) çatmış fiziki şəxslər ola bilərlər.

Audit zamanı:

- qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin dövlət qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilməsinə;
- qeyri-hökumət təşkilatının nizamnaməsindəki dəyişikliklərin onların dövlət qeydiyyatına alındığı andan qüvvəyə minməsinə;
- qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatının müvafiq icra hakimiyyəti orqanı tərəfindən hüquqi şəxslərin qeydiyyatı haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq həyata keçirilməsinə və yalnız dövlət qeydiyyatına alındıqdan sonra hüquqi şəxs statusunu əldə etməsinə xüsusi diqqət yetirilməlidir.

Nəzərə almaq lazımdır ki, qeyri-hökumət təşkilatı qanunvericiliklə nəzərdə tutulan qaydada, onun təsisçilərinin və ya təşkilatın nizamnamə ilə vəkil edilmiş orqanının qərarı ilə yenidən təşkil edilə bilər. Qeyri-hökumət təşkilatının yenidən təşkili birləşmə, qoşulma, bölünmə, ayrılma və çevrilmə formalarında həyata keçirilə bilər. Qeyri-hökumət təşkilatının ləğv edilməsi ilə bağlı bütün əmlak məsələləri Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş qaydada həll olunur.

Auditor qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan və qeyri-hökumət təşkilatının nizamnaməsində nəzərdə tutulan məqsədlərə zidd olmayan, ölkə daxilində və xaricdə hər hansı fəaliyyət növünü həyata keçirməsini yoxlamalı, həmçinin əldə edilmiş gəliri təsisçiləri (üzvləri) arasında bölüşdürməyərək, yalnız təşkilatın nizamnamə məqsədlərinə nail olmasına yönəldilməsinə xüsusi diqqət yetirməlidir. Nəzərə alınmalıdır ki, belə fəaliyyət kimi qeyri-hökumət təşkilatının yaranma məqsədlərinə cavab verən, mənfəət gətirən mal və xidmət istehsalı və satışı, habelə qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi, əmanətçi kimi təsərrüfat cəmiyyətlərində, ortaqlıqlarda iştirakı qəbul edilir.

Audit zamanı aşağıdakılara diqqət yetirilməlidir:

- qeyri-hökumət təşkilatının mülkiyyətində qanunvericiliklə qadağan olunmamış növlərdə əmlak ola bilər. Qeyri-hökumət təşkilatı öz öhdəliklərinə görə əmlakı ilə cavabdehdir. Bu əmlak yalnız Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq özgəninkiləşdirilə bilər;
- fondun əmlakını onun təsisçiləri (təsisçisi) tərəfindən verilən əmlak təşkil edir. Fond təsis olunduqdan sonra ona əmlak vermiş şəxs təsisçi hüququ qazanmır. Təsisçilər onların yaratdığı fondun öhdəlikləri üçün, fondlar isə öz təsisçilərinin öhdəlikləri üçün məsuliyyət daşımır;
- qeyri-hökumət təşkilatının əmlakının pul və digər şəkildə formalaşdırılma mənbələri aşağıdakılardır:
  - təsisçilərin və ya ictimai birliklərin üzvlərinin müntəzəm və ya birdəfəlik üzvlük haqları;
  - könüllü əmlak haqları və ianələri;
  - malların satışından, xidmətlər göstərilməsindən, işlər görülməsindən daxilolmalar;
  - səhmlər, istiqrazlar, başqa qiymətli kağız və əmanətlərdən alınan dividendlər, gəlirlər;
  - öz əmlakından istifadə və onun satılması nəticəsində əldə edilən gəlirlər;
  - qrantlar;
  - qanunvericiliklə qadağan olunmayan başqa gəlirlər.

Ictimai birliyin strukturu, tərkibi, idarəetmə orqanlarının səlahiyyəti, formalaşdırılma qaydası və onların səlahiyyət müddəti, qərar qəbul etmək və ictimai birliyin adından çıxış etmək qaydaları, qanunvericiliyə müvafiq olaraq, ictimai birliyin nizamnaməsi ilə müəyyən edilir.

Ictimai birliyin ali idarəetmə orqanı ildə bir dəfədən az olmayaraq çağırılan ümumi yığıncaqdır. Ümumi yığıncaq ictimai birliyin icra orqanının, təsisçilərdən birinin və ya üzvlərinin üçdə bir hissəsinin təşəbbüsü ilə çağırılır. Ümumi yığıncağın əsas funksiyası ictimai birliyin marağı naminə nizamnamə məqsədlərinə riayət etməkdir.

Ictimai birliyin icra orqanı kollegial və (və ya) təkbaşına ola bilər. O, ictimai birliyin fəaliyyətinə cari rəhbərliyi həyata keçirir və ictimai birliyin ali idarəetmə orqanına hesabat verir.

Fondun idarəsini fondun prezidenti və ya idarə heyəti həyata keçirir. Fondun himayəçilik şurası fondun nəzarət orqanıdır və fondun fəaliyyətinə, fondun başqa orqanları tərəfindən qərarların qəbul edilməsinə və onların yerinə yetirilməsinin təmin edilməsinə, fond vəsaitinin istifadə edilməsinə, fondun fəaliyyətinə nəzarəti və nizamnaməyə dəyişikliklər edilməsini, ləğvetmə və ya yenidən təşkiletmə haqqında qərarın qəbul edilməsini həyata keçirir. Fondun himayəçilik şurası öz fəaliyyətini ictimai əsaslarla həyata keçirir.

Qeyri-hökumət təşkilatı qanunvericiliyə müvafiq olaraq mühasibat uçotu aparır, onun gəlirlərinin məbləği və strukturu, habelə əmlakı, xərcləri, işçilərinin say tərkibi, əməyin ödənilməsi haqqında məlumatlar dövlət və ya kommersiya sirri ola bilməz. Fond öz əmlakından istifadə haqqında hesabatları hər il dərc etməyə borcludur.

## 3. Kassa və bank əməliyyatlarının auditi

### 3.1. Kassa əməliyyatlarının auditi

Kassa əməliyyatlarının auditi zamanı auditor, ilk növbədə, kassada olan nağd pul vəsaitinin, qiymətli kağızların və ciddi uçot blanklarının faktiki mövcudluğu üzrə inventarizasiyasını aparmalıdır. Inventarizasiya başlanmazdan əvvəl kassada saxlanılan vəsaitlərin faktiki mövcudluğuna dair kassirin iltizamı alınmalı və inventarizasiya baş mühasib və kassirin iştirakı ilə aparılmalıdır.

Inventarizasiya başa çatdıqdan sonra inventarizasiya nəticəsində kassada faktiki müəyyən edilən pul vəsaitlərinin, qiymətli kağızların və ciddi uçot blanklarının qalığı onların mühasibat uçotu üzrə qalıqları ilə müqayisə edilməlidir. Müqayisə nəticəsində kənarlaşma halları aşkar edilərsə, onda inventarizasiyanın nəticəsinə dair baş mühasib və kassirin iştirakı ilə üzləşdirmə cədvəli tərtib edilməli və kənarlaşma hallarının səbəbləri araşdırılmalıdır.

Rəhbərlik ilə kassir arasında maddi məsuliyyət haqqında bağlanmış müqavilənin mövcudluğu, kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin sərəncamının olub-olmaması və həmin sərəncama əməl edilməsinin düzgünlüyü yoxlanılmalıdır. Kassa kitabının səhifələnməsi, qaytanlanması, möhürlənməsi və müvafiq imzalarla təsdiqlənməsinin vəziyyəti yoxlanılmalı və kassa otağının müvafiq tələblərə cavab verib-verməməsinə (yanmayan seyflə təmin edilməsi, qapı və pəncərələrin dəmir haşiyələrlə bağlanması və s.) yəqinlik əldə edilməlidir.

Kassa mədaxil və məxaric orderlərinin tərtib edilməsinin, kassa kitabında onların müvafiq ardıcıllıqla yazılışının düzgünlüyü yoxlanılmalıdır. Bu zaman ciddi uçot blankları olan kassa mədaxil orderlərinə daha çox diqqət yetirilməli, həmçinin ləğv edilmiş kassa mədaxil orderlərinin faktiki mövcudluğu araşdırılmalıdır.

Kassadan nağd pul vəsaitinin verilməsinə dair tərtib edilmiş kassa məxaric orderlərində müvafiq kredit sərəncamçılarının imzalarının olub-olmamasına diqqət yetirilməli, kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Baş kitaba əsasən, kassa üzrə pul vəsaitinin hərəkətinə dair cədvəllər tərtib edilməli və həmin məlumatlardan müvafiq audit bölmələrində istifadə edilməlidir.

Vəkalətnamələrə əsasən, digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyü yoxlanılmalı, vəkalətnamələrin ciddi uçot blanklarında olmasına diqqət yetirilməli və əldə edilmiş məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə edilməlidir.

Xarici valyutada kassa əməliyyatı aparılıbsa, əməliyyatın ayrıca kassa kitabında aparılmasına diqqət yetirilməklə, kassa kitablarında və əmək haqqı üzrə ödəniş cədvəllərində hesab səhvinə yol verilib-verilməməsi yoxlanılmalıdır.

Xarici valyutada nağd qaydada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün müəyyən edilməsini və məzənnə fərqinin hesablanmasının düzgünlüyünü yoxlamaq lazımdır.

Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitləri üzrə qalıq məbləğlərinin kassaya vaxtında qaytarılması araşdırılmalı və bununla bağlı məlumatdan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Aparılmış kassa əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Qeyri-hökumət təşkilatlarında audit aparılması zamanı çirkli pulların yuyulmasının ehtimal olunmasını şərtləndirən aşağıdakı əsas əlamətlərin olub-olmamasına xüsusi diqqət yetirilməlidir:

- böyük həcmli sazişlərə, xüsusilə dövriyyə vəsaitlərinin mübadiləsinə və ya pul köçürmələrinə;
- bazar qiymətlərindən kifayət qədər fərqlənən (aşağı və ya yuxarı) əmtəə və valyutanın alınmasına;
- tərəfdaşların qanuni biznesi və ya fəaliyyəti ilə ziddiyyət təşkil edən müqavilələrə;
- məqsədi aydın olmayan investisiyaların alınmasına;
- lüzumsuz ezamiyyələrə;
- böyük həcmli komisyon haqlarının ödənilməsinə;
- təyinatsız xidmətə görə məsləhətçilərə, əlaqəli tərəflərə, əməkdaşlara və ya hökumət işçilərinə böyük həcmli haqların ödənilməsinə.

### 3.2. Bank əməliyyatlarının auditi

*a) Bankda olan hesablaşma hesablarının auditi*

Auditlə əhatə olunan dövrün sonuna bankda olan bütün hesablar barədə arayış alınmalı, həmin hesablarda mövcud olan qalıq məbləğləri təsdiq olunmuş bank çıxarışlarında, baş kitabda və maliyyə hesabatlarında göstərilən qalıqlar ilə müqayisə edilməli, kənarlaşma halları olarsa, bunun səbəbləri araşdırılmalıdır. Bank çıxarışlarında göstərilən məbləğlərin təsdiqi ilkin sənədlərə əsasən yoxlanılmalıdır. Bundan başqa, bank çıxarışlarında düzəlişlər olduqda, onların bank tərəfindən təsdiqlənməsi tələb edilməli, həmçinin ilkin sənədlərdə bankın ştampı olmadığı halda, əməliyyatın düzgünlüyü barədə bankdan arayış alınmalıdır.

Auditlə əhatə olunan dövrdə hesablaşma hesabları üzrə pul vəsaitlərinin hərəkəti cədvəli tərtib edilməli və həmin cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir.

Hesablaşma hesabları üzrə ilkin sənədlərə əsasən aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar xüsusi əhəmiyyət kəsb etdiyi hallarda, aparılmış əməliyyatların düzgünlüyü yoxlanılmalı və əldə edilmiş məlumatlardan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir.

Qeyri-hökumət təşkilatlarında audit zamanı nəzərə alınmalıdır ki, çirkli pulların yuyulmasında aşağıdakı bank əməliyyatlarından istifadə oluna bilər:

- aşağı və ya yuxarı nominalla böyük həcmli banknotların mübadiləsi (yerli və xarici);
- mühasibat uçotunda əks etdirilmədən böyük həcmdə pul vəsaitlərinin tərəfdaşların hesabına köçürülməsi;
- çeklər vasitəsilə böyük məbləğin ödənilməsi.

*b) Xarici valyutada aparılan bank əməliyyatlarının auditi*

Xarici ölkələrin banklarında açılan valyuta hesabları barədə arayış alınmalıdır. Əgər bir neçə valyuta üzrə hesablar açılmışdırsa, onda onların nə dərəcədə qanunamüvafiq olması araşdırılmalıdır.

Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların aparılması zamanı bank xidmətləri, birжa rüsumları və yaranmış məzənnə fərqlərinin uçotda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirilməsinin düzgünlüyü müəyyən edilməlidir.

Xarici banklara köçürülmüş pul vəsaitlərinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və hesablaşma əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilərək, valyuta hesabı üzrə verilmiş mühasibat yazılışlarının düzgünlüyü araşdırılmalıdır.

Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, onda qeyri-rezidentin mənfəətindən gəlir vergisinin və əlavə dəyər vergisinin tutulmasının düzgünlüyü yoxlanılmalı və əldə edilmiş məlumatlar vergilər üzrə hesablaşmaların auditi zamanı aparılan audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir.

Xarici valyutada aparılan bank əməliyyatlarının auditi zamanı çirkli pulların yuyulmasının ehtimal olunmasını şərtləndirən əlamətlərin olub-olmamasına xüsusi diqqət yetirilməlidir.

*c) Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi*

Ödəniş məbləğləri ilkin sənədlərlə müqayisə edilməli, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir. Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tərtib edilməsinə yəqinlik əldə etmək məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydaları və ödəniş müddətləri öyrənilməli, əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və həmin vəsaitlərin başqa məqsədlər üçün istifadə edilib-edilməməsi müəyyənləşdirilməlidir.

Elektron kredit kartlarından və limitləşdirilmiş çeklərdən istifadənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü, onlarla aparılmış əməliyyatların məqsədəuyğunluğu, çeklər və kartlar təqdim edilən şəxslərlə müqavilələr bağlanmasının və onlardan qəbul edilən hesabatların düzgünlüyü yoxlanılmalıdır.

Qiymətli sənədlərin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş təyyarə biletləri və s.) kassada saxlanmasının, hesabat sənədlərinin tərtib edilməsinin və pul sənədlərinin analitik uçotunun aparılmasının düzgünlüyü yoxlanılmalıdır. Yenidən satılmaq və ya ləğv edilmək üçün səhmdarlardan alınmış səhmlərin faktiki mövcudluğu yoxlanılmalıdır.

Yolda olan ödəniş köçürmələrinin hesabatlarda əks etdirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə, təqdim edilmiş ilkin sənədlərə əsasən, balans hesabından daxil olan vəsaitlər müqayisə edilməli, kənarlaşma halları aşkar edildikdə, səbəbləri araşdırılmalıdır.

Maliyyə hesabatlarında qısamüddətli maliyyə qoyuluşları kimi əks etdirilən qiymətli kağızların, depozitlərin və verilmiş borclar üzrə subhesabların aparılmasına və müddətinin həqiqətən bir ildən çox olmamasına diqqət yetirilməklə, depozit hesabların yaradılması şərtləri təhlil edilməli və bu əməliyyatlar üzrə alınmış faizlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Əgər qiymətli kağızların alış dəyəri nominal dəyərindən fərqlənirsə, fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olmasının düzgünlüyü və xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü müəyyən edilməklə, səhmlərin və digər qiymətli kağızların satışı üzrə əməliyyatların nəticələrinin mənfəətin və ya zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Audit zamanı çirkli pulların yuyulması əlamətləri ola bilən böyük məbləğdə pul köçürmələrinə, investisiyalara, kredit kartları vasitəsilə offşor zonalara ödənişlərə xüsusi diqqət yetirilməlidir.

Auditlə əhatə olunan dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox əhəmiyyət kəsb edirsə, banklardan bu barədə təsdiqləyici arayış alınmalı, hesablaşma hesabı ilə aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

## *4. Hesablaşma və kredit əməliyyatlarının auditi*

### 4.1. Əmək haqqı üzrə hesablaşmaların auditi

Işçi və qulluqçularla bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğu seçmə qaydasında yoxlanılmalı, işçilərin orta siyahı sayı, onların kateqoriyaları, həmçinin tətbiq edilən əmək haqqı sistemi və forması öyrənilməlidir.

Vaxtamuzd ödəniş sistemində əmək haqqının ştat cədvəlinə uyğun olaraq hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalı, əmək haqqının hesablanması cədvəli tabellərdə göstərilmiş iş vaxtı ilə müqayisə edilməlidir. Artıq işlənmiş vaxta görə (istirahət və bayram günləri də daxil olmaqla) ödənişlərin Əmək Məcəlləsinə uyğunluğuna yəqinlik əldə edilməli və məzuniyyət haqlarının, sosial təyinatlı ödənişlərin hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Əmək haqqından gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma, icra vərəqələri və s. üzrə tutulmaların müvafiq qanunvericilik aktlarının və normativ sənədlərin tələblərinə uyğunluğu seçmə qaydasında yoxlanılmalı, fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin tətbiq edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının düzgünlüyü hesab qaydasında təkrar yoxlanılmalı, əmək haqqı üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin və əmək haqqı üzrə xərclərin fondun xərclərinə aid edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesab cədvəlləri tərtib edilməli, bu cədvəllərdə gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və digər tutulmaların məbləğləri əks etdirilərək, həmin məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə edilməlidir.

### 4.2. Malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi

Təşkilatın mühasibatından malsatan və podratçı təşkilatlar üzrə mövcud borcların siyahısı alınaraq, həmin təşkilatlarla bağlanmış müqavilələrin mövcudluğu və tərtib edilməsinin düzgünlüyü araşdırılmalı, tərəflərin öhdəlikləri və müqavilə məbləğinin ödənilməsi şərtləri öyrənilməlidir.

Malsatan və podratçı təşkilatlarla hesablaşmalar üzrə borcların əmələ gəlməsinin tarixi və səbəbləri müəyyən edilməklə, bu növ hesablaşmalar üzrə aparılmış əməliyyatların mühasibat uçotunda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyən edilməlidir.

Mühüm əhəmiyyət kəsb edən borcların əmələ gəlməsinin səbəbləri və reallığı araşdırılaraq, həmin borclar üzrə üzləşmə aktları tələb edilməli, əgər üzləşmə aparılmayıbsa, borcların reallığını təsdiq etmək məqsədilə, üzləşmənin aparılması və nəticəsi üzrə müvafiq aktın tərtib edilməsi təşkilatın rəhbərliyindən tələb edilməlidir.

Məbləğcə daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünü yoxlamaq məqsədilə təhtəlhesab şəxslərlə hesablaşmaların, kassa və bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə edilməli və əsassız ödənişlərin mövcud olub-olmaması müəyyənləşdirilməli, debitor borclarının iddia müddətinin keçib-keçməməsi dəqiqləşdirilməli, həmin borcların ödənilməsi üçün tədbirlərin görülməsi tələb edilməlidir.

Alınmış qiymətli kağızların və maddi dəyərlilərin tam mədaxil edilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə ödəniş sənədlərində göstərilən məbləğlər mədaxil sənədləri ilə müqayisə edilməli, əgər xidmət göstərilmişdirsə, onda məsrəflərin gəlirdən çıxılmalı olan xərclərin tərkibinə aid edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bütün iri malsatan və podratçı təşkilatlar üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalı və bununla əlaqədar alınan izahatlar təsdiqedici sənədlərə isnad edilməklə, audit materiallarına əlavə edilməlidir.

Xarici iqtisadi əlaqələr üzrə aparılan hesablaşma əməliyyatları zamanı maddi dəyərlilərin tərtib edilmiş gömrük bəyannamələrində gömrük dəyəri müəyyən edilərkən və onların dəyəri ödənilərkən, bank çıxarışlarında göstərilmiş valyuta məzənnəsinə əsasən, mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Malsatan və podratçı təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğun olması araşdırılmalı və müqavilə üzrə nəzərdə tutulan şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmaların hesabına silinməsinin düzgünlüyü yoxlanılmalı, hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə aparılmışdırsa, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir.

Qaldırılmış iddiaların nə dərəcədə əsaslı olması araşdırılmalı və bununla əlaqədar aparılmış əməliyyatların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Əvvəlki audit zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olaraq, bu ilki audit zamanı onların təkrar olunub-olunmaması xüsusi diqqətlə araşdırılmalıdır.

### 4.3. Alıcı və sifarişçilərlə hesablaşmaların auditi

Təşkilatın mühasibatlığından alıcı və sifarişçilərlə hesablaşmaların hansı metodla (kassa və ya hesablaşma metodu ilə) aparılması öyrənilməli, müqavilələrin mövcudluğu, onların tərtib edilməsinin düzgünlüyü və ödəmə şərtləri araşdırılmalı, bank və kassa əməliyyatlarının, təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı aparılmış audit prosedurlarının nəticəsindən bu bölmənin auditi zamanı istifadə edilməlidir.

Göndərilmiş məhsul (mal), görülmüş iş və göstərilmiş xidmətlər üzrə ilkin sənədlərin tərtib edilməsinin düzgünlüyü araşdırılmalı, əgər hesablaşma veksellərdən istifadə yolu ilə aparılıbsa, vekselər üzrə faizlərin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Debitor və kreditor borclarına dair arayış alınmalı, yekun məbləğinin mühasibat uçotunda göstərilən məbləğlərlə uyğunluğu yoxlanılaraq, həmin borclar arasında iddia müddəti keçmiş olan borc məbləğləri və onların əmələ gəlməsinin səbəbləri araşdırılmalıdır.

Mühüm əhəmiyyət kəsb edən və vaxtında ödənilməyən debitor borcları üzrə üzləşmələrin aparılıb-aparılmaması müəyyən edilməlidir; əgər üzləşmə aparılmayıbsa, onun icra edilməsi və nəticələri üzrə müvafiq aktların tərtib edilməsi təşkilatın rəhbərliyindən tələb edilməlidir.

Alıcı və sifarişçi təşkilatlardan alınmış avans məbləğlərinin hesabatlarda əks etdirilməsinin, avans məbləğlərinə görə əlavə dəyər vergisi hesablanmasının və yüklənmiş mallara (görülmüş işlərə) görə alınmış avans məbləğlərinin alıcı və sifarişçi təşkilatların hesabına silinməsinin düzgünlüyü yoxlanılmalıdır.

### 4.4. Büdcədənkənar fondlarla hesablaşmaların auditi

Büdcədənkənar fondlarla hesablaşmaların auditi aparılarkən baş kitabda, dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında göstərilən qalıq məbləğləri üzləşdirilməli və kənarlaşma hallarının olub-olmaması müəyyənləşdirilməlidir.

Büdcədənkənar fondlara ödəmələrin hesablanması bazasının və tətbiq edilmiş normaların düzgünlüyü araşdırılmalı və qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin hesablaşmalarda nəzərə alınmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır. Nəzərə alınmalıdır ki, dövlətlərarası (hökumətlərarası) sazişlərə əsasən alınmış qrantlardan büdcədənkənar fondlara ayırmaların fərqli qaydaları müəyyən edilə bilər. Belə hallarda həmin sazişin tələbləri əsas götürülməlidir.

Büdcədənkənar fondlara ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Büdcədənkənar fondlara ödənişlərin təyinatı üzrə vaxtında edilməsi və hesabatların vaxtında təqdim edilib-edilməməsi araşdırılmalı, nöqsan və çatışmazlıq halları aşkar edilərsə, bu barədə fondun rəhbərliyinə yazılı məlumat verilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində əldə edilən məlumatlar bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə üzləşdirilərək, büdcədənkənar fondlara ödəmələr üzrə qalıq məbləğləri müəyyən edilməli və alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıq məbləğlərinə uyğunluğu yoxlanılmalıdır.

### 4.5. Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi

Təhtəlhesab şəxslərlə tam maddi məsuliyyət haqqında bağlanmış müqavilələrin mövcudluğu müəyyənləşdirilməli, onlar tərəfindən təqdim edilmiş avans hesabatlarının tərtib edilməsinin və xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarılmasının düzgünlüyü, həmçinin avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, nəqliyyat biletləri və s.) mövcudluğu və məbləğlərin avans hesabatlarında əks etdirilməsinin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara uyğun olaraq hesablanıb ödənilməsinin və təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə əməliyyatların maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdr.

Bu prosedurların nəticələrindən seçmə qaydasında kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə edilməlidir.

Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı məqsədi aydın olmayan böyük məbləğdə pul vəsaitinin həmin şəxslərə verilməsinə, onların öhdəsində böyük borc məbləğlərinin olub-olmamasına xüsusi diqqət yetirilməlidir.

### 4.6. Vergilər üzrə hesablaşmaların auditi

Təşkilatın fəaliyyətindən asılı olaraq, hesablanan və ödənilən vergilər barədə məlumat alınmalı, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirilməsinin və hər bir vergi növü üzrə analitik uçotun aparılmasının düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Qeyri-hökumət təşkilatlarının gəlirlərinin adətən qrantlar hesabına formalaşmasını nəzərə alaraq, əvəzsiz maliyyə yardımı (qrant vəsaiti) hesabına malların təqdim edilməsi, işlərin görülməsi və xidmətlərin göstərilməsinin Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiqliyi diqqətlə yoxlanılmalıdır.

Nəzərə alınmalıdır ki, dövlətlərarası (hökumətlərarası) sazişlərə əsasən alınmış qrantlardan vergilərin hesablanmasında fərqli qaydalar müəyyən edilə bilər. Belə hallarda həmin sazişin tələbləri əsas götürülməlidir. Lakin həmin qaydaların (ƏDV-nin və mənfəət vergisinin hesablanması və s.) düzgünlüyünə əməl edilməsinə xüsusi diqqət yetirilməlidir. Belə ki, müəyyən edilmiş güzəştlərin mənbədən tutulan vergilərə (xüsusilə qeyri-rezidentin Azərbaycan ərazisindən əldə etdiyi gəlirlərdən tutulmalı (hesablanmalı) olan vergilərə) aid edilməsi vergi qanunvericiliyinə ziddir.

### 4.7. Kreditlər, borclar və digər hesablaşmalar üzrə əməliyyatların auditi

Alınmış kreditlər və borc məbləğlərinə dair bağlanmış müqavilələrə əsasən, ödəmə şərtləri öyrənilməli, onların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilərək, kredit və borclardan istifadəyə görə hesablanmış faizlərin və xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalıqların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü araşdırılaraq, bu növ maliyyələşmələrdən təyinatı üzrə istifadə edilib-edilməməsinin düzgünlüyü yoxlanılmalı və kənarlaşma halları aşkar edildikdə, səbəbləri müəyyənləşdirilməlidir.

Əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə qaydasında öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, xərclərin tərkibinə daxil edilən sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə üzləşdirilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli və bu hesablaşmaların aparılmasının düzgünlüyü yoxlanılmalıdır.

Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtləri təhlil edilərək, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğunluğu, bu fəaliyyətin nəticəsinin mənfəətin və ya zərərin hesabatında, həmçinin maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Alınmış kredit və borc ödənilmədən (buna maliyyə imkanları olduğu hallarda) növbəti kreditin alınması hallarının olub-olmamasına diqqət yetirilməlidir. Nəzərə alınmalıdır ki, belə hallar çirkli pullarla bağlı əməliyyatları şərtləndirə bilər.

### *6. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi*

Bu sahənin auditi aparılarkən mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları haqqında məlumatlar əldə edilməli və onların hesabat dövrünün sonuna analitik və sintetik uçot qalıqları ilə müqayisə edilməlidir. Kənarlaşma halları müəyyən edilərsə, səbəbləri araşdırılmalıdır.

Hesabat dövrünün sonuna fondun əsas vəsaitlərinin inventarizasiyasının aparılıb-aparılmaması müəyyənləşdirilməli, əgər aparılıbsa, nəticələrinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin əsas vəsaitlərin silinməsi halları olarsa, bunun qanunauyğunluğu təhlil edilməlidir.

ƏV, QMA və MMD-nin alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və onların alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin ilkin dəyərlərinə əlavə edilib-edilməməsi müəyyənləşdirilərək, mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Əgər ƏV, QMA və MMD xaricdən idxal edilərək alınmışdırsa, onda gömrük bəyannamələrində onların gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyü araşdırılmalı, həmçinin gömrük dəyərinə gömrük prosedurları ilə əlaqədar ödənilmiş vergi və rüsum məbləğlərinin əlavə edilərək mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

ƏV, QMA və MMD-nin kateqoriyalar üzrə qruplaşdırılmasının düzgünlüyü, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının mövcud qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmalı və QMA-nın amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablanmasına yəqinlik əldə edilməlidir.

ƏV, QMA və MMD-nin xaric olunmasının maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin müəyyən edilməsinin düzgünlüyü araşdırılmalıdır. Əgər ƏV qalıq dəyərindən aşağı qiymətləndirilmişdirsə, onda tətbiq edilən qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətlərinə uyğun olması barədə qiymətləndirici ekspertin rəyi tələb edilməli və xaricolmanın nəticələrinin mənfəətin və ya zərərin hesabatında sair satışın nəticələri kimi əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Azqiymətli və tezköhnələn əşyaların istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

### *6. Xərclərin və maya dəyərinin auditi*

Qeyri-hökumət təşkilatlarında xərclərin və maya dəyərinin auditi zamanı qrant (əvəzsiz maliyyə yardımı) layihələri və kommersiya fəaliyyəti (belə fəaliyyət mövcuddursa) üzrə xərclərin ayrılıqda aparılmasına xüsusi diqqət yetirilməlidir.

Eyni zamanda, qrant layihələri üzrə faktiki xərclərin layihəyə uyğunluğu və məhz ayrıldığı məqsədlərə xərclənməsi xüsusi diqqətlə araşdırılmalıdır. Qrant vəsaitinin xərclənməsi zamanı layihənin təyinatına və «Qrant haqqında» Azərbaycan Respublikası Qanununa zidd hallar aşkar etdikdə, auditor öz hüquq və səlahiyyətləri daxilində müvafiq tədbirlər görməlidir.

Xərclərin tərkibinə aid edilmiş məsrəflər və məbləğlər araşdırılaraq, aşağıdakı elementlər üzrə qruplaşdırılmalıdır:

- mal-material xərcləri;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;
- sair xərclər.

Mal-material dəyərlilərinin alınması, saxlanılması və silinməsi prosesi öyrənilməlidir.

ƏV, QMA və MMD bölməsində istifadə edilmiş audit prosedurları nəticəsində əldə edilmiş məlumatlardan bu bölmənin auditi zamanı istifadə edilməli və təyinatından asılı olaraq, auditin aparılması proqramında müəyyən edilən yoxlama metoduna əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Sair xərclərin tərkibində mühüm əhəmiyyətə malik olan xərclərin düzgünlüyü ilkin sənədlərə əsasən təhlil edilməli və həmin xərclərin tərkibinə daxil edilən müxtəlif xərc elementləri (təbii qaz, elektrik enerжisi, su, kommunal xərclər və s.) təqdim edilmiş kalkulyasiyalarda göstərilən hesablamalarla müqayisə edilməlidir. Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədlərin düzgünlüyü yoxlanılaraq, göstərilən təşkilatlarla bağlanmış müqavilə şərtləri öyrənilməli və əldə edilən məlumatlardan həmin təşkilatlarla aparılmış hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Işçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olub-olmamasını müəyyənləşdirmək məqsədilə ezamiyyə xərcləri üzrə təqdim edilmiş hesabatlar seçmə qaydasında yoxlanılmalıdır. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu sahənin auditi zamanı istifadə edilməlidir.

Xərclərin tərkibi təhlil edilərək, onların aidiyyəti üzrə mühasibat uçotunda, həmçinin mənfəətin və zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bu bölmədə istifadə edilən audit prosedurları nəticəsində əldə edilən məlumatlardan maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyünün auditi zamanı istifadə edilməlidir.

### *7. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi*

Təşkilatın maliyyə hesabatları və dövriyyə-qalıq cədvəllərinə əsasən, qalıqlar dəqiqləşdirilməli, uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparılmasına yəqinlik əldə edilərək, onların riyazi düzgünlüyü yoxlanılmalıdır.

Mülkiyyətçisi olduğu hallarda, səhmlərin və qiymətli kağızların dəyərinin onların nominal dəyərindən artıq və ya əskik olması hallarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilərək, bu prosedurların nəticələri maliyyə vəziyyətinin təhlili bölməsində aparılmış prosedurların nəticələri ilə müqayisə edilməlidir.

Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılması nəzərə alınaraq, bu məqsədlə yerinə yetirilən prosedurların nəticələri müqayisə edilməlidir.

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

Qeyri-hökumət təşkilatı kimi fəaliyyət göstərən fondun vəsaitlərinin onun nizamnaməsinə uyğun olaraq xərclənməsinin auditi aparılarkən, onun öz təyinatına (sosial, xeyriyyə, mədəni, təhsil və ya digər ictimai faydalı məqsədlər) uyğun xərclənməsinin düzgünlüyü barədə kifayət qədər auditor sübutları əldə edilməlidir.

### *8. Mənfəət (zərər), fondlar və ehtiyatların auditi*

Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində dövriyyə və ilin sonuna qalıq əks etdirilməklə, hesabat dövrü ərzində balans hesabları üzrə dövriyyə-qalıq cədvəlləri tərtib edilərək, əldə edilən məlumatlar baş kitabın məlumatları ilə müqayisə edilməli və aşağıdakı balans hesabları araşdırılaraq təhlil edilməlidir:

- ehtiyat kapitalı;
- əlavə kapital;
- keçmiş illərin bölüşdürülməmiş mənfəəti;
- keçmiş illərin ödənilməmiş zərəri;
- xüsusi fondlar və ehtiyatlar.

Mənfəət (zərər), fondlar və ehtiyatların auditi zamanı auditor bir daha mənfəətin dividend şəklində bölüşdürülməməsinə xüsusi diqqət yetirməlidir.

**Qeyri-hökumət təşkilatının xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və yalnız onun nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin maliyyə ili üzrə bölüşdürülməsi ictimai birliyin ali idarəetmə orqanının və ya fondun idarəetmə orqanının ümumi yığıncağının qərarı ilə qəbul edilir. Nəzərə almaq lazımdır ki, qüvvədə olan qanunvericiliyə uyğun olaraq, qeyri-hökumət təşkilatının sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirdən başqa, digər gəlirləri, habelə onların aldıqları əvəzsiz köçürmələr, üzvlük haqları və ianələr vergidən azaddır.**

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz verilməsi və ya alınması halları təhlil edilməli və bu əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Uçot siyasətinə və təsis sənədlərinə əsasən, xüsusi təyinatlı fondların yaradılmasının qanunauyğunluğu yoxlanılmalı və bu məlumatlardan səhmlərlə bağlı əməliyyatların auditi zamanı istifadə edilməlidir.

Təşkilatın əldə edilmiş mənfəətinin onun nizamnaməsində nəzərdə tutulan məqsədlərə yönəldilməsi xüsusi diqqətlə araşdırılmalıdır.

Smetaya əlavə edilən ilkin sənədlərə əsasən, çəkilmiş xərclərin əsaslılığı təhlil edilməlidir. Hesabat dövrü zərərlə başa vurularsa, zərərin örtülməsinin və mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

### *9. Mühasibat uçotunun vəziyyətinin auditi*

Bu sahənin auditi zamanı nəzərə almaq lazımdır ki, qeyri-hökumət təşkilatı öz fəaliyyətinin nəticələri haqqında hesabatı müəyyən edilmiş qaydada və vaxtda müvafiq icra hakimiyyəti orqanına təqdim etməli, buna hüququ çatan maraqlı tərəflərin bu hesabatlarla tanış olmasını təmin etməlidir.

Mühasibat balansının, mənfəət və zərər hesabatlarının dövriyyə cədvəllərinə əsasən düzgün tərtib edilməsinə yəqinlik əldə edilməli, məbləğlərin riyazi düzgünlüyü yoxlanılaraq, baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edilməsi və tətbiq olunmuş hesabların mövcud normativ aktlara uyğun olub-olmaması müəyyən edilməlidir.

Dövriyyə cədvəlinə əsasən, hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar ayrı-ayrı bölmələr üzrə qruplaşdırılmalı, maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan məbləğlər müəyyənləşdirilməlidir. Dövriyyə cədvəlində maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Milli Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Balans hesabları üzrə cari ilin əvvəlinə mövcud olan qalıqlar əvvəlki ilin hesabatlarında ilin sonuna mövcud olan qalıqlarla müqayisə edilməli, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalıdır.

Aşkar edilmiş kənarlaşmalara görə edilməli mühasibat düzəlişləri nəzərə alınmaqla, yekun dövriyyə cədvəli tərtib edilməli və həmin məlumatların maliyyə (mühasibat) uçotunda tam əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara görə düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə təsir etməsi amilləri müəyyənləşdirilməli və həmin amillər auditin nəticəsi üzrə verilən rəydə öz əksini tapmalıdır.

### *10. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər*

Audit nəticəsində düzgün hesab edilmiş balans hesabatı və hesabata əlavələr araşdırılaraq, daha çox əhəmiyyət kəsb edən göstəricilər müəyyənləşdirilməli və həmin göstəricilər əvvəlki illərin nəticələrinə dair göstəricilərlə üzləşdirilərək, müqayisə cədvəli tərtib edilməli, iqtisadi göstəricilərin aşağı düşməsi halları müşahidə edilərsə, səbəbləri təhlil edilərək, rəhbərliyə təqdim olunan məlumatda əks etdirilməlidir.

Təşkilatın aktivlərinin dəyərinin aşağı düşməsi halları təhlil edilməli və onların qalıq məbləğinin nizamnamə kapitalından aşağı olmamasına yəqinlik əldə edilməlidir.

Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların auditlə əhatə edilən dövr ərzində aradan qaldırılıb-qaldırılmamasına xüsusi diqqət yetirilməlidir. Audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqlar, onların aradan qaldırılmasına dair rəy və təkliflər, həmçinin mühasibat uçotunun vəziyyətinə verilən qiymət barədə mülahizələr auditin nəticəsinə dair tərtib edilən auditor aktına daxil edilməklə, rəhbərliyə ünvanlanan məktubda əks etdirilməlidir.

**Qeyri-hökumət təşkilatının illik fəaliyyətinin auditinin nəticəsi üzrə verilən auditor rəyi təşkilatın rəhbərliyinin müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi maliyyə hesabatlarına edilməli olan məcburi əlavələrdən biridir.**


PROQRAMI TƏRTIB EDƏNLƏR:
Nəcəf TALIBOV –
Auditorlar Palatası sədrinin
elmi-metodik məsələlər üzrə müşaviri;

*Cəmaləddin AXUNDOV –*
***Auditorlar Palatasının Audit qanunvericiliyi və***
**metodik təminat şöbəsinin müdiri**



***AS1DS 033/084-2005***
***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2005-ci il 16 dekabr tarixli***
***158/5 saylı qərarı ilə təsdiq edilmişdir***


## VERGI AUDITININ APARILMASINA DAIR
## P R O Q R A M

### *MÜNDƏRICAT:*

*I. Giriş*
*II. Verginin müəyyən edilməsinin əsas şərtləri*
*III. Fiziki şəxslərin gəlir vergisinin auditi*
*IV. Hüquqi şəxslərin (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa) mənfəət vergisinin auditi*
*V. Əlavə dəyər vergisinin auditi*
*VI. Aksizlərin auditi*
*VII. Əmlak vergisinin auditi*
*VIII. Torpaq vergisinin auditi*
*IX. Yol vergisinin auditi*
*X. Mədən vergisinin auditi*
*XI. Sadələşdirilmiş verginin auditi*
*XII. Auditin nəticəsi üzrə təkliflər*

## *I. Giriş*

Təsərrüfat subyektlərində mühasibat uçotu ilə vergi uçotu arasında fərqlərin olması, vergi ödəyiciləri tərəfindən vergilərin düzgün hesablanmasına və vaxtında büdcəyə ödənilməsinə əminliyin yaranması, vergi orqanlarına təqdim edilmiş vergi bəyannamələrində şəffaflığın təmin edilməsi bu proqramın hazırlanmasını zəruri etmişdir.

Proqram Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Vergi Məcəlləsi, Inzibati Xətalar Məcəlləsi və digər qanunvericilik aktları, Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının təsdiq etdiyi milli audit standartları rəhbər tutulmaqla, habelə hər bir vergi növünün spesifik xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmışdır.

Vergi auditi məcburi və ya könüllü audit çərçivəsində həyata keçirilir. Vergi auditinin aparılması zamanı Azərbaycan Respublikası Vergi Məcəlləsinin tələblərinə ciddi əməl olunmalı, bunun üçün, ilk öncə, müəssisənin uçot siyasəti öyrənilməli, mənfəət və zərərin müəyyən edilməsi metoduna diqqət yetirilməlidir.

## *II. Verginin müəyyən edilməsinin əsas şərtləri*

Vergi o halda müəyyən edilmiş hesab olunur ki, vergi ödəyicisi və vergitutma elementləri - vergitutma obyekti; vergitutma bazası; vergi dövrü; vergi dərəcəsi; verginin hesablanması qaydası; verginin ödənilməsi qaydası və müddəti müəyyən edilmiş olsun.

Hər bir vergi növü ayrı-ayrılıqda auditin obyekti kimi baxılır. Bunun üçün audit zamanı aşağıdakı mərhələlərə fikir verməк lazımdır:

- vergi ödəyicisi və ya vergi agenti kimi vergilərin ödənişi üzrə öhdəliklərin müəyyən edilməsi;
- mühasibat uçotu və vergi uçotunun qiymətləndirilməsi;
- vergilər üzrə daxili nəzarət sisteminin qiymətləndirilməsi;
- auditor tərəfindən səhvləri aşkar etməmək riskinin müəyyənləşdirilməsi;
- auditor təşkilatı və ya sərbəst auditor tərəfindən qəbul edilmiş auditor riski səviyyəsində auditor seçməsinin həcminin müəyyənləşdirilməsi;
- konkret olaraq hər bir vergi üçün əhəmiyyətlilik səviyyəsinin və ya auditin ümumi planı üzrə qəbul edilmiş ümumi əhəmiyyətlilik səviyyəsinin müəyyən edilməsi;
- vergi auditi üçün məlumat mənbəyinin seçilməsi;
- analitik prosedurların icra edilməsi;
- auditor seçməsinin nəticələrinin qiymətləndirilməsi;
- auditor sübutlarının qiymətləndirilməsi;
- maliyyə hesabatlarında büdcə ilə vergilər üzrə hesablaşmaların qalığının etibarlılıq dərəcəsinə dair auditor rəyinin formalaşdırılması;

- təsərrüfat subyektinin rəhbəri üçün geniş hesabatın hazırlanması.

Audit çərçivəsində həmçinin vergi bəyannamələrinin tərtib edilməsinin düzgünlüyü yoxlanılır, vergi uçotunun tamlığı və müəssisənin daxili nəzarət sistemi qiymətləndirilir.

Göstərilən mərhələlərin həyata keçirilməsi üçün hər bir vergi növü üzrə Azərbaycan Respublikasının Vergi Məcəlləsinin əsas müddəaları nəzərə alınmalıdır.

## *III. Fiziki şəxslərin gəlir vergisinin auditi*

### 3.1. Vergitutma obyekti

Fiziki şəxslərin gəlir vergisi fiziki şəxslərə ödənilən gəlirlərdən tutulan vergidir.

Fiziki şəxslərin gəlir vergisinin yoxlanılması zamanı auditor tərəfindən vergitutma obyektinin düzgün müəyyənləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Buna görə də auditor aşağıdakı istiqamətlər üzrə diqqətli araşdırmalar aparmalıdır:

- rezident vergi ödəyicisinin Azərbaycan Respublikasında və Azərbaycan Respublikasının hüdudlarından kənarda muzdlu işlə əlaqədar əldə etdiyi gəlirlərdən, muzdlu işə aid olmayan fəaliyyətdən əldə etdiyi gəlirlərdən və vergidən azad edilən gəlirlərdən başqa, bütün digər gəlirlərinin həcminin müəyyən edilməsi;
- qeyri-rezident vergi ödəyicisinin Azərbaycan Respublikasında əldə etdiyi gəlirlərin həcminin müəyyən edilməsi;
- fiziki şəxslərin gəlirlərinin mövcudluğunun müəyyən edilməsi üçün gəlirdən çıxılan məbləğləri və vergi güzəştlərindən istifadə hüququnu təsdiqləyən sənədlərin mövcudluğu.

### 3.2. Vergitutma obyektinin müəyyənləşdirilməsi və vergi dərəcələrinin tətbiqinin düzgünlüyünün yoxlanılması

Bu bölmə üzrə yoxlama aparan zaman auditor ayrı-ayrılıqda aşağıdakıların mövcudluğunu müəyyənləşdirməlidir:

- muzdlu işlə əlaqədar əldə edilən gəlirləri;
- muzdlu işə aid olmayan hər bir fəaliyyət növündən (sahibkarlıq və qeyri- sahibkarlıq) əldə edilən gəlirləri.

Vergi Məcəlləsinin 92-ci maddəsinə əsasən ödəmə mənbəyində verginin tutulmamasına və ya büdcəyə köçürülməməsinə görə həmin məbləği ödəyən hüquqi şəxslər və onların müvafiq işçiləri Məcəllənin tələblərinə uyğun olaraq məsuliyyət daşıyırlar.

Vergi Məcəlləsinin 150.1-ci maddəsinə əsasən, muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və sahibkarlar, dövlət sosial təminat sistemi vasitəsilə ödənilən pensiyalar istisna edilməklə, digər şəxslərə pensiya ödəyən hüquqi şəxslər və sahibkarlar, hüquqi və fiziki şəxslərə dividend ödəyən rezident hüquqi şəxslər, hüquqi və fiziki şəxslərə faizlər ödəyən hüquqi şəxslər və sahibkarlar, fiziki şəxslərə daşınar və daşınmaz əmlak üçün icarə haqqı, royalti ödəyən hüquqi şəxslər və sahibkarlar, vergi ödəyicisi kimi vergi orqanlarında uçota alınmayan, VÖEN təqdim etməyən fiziki şəxslərə haqq ödəyən hüquqi şəxslər və ya fərdi sahibkarlar ödəmə mənbəyində gəlir vergisini tutmağa borcludurlar.

Fiziki şəxslərin gəlir vergisinin yoxlanılması zamanı auditor tərəfindən vergitutma obyektinin - fiziki şəxsə ödənilən gəlirin düzgün müəyyən edilməsi, gəlirdən çıxılan məbləğləri və vergi güzəştlərindən istifadə hüququnu təsdiqləyən sənədlərin mövcudluğu yoxlanılmalıdır. Bu zaman auditor nəzərə almalıdır ki, muzdlu işlə əlaqədar ödənilən gəlirdən (əmək haqqından), VÖEN təqdim etməyən fiziki şəxslərə ödənilən haqdan, digər aylıq ödəmələrdən Vergi Məcəlləsinin 101.1-ci maddəsində göstərilən dərəcələrlə gəlir vergisi tutulur, iki və ya daha çox yerdə muzdla işləyən fiziki şəxslərin gəlirlərindən gəlir vergisi hər bir iş yerində ödənilən məbləğdən ayrıca hesablanıb dövlət büdcəsinə ödənilir. Fiziki şəxslərin illik gəlirindən vergi Vergi Məcəlləsinin 101.2-ci maddəsində göstərilən dərəcələrlə tutulur.

Fiziki şəxslər Vergi Məcəlləsinin 102-ci maddəsində göstərilən vergi güzəştlərindən istifadə etmək hüququna malikdirlər. Auditor yoxlama zamanı vergi güzəştlərindən istifadə hüququnu təsdiqləyən sənədlərin mövcudluğunu yoxlamalıdır. Bu zaman nəzərə alınmalıdır ki, iki və ya

daha çox yerdə muzdla işləyən fiziki şəxslər yalnız əmək kitabçalarının olduğu yerdə güzəşt hüququndan istifadə edə bilərlər.

Fiziki şəxslərə daşınar və daşınmaz əmlak üçün icarə haqqının və royaltinin ödənilib-ödənilməməsi, bu cür ödənişlər aparıldığı halda, həmin məbləğlərdən Vergi Məcəlləsinin 124-cü maddəsinə müvafiq olaraq verginin tutulub-tutulmaması yoxlanılmalıdır.

Hüquqi və fiziki şəxslərə dividend ödənilib-ödənilməməsi, bu cür ödənişlər aparıldığı halda, həmin məbləğlərdən Vergi Məcəlləsinin 122-ci maddəsinə əsasən verginin tutulub-tutulmaması yoxlanılmalıdır.

Hesablanmış vergilərin analitik və sintetik uçot registrlərində düzgün əks etdirilməsinə əminlik əldə edilməli, analitik uçot göstəriciləri baş kitabla tutuşdurulmalıdır.

Hesablanmış vergilərin «Ödəmə mənbəyində tutulan vergilər barədə bəyannamə»də düzgün əks etdirilməsi yoxlanılmalı, büdcəyə vaxtında ödənilib-ödənilməməsi araşdırılmalıdır.

Əgər vergilərin hesablanmasında və ya ödənilməsində kənarlaşmalar aşkar edilərsə, bu zaman yarana biləcək faiz borclarının və maliyyə sanksiyalarının müəssisənin maliyyə vəziyyətinə nə cür təsir edəcəyi müəyyənləşdirilməli və bu barədə rəhbərliyə məlumat verilməlidir.

## *IV. Hüquqi şəxslərin (bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan başqa) mənfəət vergisinin auditi*

### 4.1.Vergi ödəyiciləri və vergitutma obyekti

Sadələşdirilmiş vergi ödəyicisi olmayan bütün hüquqi şəxslər mənfəət vergisi ödəyiciləridir. Vergitutma obyekti təsərrüfat subyektinin mənfəətidir. Vergi ödəyicisinin gəliri ilə (vergidən azad edilən gəlirdən başqa) gəlirdən çıxılan xərc arasındakı fərq mənfəətdir.

Mənfəət vergisinin yoxlanılması zamanı auditor tərəfindən vergitutma obyektinin – təsərrüfat subyektinin mənfəətinin düzgün müəyyən edilməsi, bu məqsədlə təsərrüfat subyektinin gəlirinin və gəlirdən çıxılan xərclərin hesablanmasının düzgünlüyü yoxlanılmalıdır. Bu zaman auditor təsərrüfat subyekti tərəfindən gəlirin və xərcin uçotunun hansı qayda ilə - kassa metodu və ya hesablamalar metodu ilə aparıldığını müəyyənləşdirməlidir. Nəzərə almaq lazımdır ki, vergi ödəyicisi vergi ili ərzində seçdiyi metodu dəyişdirə bilməz.

### 4.2. Vergi güzəştlərinin tətbiqinin və verginin hesablanmasının düzgünlüyünün yoxlanılması

Yoxlama zamanı auditor təsərrüfat subyektinin Vergi Məcəlləsinin 106-cı maddəsinə əsasən mənfəət vergisindən azad olunan gəlirinin və mənfəət vergisi üzrə güzəşt hüququnun olub-olmamasını araşdırmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, güzəşt hüququ olan təsərrüfat subyektinin güzəşt şamil edilən mənfəətdən başqa digər fəaliyyəti də olduqda, o, güzəştə düşən və güzəşt hüququ olmayan fəaliyyət növləri üzrə uçotu ayrı-ayrılıqda aparmalıdır. Əks halda, güzəşt tətbiq edilmir.

Xərclərin tərkibi yoxlanılarkən auditor bu xərclərin tərkibində Vergi Məcəlləsinin 109-cu maddəsində nəzərdə tutulmuş gəlirdən çıxılmayan xərclərin olmamasına əmin olmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, qeyri-kommersiya fəaliyyəti ilə bağlı olan xərclərin, əyləncə və yemək xərclərinin, habelə işçilərin mənzil və digər sosial xarakterli xərclərinin gəlirdən çıxılmasına yol verilmir.

Eyni zamanda, auditor gəlirdən faizlər üzrə çıxılan məbləğlərin məhdudlaşdırılan norma çərçivəsində olmasına, ehtiyat sığorta fondlarına ayırmaların müəyyən edilmiş normalara uyğunluğuna, elmi-tədqiqat, layihə-axtarış və təcrübə-konstruktor işlərinə çəkilən xərclərin (əsas vəsaitlərin alınması və qurulması ilə bağlı xərclər, habelə kapital xarakterli digər xərclər istisna olmaqla) gəlirdən düzgün çıxılmasına diqqət yetirməlidir.

Yoxlama zamanı ümidsiz və şübhəli borcların gəlirdən çıxılması hallarının mövcudluğu araşdırılmalı, belə hal aşkar edilərsə, auditor həmin gəlirin əvvəllər sahibkarlıq fəaliyyətindən

əldə edilən ümumi gəlirə daxil edilməsinə, bu borcun ümidsizliyinin sənədlərlə təsdiq edilməsinə əmin olmalıdır. Əks halda, həmin məbləğlər gəlirdən çıxıla bilməz. Bu zaman nəzərə alınmalıdır ki, ümidsiz borc məbləğinin gəlirdən çıxılmasına vergi ödəyicisinin mühasibat kitablarında ümidsiz borc məbləğinin dəyəri olmayan borc kimi silindiyi vaxt yol verilir.

Auditor gəlirdən çıxılan xərclərin tərkibinə aid edilən amortizasiya ayırmalarının hesablanmasının düzgünlüyünü yoxlayarkən bu hesablamaların Vergi Məcəlləsinin 114-cü maddəsinə uyğunluğuna əmin olmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, torpaq, incəsənət əsərləri, nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular (tikililər) və Vergi Məcəlləsinin 114-cü maddəsi ilə müəyyən edilən köhnəlməyə məruz qalmayan digər aktivlər amortizasiya olunmur. Amortizasiya olunan aktivlər üzrə illik amortizasiya normaları Vergi Məcəlləsinin 114-cü maddəsinə əsasən müəyyən edilir. Auditor əsas vəsaitlərin Vergi Məcəlləsinin 114-cü maddəsinə əsasən kateqoriyalara düzgün aid edilməsini yoxlamalı, amortizasiya ayırmalarının hər kateqoriyaya aid olan əsas vəsaitlər üçün müəyyənləşdirilmiş amortizasiya normasını həmin kateqoriyaya aid əsas vəsaitlərin vergi ilinin sonuna balans üzrə qalıq dəyərinə tətbiq etməklə hesablandığına əmin olmalıdır. Auditor əvvəlki illərdə hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş amortizasiya normalarından aşağı norma tətbiq olunması halının mövcud olub-olmamasını araşdırmalıdır. Belə hal mövcud olduqda, yaranan fərq cari vergi ilində amortizasiyanın gəlirdən çıxılan məbləğinə əlavə oluna bilər.

Gəlirdən çıxılan xərclərin tərkibində təmir xərclərinin mövcudluğu yoxlanılmalı və bu zaman nəzərə alınmalıdır ki, Vergi Məcəlləsinin 115-ci maddəsinə əsasən təmirlə bağlı xərclərin gəlirdən çıxılması məhdudlaşdırılır. Yoxlama zamanı auditor gəlirdən çıxılan təmir xərclərinin məhdudlaşdırılan məbləğdən artıq olmadığına əminlik əldə etməlidir. Auditor əvvəlki illərdə hər hansı kateqoriyaya aid olan əsas vəsaitlər üzrə vergi ili üçün müəyyən olunmuş həddən aşağı məbləğdə gəlirdən çıxılan təmir xərcinin olub-olmamasını araşdırmalıdır. Belə hal olduqda, yaranan fərq cari vergi ilində təmir xərclərinin gəlirdən çıxılan məbləğ həddinə əlavə olunur. Bu zaman nəzərə alınmalıdır ki, amortizasiya olunmayan, köhnəlmə (amortizasiya) hesablanmayan əsas vəsaitlərin təmirinə çəkilmiş xərclər gəlirdən çıxılmır və onların balans dəyərini artırır.

Gəlirdən çıxılan xərclərin tərkibi yoxlanılarkən nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının və ya digər dövlətlərin ərazilərində ödənilmiş mənfəət vergisi və ya gəlirdən hesablanan hər hansı digər vergilərin, habelə ödənilmiş maliyyə sanksiyaları və Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş vergilərin vaxtında ödənilməməsinə görə hesablanmış faizlərin gəlirdən çıxılmasına yol verilmir.

Auditor tərəfindən təsərrüfat subyektinin hesabat ilinin əvvəlinə gəlirlərdən çıxılmasına yol verilən xərclərinin gəlirlərdən artıq olan hissəsinin mövcud olub-olmaması müəyyənləşdirilməlidir. Əgər belə hal mövcud olarsa, onda həmin məbləğ cari ilin mənfəəti hesabına VM-də nəzərdə tutulmuş müddət ərzində illər üzrə bərabər hissələrlə həmin illərin mənfəəti hesabına kompensasiya edilə bilər.

Eyni zamanda, auditor rezidentin qeyri-rezidentə, daimi nümayəndəliyə aid olmayan ödədiyi ümumi məbləğdən xərclər çıxılmadan mənbədən verginin düzgün tutulmasına fikir verməlidir.

Qeyri-rezidentin daimi nümayəndəliyi yoxlandıqda isə mənfəət vergisindən əlavə olaraq bu daimi nümayəndəliyin xalis mənfəətindən həmin qeyri-rezidentə köçürdüyü istənilən məbləğdən VM-də nəzərdə tutulmuş dərəcə ilə mənbədən verginin tutulmasına diqqət yetirilməlidir.

Vergitutma məqsədləri üçün gəlir və xərclərin uçotu zamanı vergi ödəyicisinin istifadə etdiyi uçot metodundan asılı olaraq, gəlirlərin əldə edilməsi və xərclərin çəkilməsi vaxtının VM-də müəyyən edilmiş bütün tələbləri nəzərə alınmalıdır.

Auditor tərəfindən mənfəət vergisinin düzgün hesablanması yoxlanılarsa, mütləq hüquqi şəxsin aktivlərin təqdim edilməsi üzrə əməliyyatının nəticələrinin VM-in 142-ci maddəsinə uyğun olaraq mənfəət və zərərə düzgün aid edilməsi araşdırılmalıdır.

Hesablanmış mənfəət vergisinin analitik və sintetik uçot registrlərində düzgün əks etdirilməsinə əminlik əldə edilməli, analitik uçot göstəriciləri baş kitabla tutuşdurulmalıdır.

### 4.3.Bəyannamənin düzgünlüyü

Hesablanmış vergilərin «Mənfəət vergisinin bəyannaməsi»ndə düzgün əks etdirilməsi yoxlanılmalı, cari vergilərin və ilin yekunu üzrə hesablanmış verginin büdcəyə vaxtında ödənilib-ödənilməməsi araşdırılmalıdır.

Əgər mənfəət vergisinin hesablanmasında və ya ödənilməsində kənarlaşmalar aşkar edilərsə, bu zaman yarana biləcək faiz borclarının və maliyyə sanksiyalarının təsərrüfat subyektinin maliyyə vəziyyətinə nə cür təsir edəcəyi müəyyənləşdirilməli və bu barədə rəhbərliyə məlumat verilməlidir.

## *V. Əlavə dəyər vergisinin auditi*

Audit zamanı auditor ƏDV-nin düzgün hesablanmasına və ödənilməsinə xüsusi diqqət yetirməlidir. Auditin məqsədindən asılı olaraq və Azərbaycan Respublikasının Vergi Məcəlləsinə müvafiq olaraq, ƏDV-nin auditinin aparılması zamanı aşağıdakı mövqelərdən yoxlama aparılmalıdır:

- vergi ödəyicisinin statusu;
- vergi güzəştinin tətbiq etmə imkanı və ondan düzgün istifadə edilməsi;
- vergitutma obyekti;
- vergi bazasının müəyyən edilməsi;
- əvəzləşmələrin tətbiqinin qanunauyğunluğu;
- bəyannamənin vaxtında tərtib edilməsi və verilməsi, eyni zamanda verginin vaxtında ödənilməsi.

Eyni zamanda, hər bir mövqe üzrə yoxlama aparılan zaman auditor aşağıdakıları bilməlidir:

### 5.1.Vergi ödəyicisinin statusunun yoxlanılması

Auditor auditi aparılan təsərrüfat subyektinin yoxlanılan dövr çərçivəsində malların təqdim edilməsindən, işlərin görülməsindən, xidmətlərin göstərilməsindən və vergi tutulan idxaldan gəlirinin həcmini təhlil etməlidir. Əgər yoxlanılan təsərrüfat subyekti sadələşdirilmiş verginin ödəyicisidirsə, onda həmin təsərrüfat subyektinin ƏDV qeydiyyatına alınma öhdəliklərinin yaranıb-yaranmaması diqqətlə araşdırılmalıdır. Yoxlama zamanı istənilən ardıcıl 3 aylıq dövr ərzində vergi tutulan əməliyyatların həcminin VM-in 218.1-ci maddəsində göstərilən həddən artıq olduğu aşkar edilərsə, onda auditor bu barədə öz hesabatında qeyd etməli və ƏDV məqsədləri üçün təsərrüfat subyektinin uçota dayanmasını tövsiyə etməlidir. Əgər təsərrüfat subyekti hesabat dövrü ərzində bir vergi ödəyicisi statusundan digər vergi ödəyicisi statusuna keçmişdirsə, onda auditor keçid dövrünün düzgünlüyünə diqqət yetirməlidir.

Əgər təsərrüfat subyekti ƏDV ödəyicisidirsə, lakin ona təsərrüfat ili ərzində sadələşdirilmiş vergi ödəyicisi hüququnu şamil etmək mümkündürsə, onda auditor bunu öz hesabatında göstərməlidir.

Bununla yanaşı, audit aparılan təşkilatda auditor yoxlanılan dövr ərzində aşağıdakı əməliyyatların mövcudluğunu yoxlamalıdır:

- vergi tutulan idxal əməliyyatı;
- əmlakın icarəyə verilməsi;
- ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçmədən iş görən və ya xidmət göstərən və VM-in 169-cu maddəsinə müvafiq surətdə vergiyə cəlb edilməli olan qeyri-rezident şəxsə ödəmələr;
- VM-in 137-ci maddəsinə uyğun olaraq hüquqi şəxs yaratmadan göstərilən birgə sahibkarlıq fəaliyyəti;
- aksizli malların istehsalı.

### 5.2. Vergi güzəştini tətbiq etmə imkanının və ondan düzgün istifadə edilməsinin yoxlanılması

Bu mövqe üzrə yoxlama aparılan zaman auditor vergidən azad edilən təsərrüfat əməliyyatlarını və təqdim edilən mal və xidmətləri Vergi Məcəlləsinə uyğun olaraq düzgün müəyyənləşdirməlidir. Eyni zamanda, sıfır (0) dərəcə ilə ƏDV-yə cəlb edilən görülmüş işlər,

göstərilmiş xidmətlər və aparılmış əməliyyatlar düzgün təsnifləşdirilməlidir. Bunun üçün auditor Vergi Məcəlləsinin «Vergi ödəməkdən azad edilmə» və «Verginin sıfır (0) dərəcəsi ilə tutulması» maddələrinin hər bir bəndini əhatə etməklə, test tərtib etməli və həmin testin nəticəsini vergi ödəyicisinin tərtib etdiyi hesabat göstəriciləri ilə üzləşdirməlidir. Üzləşmə zamanı kənarlaşma yaranarsa, kənarlaşmanın hansı bəndə aid olduğu aydınlaşdırılmalı və auditor bunu öz hesabatında əks etdirməlidir.

### 5.3. Vergitutma obyektinin müəyyənləşdirilməsi

Malların təqdim edilməsi, işlərin görülməsi, xidmətlərin göstərilməsi vergitutma obyektidir.

Bundan əlavə, auditor aşağıdakı halların mövcudluğuna xüsusi diqqət yetirməlidir:

- vergi tutulan idxalın mövcudluğuna;
- ödənilmiş ƏDV-ni əvəzləşdirməklə əldə edilmiş malların qeyri-kommersiya məqsədləri üçün istifadə edilməsi hallarının mövcudluğuna;
- vergi ödəyicisinin haqqı ödənilməklə və ya əvəzsiz qaydada öz işçilərinə və digər şəxslərə mal verməsi, iş görməsi və ya xidmət göstərməsi, habelə barter üzrə əməliyyatlarının mövcudluğuna;
- fövqəladə hallardan başqa, malların itməsi, əskik gəlməsi, xarab olması və ya oğurlanması hallarının mövcudluğuna.

### 5.4. Vergitutma bazasının müəyyən edilməsi

Vergi tutulan əməliyyatın dəyəri vergi ödəyicisinin müştəridən və ya hər hansı digər şəxsdən aldığı, yaxud almağa hüququ olduğu haqqın ƏDV nəzərə alınmadan məbləği əsasında (hər hansı rüsumlar, vergilər və ya başqa yığımlar da daxil olmaqla) müəyyən edilir.

Əgər auditi aparılan təsərrüfat subyektində barter əməliyyatı aparılıbsa, onda auditor vergitutma bazasının müəyyənləşdirilməsi zamanı bu əməliyyatlar üzrə bazar dəyərinin tətbiqinin (VM, maddə161.2) düzgünlüyünə diqqət yetirməlidir.

### 5.5. Verginin düzgün hesablanmasının auditi

Auditor ƏDV-nin düzgün hesablanmasını yoxlayan zaman vergi tutulan əməliyyatların vaxtının, malların təqdim edildiyi, işlərin görüldüyü və xidmətlərin göstərildiyi yerin VM-in 166-cı, 167-ci və 168-ci maddələrinə müvafiq olaraq düzgün müəyyən edilməsinə diqqət yetirməlidir. Bu zaman nəzərə alınmalıdır ki, mallar təqdim edildikdən və ya avans ödənişi həyata keçirildikdən sonrakı beş gün ərzində ƏDV hesab-fakturası verilməyibsə, onda əməliyyatın vaxtı malların təqdim edildiyi və ya avans ödənişinin aparıldığı gün hesab olunur. Əgər 5 gün müddəti ərzində ƏDV hesab-fakturası verilibsə, habelə müntəzəm və ya daimi əsasda xidmət göstərilirsə, onda ƏDV hesab-fakturasının verildiyi tarix əməliyyatın aparıldığı vaxt hesab olunur.

Auditor təsərrüfat subyektində agentin həyata keçirdiyi əməliyyatların mövcudluğunu yoxlamalıdır. Bu zaman iki istiqamət üzrə araşdırma aparılmalıdır:

1) Təsərrüfat subyektinin özünün agent kimi iştirakı;
2) Təsərrüfat subyektinin agent vasitəsi ilə əməliyyatlar həyata keçirməsi.

Birinci halda auditor təsərrüfat subyektinin ƏDV-yə cəlb olunan əməliyyatlarının düzgünlüyünü, yəni bu dövriyyənin vəkalət verəndən aldığı haqdan və ya mükafatdan ibarət olub-olmamasını yoxlamalıdır. Eyni zamanda, auditor agent tərəfindən ƏDV hesab-fakturalarının verilməsini və ƏDV üzrə əvəzləşmələrin Vergi Məcəlləsinə uyğunluğunu yoxlamalıdır.

Ikinci halda auditor təsərrüfat subyektinin agent vasitəsilə apardığı əməliyyatları özünün vergi tutulan dövriyyəsinə daxil etməsinin və agentə ödədiyi haqqın xərcə aid edilməsinin düzgünlüyünə diqqət yetirməlidir.

### 5.6. Qeyri-rezidentlərin vergiyə cəlb edilməsi

Auditor sifarişçi təsərrüfat subyektinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentin xidmətlərindən Azərbaycan Respublikasının ərazisində istifadə edib-etməməsini yoxlamalıdır. Belə hal aşkar edilərsə, onda həmin qeyri-rezidentə ödənilən məbləğlərə ƏDV hesablanması yoxlanılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, vergi agenti rolunda çıxış edən təsərrüfat subyekti ƏDV-nin məqsədləri üçün qeydiyyatdan keçməmişdirsə, onun qeyri-rezidentə ödədiyi məbləğə ƏDV hesablamasını və ödəniş günündən sonra 7 gün ərzində vergini büdcəyə ödəməsini və növbəti ayın 20-dək Vergilər Nazirliyi tərəfindən müəyyən edilmiş formada ƏDV bəyannaməsinin təqdim edilməsini yoxlamalıdır. Unutmaq olmaz ki, VM-ə uyğun olaraq vergi agentinin qeyri-rezidentə ödəməli olduğu məbləği vergi agentinin ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmasına görə müəyyənləşdirilən vergi tutulan əməliyyatlarına aid edilmir. Ancaq vergi agenti qeyri-rezidentə ödənilməli olan məbləğə ƏDV-ni hesablayaraq büdcəyə ödədikdə, ödəniş sənədlərində vergini qeyri-rezidentə ödədiyi məbləğdən hesabladığı barədə müvafiq qeyd aparmalıdır.

Əgər yoxlanılan təsərrüfat subyekti ƏDV ödəyicisidirsə, bu halda hesablanan vergi əməliyyatın aparıldığı ay üçün ƏDV-nin bəyannaməsi verilərkən ödənilməlidir. Bu zaman auditor nəzərə almalıdır ki, hesablanan verginin ödənilməsini təsdiq edən ödəmə sənədi ƏDV məbləğini əvəzləşdirməyə hüquq verən hesab-faktura hesab edilir.

Onu da yadda saxlamaq lazımdır ki, qeyri-rezidentə məxsus əmlak vergi agentinə icarəyə verilmək üçün idxal edildikdə, əmlakın sahibi olan qeyri-rezidentin icazəsi ilə vergi agenti idxaldan ödənilmiş vergidən ƏDV-nin məbləğinin əvəzləşdirilməsini tələb edə bilər. Bu halda vergi agenti vergi ödəyicisi sayılır və sonradan əmlakı təqdim edərkən (onun ixracı istisna edilməklə) ƏDV-nin ödənilməsi üçün cavabdehdir.

### 5.7. ƏDV-nin əvəzləşdirilməsinin düzgünlüyünün auditi

ƏDV-nin əvəzləşdirilməsinin düzgünlüyünün yoxlanılması zamanı auditor, ilk növbədə, əvəzləşməyə hüquq verən sənədlərin, o cümlədən vergi hesab-fakturasının, idxal sənədlərinin, qeyri-rezidentə ödənilmiş məbləğlərə hesablanmış ƏDV-nin büdcəyə ödənilməsini təsdiq edən ödəmə sənədinin mövcudluğunu araşdırmalıdır. Daha sonra vergi hesab-fakturası üzrə ödəmələrin nağdsız qaydada aparılmasının, borcların qarşılıqlı əvəzləşdirilməsi zamanı üzləşmə aktlarının mövcudluğu yoxlanılmalı, alınmış malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin təsərrüfat subyekti tərəfindən kommersiya məqsədi üçün istifadə olunmasına əminlik əldə edilməlidir.

ƏDV-dən azad olunan, yaxud ƏDV-yə cəlb edilməyən əməliyyatların aparılıb-aparılmaması araşdırılmalı, belə halın mövcudluğu aşkar edilərsə, onda əvəzləşdirilən məbləğin həmin əməliyyatların ümumi dövriyyədəki xüsusi çəkisinə görə müəyyənləşdirilməsinə diqqət yetirilməlidir.

### 5.8. Bəyannamənin vaxtında tərtib edilməsi və verilməsi, verginin vaxtında büdcəyə ödənilməsi

Auditor hər hesabat dövrü (hər təqvim ayı) üçün ƏDV bəyannaməsinin vergi orqanlarına vaxtında təqdim edilməsini və müəyyən edilmiş müddətdə hər hesabat dövrü üzrə verginin büdcəyə ödənilməsinin düzgünlüyünü yoxlamalıdır.

Yoxlama zamanı nəzərə alınmalıdır ki, vergi tutulan idxal üzrə ƏDV ödəyicisi olmayan təsərrüfat subyektlərindən ƏDV VM-ə və gömrük qanunvericiliyinə uyğun olaraq gömrük rüsumlarının ödənilməsi üçün nəzərdə tutulan qaydada gömrük orqanları tərəfindən hesablanıb alındığına görə, malların idxalı üzrə vergi ödəyicisi olan şəxslər ƏDV bəyannaməsi vermir və özü ƏDV-ni büdcəyə ödəmir.

## *VI. Aksizlərin auditi*

### 6.1. Vergitutma obyektinin müəyyənləşdirilməsi və vergi tutulan əməliyyatın yoxlanılması

Bu vergi üzrə yoxlama aparılan zaman auditor, ilk növbədə, aksizli malların siyahısını əldə etməli, auditi aparılan təsərrüfat subyektinin və ya fiziki şəxsin Azərbaycan Respublikası ərazisində aksizli malların istehsalı və ya idxalı üzrə əməliyyatların mövcudluğunu, habelə Azərbaycan Respublikasının hüdudlarından kənarda bilavasitə özü və ya podratçı vasitəsilə aksizli malların istehsalı və istehsal etdiyi yerdə vergi ödəyicisi kimi uçotda olub-olmamasını araşdırmalıdır.

Eyni zamanda, auditor nəzərə almalıdır ki, həmin təsərrüfat subyekti sifarişçinin göndərdiyi xammaldan Azərbaycan Respublikası ərazisində mallar istehsal etmişdirsə, bu halda o, aksiz məbləğlərini sifarişçidən almalıdır.

Yoxlama zamanı vergi tutulan əməliyyatın məbləğinin və vaxtının dəqiqləşdirilməsi vacibdir. Bununla bərabər, aksiz vergisindən azad olunan və sıfır (0) dərəcə ilə vergiyə cəlb olunan əməliyyatların mövcudluğu araşdırılmalıdır.

### 6.2. Istehsal ehtiyacları üçün aksizlərin əvəzləşdirilməsinin düzgünlüyünün yoxlanılması

Bu bölmə üzrə audit aparılan zaman aşağıdakı hallara fikir verilməlidir:

- vergi tutulan aksizli malların istehsalı üçün istifadə edilən aksizli mallar (xammal və materiallar) alınarkən ödənilmiş aksizin məbləğinin düzgün hesablanmasına;
- alınmış xammal və materialların istehsalçısı tərəfindən aksizin ödənildiyini təsdiq edən hesab-fakturanın, xammal və materiallar idxal edildikdə isə müvafiq sənədlərin vergi orqanına verilməsinin mövcudluğuna;
- təkrar ixrac məqsədilə idxal olunan malların təkrar ixracının faktiki həcminə.

### 6.3. Aksizlər üzrə bəyannamələrin təqdim edilməsinin ödənilməsinin düzgünlüyünün auditi

Auditor aksizlər üzrə tərtib edilmiş bəyannamənin hər sonrakı ayın 20-dək vergi orqanına təqdim olunduğuna və həmin dövr ərzində hesablanmış aksizlərin büdcəyə ödənildiyinə fikir verməlidir. Eyni zamanda, növbəti hesabat dövründən sonra növbəti aksizli əməliyyatın aparılması zamanı vergi ödəyicisinin aksiz üzrə borcunun olub-olmamasına diqqət yetirmək lazımdır. Əgər vergi ödəyicisinin aksiz üzrə borcu varsa, onda istehsal olunmuş aksizli malların istehsal binasının hüdudlarından kənara çıxarılması araşdırılmalıdır.

## *VII. Əmlak vergisinin auditi*

### 7.1. Vergitutma obyekti

Auditor bu vergi üzrə yoxlama zamanı auditi aparılan təsərrüfat subyektinin və ya fiziki şəxsin əmlak vergisinin ödəyicisi olub-olmamasını araşdırmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, fiziki şəxslər üzrə vergitutma obyekti onların xüsusi mülkiyyətində olan və Azərbaycan Respublikasının ərazisində yerləşən binalar, habelə onlara məxsus su və hava nəqliyyatı vasitələri, hüquqi şəxslər üçün isə onların balansında olan əsas vəsaitlərin orta illik dəyəridir.

### 7.2. Vergitutma bazası

Vergituтuma bazası yoxlanılarkən auditor fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaların inventar dəyərinə, mühərriki olan su və hava nəqliyyatı vasitələrinin mühərrikinin həcminə, mühərriki olmayan su və hava nəqliyyatı vasitələrinin bazar qiymətinə, hüquqi şəxslərdə isə VM-in 140-cı maddəsinə əsasən lizinq obyektinin, lizinqə götürənin əmlakının qalıq dəyərinə aid edilib-edilməməsinə xüsusi diqqət yetirməli, hesabat ilinin əvvəlinə və sonuna əsas vəsaitlərin qalıq dəyərinin düzgün müəyyən edilməsini, əsas vəsaitlərin kateqoriyalara düzgün aid edilməsini və kateqoriyalar üzrə güzəştlərin düzgün tətbiq edilməsini yoxlamalıdır.

**7.3. Əmlak vergisinin hesablanmasının, ödənilməsinin və bəyannamənin təqdim edilməsinin düzgünlüyünün auditi**

Fiziki şəxslərin əmlak vergisi yoxlanılan zaman fiziki şəxsin yerləşdiyi ərazi üzrə bələdiyyə tərəfindən iyun ayının 1-dək əmlak vergisinin ödənilməsi üçün bildirişin vergi ödəyicisinə verilib-verilməməsi araşdırılmalı, həmin verginin vergi ödəyicisi tərəfindən avqustun 15-dək və noyabrın 15-dək yerli (bələdiyyə) büdcəyə ödənilməsinə diqqət yetirilməlidir.

Hüquqi şəxslərin əmlak vergisinin yoxlanılması zamanı isə hüquqi şəxsin əmlakının orta illik qalıq dəyərinin hesablanması metodikasının düzgünlüyü, cari ödənişlərin büdcəyə vaxtında ödənilməsi və bəyannamənin vaxtında təqdim edilməsi araşdırılmalıdır.

## *VIII. Torpaq vergisinin auditi*

Auditor auditi aparılan şəxslərin torpaq vergisinin ödəyicisi olub-olmamasını aydınlaşdırmalı və torpaq sahələri barədə onların özlərinin mülkiyyət və istifadə hüquqlarını təsdiq edən sənədləri aldıqdan sonra VM-də nəzərdə tutulan müddət ərzində fiziki şəxslərin və bələdiyyə müəssisələrinin bələdiyyələrdə, hüquqi şəxslərin isə vergi orqanında uçota durmalarını araşdırmalıdır.

Eyni zamanda, hüquqi və fiziki şəxslərin mülkiyyətində olan torpaq sahələrinin istifadəsindən asılı olaraq, onlara VM-ə müvafiq olaraq kadastr qiymətinin və vergi dərəcələrinin düzgün tətbiq olunması yoxlanılmalıdır. O da nəzərə alınmalıdır ki, torpaq vergisi torpaq mülkiyyətçilərinin və ya istifadəçilərinin təsərrüfat fəaliyyətinin nəticələrindən asılı olmayaraq, torpaq sahəsinə görə hər il sabit tədiyə şəklində hesablanır və hüquqi şəxslər tərəfindən hər il mayın 15-dək vergi orqanlarına bəyannamə təqdim olunur, fiziki şəxslərə isə bələdiyyələr tərəfindən iyulun 1-dək hesablanaraq, avqustun 1-dək vergi ödəyicilərinə tədiyə bildirişləri təqdim olunur. Yadda saxlamaq lazımdır ki, torpaq vergisini hüquqi şəxslər dövlət büdcəsinə, fiziki şəxslər isə yerli (bələdiyyə) büdcəyə ödəyirlər.

## *IX. Yol vergisinin auditi*

**9.1. Vergi ödəyiciləri**

Yol vergisinin auditi zamanı auditor bilməlidir ki, Azərbaycan Respublikasının ərazisinə daxil olan və həmin ərazidən sərnişin və yük daşınması üçün istifadə edən avtomobil nəqliyyatı vasitələrinin sahibləri olan qeyri-rezident müəssisələr və qeyri-rezident fiziki şəxslər, habelə Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində minik avtomobilləri, avtobuslar və digər avtomobil nəqliyyatı vasitələri (bundan sonra – avtonəqliyyat vasitələri) olan şəxslər Azərbaycan Respublikasının avtomobil yollarından istifadəyə görə yol vergisinin ödəyiciləridir.

**9.2. Yol vergisinin dərəcələri**

Auditor avtonəqliyyat vasitələrinin növündən, oturacaqlarının sayından, yükgötürmə qabiliyyətindən və avtonəqliyyat vasitəsinin yüklə birlikdə ümumi çəkisindən, oxa düşən ağırlığından, Azərbaycan Respublikası ərazisində qət edilən məsafədən, təhlükəli yüklərin daşınmasından asılı olaraq, Azərbaycan Respublikasının ərazisinə daxil olan xarici dövlətlərin avtonəqliyyat vasitələrindən, habelə Azərbaycan Respublikasının ərazisində şəxslərin mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələrinin mühərriklərinin həcmindən asılı olaraq, avtonəqliyyat vasitələrindən VM-in 211-ci maddəsinə müvafiq olaraq hesablanmış verginin düzgünlüyünə diqqət yetirməlidir.

**9.3. Yol vergisinin tutulması və büdcəyə ödənilməsi**

Auditor nəzərə almalıdır ki, xarici dövlətlərin avtonəqliyyat vasitələrindən VM-in 211.1-ci maddəsində müəyyən edilmiş vergini həmin avtonəqliyyat vasitələri Azərbaycan

Respublikasının gömrük ərazisinə daxil olan zaman gömrük orqanları tuturlar və bir bank günü ərzində dövlət büdcəsinə keçirirlər.

Azərbaycan Respublikasının ərazisində mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan fiziki şəxslər illik yol vergisini avtomobillər texniki baxışdan keçən zaman dövlət büdcəsinə ödəyirlər.

Azərbaycan Respublikasının ərazisində təqvim ilinin sonu vəziyyətinə mülkiyyətində və ya istifadəsində avtonəqliyyat vasitələri olan hüquqi şəxslər yol vergisinin illik bəyannaməsini hesabat ilindən sonrakı ilin mart ayının 31-dən gec olmayaraq, vergi orqanına təqdim etməli və həmin müddətədək hesablanmış vergini dövlət büdcəsinə ödəməli olduqları üçün auditor hüquqi şəxslər tərəfindən təqdim edilmiş bəyannamənin düzgünlüyünü və vergilərin vaxtında büdcəyə ödənilməsini yoxlamalıdır.

### *X. Mədən vergisinin auditi*

Mədən vergisi üzrə hesablaşmaların auditinə başlayarkən, ilk növbədə, hansı faydalı qazıntıların hasil edilməsi və bu faydalı qazıntılara görə hansı vergitutma bazasının (topdansatış qiymətinə tətbiq edilməklə və ya çıxarılmış faydalı qazıntının kubmetrinə görə) tətbiq edilməsinin düzgünlüyü araşdırılmalıdır.

Mövcud vergi qanunvericiliyinə əsasən müəyyən edilmiş mədən vergisi dərəcələri öyrənilməli və mədən vergisi tətbiq edilən faydalı qazıntıların yerli əhəmiyyətli olub-olmaması müəyyən edilməlidir.

Sifarişçi təsərrüfat subyekti tərəfindən tətbiq edilən topdansatış qiymətlərinin düzgünlüyü öyrənilməli və bu qiymətlərin mövcud bazar qiymətlərinə uyğunluğu müəyyən edilməlidir.

Auditlə əhatə edilən dövrün hər bir ayı üzrə faydalı qazıntının hasilatı ayrı-ayrılıqda təqdim edilmiş hesabatlara əsasən müəyyən edilməli və həmin məlumatlar neft və qaz quyuları üzərində quraşdırılmış sayğacların məlumatları ilə seçmə qaydasında üzləşdirilərək, kənarlaşma hallarının olmamasına yəqinlik əldə edilməlidir.

Hər bir hesabat dövrü üzrə hasil edilmiş faydalı qazıntının məbləğini vergi qanunvericiliynə əsasən faiz dərəcələrinə və ya hər kubmetrini müəyyən olunmuş məbləğə vurmaqla, mədən vergisinin məbləğinin hesablanmasının düzgünlüyü yoxlanılmalıdır.

Xam neftin və qazın hasilatı zamanı mədən vergisi hesablanarkən hasil edilmiş qazın və neftin miqdarından texnoloжi proseslə əlaqədar quyuya geri vurulan neftin və qazın müəyyən edilmiş normalara əsasən düzgün hesablanması yoxlanılmalı və geri vurulan neftin və qazın miqdarının düzgün hesablanmasına yəqinlik əldə edilməlidir.

Hər bir hesabat ayı üzrə mədən vergisi bəyannaməsinin vergi orqanına növbəti ayın 20-dək təqdim edilməsi və yaranmış vergi öhdəliyinin bu dövrədək təyinatı üzrə ödənilməsi yoxlanılmalıdır.

Yerli əhəmiyyətli tikinti materiallarına (kərpic-kirəmid gilləri, tikinti qumları, çınqıl və s.) görə hesabatların vergi orqanlarına deyil, yerli bələdiyyə orqanlarına təqdim edilməsi və vergi məbləğinin bələdiyyə büdcəsinə ödənilməsinə yəqinlik əldə edilməlidir.

Mədən vergisinin məbləğinin sifarişçi təsərrüfat subyektinin gəlirdən çıxılan xərclərinin tərkibində əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və vergi orqanları tərəfindən təsdiq edilmiş şəxsi uçot vərəqəsinə əsasən qalıq göstəriciləri sifarişçi təsərrüfat subyektinin göstəriciləri ilə üzləşdirilərək, kənarlaşma halları aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

### *XI. Sadələşdirilmiş verginin auditi*

Sadələşdirilmiş verginin auditi zamanı, ilk növbədə, sifarişçi təsərrüfat subyektinin həqiqətən VM-ə uyğun olaraq bu verginin ödəyicisi olmaq hüququna malik olması müəyyən edilməlidir. Nəzərə almaq lazımdır ki, sadələşdirilmiş verginin ödəyiciləri VM-in 218-ci maddəsində göstərilmiş hüquqi və fiziki şəxslərdir.

Sifarişçi təsərrüfat subyektinin aksizli mallar, maliyyə əməliyyatları (kredit, sığorta, qiymətli kağızlar, lombard və s.), icarə, əsas vəsaitlərin qalıq dəyərinin məhdudlaşdırılmış həddən aşağı olmasına diqqət yetirilməli və bu halların olmamasına yəqinlik əldə edilməlidir.

Vergitutma obyektinin müəyyən edilməsinin düzgünlüyü yoxlanılmalı və satışdankənar gəlirlərin həcmi müəyyən edilməlidir. Müxtəlif dərəcələrlə vergiyə cəlb edilən gəlirlərin uçotunun ayrılıqda aparılmasına diqqət yetirilməlidir.

Müvafiq testlər hazırlanmalı, vergitutma bazasını vergi dərəcələrinə vurmaqla, vergi məbləği müəyyən edilməli və bu məlumatlar hesabat göstəriciləri ilə üzləşdirilməlidir.

Əgər nəqliyyat vasitələri ilə sərnişin və yük daşınmasından gəlirlər əldə edilirsə, bu halda vergiqoyma sisteminin konkret vergi dərəcəsi ilə deyil, 1 oturacaq yeri, 1 ton yükgötürmə qabiliyyəti, taksi ilə sərnişindaşımada 1 ədəd nəqliyyat vasitəsinin şərti ölçü vahidi kimi götürülməsi nəzərə alınmalıdır.

Yük və sərnişin daşınmasının növündən və ərazidən asılı olaraq, əmsalların tətbiq edilməsinin düzgünlüyü satış əməliyyatlarının nəticələrinə əsasən yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

Sərnişin və yük daşınmasını həyata keçirən sifarişçi təsərrüfat subyektlərində sadələşmiş verginin VM-də göstərilən xüsusi qaydalara əsasən hesablanmasının düzgünlüyü yoxlanılmalıdır.

Hər rüb üzrə hesabatların vaxtlı-vaxtında təqdim edilməsi yoxlanılmalı və hesabatların gecikdirildiyi hallar varsa, sanksiyaların tətbiq edilib-edilməməsinə yəqinlik əldə edilməlidir.

Vergi orqanları tərəfindən təsdiq edilmiş şəxsi uçot vərəqəsinə əsasən, qalıq göstəriciləri sifarişçi təsərrüfat subyektinin göstəriciləri ilə üzləşdirilməli, kənarlaşma halları aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

## *XII. Auditin nəticəsi üzrə təkliflər*

Audit zamanı vergilərin hesablanmasında, əvəzləşdirilməsində, büdcəyə ödənilməsində və bəyannamələrin təqdim edilməsində auditor VM-ə müvafiq olaraq kənarlaşmalar aşkar etmişdirsə, bunun səbəbini araşdırmalı və özündə əminlik yarandıqdan sonra hesabatında əks etdirməli, aşkar edilmiş nöqsan və çatışmazlıqlar barədə təsərrüfat subyektinin rəhbərini və ya sifarişçini xəbərdar etməlidir. Eyni zamanda, göstərilən qanun pozuntularına görə təsərrüfat subyektinə hesablanacaq faizlər və maliyyə sanksiyaları barədə sifarişçini məlumatlandırmalı və dəqiqləşdirilmiş hesabatın təqdim edilməsini təklif etməlidir. Bu zaman auditor vergi qanunvericiliyinin pozulmasında şəxsin təqsirini istisna edən halların, vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb olunmanı istisna edən halların mövcudluğunu VM-in 5-ci fəslinə müvafiq olaraq diqqətlə araşdırmalıdır. Vergi orqanları tərəfindən təsdiq edilmiş şəxsi uçot vərəqəsinə əsasən qalıq göstəriciləri sifarişçi təsərrüfat subyektinin göstəriciləri ilə üzləşdirilməli, kənarlaşma halları aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

**PROQRAMI TƏRTIB EDƏN IŞÇI QRUPU:**
***Vəli RƏHIMOV –***
***Auditorlar Palatasının Maliyyə-təsərrüfat şöbəsinin müdiri***
***Cəmaləddin AXUNDOV –***
***Auditorlar Palatasının Audit qanunvericiliyi və***
***metodik təminat şöbəsinin müdiri***
***Mehman AĞAYEV –***
***sərbəst auditor***
***Islam BAYRAMOV –***
***«Kapital-Audit LTD» məhdud məsuliyyətli cəmiyyətinin direktoru***

***Sahib XANLAROV –***
***Auditorlar Palatasının Audit qanunvericiliyi və metodik təminat şöbəsinin müdir müavini***
***Nazim TACƏDDİNOV –***
***«Pricewaterhouse Coopers Eastern Europe B.V.» şirkətinin***
***Bakı şəhərindəki filialının yerli audit üzrə baş mütəxəssisi***

**RƏYÇILƏR:**
***Namiq ABBASLI –***
***sərbəst auditor***
***Nazim AXUNDOV –***
***sərbəst auditor***

***AS1DS 025/076-2005***
***AZƏRBAYCAN RESPUBLİKASININ***
***AUDİTORLAR PALATASI ŞURASININ***
***2005-Cİ İL 19 YANVAR TARİXLİ***
***144/2 SAYLI QƏRARI İLƏ TƏSDİQ EDİLMİŞDİR***

# BANKLARDA AUDIT APARILMASINA DAIR PROQRAM

***MÜNDƏRICAT:***

***I.*** ***BANK HAQQINDA ÜMUMİ MƏLUMAT***
***II.*** ***MALİYYƏ HESABATLARININ QİYMƏTLƏNDİRİLMƏSİ***
***III.*** ***MÜŞTƏRİLƏRƏ VERİLMİŞ KREDİTLƏR***
***IV.*** ***MÜŞTƏRİ HESABLARI***
***V.*** ***NAĞD PUL VƏ BANKLARDA YERLƏŞDİRİLMİŞ VƏSAİTLƏR***
***VI.*** ***QİYMƏTLİ KAĞIZLAR VƏ İNVESTİSİYALAR***
***VII.*** ***TƏƏHHÜDLƏR VƏ GÖZLƏNİLMƏYƏN HALLAR ÜZRƏ ÖHDƏLİKLƏR***
***VIII.*** ***ƏSAS VƏSAİTLƏR VƏ QEYRİ-MADDİ AKTİVLƏR***
***IX.*** ***XARİCİ VALYUTA***
***X.*** ***SAİR AKTİVLƏR***
***XI.*** ***SAİR PASSİVLƏR***
***XII.*** ***KAPİTAL***
***XIII.*** ***BANKLARDAN ALINAN DEPOZİTLƏR***
***XIV.*** ***BANKLARA VERİLƏN KREDİTLƏR***
***XV.*** ***RİSKLƏRİN İDARƏ EDİLMƏSİ***
***XVI.*** ***DAXİLİ NƏZARƏT SİSTEMİNİN QİYMƏTLƏNDİRİLMƏSİ***
***XVII. NƏTİCƏ VƏ TƏKLİFLƏR***

Banklarda audit aparılmasının əsas məqsədi bankın maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrini obyektiv qiymətləndirmək, maliyyə hesabatlarının onun maliyyə vəziyyəti haqqında tam təsəvvür yaradıb-yaratmadığını təsdiq etmək, habelə mühasibat uçotunu, maliyyə nəzarəti sistemlərini və prosedurlarını lazımi səviyyədə saxlamaqda, idarəetmə və ya cari fəaliyyətdə nöqsan və çatışmazlıqların aradan qaldırılmasında banka köməklik göstərməkdir.

Bu proqram «Banklar haqqında», "Azərbaycan Respublikasının Milli Bankı haqqında" və «Auditor xidməti haqqında» Azərbaycan Respublikası qanunlarının tələbləri nəzərə alınmaqla tərtib edilmişdir.

Banklarda auditor yoxlamasının aşağıda göstərilən istiqamətlər üzrə aparılması tövsiyə olunur:

## *I. Bank haqqında ümumi məlumat*

Bankın dövlət qeydiyyatı haqqında şəhadətnaməsinin, nizamnaməsinin, bank fəaliyyəti ilə məşğul olmaq üçün lisenziyasının olması faktını yoxlamaq. Həmçinin:

- mühüm iştirak payının, o cümlədən səhmlərin, yaxud payların 10%, 20%, 33% və 50%-dən çox hissəsinə sahib olan təsisçilərin olub-olmamasını müəyyənləşdirmək;
- Azərbaycan Respublikasının Milli Bankı tərəfindən inzibatçıların attestasiyadan keçirilməsi haqqında sənədin olması faktını yoxlamaq;
- offşor zonada olan xarici təsisçilərin olub-olmamasını müəyyənləşdirmək;
- bankda Audit Komitəsinin və ya daxili audit bölməsinin olmasını müəyyənləşdirmək;
- Milli Bank tərəfindən banka tətbiq edilmiş təsir, təshih tədbirlərinin, o cümlədən hər hansı bank əməliyyatlarının aparılmasının qadağan edilməsi, inzibatçıların vəzifədən kənarlaşdırılması və ya azad edilməsi və s. hallarının olub-olmamasını yoxlamaq.

## *II. Maliyyə hesabatlarının qiymətləndirilməsi*

1. Auditlə əhatə olunan dövr ərzində tətbiq edilən mühasibat uçotunun prinsiplərinə uyğun olaraq:

- bankda mühasibat uçotunun Milli Bank tərəfindən müəyyən edilmiş qaydada aparılmasına əmin olmaq;
- ayrı-ayrı bank əməliyyatlarını həyata keçirən işçilərin vəzifə bölgüsünün təmin edilməsinə əmin olmaq;
- bankın apardığı ayrı-ayrı əməliyyatlar üzrə uçotun aparılmasının təmin edilməsinə əmin olmaq;
- mühasibat yazılışlarının aparılması və aktivlərin saxlanması, əqdlərin bağlanması ilə bağlı əməliyyatlar üzrə vəzifə bölgüsünün təmin edilməsinə əmin olmaq;
- gəlirlərin, xərclərin və digər əməliyyatların hesab qalıqları üzrə nəzarətedici hesabların mövcudluğuna əmin olmaq;
- əməliyyatlar üzrə iştirak etməyən işçilər tərəfindən bütün hesabların dövri olaraq üzləşdirilməsinin təmin edilməsinə əmin olmaq;
- ilkin mühasibat balanslarının tərtib edilməsinə və bütün hesablarla üzləşməsinin aparılmasına əmin olmaq;
- bankın aktivlərinin dövri olaraq yenidən qiymətləndirilməsinin aparılmasına əmin olmaq;
- bank tərəfindən aparılan əməliyyatlar üzrə müştərilərə göndərilən nömrələnmiş təsdiqnamələrdən istifadə edilməsinə və alınmış təsdiqləmələrdə olan kənarlaşmaların müstəqil təhlilinin aparılmasına əmin olmaq.

2. Auditlə əhatə olunan dövrdə Milli Banka təqdim olunan mühasibat balansını və bank prudensial hesabatlarını əldə etmək və:

- riyazi düzgünlüyünü yoxlamaq;
- mühasibat sənədlərinə uyğun olaraq, yenidən mühasibat balansını, mənfəət və zərər hesablarının göstəricilərini bölmələr üzrə hazırlamaq;
- keçən ilin balansları ilə müqayisə edərək, ciddi fərqləri araşdırıb səbəblərini izah etmək;
- keçən ilin və bu ilin müvafiq dövrlərinin mənfəət və zərər hesablarını müqayisə edərək, ciddi fərqləri araşdırıb səbəblərini izah etmək.

3. Auditlə əhatə olunan dövrdə mənfəət və zərər hesablarının çıxarışlarını əldə etmək və:

- illik gəlirləri və xərcləri əks etdirən cədvəli hazırlamaq;

- cədvəlin yekununun hesabatlara uyğunluğunu yoxlamaq;
- hər hansı ciddi və qeyri-adi fərqləri araşdıraraq, səbəblərini müəyyənləşdirmək.

4. Bu bölmənin 2-ci və 3-cü bəndlərində göstərilən müddəalara əsaslanaraq, mənfəət və zərər hesablarını yoxlamaq üçün aşağıdakılara əməl etmək lazımdır:

- məbləğlərin təsdiqedici sənədlərə uyğunluğunu yoxlamaq (təsdiqedici sənədin növünü göstərməklə);
- təsdiqedici sənədlərin düzgünlüyünü və tamlığını yoxlamaq;
- aparılmış əməliyyatların müvafiq şəkildə təsdiq olunduğunu yoxlamaq;
- hesablamaların düzgünlüyünü yoxlamaq;
- müştərilərdən cəlb edilmiş vəsaitlərin balansa uyğunluğunu yoxlamaq;
- ödəmələrin bank çıxarışları ilə və sair uyğun mənbələrlə uzlaşıb-uzlaşmadığını yoxlamaq.

5. Bank tariflərini əldə etmək və nəzərdən keçirmək. Tariflərin tətbiqində fərq müəyyən edilərsə, yenidən hesablama apararaq, həmin fərqi müəyyənləşdirmək.

6. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə\, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *III. Müştərilərə verilmiş kreditlər*

1. Auditlə əhatə olunan dövrün sonuna qalmış kredit portfeli cədvəlini kredit bölməsindən almaq, balansla və əsas cədvəllə uyğunluğunu yoxlamaq və:

- banklara aidiyyəti olan şəxslərə verilmiş kreditlərin məbləğlərinin Milli Bankın müəyyənləşdirdiyi normalara uyğunluğunu yoxlamaq;
- riyazi düzgünlüyünü və məbləğlərin cəminin hesabat balansı ilə uyğunluğunu yoxlamaq;
- vaxtı ötmüş kreditlərin düzgün əks etdirildiyinə əmin olmaq;
- auditlə əhatə olunan dövrün kredit portfelini keçən ilin kredit portfeli ilə müqayisə etmək və aşağıdakı sahələrdəki fərqləri araşdırmaq:
  - portfelin qiymətləndirilməsi;
  - müştəri növü (dövlət, özəl, fiziki şəxs və s.);
  - iqtisadiyyat sektorunun növü (sənaye, ticarət, tikinti, kənd təsərrüfat və s.);
  - kreditin növü (maliyyə lizinqi, ipoteka istehlak krediti, sindikatlaşdırılmış kredit, faktorinq və forfeytinq);
  - kreditin qiymətləndirilməsinin əsas prinsipləri;
  - kreditlər üzrə faiz marжalarının formalaşması;
  - kreditlərin bank kapitalından asılılığı;
  - ödəmə müddətləri və faiz dərəcələri;
  - girovlar;
  - vaxtı keçmiş kredit.

2. Kreditlərlə əlaqədar hər hansı bir problem və ötən il ilə müqayisədə mühüm fərqlər müəyyən edildikdə, rəhbərliklə araşdırmaq.

**3. Auditlə əhatə olunan dövrdə qaytarılmamış kreditləri təhlil etmək məqsədilə aşağıdakı cədvəlləri hazırlamaq:**

- müştəri növü (dövlət, özəl, fiziki şəxs və s.);
- iqtisadiyyat sektorunun növü (sənaye, ticarət, tikinti, kənd təsərrüfatı və s.);
- ödəmə müddətləri (qısamüddətli/uzunmüddətli);
- təminat növü (girov, bank qarantiyası, təminatsız və s.);
- valyuta növü (manat/xarici valyuta).

4. Auditlə əhatə olunan dövrdə verilmiş iri kreditlərlə əlaqədar aşağıdakı işləri görmək:

- kreditin məbləğinin və digər şərtlərin kredit müqaviləsinə, Müşahidə Şurasının müvafiq qərarlarına uyğunluğunu yoxlamaq;
- müştəri hesablarında kreditlərin verildiyini əks etdirən mühasibat qeydlərinin uyğunluğunu yoxlamaq;
- kreditlərin verilməsi üçün qərarların düzgün sənədləşdirilməsini yoxlamaq;
- kreditin təyinatı üzrə istifadəsini araşdırmaq.

5. Auditlə əhatə olunan dövr üzrə iri kredit ödənişləri ilə əlaqədar aşağıdakı işləri görmək:

- müştəri hesablarındakı məbləğlərin ödənişlərlə uyğunluğunu yoxlamaq;
- geri ödənilən vəsaitlərin hesablara düzgün yerləşdirilməsini yoxlamaq;
- müştərilərdən alınmış faizlərin kredit müqavilələri və müştəri hesablarındakı mühasibat qeydləri ilə uyğunluğunu yoxlamaq.

6. Kreditin təhlili üçün (kredit portfelinin ən azı 80%-ni əhatə etməklə) kreditlər seçmək və aşağıdakı işləri görmək:

- hər bir kredit üçün bütün sənədlərin və məlumatların məzmununu qeydiyyata almaq, riskin qiymətləndirilməsi üçün kredit sənədləşdirilməsinin keyfiyyətini qiymətləndirmək;
- kredit verilmiş hər bir müştərinin maliyyə vəziyyətini təhlil etmək və qiymətləndirmək;
- audit dövrünün əvvəlinə və cari audit dövründə müştəri tərəfindən geri qaytarılmış əsas məbləğlərin və ödənilmiş faizlərin müştəri hesablarındakı mühasibat qeydləri ilə uyğunluğunu yoxlamaq və hər bir müştərinin ödəniş qabiliyyətini qiymətləndirmək;
- bank tərəfindən alınmış girovun hüquqi baxımdan qüvvədə olduğunu (müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeydiyyata alındığını və s.) təsdiqləyən ilkin sənədlərlə üzləşdirmək.

7. Auditlə əhatə olunan dövrdə hər bir müştəridən alınmış faizlərin məbləğini müəyyən etmək:

- kredit müqaviləsinin şərtlərinə uyğun olaraq faizləri yenidən hesablamaq;
- bank tərəfindən alınmış faizlərin müştəri hesabları ilə uyğunluğunu yoxlamaq.

8. Cari il üzrə hesablanmış faiz gəlirlərinin düzgün hesablanmasını və mühasibatda qeydə alınmasını yoxlamaq.

**9. Vaxtı ötmüş kreditlər ilə bağlı təhlillər aparmaq.**

**10. Ilin sonuna kredit qalıqlarını (ən azı 80%-ni əhatə etməklə) təsdiq etmək.**

11. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *IV. Müştəri hesabları*

1. Ilin son tarixinə depozitlərin strukturunu müəyyən etmək, qalıqları keçən ilin depozitləri ilə müqayisə etmək, ciddi və qeyri-adi fərqləri araşdıraraq, səbəblərini müəyyən etmək.

2. Depozit əməliyyatları üzrə əsas nəzarət prosedurlarını müəyyən etmək üçün depozit hesablarının hər bir növünü (fiziki və hüquqi şəxslərin hesabları) təhlil etmək və nəzarət prosedurlarında xüsusilə aşağıdakı cəhətlərə diqqət yetirmək:

- depozit müqavilələrinə;
- depozit əməliyyatlarının mühasibatlıqda qeydə alınmasına;
- depozit əməliyyatlarının üzləşdirilməsi və təsdiqlənməsinə;
- faizlərin hesablanması, ödənilməsi və mühasibatlıqda qeydə alınmasına.

3. Auditlə əhatə olunan dövrdə müştərilərə ödənilmiş faizlərin tərkibini müəyyən etmək, seçmə üsulu ilə onların bir neçəsini depozit müqaviləsi və s. təsdiqləyici sənədlərə əsasən yenidən hesablamaq və şəxsi hesabatdakı qeydlərlə uyğunluğunu yoxlamaq.

**4. Ilin sonuna qalıqları (ən azı 80%-ni əhatə etməklə) təsdiqləmək.**

5. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *V. Nağd pul və banklarda yerləşdirilmiş vəsaitlər*

1. Auditlə əhatə olunan dövrdə nağd pul və banklarda yerləşdirilmiş vəsaitlərin balans çıxarışlarını əldə edərək, keçən yoxlama dövrünün balansları ilə müqayisə etmək, əhəmiyyətli dəyişiklikləri araşdıraraq, səbəblərini müəyyən etmək.

2. Nağd pul əməliyyatları, müxbir banklardakı müxbir hesabları və vəsait köçürmələri haqqında qeydlər aparmaq:

- nostro hesablar üzrə əməliyyatların vaxtında aparılması, düzgünlüyü və təsdiqlənməsi;
- nostro hesabların qalıqları üzrə təsdiqləmələrin alınması;
- pul köçürmələrinin təsdiq edilməsi;
- nağd pul əməliyyatlarının kassa kitabında əks olunması və qalıqların balansla üzləşdirilməsi;
- pul köçürmələrində istifadə olunan sistem.

3. Seçmə üsulu ilə mədaxil-məxaric üzrə pul köçürmələri ilə bağlı aşağıdakı prosedurları yerinə yetirmək:

- məbləğlərin müştəri tapşırıqlarına uyğunluğunu yoxlamaq;
- bankın struktur bölməsi tərəfindən müştərinin hesabında lazımi qədər vəsaitin olub-olmaması haqqında yazılı açıqlamanın qəbul edildiyinə əmin olmaq;
- müştəri hesablarından silinən məbləğlərin müştəri tapşırıqlarına uyğunluğunu yoxlamaq;
- bank çıxarışlarında göstərilən məbləğlərin doğruluğunu yoxlamaq;
- vəsait köçürülməsi haqqında məlumatların vəsait köçürmə sistemlərinə düzgün daxil edildiyinə əmin olmaq;
- mədaxil olunan vəsaitin müştəri hesabına vaxtında və düzgün köçürüldüyünə diqqət yetirmək.

4. Auditlə əhatə olunan dövrdə bank çıxarışlarını əldə edib yekun göstəriciləri ilə müqayisə etmək və analoжi üzləşdirmələrin bankın rəhbərliyi tərəfindən yoxlanılıb təsdiq olunduğuna əmin olmaq.

5. Ilin son tarixində bankda nağd pul balansının pulun inventarizasiya nəticələri ilə üst-üstə düşməsinə diqqət yetirmək.

6. Ilin son tarixinə müxbir banklardan alınmış faizlərin cəmini müəyyən etmək:

- iri məbləğlərin bank çıxarışları ilə uyğunluğuna baxmaq;
- mühasibatlıqda düzgün əks olunmasına əmin olmaq.

7. Ilin sonuna nağd pulun və banklarda yerləşdirilmiş vəsaitlərin balansda düzgün əks etdirilməsinə tam əmin olmaq.

8. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *VI. Qiymətli kağızlar və investisiyalar*

1. Ilin sonuna qiymətli kağızların və investisiya qalıqlarının tərkibini müəyyən etmək, qalıqları keçən il ilə müqayisə etmək, ciddi və qeyri-adi dəyişiklikləri araşdıraraq, səbəblərini izah etmək.

2. Bankın başqa hüquqi şəxslərin kapitalında bir iştirak payının bankın məcmu kapitalının 10%-dən, ümumilikdə iştirak payının isə bankın məcmu kapitalının 40%-dən çox olmamasını müəyyən etmək.

3. Qiymətli kağızlara dair aşağıdakıları aydınlaşdırmaq:

- qiymətli kağızların düzgün qruplaşdırılmasını;
- qiymətli kağızlar üzrə əməliyyatları;
- maliyyə bazarının növlərini.

4. Auditlə əhatə olunan dövrdə iri məbləğdə alınmış vəsaitlərlə əlaqədar aşağıdakı işləri yerinə yetirmək:

- sığorta təşkilatlarından savayı, qanunla qadağan olunan fəaliyyət sahəsində investisiya qiymətli kağızlarının məhdudlaşdırılmasına diqqət yetirmək;
- vəsaitlərin təsdiqedici sənədlərə uyğunluğunu müəyyən etmək;
- ödənişlərin bank çıxarışlarına uyğunluğunu müəyyən etmək;
- investisiyalara dair səlahiyyətli idarəetmə orqanının qərarlarının olub-olmamasını yoxlamaq;
- alınmış vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirilməsinə əmin olmaq.

5. Auditlə əhatə olunan dövrdə iri məbləğdə verilmiş vəsaitlərlə əlaqədar aşağıdakı işləri yerinə yetirmək:

- ödənişlərin bank çıxarışlarına uyğunluğunu müəyyən etmək;
- verilmiş vəsaitlərin Müşahidə Şurası tərəfindən təsdiqlənməsinə əmin olmaq;
- satış üzrə gəliri (zərəri) hesablamaq və mühasibat uçotunda düzgün əks etdirilməsinə əmin olmaq.

6. Auditlə əhatə olunan dövrdə qiymətli kağızlar və investisiyalardan alınmış dividendlər üzrə faizlərin məbləğini müəyyən etmək və aşağıdakı işləri yerinə yetirmək:

- məbləğlərin bank çıxarışlarına uyğunluğunu müəyyən etmək;
- faizi yenidən hesablamaq;
- faiz gəlirinin mühasibat uçotunda düzgün əks etdirilməsinə əmin olmaq.

7. Ilin sonuna qalıqların doğruluğuna tam əmin olmaq.

8. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

## *VII. Təəhhüdlər və gözlənilməyən hallar üzrə öhdəliklər*

1. Gözlənilməyən hallar üzrə öhdəliklərlə əlaqədar keçən ilin qeydlərini nəzərdən keçirmək.

2. Il ərzində açılmış idxal-ixrac akkreditivlərinin siyahısını əldə etmək.

3. Ilin sonuna qalmış açıq akkreditivlərin tərkibini müəyyən etmək və məbləğlərin (blok edilmiş müştəri hesabları üzrə) uyğunluğunu yoxlamaq.

4. Il ərzində iri məbləğdə akkreditivlərlə əlaqədar aşağıdakı işləri görmək:

- məbləğlərin akkreditiv məktubları və müqavilələri ilə uyğunluğunu yoxlamaq;
- akkreditivlərin rəhbərliyin icazəsi ilə açıldığına əmin olmaq;
- müştəri dosyelərində lazımi sənədlərin (akkreditiv teleksi, müştəri bəyannaməsi, müqavilə və s.) tam mövcudluğuna əmin olmaq;
- komisyonların hesablanmasını yoxlamaq;
- komisyonların bank tariflərinə uyğun olduğuna əmin olmaq;
- komisyonların hesablarda düzgün əks etdirilməsinə əmin olmaq (debet müştəri hesabı, kredit komisyon gəliri);
- yoxlamaq məqsədilə seçilmiş akkreditivin açılması üçün müştəri depozitinin blok edildiyini müəyyən etmək, blok edildiyi halda müştəri hesabına, habelə sair aktivlərin hesablarına köçürülməsinin düzgün əks etdirilməsinə əmin olmaq;
- akkreditivin bank çıxarışına uyğunluğunu yoxlamaq.

5. Ilin sonuna qalmış açıq ixrac akkreditivləri ilə əlaqədar (onlar bu bölmənin 4-cü bəndində göstərildiyi kimi yoxlanılmadıqda) aşağıdakı işləri görmək:

- məbləğlərin müştəri hesablarındakı məbləğlərlə uyğunluğunu yoxlamaq;
- ödəmə müddətləri və sənədləşdirmə baxımından uyğunsuzluqlar mövcud olan akkreditivləri müəyyən etmək.

6. Ilin sonuna qalıqların (müştəri hesabları blok edilməmiş akkreditivlər üzrə) doğruluğuna əmin olmaq.

7. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

## *VIII. Əsas vəsaitlər və qeyri-maddi aktivlər*

1. Auditlə əhatə olunan dövrdə mədaxil-məxaric olunan əsas vəsaitlərin və qeyri-maddi aktivlərin hərəkəti cədvəlini hazırlmaq.

2. Iri məbləğli mədaxillər üçün aşağıdakıları yerinə yetirmək:

- məbləğlərin təsdiqedici sənədlərə uyğunluğunu yoxlamaq;
- əsas vəsait və qeyri-maddi aktivin alınması üçün müvafiq icazələrin alındığına əmin olmaq;
- ödəmənin bank çıxarışı və ya müvafiq ödəniş sənədlərinə uyğunluğunu yoxlamaq.

3. Iri məbləğli silinmələrlə əlaqədar aşağıdakıları yerinə yetirmək:

- göstərilən məbləğlərin təsdiqedici sənədlərə uyğun olduğunu yoxlamaq;
- silinmiş vəsaitin məsul şəxs tərəfindən təsdiq olunduğuna əmin olmaq.

4. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin amortizasiyasını hesablamaq və onların mühasibatda düzgün əks etdirilməsinə əmin olmaq. Əsas vəsaitlərə amortizasiya hesablananda Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə Milli Bankın müəyyən etdiyi qaydalar arasında fərqin mövcudluğuna diqqət yetirmək.

5. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

## *IX. Xarici valyuta*

1. Aşağıdakıları təhlil etmək:

- valyuta bazarlarından bank müştərisinin hesabına alınmış xarici valyutanı;
- valyuta bazarlarından bankın hesabına alınmış xarici valyutanı.

Təhlil zamanı aşağıdakı nəzarət prosedurlarını müəyyən etmək:

- müştərilərin müvafiq əməliyyatları aparan bölmələrə verdiyi göstərişləri;
- bank təsdiqnamələrini;
- qərarların qəbul edilməsinə direktorların cəlb edilməsini;
- verilmiş hesabatları (təsdiq orderləri və s.);
- əməliyyatlar üzrə mühasibat uçotunun vəziyyətini;
- əməliyyatların müştəri hesabları və ya müxbir banklarla üzləşdirilməsini.

2. Valyuta bazarında satılacaq və ya alınacaq məbləğlərin müştəri hesablarındakı məbləğlərlə uyğunluğunu müəyyən etmək məqsədilə:

- sövdələşmənin müştəri göstərişinə müvafiq şəkildə aparıldığına əmin olmaq;
- sövdələşmənin düzgün şəkildə təsdiq olunaraq aparıldığına əmin olmaq;

- müştəridən alınmış komisyon məbləğinin hesablanmasını yoxlayıb, komisyon məbləğinin bank tariflərinə uyğun olduğuna əmin olmaq;
- sövdələşmənin valyuta bazarından alınmış təsdiqnamələrə uyğunluğunu yoxlamaq.

3. Həmin bölmədə xarici valyuta hesablarının auditlə tam əhatə edildiyinə əmin olmaq.
4. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *X. Sair aktivlər*

1. Auditlə əhatə olunan ilin sonuna sair aktivlər hesablarının dəqiq tərkibini hazırlamaq və cəmini əsas balansla üzləşdirmək.
2. Iri sair aktivlər qalıqları ilə əlaqədar hesabların növünü və uçot üsulunu qeydiyyata almaq.
3. Əvvəlcədən ödənilmiş xərclərlə (avanslar, vergilər və s.) əlaqədar aşağıdakı işləri görmək:
   - məbləğlərin təsdiqedici sənədlərə uyğunluğunu yoxlamaq;
   - ödənişləri bank çıxarışları və nağd ödəniş sənədləri əsasında yoxlamaq.
4. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *XI. Sair passivlər*

1. Auditlə əhatə olunan ilin sonuna sair passivlər hesablarının dəqiq tərkibini hazırlamaq və cəmlərini əsas balansla üzləşdirmək.
2. Iri sair passivlər qalıqları ilə əlaqədar hesabların növünü və uçot üsulunu qeydiyyata almaq.
3. Büdcə və büdcədənkənar fondlarla hesablaşmaların düzgün və vaxtında aparılmasına (ödənilən dividendlərdən və faizlərdən vergilərin tutulmasına və s.) diqqət yetirmək.
4. Bankın iddiaçı və ya cavabdeh kimi çıxış etdiyi bütün işlərin təsviri ilə bağlı bankın hüquqşünasından arayış almaq və onu audit icmalı sənədlərinə əlavə etmək.
5. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *XII. Kapital*

1. Auditlə əhatə olunan dövrdə kapitalın və kapitala bərabər tutulan ehtiyatların hərəkət cədvəllərini hazırlamaq.
2. Auditlə əhatə olunan dövrdə, il ərzində kapitala əlavələri yoxlamaq üçün:
   - Müşahidə Şurasının müvafiq protokolunu əldə etmək;
   - məbləğlərin köçürmə və nağd pul ilə ödənilməsini müəyyən etmək;
   - kapitala qeyri-nağd qoyuluşları müəyyən etmək;
   - qeydə alınmış səhmlərin ümumi sayını müəyyən etmək;
   - bank rəhbərlərinin və işçilərinin səhmdar kapitalında payını müəyyən etmək.
3. Kapital və digər ehtiyatlar üzrə köçürmələrlə əlaqədar aşağıdakı işləri görmək:
   - hesablamaları yoxlamaq və köçürmələrin Milli Bankın qaydalarına uyğun olduğuna əmin olmaq;
   - ilin sonuna iri səhmdarların qalıqlarını təsdiq etmək.
4. Bankın məcmu kapitalının həcminin Milli Bankın müəyyən etdiyi minimum məbləğdən aşağı olmadığına əmin olmaq.
5. Bank tərəfindən kapitalın adekvatlıq əmsalına riayət edilməsinə və onun düzgün hesablanmasına əmin olmaq.

6. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *XIII. Banklardan alınan depozitlər*

1. Banklardan alınan depozitləri sistemləşdirmək.
2. Auditlə əhatə olunan ilin sonuna mövcud qalıqları müəyyən edərək, onların illik balansa uyğunluğunu yoxlamaq, keçən ilin qalıqları ilə müqayisə etmək, ciddi və qeyri-adi fərqləri araşdıraraq, səbəblərini izah etmək.
3. Bank depozitlərini təhlil etmək və aşağıdakı sahələrdə sistem və nəzarət prosedurlarını qeydiyyata almaq:
- depozit müqavilələri;
- depozit əməliyyatının qeydə alınması;
- depozit əməliyyatlarının üzləşdirilməsi və təsdiqlənməsi;
- faizin hesablanması;
- faizin ödənilməsi və qeydə alınması.

4. Auditlə əhatə olunan dövrdə borc götürülmüş vəsaitlərin hərəkət cədvəlini hazırlamaq.
5. Banklardan alınmış iri depozitlərlə əlaqədar aşağıdakı işləri görmək:
- müqaviləyə uyğunluğu yoxlamaq;
- əməliyyatların Milli Bankın qaydaları ilə müəyyən edilmiş qaydalara uyğunluğunu yoxlamaq;
- vəsaitlərin hesaba düzgün köçürüldüyünü yoxlamaq;
- borc götürülmüş vəsaitləri bank çıxarışları ilə üzləşdirmək.

6. Iri ödəmələrlə əlaqədar aşağıdakı işləri görmək:
- bank çıxarışlarında məbləğin və faizin ödənildiyini yoxlamaq;
- faiz hesablanmasını yoxlamaq;
- faizin hesablara düzgün köçürüldüyünü yoxlamaq;
- ödəmənin rəhbərlik tərəfindən təsdiq olunduğuna əmin olmaq.

7. Auditlə əhatə olunan dövrdə tam faiz məbləğini müəyyən etmək və aşağıdakı işləri görmək:
- faizi yenidən hesablamaq;
- məbləğlərin bank çıxarışlarına uyğunluğunu yoxlamaq;
- faiz üzrə uçotun düzgün aparıldığına əmin olmaq.

8. Ilin sonuna qalıqların düzgünlüyünü təsdiq etmək.
9. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *XIV. Banklara verilən kreditlər*

1. Banklara verilən kreditləri sistemləşdirmək.
2. Auditlə əhatə olunan ilin sonuna mövcud qalıqları müəyyən edərək, onların illik balansa uyğunluğunu yoxlamaq, keçən ilin qalıqları ilə müqayisə etmək, ciddi və qeyri-adi fərqləri araşdıraraq, səbəblərini izah etmək.
3. Auditlə əhatə olunan dövrdə banklara verilən kreditlərin hərəkət cədvəlini hazırlamaq.
4. Iri məbləğdə verilən kreditlər üçün aşağıdakıları yerinə yetirmək:
- müqavilənin şərtlərinə diqqət yetirmək;
- vəsaitlərin hesablara düzgün köçürüldüyünü yoxlamaq;
- bank çıxarışlarının verilən kreditlərə uyğun olmasını yoxlamaq.

5. Iri məbləğlərdə ödəmələr üçün aşağıdakıları yerinə yetirmək:
- bank çıxarışına əsaslanaraq, əsas məbləğin və faizin ödənildiyini yoxlamaq;

- faiz hesablanmasını yoxlamaq;
- faiz gəlirlərinin düzgün qeyd olunduğunu yoxlamaq;
- ödəmənin rəhbərlik tərəfindən təsdiq olunduğuna əmin olmaq.

6. Auditlə əhatə olunan dövrdə toplanmış faiz gəlirlərini müəyyən etmək və aşağıdakıları yerinə yetirmək:

- faizi yenidən hesablamaq;
- məbləğləri bank çıxarışları ilə üzləşdirmək;
- faiz gəlirlərinin hesabatda düzgün əks etdirilməsinə əmin olmaq.

7. Ilin sonuna qalıqların düzgünlüyünü təsdiq etmək.
8. Keçən ilin auditi zamanı aşkar edilmiş çatışmazlıqlarla tanış olmaq və builki auditin əhatə etdiyi dövrdə həmin çatışmazlıqların təkrar edilməsinə yol verilibsə, onları xüsusi qeyd etmək. Aşkar edilmiş əlavə çatışmazlıqları aktda (hesabatda) əks etdirmək.

### *XV. Risklərin idarə edilməsi*

1. Aktivlərin və passivlərin çoğrafi təhlilini aparmaq.
2. Aktivlərin və passivlərin valyuta mövqeyinin təhlilini aparmaq və valyuta riskini müəyyən etmək.
3. Bankın idarə edilməsi ilə bağlı aşağıdakı riskləri və prosedurları müəyyən etmək:

a) faiz dərəcəsi riskini;
b) likvidlik riskini;
c) cari likvidlik problemlərini;
ç) likvidliyə təsir edən amillərin aşkarlanmasını;
d) maliyyələşdirmə riskini;
e) kredit riskini;
ə) əməliyyat riskini;
f) bazar riskini;
g) xarici müxbir banklar vasitəsilə akkreditivlərin təsdiqində ola bilən riski.

### *XVI. Daxili nəzarət sisteminin qiymətləndirilməsi*

1. Bankın daxili audit bölməsinin tərkibini müəyyən etmək.
2. Daxili audit planlarının təsdiq edilməsinə əmin olmaq.
3. Audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək üçün prosedurların mövcudluğuna əmin olmaq.
4. Daxili audit bölməsinin fəaliyyətinin Milli Bankın müəyyən etdiyi standart və qaydalara müvafiqliyinə əmin olmaq.

### *XVII. Nəticə və təkliflər*

Auditin yekunu üzrə auditor öz nəticə və təkliflərini müstəqil ifadə edir, audit nəticəsində aşkar edilmiş və baş verə biləcək nöqsan və çatışmazlıqların aradan qaldırılmasına dair qanunvericiliyə uyğun olaraq müvafiq təkliflər verir.

**PROQRAMI TƏRTIB EDƏN IŞÇI QRUPU**
**Işçi qrupunun rəhbəri:**
***Qəşəm BAYRAMOV –***
***Auditorlar Palatasının Auditin təşkili və***
***keyfiyyətə nəzarət şöbəsinin müdiri***

**Proqramı tərtib edənlər:**
***Vaqif AĞAYEV –***
***«RR&VAM – Beynəlxalq» müstəqil auditor firmasının prezidenti***
***Abbasəli QURBANOV –***
***«RR&VAM – Beynəlxalq» müstəqil auditor firmasının auditoru***

**Işçi qrupunun üzvləri:**
***Şirzad ABDULLAYEV –***
***Milli Bankın Bank nəzarətinin hüquqi təminatı şöbəsinin rəisi***
***Azər ƏLIYEV –***
***Milli Bankın Bank sektorunun inkişafı şöbəsinin baş iqtisadçısı***

**RƏYÇILƏR:**
***Əlimuxtar BAĞIROV –***
***Auditor xidməti departamentinin direktor müavini***
***Namiq ABBASLI –***
***sərbəst auditor***

***ASIDS 029/080-2005***
***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2005-ci il 19 yanvar tarixli***
***144/2 saylı qərarı ilə təsdiq edilmişdir***

# BƏLƏDIYYƏLƏRDƏ AUDIT APARILMASINA DAIR PROQRAM

***MÜNDƏRICAT:***

***I. Giriş***
***II. Bələdiyyə haqqında ümumi məlumat***
***III. Bələdiyyə büdcəsinin gəlir və xərc hissəsinin formalaşdırılması***
***IV. Pul vəsaitləri, bank və kassa əməliyyatları***
***V. Hesablaşma hesabı üzrə əməliyyatlar***
***VI. Xarici valyutada aparılan bank əməliyyatları***
***VII. Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədləri***
***VIII. Əsas vəsaitlər və qeyri-maddi aktivlər***
***IX. Hesablaşmalar, kredit əməliyyatları və maliyyə qoyuluşları***
***X. Kapital və ehtiyatlar***
***XI. Bələdiyyənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticəsi***
***XII. Daxili nəzarət***
***XIII. Mühasibat uçotunun və hesabatının vəziyyəti***
***XIV. Nəticə və təkliflər***

## *I. Giriş*

1.1. Bələdiyyələrin idarə olunmasının və fəaliyyətinin spesifik, özünəməxsus xüsusiyyətlərə malik olduğu nəzərə alınaraq, onların auditinin keçirilməsinə dair bu proqramın hazırlanması

məqsədəuyğun hesab edilmişdir. Proqram Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Vergi Məcəlləsi, bələdiyyələr haqqında qanunvericiliyi və digər normativ hüquqi aktları, habelə milli audit standartları rəhbər tutulmaqla tərtib edilmişdir.

1.2. Proqramın əsas məqsədi Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən sərbəst auditorlar və auditor təşkilatları tərəfindən ölkənin qanunvericilik aktlarına, milli audit standartlarına və Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının təsdiq etdiyi "Auditorların Peşə Etikası Məcəlləsi"nə riayət etməklə, bələdiyyələrə göstərilən auditor xidmətlərinin keyfiyyətinin yüksəldilməsindən və auditor yoxlamaları nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqların vaxtında aradan qaldırılmasından ibarətdir.

## *II. Bələdiyyə haqqında ümumi məlumat*

### 2.1. Bələdiyyələrin dövlət orqanlarında qeydiyyatı

2.1.1. Bələdiyyənin ədliyyə, vergi, statistika, sosial müdafiə və s. dövlət orqanlarında qeydiyyatdan keçməsi yoxlanılmalıdır.

2.1.2. Bələdiyyə nizamnaməsində, bələdiyyənin iclasları və ya vətəndaşların yığıncaqları tərəfindən qəbul edilmiş qərarlarda aşağıdakı məsələlərin əks etdirilib-etdirilməməsinə xüsusi diqqət yetirilməlidir:

1) Qanunla müəyyən edilmiş bələdiyyə ərazisinin hüdudları və tərkibi;
2) Bələdiyyə orqanlarının adları, strukturu, səlahiyyətləri və formalaşdırılması qaydası;
3) Bələdiyyə orqanlarının seçkili vəzifəli şəxslərinin səlahiyyət müddəti;
4) Bələdiyyə aktlarının qəbul edilməsi və qüvvəyə minməsi qaydası;
5) Bələdiyyələrin, bələdiyyə orqanlarının və onların vəzifəli şəxslərinin məsuliyyətinin əsasları və növləri;
6) Bələdiyyə üzvlərinin, bələdiyyə orqanlarının seçkili vəzifəli şəxslərinin statusu və sosial təminatları, onların səlahiyyətlərinə xitam verilməsinin əsasları və qaydası;
7) Bələdiyyə orqanlarının vəzifəli şəxslərinin hüquqları üçün təminatlar;
8) Bələdiyyə qulluğunun təşkilinin şərtləri və qaydası;
9) Yerli özünüidarənin həyata keçirilməsinin iqtisadi və maliyyə əsasları, bələdiyyə mülkiyyətinə sahibliyin, ondan istifadənin və ona sərəncam verilməsinin ümumi qaydası;
10) Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, yerli özünüidarənin təşkilinə, bələdiyyələrin və bələdiyyə orqanlarının vəzifəli şəxslərinin səlahiyyətlərinə və fəaliyyət qaydasına dair digər müddəalar.

### 2.2. Bələdiyyənin ərazisi haqqında məlumat

2.2.1. Bələdiyyə ərazisinin hüdudları və tərkibi, xəritəsi (Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi tərəfindən verilmiş), bələdiyyə torpaqlarının növləri və ölçüləri xüsusi öyrənilməlidir.

2.2.2. Icarəyə verilmiş bələdiyyə torpaqları (torpaq icarə müqaviləsi və həmin müqavilənin Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində dövlət qeydiyyatından keçirilməsi barədə şəhadətnamə), satışa çıxarılmış bələdiyyə torpaqları (alqı-satqı müqaviləsi və həmin müqavilənin dövlət qeydiyyatı), bələdiyyə ərazisində xüsusi mülkiyyətdə olan torpaqlar, kənd təsərrüfatına yararlı bələdiyyə torpaqları, bələdiyyənin ehtiyat fondu torpaqları, torpaq vergisi, torpaq vergisi ödəyicilərinin siyahısı və vergi dərəcələri, vergi güzəştləri, vergiyə cəlb edilməyən bələdiyyə torpaqları haqqında məlumatlar yoxlanılıb təhlil edilməlidir.

### 2.3. Bələdiyyənin strukturu

2.3.1. Bələdiyyənin icra orqanı olan icra aparatı, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanunu və bələdiyyənin nizamnaməsi ilə müəyyənləşdirilmiş qaydada formalaşdırılmaqla, müvafiq struktur bölmələrinin yaradılması və onların auditlə əhatə olunan dövrdə gördükləri işlər obyektiv qiymətləndirilməlidir.

2.3.2. Bələdiyyənin sədri tərəfindən bələdiyyə iclaslarının, qanuna müvafiq olaraq, ayda bir dəfədən az olmadan keçirilməsi və onların nəticələrinin rəsmiləşdirilməsi məsələləri yoxlanılmalıdır.

2.3.3. Bələdiyyənin yerli büdcə, sosial, ekologiya, iqtisadi inkişaf və hüquq məsələləri daimi komissiyalarının formalaşdırılması, onların qanunla müəyyən edilmiş vəzifə və funksiyalarının yerinə yetirilməsi və bələdiyyə qarşısında hesabat verməsi kimi əsas məsələlər yoxlanılmalıdır.

2.3.4. Bələdiyyə üzvlərinin, bələdiyyə orqanlarının seçkili vəzifəli şəxslərinin, bələdiyyənin nizamnaməsinə uyğun olaraq, öz səlahiyyətlərini daimi əsasda icra etmələrinə xüsusi diqqət yetirilməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, bələdiyyə qulluğunun hüquqi tənzimlənməsi, o cümlədən bələdiyyə qulluqçusunun statusu, bələdiyyə qulluğunun həyata keçirilməsi şərtləri və qaydası Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və bələdiyyənin nizamnaməsi ilə müəyyən edilir.

**2.4. Bələdiyyə mülkiyyəti**

2.4.1. Bələdiyyə mülkiyyətinin tərkibi təhlil edilib yoxlanılmalıdır. Bu zaman nəzərə almaq lazımdır ki, bələdiyyə mülkiyyətinin tərkibinə aşağıdakılar daxildir:

- yerli (bələdiyyə) vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti;
- bələdiyyənin büdcədənkənar fondları;
- bələdiyyə əmlakı, bələdiyyə torpaqları;
- bələdiyyə müəssisələri və təşkilatları;
- bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları;
- dövlət mülkiyyətində və xüsusi mülkiyyətdə olmayan yollar;
- bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri;
- digər daşınar və daşınmaz əmlak.

2.4.2. Bələdiyyənin su təsərrüfatı obyektləri, bələdiyyə ərazisində yerləşən dövlət su təsərrüfatı obyektləri, bələdiyyələrin su təsərrüfatının maliyyələşdirilməsi, bələdiyyələrin su təsərrüfatı obyektlərindən pullu istifadə, bələdiyyələrin su təsərrüfatı sistemlərinin idarə edilməsi məsələləri yoxlanılmalıdır.

2.4.3. Bələdiyyə mülkiyyətinin auditi zamanı bələdiyyə mülkiyyətinin tərkibinə daxil olan əmlak barəsində mülkiyyət hüququnu bələdiyyənin, Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş hallarda isə bilavasitə əhalinin həyata keçirməsi nəzərə alınmalıdır.

**2.5. Bələdiyyə qərarları**

2.5.1. Bələdiyyə qərarlarının Azərbaycan Respublikası Konstitusiyasının 145-ci maddəsinə uyğun olaraq qəbul edilməsi, bələdiyyənin öz səlahiyyətləri daxilində qəbul etdiyi qərarların təşkilati-hüquqi formasından asılı olmayaraq bələdiyyənin ərazisində yerləşən bütün hüquqi və fiziki şəxslər tərəfindən icra edilməsi və s. məsələlər yoxlanılmalıdır.

2.5.2. Bələdiyyə qərarlarının icrası yoxlanılarkən nəzərə almaq lazımdır ki, bələdiyyənin qəbul etdiyi qərarlar bələdiyyənin ərazisində yerləşən hüquqi və fiziki şəxslərin hüquq və səlahiyyətlərinin pozulmasına yönəldilə bilməz, bələdiyyə qərarlarının icra edilməməsi qanuna müvafiq surətdə məsuliyyətə səbəb olur, bələdiyyə qərarları yalnız onları qəbul etmiş orqanlar tərəfindən ləğv oluna və ya məhkəmənin qərarı ilə etibarsız sayıla bilər.

## *III. Bələdiyyə büdcəsinin gəlir və xərc hissəsinin formalaşdırılması*

**3.1. Bələdiyyə büdcəsinin gəlirləri**

3.1.1. Bələdiyyə büdcəsinin gəlir hissəsinin formalaşdırılmasının auditi zamanı, ilk növbədə, bu sahəni tənzimləyən normativ aktların düzgün tətbiqini yoxlamaq lazımdır. Bələdiyyələrin

gəlirləri "Bələdiyyələrin statusu haqqında" 1999-cu il 2 iyul, "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında" 1999-cu il 7 dekabr, "Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında" 2001-ci il 27 dekabr tarixli Azərbaycan Respublikası qanunları ilə tənzimlənir. Həmin qanunlara əsasən, bələdiyyələrin gəlirləri aşağıdakı mənbələrdən formalaşdırılır:

a) Vergi və ödəniş gəlirləri üzrə:

- fiziki şəxslərdən torpaq vergisindən;
- fiziki şəxslərdən əmlak vergisindən;
- yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisindən;
- bələdiyyə mülkiyyətində olan hüquqi şəxslərdən mənfəət vergisindən;
- bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişdən;
- stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişdən;
- bələdiyyə ərazisində mehmanxana, sanatoriya-kurort və turizm xidmətləri göstərən şəxslərdən alınan ödənişdən;
- bələdiyyə ərazisində hüquqi və fiziki şəxslərə məxsus olan ixtisaslaşdırılmış avtomobil dayanacaqları və ya bələdiyyələrin qərarına əsasən müəyyən edilmiş yerlərdə bütün növ nəqliyyat vasitələrinin daimi və müvəqqəti dayanacaqları üçün ödənişdən.

b) Bələdiyyələrin qeyri-vergi gəlirləri üzrə:

- bələdiyyə mülkiyyətinin özəlləşdirilməsindən;
- bələdiyyə mülkiyyətinin icarəyə verilməsindən;
- bələdiyyə mülkiyyətinin istifadəyə verilməsindən;
- lotereyalardan;
- bələdiyyə müəssisələrinin gəlirlərindən;
- dövlət əhəmiyyətli tədbirlər və dövlət orqanlarının qərarları nəticəsində yaranan xərclərin ödənilməsi üçün maliyyə vəsaitindən;
- dövlət büdcəsindən verilən dotasiya, subvensiya və subsidiyalardan daxil olan vəsaitdən.

c) Könüllü birdəfəlik ödənişlər üzrə:

- fiziki və hüquqi şəxslərin maliyyə yardımlarından;
- beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantlarından;
- hüquqi və fiziki şəxslər tərəfindən təyinatı üzrə istifadə üçün ödənilən könüllü və birdəfəlik ödənişlərdən.

3.1.2. Göstərilən vergi və ödəmələr bələdiyyənin smetasının gəlir hissəsini təşkil etdiyi üçün audit zamanı, ilk növbədə, bələdiyyənin ali orqanı tərəfindən təqvim ili üçün təsdiq edilmiş smetanın mövcudluğu yoxlanılmalıdır. Ayrı-ayrı, mövcud bazanın ancaq artım üzrə dəyişilə bildiyi tədiyə növləri (məsələn, fiziki şəxslərin əmlak və torpaq vergisi) üzrə büdcənin gəlir hissəsində nəzərdə tutulmuş gəlir məbləğlərinin mövcud siyahılar üzrə ümumi tədiyə məbləğinin aşağı həddindən az məbləğdə nəzərdə tutulması yolverilməzdir.

3.1.3. Audit zamanı nəzərə almaq lazımdır ki, gəlir maddələri üzrə hesablaşmalar və ödəmələr, güzəştlər edilməsi, həmçinin onların aşağı və yuxarı hədləri Azərbaycan Respublikasının qanunvericilik aktları ilə tənzimlənir. Konkret məbləğlərin tətbiq edilməsinin zəruriliyi isə bələdiyyələrin qərarları ilə müəyyənləşdirilir.

3.1.4. Yuxarıda göstərilən vergi və ayırmaların yerli büdcəyə daxil olmasının düzgünlüyünü yoxlamaq üçün, ilk növbədə, həmin tədiyələr üzrə vergi ödəyicilərinin tam və dəqiq siyahısı əldə edilməlidir. Bələdiyyədə bu siyahılar mövcud olmadığı halda, həmin tədiyələrin hesablanması və yığılması heç vaxt tam, dəqiq və düzgün ola bilməz. Bu, ilk növbədə, fiziki şəxslərin torpaq vergisi, fiziki şəxslərin əmlak vergisi, yerli əhəmiyyətli tikinti materiallarına görə mədən vergisi kimi vergilərə, kurort, mehmanxana, avtomobil dayanacaqları üçün rüsumlara, habelə qanunla müəyyənləşdirilmiş digər yerli vergi və ödənişlərə, küçə (divar) reklamlarının yerləşdirilməsinə və yayılmasına görə haqlara aiddir.

3.1.5. Bələdiyyələrin mülkiyyətində olan müəssisə və təşkilatların mənfəət vergisini müəyyənləşdirmək üçün bələdiyyələr tərəfindən təsis edilmiş hüquqi şəxslərin uçotunun

aparılması, qanunvericiliyə uyğun olaraq göstərilən tədiyənin düzgün hesablanması və ödənilməsinə nəzarət məqsədilə onların mühasibat və vergi hesabatlarının bələdiyyələrə təqdim edilməsinin vəziyyəti araşdırılmalıdır.

3.1.6. Bələdiyyə mülkiyyətinin icarəyə verilməsindən və özəlləşdirilməsindən əldə olunan gəlirlərə nəzarət məqsədilə auditin əhatə etdiyi dövrün əvvəlinə mövcud əmlakın və auditlə əhatə olunan dövrdə mədaxil olunan daşınar və daşınmaz əmlakın mövcudluğuna, habelə hərəkətinə xüsusi diqqət yetirilməlidir.

3.1.7. “Dövlət orqanları tərəfindən qəbul edilmiş qərarların və dövlət əhəmiyyətli tədbirlərin həyata keçirilməsi ilə bağlı xərclərin ödənilməsi üçün daxil olmuş maliyyə vəsaitləri” maddəsi üzrə gəlirlərə nəzarət etmək üçün bələdiyyə tərəfindən çəkilmiş xərclərin tərkibində müvafiq kateqoriyalı xərclərin olub-olmamasına xüsusi diqqət yetirilməlidir.

3.1.8. Azərbaycan Respublikasının büdcəsindən dotasiya və subvensiyaların alınması maddəsi üzrə gəlirlərə nəzarət etmək üçün nəzərə almaq lazımdır ki, subvensiya və dotasiyanın aid olduğu il üzrə Azərbaycan Respublikasının dövlət büdcəsi haqqında qanunda müvafiq maddələr mövcuddur.

3.1.9. Yuxarıda göstərilənlərin bələdiyyələr tərəfindən mühasibat uçotu üzrə əks etdirilməsi üçün aşağıdakı ardıcıllıq tələb olunur:

1) Hər bir növ gəlir üzrə hüquqi sənəd bazasının mövcudluğu (tədiyəçilərin siyahısı, müqavilələr, qərarlar, bildirişlər və s.);

2) Tədiyə və ödənişlərin hesablanmasının uçotu;

3) Tədiyə və ödənişlərin bələdiyyələrin hesablarına daxil olmasının uçotu;

4) Faktiki daxilolmalar ilə bələdiyyə büdcəsinin gəlir hissəsinin müvafiq maddəsinin müqayisəsi.

3.1.10. Audit üçün göstərilən ardıcıllığın hər bir mərhələsi mühüm əhəmiyyət kəsb edir, çünki bələdiyyə vəsaiti yerli büdcənin vəsaiti olmaqla, özəl strukturların vəsaitindən mülkiyyət formasına görə çox ciddi şəkildə fərqlənir.

### 3.2 . Bələdiyyə büdcəsinin xərcləri

3.2.1. Bələdiyyə büdcəsi xərclərinin auditi aparılarkən aşağıdakılara fikir vermək lazımdır:

1) Bələdiyyə büdcəsi xərclərinin həcmi və istiqamətləri bələdiyyələr tərəfindən müəyyənləşdirilir;

2) Bələdiyyə büdcəsində bələdiyyənin idarəetmə xərcləri sosial-məişət, yaşayış, mədəniyyət və idman obyektlərinin, habelə əhalinin ümumi istifadəsində olan küçə, həyət və bağların saxlanılması xərcləri nəzərə alınmaqla, bələdiyyələrin müəyyən etdiyi xərc normativləri əsasında formalaşdırılır. Büdcədə həmçinin yerli sosial müdafiə, sosial və iqtisadi inkişaf, habelə ekoloжi proqramların maliyyələşdirilməsi üçün xərclər nəzərdə tutula bilər;

3) Dövlət büdcəsindən dotasiya alan bələdiyyələrin büdcə xərclərinin hesablanmasında tətbiq olunan normativlər dövlət büdcəsi xərclərinin proqnozlaşdırılması üçün tətbiq olunan xərc normativlərindən yüksək ola bilməz;

4) Dotasiyanın maksimum həddi hesablanarkən dövlət büdcəsinin proqnozunda xərc normativləri və ərazinin respublika maliyyə resurslarının formalaşmasında xüsusi çəkisi nəzərə alınır;

5) Əlavə səlahiyyətlərin həyata keçirilməsi üçün qanunverici və icra hakimiyyətləri tərəfindən ayrılan məqsədli vəsait, o cümlədən subvensiya hesabına xərclərin maliyyələşdirilməsi bələdiyyələrin büdcəsinin məxaric hissəsində ayrıca sətirlə göstərilir;

6) Xərclərin bələdiyyə büdcəsinin gəlirləri ilə təmin olunmayan hissəsi (yerli büdcənin kəsiri) dövlət büdcəsindən alınan dotasiya ilə örtülə bilər.

3.2.2. Bələdiyyələr tərəfindən alınmış dotasiyaların, subvensiyaların və subsidiyaların təyinatı üzrə düzgün xərclənməsi yoxlanılmalıdır.

## *IV. Pul vəsaitləri, bank və kassa əməliyyatları*

4.1. Kassa əməliyyatlarının auditi zamanı aşağıdakılara diqqət yetirilməlidir:

1) Maddi məsuliyyət haqqında kassirlə bağlanmış müqavilənin mövcudluğuna;

2) Kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin sərəncamının olub-olmamasına. Kassanın inventarizasiyasi başa çatdıqdan sonra kassa kitabının qalığı ilə kassada olan pul vəsaitlərinin həqiqi mövcudluğu tutuşdurulmalı, kənarlaşma aşkar edilərsə, səbəbləri araşdırılmalıdır;

3) Kassa kitabının səhifələrinin möhürlənməsi, qaytanlanması və müvafiq imzalarla təsdiqlənməsinə, kassa otağının müvafiq tələblərə cavab verməsinə;

4) Kassa mədaxil və məxaric orderlərinin müvafiq qaydada tərtib olunmasına, kassa kitabında yazılışların düzgün aparılmasına;

5) Ciddi hesabat blankları olan kassa mədaxil orderlərinin nömrələrinin ardıcıllığına riayət olunmasına, ləğv edilmiş mədaxil orderlərinin saxlanmasına;

6) Kassadan nağd pulun verilməsi barədə sənədlərdə məsul şəxslərin imzalarının olub-olmamasına;

7) Mədaxil və məxaric orderlərinin kassa əməliyyatlarının qeydiyyatı kitabında düzgün və vaxtında əks etdirilməsinə. Kassada saxlanılan pul vəsaitlərinin həqiqi mövcudluğu barədə kassirdən iltizam alınmalıdır. Baş kitaba əsasən, kassa üzrə pul vəsaitlərinin hərəkət cədvəlləri tərtib edilməli və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir;

8) Vəkalətnamələrə əsasən digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyü yoxlanılmalı, verilmiş vəkalətnamələrin düzgün tərtib edildiyinə və ciddi hesabat blankları olduğuna əminlik əldə edilməli, bu məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə edilməlidir;

9) Kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyü seçmə yolu ilə yoxlanılmalıdır;

10) Xarici valyutada kassa əməliyyatı aparılırsa, bu əməliyyatlar ayrıca kassa kitabında aparılmalıdır;

11) Nağd xarici valyutada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edildiyi və məzənnə fərqlərinin düzgün hesablanması yoxlanılmalıdır;

12) Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitlərinin qalığının kassaya vaxtında qaytarılmasına, habelə tam maddi məsuliyyət barədə müqavilənin və rəhbərliyin sərəncamının mövcudluğuna nəzarət edilməlidir. Bu məlumatlardan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə edilə bilər;

13) Deponentləşdirilmiş vəsaitlərin vaxtında banklara qaytarıldığına və bununla bağlı əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyinə nəzarət edilməlidir;

14) Aparılmış kassa əməliyyatlarının mühasibat yazılışlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

## *V. Hesablaşma hesabı üzrə əməliyyatlar*

5.1. Hesablaşma hesabı üzrə əməliyyatların auditi zamanı aşağıdakılara riayət edilməlidir:

1) Bankda olan hesablaşma hesabları barədə arayış alınmalıdır;

2) Auditlə əhatə olunan dövrün sonuna bank çıxarışlarında olan məbləğin baş kitabda və maliyyə hesabatlarında düzgün əks etdirilməsi yoxlanılmalıdır;

3) Bank çıxarışlarında göstərilmiş məbləğlərin onlara əlavə edilmiş ilkin sənədlərlə uyğunluğu yoxlanılmalıdır;

4) Baş kitaba əsasən, hesablaşma hesabı üzrə pul vəsaitlərinin hərəkət cədvəlləri tərtib edilməli və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir;

5) Ilkin sənədlərdə bank ştampının mövcudluğuna diqqət yetirilməlidir. Əgər ştamp yoxdursa, əməliyyatın düzgünlüyü barədə bankdan arayış tələb olunmalıdır;

6) Bank çıxarışlarında düzəlişlər olarsa, onların bank tərəfindən təsdiqlənməsi tələb olunmalıdır;

7) Auditlə əhatə edilən dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox maddi əhəmiyyət kəsb edirsə, bankdan bu barədə təsdiqləyici arayış alınmalıdır;

8) Hesablaşma hesabı ilə aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

5.2. Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar daha böyük maddi əhəmiyyət kəsb edirsə, aparılmış əməliyyatların düzgünlüyü yoxlanılaraq, bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə edilə bilər.

## *VI. Xarici valyutada aparılan bank əməliyyatları*

6.1. Xarici valyutada aparılan bank əməliyyatlarının auditi zamanı:

1) Bankda olan cari, tranzit və xaricdəki valyuta hesabları barədə arayış alınmalıdır;

2) Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların, bank xidmətləri, birja rüsumları və yaranmış məzənnə fərqlərinin uçotda düzgün əks etdirildiyi yoxlanılmalıdır;

3) Xarici valyutada aparılan əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edilməsi və məzənnə fərqlərinin düzgün hesablanması, hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirildiyi yoxlanılmalıdır;

4) Valyuta hesabı üzrə verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır;

5) Xarici iqtisadi fəaliyyətlə bağlı satışın nəticəsinə görə xaricdən əldə edilmiş gəlirlərin, habelə maddi dəyərlilərə görə xaricə köçürülmüş vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalı və hesablaşma əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir;

6) Valyuta hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatların düzgünlüyü yoxlanılmalı və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir;

7) Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, qeyri-rezidentin mənbədən gəlir vergisinin və əlavə dəyər vergisinin düzgün tutulduğu yoxlanılmalı, vergilər üzrə hesablaşmaların auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir.

## *VII. Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədləri*

7.1. Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi zamanı:

1) Bank çıxarışlarına əsasən, ödənişlər ilkin sənədlərlə tutuşdurulmalı, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır;

2) Akkreditiv əməliyyatlarının normativ sənədlərin və qanunverici aktların tələblərinə uyğun tətbiq edildiyinə əmin olmaq məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydaları və müddətləri yoxlanılmalıdır;

3) Əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanmasına və oradakı vəsaitlərin başqa məqsədlərlə istifadə edilmədiyinə diqqət yetirilməlidir;

4) Limitləşdirilmiş çeklərdən və elektron kredit kartlarından istifadənin mühasibat uçotunda düzgün əks etdirildiyini, onlarla aparılmış əməliyyatların məqsədəuyğun olduğunu, çeklərin və kartların təqdim edildiyi şəxslərlə müqavilələrin bağlanması və onlardan hesabatların qəbul edilməsinin düzgünlüyü yoxlanılmalıdır;

5) Pul sənədlərinin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş təyyarə biletləri və s.) kassada saxlanması və hesabat göstəricilərinin mövcudluğu yoxlanılmalıdır;

6) Pul sənədləri üzrə analitik uçotun düzgün aparıldığı yoxlanılmalıdır;

7) Hesabat dövrünün sonuna yolda olan köçürmələrin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq üçün təqdim edilmiş ilkin sənədlərlə balans hesabından daxil olan vəsaitlər müqayisə edilməlidir. Kənarlaşma aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır;

8) Qısamüddətli maliyyə qoyuluşları kimi hesabatlarda əks etdirilən qiymətli kağızların, depozitlərin və verilmiş borclar üzrə subhesabların aparıldığına və müddətinin həqiqətən bir ildən çox olmadığına nəzarət edilməlidir;

9) Depozit hesablarin yaradılmasının şərtləri təhlil edilməli və düzgünlüyünə qiymət verilməlidir. Depozitə görə müqavilələrin şərtləri öyrənilməli və depozitlərə görə alınmış faizlərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır;

10) Qiymətli kağızların alış dəyərinin nominal dəyərindən fərqləndiyi hallarda fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olduğu yoxlanılmalıdır;

11) Istiqrazların və digər qiymətli kağızların satışı üzrə əməliyyatların nəticələrinin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır;

12) Xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

## *VIII. Əsas vəsaitlər və qeyri-maddi aktivlər*

8.1. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi zamanı aşağıdakılara riayət edilməlidir:

1) Mühasibat hesabatlarında əks etdirilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar toplanmalıdır;

2) Əsas vəsaitlərin və qeyri-maddi aktivlərın hesabat dövrünün sonuna analitik uçotu tələb edilməli, sintetik hesabın qalıqları ilə tutuşdurulmalı, kənarlaşmalar müəyyən edilərsə, səbəbləri aydınlaşdırılmalıdır;

3) Əsas vəsaitlərə daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparılması və əgər aparılıbsa, nəticələrinin mühasibat uçotunda düzgün əks etdirilməsi yoxlanılmalıdır. Inventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktları tələb edilməlidir;

4) Əsas vəsaitlərin və qeyri-maddi aktivlərın alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və mühasibat uçotunda əks etdirilməsi yoxlanılmalıdır. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə

qiymət verilməlidir. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərın alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin onların ilkin dəyərinə həqiqətən daxil edildiyinə nəzarət edilməlidir;

5) Əsas vəsaitlər və qeyri-maddi aktivlər xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyi və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq, düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyi yoxlanılmalıdır;

6) Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədlər tələb edilməlidir;

7) Əsas vəsaitlərin və qeyri-maddi aktivlərın kateqoriyalar üzrə düzgün qruplaşdırıldığına, tətbiq edilmiş amortizasiya ayırmalarının normalarına nəzarət edilməlidir. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablandığının düzgünlüyü yoxlanılmalıdır;

8) Əsas vəsaitlərin və qeyri-maddi aktivlərın xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır. Əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyi yoxlanılmalıdır. Əgər əsas vəsaitlər qalıq dəyərindən aşağı qiymətə satılmışdırsa, tətbiq olunan qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətinə uyğun olduğu barədə qiymətləndirici ekspertin rəyi tələb edilməlidir;

9) Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalı, lizinq müqaviləsinin şərtləri öyrənilməlidir;

10) Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyinə nəzarət edilməlidir. Görülmüş təmir işlərinin xarakteri öyrənilməli və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığına nəzarət edilməlidir;

11) Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirilməlidir;

12) Əsas vəsaitlərin təqdim edilməsi və icarəyə verilməsi hallarında satış və icarə qiymətlərinə xüsusi diqqət yetirilməlidir.

### *IX. /Hesablaşmalar, kredit əməliyyatları və maliyyə qoyuluşları*

9.1. Büdcə ilə hesablaşmaların auditi

9.1.1. Əgər bələdiyyə orqanı sahibkarlıq fəaliyyəti ilə məşğuldursa, bu növ fəaliyyətdən əldə edilən gəlirin mənfəət vergisinə cəlb edilməsinin, sahibkarlıq fəaliyyətindən əldə edilmiş hasilatın ümumi məbləğindən asılı olaraq, sadələşdirilmiş vergiyə, yaxud ƏDV-yə cəlb edilməsinin vəziyyəti və bunlarla əlaqədar olaraq bütövlükdə bələdiyyə orqanının sahibkarlıq fəaliyyəti auditlə əhatə edilməlidir.

9.2. Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi

9.2.1. Bələdiyyələrdə təhtəlhesab şəxslərlə əməliyyatların aparılmasının rəsmi qaydada, sərəncama əsasən bələdiyyə üzvlərindən birinə həvalə edilməsi, təhtəlhesab şəxs tərəfindən tədarük edilmiş mal və materialların qiymətlərinin bazar qiymətlərinə müvafiq olmasına nəzarət məqsədilə bələdiyyədə qiymət komissiyalarının yaradılması, tədarük edilmiş maddi dəyərlilərin alınmasını təsdiq edən ilkin sənədlərin mövcud olub-olmaması və tərtib edilmiş avans hesabatlarının düzgünlüyü auditlə əhatə olunmalıdır.

**9.3. Debitor və kreditorlarla hesablaşmaların auditi**

9.3.1. Vergi ödəyicilərindən alınacaq vergilər üzrə yaranmış borcların, həmçinin tədiyəçilər tərəfindən artıq ödənilmiş vergi məbləğlərinin, bələdiyyələrin enerжi satışı, rabitə xidmətləri və s. sahələrdə aparılmış əməliyyatlarının düzgünlüyü yoxlanılmalıdır.

**9.4. Kredit və maliyyə qoyuluşlarının auditi**

9.4.1. Bələdiyyələrin maliyyəsinin təşkili işinin kredit təşkilatları ilə bağlanmış qarşılıqlı müqavilələr əsasında həyata keçirilməsinin vəziyyəti yoxlanılmalıdır.

### *X. Kapital və ehtiyatlar*

**10.1. Bələdiyyələr özlərinin vəsaitləri hesabına tikinti-quraşdırma işlərini apara bilərlər. Bu halda kapital qoyuluşunun auditini aşağıdakı sənədlərə əsasən aparmaq tövsiyə olunur:**

- tikinti-quraşdırma işlərinin aparılması üçün bələdiyyə üzvlərinin iştirakı ilə keçirilmiş şura iclasının qərarı;
- tikinti-quraşdırma işlərinin aparılması nəzərdə tutulmuş obyektlərin layihə sənədləri;
- pul vəsaitlərinin ayrılmasına dair şura iclasının qərarından çıxarış;
- faktiki aparılmış tikinti-quraşdırma işlərinə çəkilmiş xərcləri təsdiq edən sənədlər;
- ilin sonuna əmələ gəlmiş vəsaitlərin qalıqları hesabına bələdiyyələrin yarada biləcəyi büdcədənkənar ehtiyat fondları barədə şura üzvlərinin iştirakı ilə keçirilmiş yığıncağın qərarı.

### *XI. Bələdiyyənin maliyyə-təsərrüfat fəaliyyətinin nəticəsi*

11.1. Bələdiyyə büdcələrinin icrası zamanı qəbul edilmiş öhdəliklər üzrə əməliyyatlar büdcə ili qurtardıqdan sonra bir ay ərzində başa çatdırılır. Bu müddət ərzində istifadə olunmayan vəsait, Azərbaycan Respublikasının qanunvericiliyinin dəyişdirilməsi halları istisna olmaqla, bələdiyyələrin sərəncamında qalır.

11.2. Bələdiyyələr yerli büdcənin icrası haqqında hesabatı öz nizamnaməsində mü\əyyən edilmiş qaydada təsdiq edir və əhaliyə çatdırır.

### *XII. Daxili nəzarət*

12.1. Daxili nəzarət bölməsi bələdiyyə qulluğunun düzgün təşkilini, bələdiyyə qulluqçularının hüquq və vəzifələrini əhatə edir.

12.2. Daxili nəzarətin auditi aparılarkən aşağıdakılar araşdırılır:

- "Bələdiyyə qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun yerinə yetirilməsi üzərində nəzarətin təşkili;
- bələdiyyə tərəfindən qəbul edilmiş qərarların icrasına nəzarət;
- bələdiyyənin fəaliyyətinin əhatə dairəsinə uyğun olaraq yaradılmış struktur bölmələrinin, daimi və başqa komissiyaların məqsədəmüvafiqliyi;
- daimi və başqa komissiyaların iclaslarının vaxtında keçirilməsi və onlarda irəli sürülmüş təkliflərin, iclasların qərarlarının yerinə yetirilməsinə nəzarətin vəziyyəti;
- yerli büdcənin gəlir və xərclərinə nəzarətin təşkili;
- yerli büdcənin tarazlaşdırılması tədbirləri;
- yerli büdcə məsələləri daimi komissiyasının fəaliyyəti;
- keçmiş illərdə aşkar edilmiş nöqsanların cari ildə aradan qaldırılmasının vəziyyəti;
- bələdiyyə qulluqçularının fəaliyyətinə nəzarət.

***12.3. Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmaq, cari auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək lazımdır. Eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqlar aktda (hesabatda) əks etdirilməli və rəhbərliyə ünvanlanan məktuba daxil edilməlidir.***

### *XIII. Mühasibat uçotunun və hesabatının vəziyyəti*

13.1. Mühasibat uçotunun və hesabatının vəziyyəti yoxlanılarkən bələdiyyədə mühasibat uçotunun "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa və bələdiyyənin qəbul etdiyi mühasibat uçotu siyasətinə uyğunluğu məsələlərinə xüsusi diqqət yetirilməlidir.

13.2. Bu bölmədə aşağıdakılar öz əksini tapmalıdır:

- bələdiyyədə mühasibat uçotunun "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununa uyğun təşkili;
-uçotun tamlığı;
-uçotun fasiləsizliyi;
-mühasibat uçotu hesablarının tətbiqi;
- təsərrüfat fəaliyyətində ehtiyatlılığın təminatı;
- qiymətləndirmənin təminatı;
- mühasibat uçotu registrlərinin mövcudluğu;
- analitik uçotla sintetik uçotun uyğunluğunun vəziyyəti;
- hesabat göstəricilərinin ilkin sənədlərlə uyğunluğunun vəziyyəti.

13.3. Mühasibat uçotunun vəziyyətinin auditi aparılarkən aşağıdakıların yoxlanılması məqsədəmüvafiqdir:

- müəssisə balansının (Forma №1) mövcudluğu və onun göstəricilərinin baş kitabın hesabları üzrə qalıqlara uyğunluğu;
- smeta göstəriciləri ilə faktiki göstəricilərin üzləşmə cədvəlinin mövcudluğu;
- mühasibat hesabatında əks etdirilmiş göstəricilərin onun tərtib olunmasına dair təlimatla nəzərdə tutulan qaydaya uyğunluğu;
- ciddi uçot blanklarına riayət edilməsi;
- təşkilatda tətbiq olunan mühasibat uçotu forması, onun müəyyən olunmuş qaydada təsdiq edilmiş uçot formasına uyğunluğu;
- mühasibat uçotu registrlərinin baş kitaba uyğunluğu.

## *XIV. Nəticə və təkliflər*

14.1. Auditor bələdiyyələrin auditi nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılmasına, habelə bələdiyyələrin daha səmərəli işləməsinə dair konkret təkliflər verir.


**PROQRAMI TƏRTIB EDƏN IŞÇI QRUPU:**

***Qəşəm BAYRAMOV –***
***Auditorlar Palatasının Auditin təşkili və keyfiyyətə nəzarət şöbəsinin müdiri***

***Vəli RƏHIMOV –***
***Auditorlar Palatasının Maliyyə-təsərrüfat şöbəsinin müdiri***

***Vaqif AĞAYEV –***
***"RR&VAM – Beynəlxalq" müstəqil auditor firmasının prezidenti***

***Hacımahama MUHUMOV –***
***sərbəst auditor***

***Lalə NƏSIBOVA –***
***Auditorlar Palatasının Elmi-tədqiqat və tədris mərkəzinin sabiq direktor müavini***

***Arifə MUXTAROVA –***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə Iş Mərkəzinin***

*aparıcı mütəxəssisi*
***Asif MÜFTIYEV –***
***Mərdəkan bələdiyyəsinin sədr müavini***
***Əfrasiyab ƏMIROV –***
***Buzovna bələdiyyəsinin sədr müavini***

**RƏYÇILƏR:**
***Avtandil ƏLIYEV –***
***sərbəst auditor***
***Eldəniz ISGƏNDƏROV –***
***sərbəst auditor***

***AS1DS 031/082-2005***
Azərbaycan Respublikasının
***Auditorlar Palatası Şurasının***
***2005-ci il 19 yanvar tarixli***
***144/2 saylı qərarı ilə təsdiq edilmişdir***

# ƏMLAKIN QIYMƏTLƏNDIRILMƏSININ AUDITI PROQRAMI

*MÜNDƏRICAT:*

**I. Giriş**
***II. Daşınmaz əmlakın qiymətləndirilməsi***
*III. Abadlıq obyektlərinin qiymətləndirilməsinin auditi*
***IV. Müxtəlif təyinatlı torpaqların qiymətləndirilməsinin auditi***
***V. Çoxillik əkmələrin qiymətləndirilməsinin auditi***
***VI. Maşın, avadanlıq və qurğuların qiymətləndirilməsinin auditi***
***VII. Nəqliyyat vasitələrinin qiymətləndirilməsinin auditi***
***VIII. Mal və materialların qiymətləndirilməsinin auditi***
***IX. Intellektual (əqli) mülkiyyətin qiymətləndirilməsinin auditi***
***X. Əsas fondların (vəsaitlərin) yenidən qiymətləndirilməsinin aparılması qaydaları***
***XI. Azərbaycan Respublikasında fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin müəyyən edilməsi qaydalarının auditi***
***XII. Sair qiymətləndirmə əməliyyatlarının auditi***

## *I. Giriş*

Sifarişçi təsərrüfat subyektlərinin maliyyə-təsərrüfat fəaliyyətinin auditi və maliyyə hesabatlarının təsdiqi zamanı hüquqi və fiziki şəxslərin bank, kassa, investisiya, müxtəlif

təyinatlı fondların yaradılması və istifadəsi, nizamnamə fondunun formalaşması və s. əməliyyatlarla bərabər, maliyyə-təsərrüfat fəaliyyətində baş vermiş fakt kimi, qiymətləndirmə əməliyyatlarına da rast gəlinir. Sahibkar, səhmdar və ya təsisçi, digər iqtisadi informasiyalarla bərabər, qiymətləndirmənin də şəffaflığının təmin olunmasında maraqlıdır. Odur ki, aktivlərin mövcudluğu və maliyyə hesabatlarında əks etdirilməsi, vergi öhdəliklərinin yaranması, xalis aktivlərin dəyərinin hesablanması, maliyyə-təssərrüfat əməliyyatlarının qanunvericiliyə müvafiq aparılması və s. ilə yanaşı, qiymətləndirmənin də auditinin aparılması auditor qarşısında bir vəzifə olaraq qoyulur və ya onun tərəfindən aparılası işlərin tərkib hissəsi kimi nəzərdə tutulur.

Təqdim olunan proqram, qiymətləndirməyə dair beynəlxalq, regional və milli standartlara əsasən, metodiki tövsiyələrin tələblərinə uyğun aparılmış qiymətləndirmə əməliyyatlarının auditi üçün nəzərdə tutulmuşdur. Ayrı-ayrı hallarda qiymətləndirmənin düzgünlüyünün auditi üçün qiymətləndirmədə istifadə olunan metodlardan fərqlənən üsullardan, habelə əmlakın fərqli təsnifatından istifadə edilməsi, sırf qiymətləndirmə ilə bağlı bir sıra açıqlamaların *(əmlakın bazar və qeyri-bazar qiymətləri və s.)* verilməməsi də bu məqsədə xidmət edir. Yeri gəlmişkən, bir sıra ixtisas ədəbiyyatında qiymətləndirmə əmlakın istifadəsindən əldə olunan gəlirə görə aparıldıqda, bu, *«gəlirə görə yanaşma»*, diskontlaşdırma və kapitallaşdırma isə *«metod»* adlandırılır; digər mənbələrdə, o cümlədən Azərbaycan dilində olan mənbələrdə gəlirə görə qiymətləndirmə *«metod»*, diskontlaşdırma və kapitallaşdırma isə *«üsul»* adlandırılmışdır. Aparılan prosedurun adının ciddi əhəmiyyət daşımaması nəzərə alınaraq, proqramda sonuncu variantdan istifadə edilmişdir.

## *II. Daşınmaz əmlakın qiymətləndirilməsinin auditi*

**Daşınmaz əmlakın qiymətləndirilməsinin auditi zamanı həmin əmlakın aşağıdakı təsnifatına diqqət yetirilməlidir:**

1. Biznes məqsədləri üçün istifadə olunan daşınmaz əmlak;
2. Kommersiya daşınmaz əmlakı (icarə haqqı şəklində gəlir verən daşınmaz əmlak);
3. Biznesin əlavə ehtiyaclarını ödəyən daşınmaz əmlak (buraya sahibkarın istifadəsində olan, investisiya üçün və biznes üçün artıq olan (gələcəkdə istifadəsi nəzərdə tutulan) daşınmaz əmlak və s. daxildir).

Daşınmaz əmlakın qiymətləndirilməsinin auditi zamanı, ilk növbədə, qiymətləndirmənin məqsədi müəyyənləşdirilməlidir. Qiymətləndirmə müqaviləsinin şərtlərinə əsasən, qiymətləndirmə bir neçə istiqamətdə aparıla bilər və hər bir istiqamət fərqli qiymətləndirmə metodlarından istifadə edilməklə, fərqli qiymətlərin müəyyən edilməsinə səbəb olar. Yəni bir əmlakın bir-birindən çox fərqlənən bir neçə qiyməti müəyyən edilə bilər.

Audit zamanı qiymətləndirmənin son məqsədinə nail olunması üçün hansı qiymətləndirmə metodundan istifadə olunduğu araşdırılmalıdır. Belə ki, Əmlakın Qiymətləndirilməsi Standartları üzrə Beynəlxalq Komitənin və Avropa Qiymətləndiricilər Qrupunun (TEGoVA) tövsiyələrinə əsasən, qiymətləndirici, qiymətləndirməyə dair hesabatda, hər bir qiymətləndirmə əməliyyatında tətbiq etdiyi metodu əsaslandırmalıdır.

Məsələn, gəlir metodundan istifadə olunduğu zaman bu metodun hansı üsulundan (*diskontlaşdırma, kapitallaşdırma* və s.) istifadə olunması yoxlanılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki:

- *diskontlaşdırma* üsulundan ancaq müəyyən dövr ərzində qeyri-bərabər gəlir verən əmlakın qiymətləndirilməsində istifadə oluna bilər;
- müəyyən dövrlər ərzində bərabər məbləğdə və ya sabit artım tempi ilə pul axını gətirən əmlakın qiymətləndirilməsi həmin əmlakın istifadəsindən əldə ediləcək pul axınının *kapitallaşdırılması* yolu ilə aparılır.

Daşınmaz əmlakın qiymətləndirilməsində gəlir metodunun diskontlaşdırma üsulundan istifadə edildiyi hallarda diskont dərəcəsinin düzgün müəyyən edilməsi və aparılmış hesablamaların riyazi düzgünlüyü əmlakın qiymətləndirilməsinin auditi zamanı yoxlanılmalıdır. Eyni qaydalara kapitallaşdırma üsulundan istifadə zamanı da riayət olunmalıdır.

Auditor nəzərə almalıdır ki, qiymətləndirici gəlir metodundan istifadə etdiyi vaxt daşınmaz əmlakın istifadəsindən əldə olunan gəlir əmlakın qiymətləndirilməsi üçün baza rolunu oynayır. Odur ki, həmin informasiya (qiymətləndirilən əmlakın istifadəsindən əldə olunan gəlirin məbləgi) audit zamanı diqqətlə araşdırılmalı və düzgün müəyyənləşdirilməsi yoxlanılmalıdır. Əgər əmlakın qiymətləndirilməsində müqayisə metodundan istifadə edilmişdirsə, onda auditor:

- qiymətləndirilən əmlakın bənzərinin düzgün seçildiyini;

- onların oxşar parametrlərinin düzgün müəyyənləşdirildiyini;

- bu parametrlər üzrə kəmiyyət və keyfiyyət fərqlərinin düzgün aşkarlandığını;

- həmin fərqlərə görə qiymət üzrə məbləğ ifadəsində kənarlaşmanın reallığını;

- kənarlaşma məbləğinin qiymətləndirmə obyektinin qiymətinin formalaşmasında düzgün nəzərə alındığını araşdırmalıdır.

Daşınmaz əmlakın qiymətləndirilməsində xərc metodundan istifadə olunduğu zaman isə, ilk növbədə, həmin metoddan istifadə edilməsinin məqsədəuyğunluğu yoxlanılmalıdır. Çünki xərc metodu, ən yaxşı halda, analoжi əmlakın qiymətləndirmə anına maya dəyərini müəyyənləşdirməyə imkan verir. Əgər bu metodun istifadəsi qiymətləndirməyə dair hesabatda düzgün əsaslandırılmışdırsa, onda auditor:

- analoжi əmlakın inşası (quraşdırılması, yaradılması, bərpa edilməsi və s.) üzrə xərc maddələrinin müəyyənləşdirilməsini;
- material sərfi üzrə kəmiyyət göstəricilərinin mövcud mühəndis-texniki normativlərə uyğunluğunu;
- zəruri hallarda mütəxəssis (inşaatçı, texnoloq, konstruktor və s.) rəylərinin mövcud olmasını;
- materialların alınmasını təsdiq edən ilkin sənədlərin mövcud olub-olmamasını və həmin sənədlərdə göstərilən qiymətlərin reallığını; habelə
- əmək ödənişləri üzrə göstəricilərin reallığını yoxlamalıdır.

Daşınmaz əmlakın qiymətləndirilməsinin auditi zamanı yaşayış sahələrinin qiymətləndirilməsinə də rast gəlinə bilər. Bu vaxt nəzərə alınmalıdır ki, yaşayış sahələrinin qiymətləndirilməsi, mülkiyyətçilərin təqdimetmə əməliyyatlarından başqa, ilk növbədə, «Qiymətləndirmə fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununun 5-ci maddəsinin 4-cü, 9-cu və 11-ci bəndlərinin tələblərindən yarana bilər.

Audit zamanı nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasında fiziki şəxslərin mülkiyyətində olan yaşayış sahələri mülkiyyət hüququnun yaranması baxımından iki yerə bölünür:

1) Əvvəllər yerli sovetlərin mənzil fonduna və ya idarə, müəssisə və təşkilatların mənzil fonduna daxil olmuş, habelə xidməti mənzil kimi istismar olunmuş, sonradan özəlləşdirilmiş mənzillər;

2) Vətəndaşların şəxsi mülkiyyətində olan (onlar tərəfindən inşa edilmiş) yaşayış sahələri.

Belə təsnifat ona görə zəruridir ki, sonradan özəlləşdirilmiş mənzillərin böyük əksəriyyəti çoxmərtəbəli (çoxmənzilli) yaşayış binalarında yerləşməklə, qiymətləndirilməyə də öz təsirini göstərir. Bu tip mənzillərin qiymətləndirilməsi zamanı aşağıdakı faktorlar nəzərə alınmalıdır:

- mənzilin ümumi sahəsi;
- mənzilin yaşayış sahəsi;
- otaqların sayı və yerləşməsi;
- mənzilin yerləşdiyi ərazinin əmsalı;
- təmirin vəziyyəti;

- mənzilin yerləşdiyi mərtəbə;
- mənzilin inşasına sərf olunmuş tikinti materiallarının növü və keyfiyyəti;
- mənzilin yerləşdiyi ərazidə yeni yaşayış evlərinin inşa edilib- edilməməsi;
- mənzilin yerləşdiyi rayonun ekoloжi vəziyyəti;
- mənzil ilə vacib nəqliyyat qovşaqları arasındakı məsafə;
- enerжi və kommunal təminatı;
- qaraж və ya digər sahələrin olub-olmaması.

Azərbaycan Respublikasında fiziki və hüquqi şəxslərin mülkiyyətində olan yaşayış sahələrinin qiymətləndirilməsinin auditi zamanı, ilk növbədə, mülkiyyət hüququnu təsdiq edən sənədin – müvafiq icra hakimiyyəti orqanının texniki inventarlaşdırma və mülkiyyət hüquqlarının qeydiyyatı idarəsi tərəfindən verilən qeydiyyat vəsiqəsinin və mənzilin texniki parametrlərinin əks etdirildiyi, müvafiq orqan tərəfindən tərtib olunmuş texniki pasportun mövcudluğu yoxlanılmalıdır.

Vətəndaşların şəxsi mülkiyyətində olan (onlar tərəfindən inşa edilmiş) yaşayış sahələrinin qiymətləndirilməsi zamanı yuxarıda göstərilənlərə həyətyanı torpaq sahələrinin olması amilinin əlavə edilməsinə də diqqət yetirilməlidir.

Göstərilən amillərin daşınmaz əmlakın qiymətinə təsirinin həmin əmlakın qiymətləndirilməsinə dair hesabatda əks etdirilməsinə xüsusi diqqət yetirilməlidir.

Qeyri-yaşayış sahələrinin qiymətləndirilməsinin auditi zamanı nəzərə alınmalıdır ki, bu sahədə ən çox istifadə olunan qiymət – istifadə dövründə bazar qiyməti və alternativ istifadə zamanı bazar qiymətidir. Əmlakın mənfi qiymətindən (əgər bu, alternativ istifadə zamanı qiymətləndirmə ilə əlaqədar deyilsə) və əvəzetmənin qalıq qiymətindən, demək olar ki, istifadə olunmur.

Göstərilən hallarin hamisinda qiymətləndirmənin auditi, ilk növbədə, qeyri-yaşayiş sahələri üzərində mülkiyyət hüququnu təsdiq edən sənədlərdən başlanmalidir. Bunlar alqi-satqi müqaviləsi, vəsiyyətnamə, müvafiq icra hakimiyyəti orqaninin qərari (sərəncami), layihə-smeta sənədləri, texniki pasport, görülmüş tikinti-quraşdirma işlərinin təhvili akti, habelə həmin əmlak üzərində mülkiyyət hüququ verən digər sənədlərdir. Həmin sənədlərdəki ilkin dəyər 1991-ci ilə qədərki qiymətlərlə göstərilmişdirsə, azərbaycan respublikasi nazirlər kabinetinin 1996-ci il 2 avqust tarixli 99 sayli qərari ilə təsdiq edilmiş «azərbaycan respublikasinda əsas fondlarin (vəsaitlərin) yenidən qiymətləndirilməsi haqqinda əsasnamə»yə müvafiq olaraq, yenidən qiymətləndirmə aparilmalidir (nəzərə almaq lazimdir ki, yenidən qiymətləndirmə ilə əlaqədar azərbaycan respublikasi nazirlər kabinetinin 1993-cü il 29 yanvar tarixli 57 sayli və1994-cü il 16 iyun tarixli 238 sayli qərarlari da olmuşdur).

### *III. Abadlıq obyektlərinin qiymətləndirilməsinin auditi*

Abadlıq obyektlərininin qiymətləndirilməsini fərqləndirən əsas cəhət ondan ibarətdir ki, bu əmlakın bütün istiqamətlərdə qiymətləndirilməsi zərurətinin yaranması ehtimalı olsa da, qiymətləndirmənin bütün metodlarından istifadə etmək imkanı olmur. Yəni:

- abadlıq obyektlərininin bazar qiyməti (məcburiyyət olmadan, tərəflərin səriştəliliyi və həmin əmlakın təqdimetmə arzusunun mövcudluğu);
- abadlıq obyektlərininin istifadə dövründə bazar qiyməti (nəzəri cəhətdən bu əmlakın gəlir gətirmək imkanı ola bilər (attraksionların, ictimai iaşə, ticarət obyektlərinin olması və s.) və bu da onun qiymətinə müsbət təsir göstərə bilər);
- alternativ istifadə zamanı bazar qiyməti (bu əmlakın fərqli məqsədlərlə istifadəsi üçün təqdim edilməsi mümkündür);
- mənfi qiymət (bu qiymət alternativ istifadə zamanı yarana bilər və s.) kimi qiymətlərinin müəyyənləşdirilməsi məqsəd olaraq qarşıya qoyulsa da, bu qiymətlərin müəyyən edilməsi üçün qiymətləndirmənin bütün metodlarından istifadə etmək mümkün deyil. Məsələn, bazarda belə əmlakın satışına rast gəlinmədiyi üçün (və çox nadir hallarda baş verdiyi üçün) müqayisə metodundan istifadə etmək mümkün deyildir. Eyni zamanda, gəlir metodunun da tətbiqi effektli deyil, çünki həmin əmlakın istifadəsindən gəlir götürülməsi, adətən, yardımçı xarakter daşıyır və obyektin qiyməti haqqında tam təsəvvür yaratmır. Xərc metodundan istifadə etməklə isə, ən yaxşı halda, həmin əmlakın əldə edilməsinə çəkilən xərcin məbləğini təyin etmək mümkündür.

Ona görə də abadlıq obyektlərinin qiymətləndirilməsinin auditi zamanı qiymətləndirmənin məqsədinə və hansı metoddan istifadə edilməsinə diqqət yetirilməlidir.

Nəzərə alınmalıdır ki, abadlıq obyektlərini aşağıdakı növlər üzrə qruplaşdırmaq olar:

1) Parklar;
2) Meydanlar;
3) Istirahət və əyləncə zonaları;
4) Sair abadlıq obyektləri.

Bu obyektlərin qiymətləndirilməsinin auditi ilkin sənədlərlə tanışlıqdan başlanmalı və sənədlərdəki informasiyanın reallığı əks etdirməsi yoxlanılmalıdır. Eyni zamanda, həmin obyektlərin sənədlərdə göstərilən qiymətinin dürüstlüyünü yoxlamaq üçün göstərilən metodikadan istifadə oluna bilər.

Hər bir abadlıq obyekti aşağıdakılardan ibarətdir:

1) Torpaq sahəsindən;
2) Çoxillik əkmələrdən;
3) Görülmüş işlərdən (yaşıl qazonlar, asfaltlanmış və ya müxtəlif materiallarla üzlənmiş sahələr, bordyurlar və fontanlar, işıqlandırma vasitələri və s.);
4) Inventarlardan (skamyalar, müxtəlif əyləncə qurğuları və s.);
5) Memarlıq və ya heykəltəraşlıq nümunələrindən.

Qiymətləndirmənin auditi zamanı göstərilən tərkib hissələri ayrılıqda nəzərdən keçirilməlidir. Əgər memarlıq və ya heykəltəraşlıq nümunələri incəsənət əsəri hesab edilirsə, onda bu nümunələr müvafiq icra hakimiyyəti ekspertlərinin rəyi əsasında qiymətləndirilməlidir.

### *IV. Müxtəlif təyinatlı torpaqların qiymətləndirilməsinin auditi*

**Adətən, torpaq sahələri onların üzərindəki daşınmaz əmlakla birlikdə qiymətləndirilsə də, praktikada sərbəst torpaq sahələrinin qiymətləndirilməsinə də rast gəlinir. Bu zaman qiymətləndirmə torpağın qiymətinin aşağıdakı istiqamətlərdə müəyyənləşdirilməsi məqsədi daşıya bilər:**

- torpaq sahələrinin bazar qiyməti (məcburiyyət olmadan, tərəflərin səriştəliliyi və həmin əmlakın təqdimetmə arzusunun mövcudluğu);
- torpaq sahələrinin istifadə dövründə bazar qiyməti (əmlakın gəlir gətirmək imkanı olduqda);
- torpaq sahələrinin alternativ istifadə zamanı bazar qiyməti (bu əmlakın fərqli məqsədlərlə istifadəsi üçün təqdim edilməsi mümkündür).

Torpağın mənfi qiymətinin və əvəzedilmə zamanı qalıq dəyərinin müəyyənləşdirilməsi isə ya mümkün deyil, ya da praktikada buna rast gəlinmir. Həmçinin nəzərdə tutulan istiqamətlərdə torpağın qiymətinin müəyyənləşdirilməsi zamanı bütün metodlardan (məsələn, xərc metodundan) istifadə etmək mümkün deyil. Əvəzində, beynəlxalq təcrübədə, demək olar ki, rast gəlinməyən, lakin effektli bir metoddan istifadə etmək mümkündür: bu, hökumət təşkilatlarının metodiki göstərişlərindən istifadə etməklə, torpağın qiymətini müəyyənləşdirməkdir.

Digər daşınmaz əmlakların qiymətləndirilməsində olduğu kimi, bu sahədə də gəlirə görə qiymətləndirmə metodundan istifadə etmək digər metodlara nisbətən daha çətindir.

**Hazırda bazarda torpaq sahələrinin alqı-satqı əməliyyatlarına tez-tez rast gəlindiyi, yəni tələb və təklifin yüksək səviyyədə olması nəzərə alınsa, qiymətləndirmədə müqayisə metodundan istifadə daha məqsədəuyğun sayılır.**

Müxtəlif təyinatlı torpaq sahələri dedikdə, tikinti, qurğu və zəruri infrastruktur altında olmayan torpaq sahələri nəzərdə tutulur.

Müxtəlif təyinatlı torpaqların qiymətləndirilməsinin auditi zamanı, ilk növbədə, mülkiyyətçinin həmin torpaq sahəsi üzərində mülkiyyət hüququnu təsdiq edən hüquqi və texniki sənədlərdən istifadə olunmalıdır. Təqdim olunan sənədlərdə torpaq sahəsinin alqı-satqı, bağışlanma və s. əməliyyatlar üzrə qiyməti göstərilmişdirsə, bu qiymət torpaq sahəsinin qiymətləndirilməsi üçün əsas ola bilər. Lakin həmin qiymət eyni (analoжi) ərazidə yerləşən torpaq sahələrinin bir ölçü vahidinin orta bazar qiyməti ilə müqayisə olunmalıdır. Torpağın ilkin sənədlərdə göstərilən qiyməti ilə bazar qiyməti arasında maddi əhəmiyyət kəsb etməyən fərq olarsa, sənəd üzrə qiymət əsas götürülür. Əhəmiyyətli fərq mövcuddursa, səbəbi araşdırılmalı, əsaslandırılmalı və sənəd üzrə qiymət faktiki bazar qiymətinə çatdırılmalıdır.

Əgər torpaq sahəsinin qiymətini müəyyən etmək üçün ilkin sənəd yoxdursa (təsdiq edilməmişdirsə), bu zaman Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 saylı qərarı ilə təsdiqlənmiş (Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 saylı və 2000-ci il tarixli 17 may tarixli 89 saylı qərarları ilə dəyişiklik və əlavələr edilmiş) «Özəlləşdirilən dövlət müəssisə və obyektlərinin yerləşdiyi torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə»yə isnad etmək məqsədəuyğundur.

Bu Əsasnaməyə görə, özəlləşdirilən dövlət müəssisə və obyektlərinə təhkim olunmuş torpaq sahələri: a) texniki pasportlarda göstərilmiş tikinti, qurğu və bilavasitə müəssisə və obyektlərin fəaliyyəti üçün zəruri olan infrastrukturun altında yerləşən torpaq sahələrinə; b) müəssisənin özəlləşdirilməsi anında «tikinti və infrastruktur altındakı torpaq sahələri» kateqoriyasına aid edilməyən torpaq sahələrinə (sərbəst torpaq sahələrinə) ayrılır və onların qiymətləndirilməsi qaydaları müəyyən edilir. Qaydalara əsasən, Bakı şəhəri və onun ətrafındakı torpaq sahələri 12 zonaya, Sumqayıt və Gəncə şəhərləri 6 zonaya, Naxcıvan, Xankəndi, Əli Bayramlı, Mingəçevir, Lənkəran, Yevlax və Şəki şəhərləri 4 zonaya, Naftalan, Şamaxı, Qazax, Şəmkir, Salyan, Cəlilabad, Quba, Xaçmaz, Zaqatala və Göyçay şəhərləri 3 zonaya, digər rayon mərkəzləri 2 zonaya bölünmüş və hər zonanın öz əmsalı, Əsasnamənin 6 saylı əlavəsində isə hər qrup üzrə sonuncu zonada yerləşən torpaq sahələrinin bir kvadratmetrinin manatla bazis qiyməti müəyyənləşdirilmişdir. Torpaq sahəsinin hansı zonaya aid edilməsi isə Iqtisadi Inkişaf Nazirliyinin Dövlət Tikinti və Arxitektura Komitəsi, Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi və

rayon (şəhər) icra hakimiyyəti orqanları ilə razılaşdiraraq təsdiq etdiyi təsnifata əsasən həyata keçirilir.

Tikinti və infrastruktur altındakı torpaq sahələrinin normativ qiyməti həmin zonada yerləşən sərbəst torpaq sahələrinin normativ qiymətinin 50%-i həcmində müəyyən edilir.

Qeyd etmək lazımdır ki, respublikanın qəsəbə və kənd yerlərindəki analoжi torpaq sahələrinin normativ qiyməti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 saylı qərarı ilə təsdiq edilmiş «Kadastr qiymət rayonları və yarımrayonları üzrə torpaqların normativ qiyməti»nə uyğun olaraq təyin edilir.

Bu metodikadan istifadə edərək, bazar qiyməti ilə mənfi və ya müsbət kənarlaşma məbləğini nəzərə almaqla, qiyməti ilkin sənədlərdə göstərilməmiş torpaq sahələrini qiymətləndirmək olar.

Eyni zamanda, torpaq sahələrini qiymətləndirmək üçün torpağın *normativ qiymətindən* də baza kimi istifadə etmək olar. Bu qiymət Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında torpağın normativ qiymətinin təyin edilməsi haqqında Əsasnamə»yə müvafiq olaraq müyyən edilir. Həmin Əsasnaməyə uyğun olaraq müəyyən edilmiş qiymətə digər amillərin də təsirini nəzərə almaqla, qiyməti ilkin sənədlərdə göstərilməmiş torpaq sahələrinin qiymətləndirilməsinin auditini aparmaq olar.

## *V. Çoxillik əkmələrin qiymətləndirilməsinin auditi*

Çoxillik əkmələrin qiymətləndirilməsinin auditi zamanı qiymətləndirmə müqaviləsinin şərtlərinə əsasən qiymətləndirmənin hansı istiqamətdə aparılması müəyyənləşdirilməlidir. Müqavilənin şərtlərinə əsasən, çoxillik əkmələrin bazar qiyməti, istifadə dövründə bazar qiyməti, alternativ istifadə dövründə qiyməti və ya ləğvetmə qiyməti tələb oluna bilər.

Nəzərə almaq lazımdır ki, qiymətləndirici qiymətin müəyyənləşdirilməsi üçün tətbiq etdiyi qiymətləndirmə metodunu (gəlirə görə, müqayisə və ya xərc metodları) nəyə görə seçdiyini öz hesabatında əsaslandırmalıdır.

Çoxillik əkmələrin qiymətləndirilməsinin auditi aşağıdakı ilkin informasiyanın əldə edilməsi ilə başlanmalıdır:

1) Həmin əmlakın əldə edilməsinə dair ilkin sənədlərin mövcudluğu (onların qiyməti göstərilməklə);
2) Çoxillik əkmələrin miqdarı, yaş qrupu, növü, məhsuldarlığı, ömür müddəti göstərilməklə, aqrotexnik ixtisaslı mütəxəssisin rəyi;
3) Becərmə ilə əlaqədar əlavə zəruri əmlakın (üzüm şpalerlərinin, məftil sıralarının, suvarma sistemlərinin) mövcudluğu;
4) Çoxillik əkmələrin yerləşdiyi torpaq sahələrinin mərkəzi suvarma sistemləri və nəqliyyat qovşaqları ilə təminatı;
5) Çoxillik əkmələrin təyinatından fərqli məqsədlərlə istifadə edilməsi imkanının mövcudluğu və s.

Auditor:

- qiymətləndirmə zamanı bazar qiymətinin müəyyən edildiyi vaxt heç bir məcburiyyət amilinin olmamasına;
- istifadə dövründə bazar qiymətinin müəyyən edildiyi zaman optimal qiymətləndirmə metodunun seçilməsinə;
- alternativ istifadə qiyməti müəyyən edilərkən gələcəkdə əldə olunacaq səmərənin düzgün proqnozlaşdırılmasına;
- ləğvetmə qiyməti müəyyən edilərkən aparılmış texniki (texnoloжi) hesablamaların düzgünlüyünə əmin olmalıdır.

Əgər qiymətləndirmədə:

• müqayisə metodundan istifadə edilmişdirsə: müqayisə olunan obyektlə qiymətləndirmə obyekti arasında oxşar parametrlərin düzgün aşkar edilməsi; həmin parametrlərə görə qiymət kənarlaşmasının düz müəyyənləşdirilməsi;

• gəlir metodundan istifadə edilmişdirsə: çoxillik əkmələrin istismarından əldə edilmiş gəlirlərin düzgün müəyyən edilməsi; bu gəlirlərin əldə edilməsində dövriliyin olub-olmaması; müəyyən dövrdə qeyri-bərabər gəlir əldə olunduğu hallarda diskontlaşdırma dərəcəsinin, stabil gəlir və ya stabil templə artan gəlir əldə olunduğu vaxt isə kapitallaşdırma dərəcəsinin düzgün müəyyənləşdirilməsi;

• xərc metodundan istifadə olunduğu vaxt: analoжi əmlakın əldə olunması üçün lazım olan maddi, əmək və vaxt resurslarının düzgün müəyyənləşdirilməsi auditor tərəfindən yoxlanmalıdır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, çoxillik əkmələrin qiymətləndirilməsi zamanı qiymətləndirici çoxillik əkmələrin *normativ qiymətindən* də baza kimi istifadə edə bilər. Bu qiymət Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 23 iyul tarixli 158 saylı qərarı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında torpağın normativ qiymətinin təyin edilməsi haqqında Əsasnamə»yə müvafiq olaraq müyyən edilir. Həmin Əsasnaməyə uyğun olaraq müəyyən edilmiş qiymətə digər amillərin də təsirini nəzərə almaqla, çoxillik əkmələrin qiymətləndirilməsinin auditini aparmaq olar.

### *VI. Maşın, avadanlıq və qurğuların qiymətdirilməsinin auditi*

Maşın, avadanlıq və qurğuların qiymətdirilməsinin auditi qiymətləndirməyə dair müqavilədə qiymətləndirici qarşısında hansı qiymətin müəyyənləşdirilməsi şərtinin qoyulmasını aşkar etməkdən başlanmalıdır. Bu zaman auditor:

qiymətləndirməyə dair hesabata əsasən görülmüş işlərin müqavilə şərtlərinə müvafiq olmasını;

nəzərdə tutulan qiymətin müəyyənləşdirilməsi üçün metodun düzgün seçilməsini;

həmin metodun tətbiqinin düzgünlüyünü yoxlamalıdır.

Nəzərə almaq lazımdır ki, bu əmlakın əsasən bazar qiymətinin, yəni müəyyən anda əmlakı alıcının almaq və satıcının satmaq istədiyi, hər iki tərəfin səriştə ilə, əvvəlcədən hesablanmış və heç bir məcburiyyət olmadan razılaşdıqları məbləğin müəyyən edilməsi tələb olunur; bu zaman isə həm xərc metodundan, həm də müqayisə metodundan istifadə oluna bilər.

Maşın, avadanlıq və qurğuların qiymətləndirilməsinin auditi zamanı həmin əmlakın əldə edilməsini rəsmiləşdirmiş sənədlərə baxış keçirilməlidir. Bu sənədlər qaimə, gömrük bəyannaməsi, təhvil-təslim aktı, alış aktı və s. ola bilər. Qiymətləndirmədə eynilə əsas vəsaitin uçotu kartoçkası (kitabı), əmlakın hərəkəti cədvəlləri, mühasibat hesabları və s. hesablardan da istifadə oluna bilər. Həmin əmlakın ilkin balans qiyməti (alış xərcləri + alınma (quraşdırılma) xərcləri), hesablanmış köhnəlmə çıxıldıqdan sonra analoжi əmlakın orta bazar qiyməti ilə müqayisə edilməlidir. Əhəmiyyətli fərq olarsa, əlavə araşdırmanın aparılması zəruridir.

Maşın, avadanlıq və qurğuların qiymətləndirilməsinin xüsusiyyətlərindən biri və ən əhəmiyyətlisi odur ki, praktikada bir sıra maşın, avadanlıq və qurğular uzun müddət istismar edilir və onlara normativlərə uyğun köhnəlmə hesablanır. Bu maşın, avadanlıq və qurğular istehsalat sahələrində tam və ya uzun müddət istifadə edilsə də, onların qalıq dəyəri əhəmiyyətsiz kiçik məbləğ təşkil edir. Buna görə də onların hərəkəti cədvəllərinə audit zamanı xüsusi diqqət yetirilməli, qalıq dəyərlərinin əsaslı təmirə və tam bərpaya sərf edilmiş vəsait qədər artırılması yoxlanılmalıdır.

Bundan başqa, praktikada aşağıdakı növ maşın, avadanlıq və qurğulara da rast gəlinir:

- müəssisənin öz istehsalı olan maşın, avadanlıq və qurğular;
- mühəndis-texniki əlavələr edilməklə, profili tam və ya qismən dəyişdirilmiş maşın, avadanlıq və qurğular.

Müəssisənin öz istehsalı olan maşın, avadanlıq və qurğuların qiymətləndirilməsinin auditi zamanı nəzərə alınmalıdır ki, xarakterinə görə bu əmlak istehsalçının hazır məhsulu sayılır və onun dəyəri, öz növbəsində, istehsala sərf olunmuş xammal, enerжi, əsas vəsaitlərin amortizasiyası, ümumistehsalat və ümumtəsərrüfat, əmək haqqı və sosial ayırma xərclərinin cəmidir. Mühəndis-texniki əlavələr edilməklə, profili tam və ya qismən dəyişdirilmiş maşın,

avadanlıq və qurğuların dəyərinə isə bu dəyişikliklərin edilməsi ilə bağlı xərclər də əlavə edilməlidir.

### *VII. Nəqliyyat vasitələrinin qiymətləndirilməsinin auditi*

Nəqliyyat vasitələrinin qiymətdirilməsinin auditi qiymətləndirməyə dair müqavilədə qiymətləndirici qarşısında hansı qiymətin müəyyənləşdirilməsinin qoyulmasını aşkar etməkdən başlanmalıdır. Bu qiymət əsasən bazar qiyməti, bəzi hallarda isə ləğvetmə qiyməti ola bilər.

Auditor:

- qiymətləndirməyə dair hesabata əsasən görülmüş işlərin müqavilə şərtlərinə müvafiq olmasını;
- nəzərdə tutulan qiymətin müəyyənləşdirilməsi üçün metodun düzgün seçilməsini;
- Həmin metodun tətbiqinin düzgünlüyünü yoxlamalıdır.

O, həmçinin qiymətləndirici tərəfindən aşağidaki amillərin nəzərə alinib-alinmamasina diqqət yetirməlidir:

A) avtomobillərin: ilkin sənədlərdə göstərilən aliş dəyəri; markasi; kuzovun formasi (minik avtomobillərində); buraxiliş ili; köhnəlməsi (mövcud qanunvericiliyə uyğun olaraq amortizasiya normalari tətbiq edilməsi); əsasli təmirdə olub-olmamasi; mühərrik və digər aqreqatlarin, habelə kuzovun və salonun texniki vəziyyəti (mütəxəssis rəyi əsasinda); eyni markali və texniki vəziyyətdə olan avtomobillərin satiş qiyməti; xüsusi qurğularin texniki vəziyyəti (mütəxəssis rəyi əsasinda - yük avtomobillərində).

Əgər ilkin sənədlərdə göstərilən əmlakin dəyəri 1991-ci ildən əvvəlki qiymətlərlə göstərilmişdirsə, azərbaycan respublikasi nazirlər kabinetinin 1996-ci il 2 avqust tarixli 99 sayli qərari ilə təsdiq edilmiş «azərbaycan respublikasinda əsas vəsaitlərin (fondlarin) yenidən qiymətləndirilməsi haqqinda əsasnamə»yə müvafiq olaraq, yenidən qiymətləndirmə aparilmalidir (azərbaycan respublikasi nazirlər kabinetinin 1993-cü il 29 yanvar tarixli 57 sayli və 1994-cü il 16 iyun tarixli 238 sayli qərarlari nəzərə alinmaqla).

B) gəmilərin və üzən qurğuların (teploxodlar, paroxodlar, dizel elektroxodları, yedəklər, barжalar, barkaslar, qayıqlar, xidmətedici və köməkçi gəmilər, xilasedici gəmilər, üzən körpülər, yelkənli gəmilər) qiymətləndirilməsinin auditi onların üzərində mülkiyyət hüququnu təsdiq edən ilkin sənədlə tanışlıqla başlanmalıdır. Bu zaman həm gəmi və ya üzən qurğu, həm də onlarda olan, lakin bu əmlakın mövcudluğu və fəaliyyəti üçün zəruri olan avadanlıqdan başqa digər əmlak – əsas vəsaitlər, mal-materiallar və s. Ayrılıqda qiymətləndirilməlidir.

Gəmi və ya üzən qurğunun sənədlərlə təsdiq edilən ilkin dəyəri qanunvericiliyə əsasən hesablanmış köhnəlmə məbləği qədər azaldıldıqdan sonra qiymətləndirmə üçün əsas hesab edilir.

Audit zamani auditor qiymətləndirici tərəfindən aşağidaki amillərin nəzərə alinib-alinmamasina diqqət yetirməlidir:

Gəmi və ya üzən qurğunun: növü; təyinatı; tonnaжı; qabaritləri; mühəndis-texniki göstəriciləri; resursları (istismar müddəti); istismara verilərkən ştat üzrə olan avadanlıq və qurguların mövcudluğu və texniki vəziyyəti (müvafiq mütəxəssis rəyi əsasında); köhnəlməsi; mənəvi köhnəlmənin olub-olmaması; istismarda olduğu müddətdə əsaslı təmir edilməsi; gəminin təyinatının dəyişdirilməsi (genişləndirilməsi) məqsədilə əlavə avadanlıq və qurğuların mövcud olması.

Auditor nəzərə almalıdır ki, qiymətləndirici tərəfindən müqayisə metodundan istifadə edilmişdirsə, mühəndis-texniki göstəriciləri eyni olan gəmi və üzən qurğuların:

1. Başqa şəxslərin mülkiyyətində (balansında) olan;
2. Son dövrlərdə idxal olunmuş (inşa edilmiş) və ya satılmış;
3. Rezident və qeyri-rezident ticarət müəssisələrinin kataloqlarında göstərilmiş;
4. Istehsalçı müəssisələrin və ya onların dilerlərinin prays-vərəqələrində göstərilmiş qiymətindən istifadə etmək olar.

Göstərilən audit metodikasını aşağıdakı nəqliyyat vasitələri, xüsusi təyinatlı mexanizmlər və s. daşınar əmlakın qiymətləndirilməsinə də tətbiq etmək olar:

- Dəmiryol nəqliyyatı vasitələri (elektrovozlar, teplovozlar, parovozlar, motovozlar, motodrezinlər, vaqonlar, platformalar, sisternlər);
- Hava nəqliyyatı vasitələri (təyyarələr, vertolyotlar və başqaları);
- Kənd təsərrüfatı maşınları və qoşquları;
- Istehsalat nəqliyyatları (elektrokarlar, avtokarlar, avtoyükləyicilər, motorollerlər və başqaları);
- Bütün növ idman nəqliyyatları (idman atlarından və digər iş heyvanlarından başqa);
- Sair daşınar əmlak (əvvəlki bölmələrdə göstərilməyən bütün növ əmlak).

### *VIII. Mal və materialların qiymətləndirilməsinin auditi*

Sifarişçi təsərrüfat subyektinin maliyyə-təsərrüfat fəaliyyətində, bir sıra zəruri hallarda, malların, materialların, hazır məhsulun, quraşdırılası avadanlıqların, azqiymətli və tezköhnələn əyşaların və s. qiymətləndirilməsinə rast gəlinir. Bu hallarda auditor qiymətləndirmənin aparılmasının səbəbini və məqsədini xüsusi olaraq araşdırmalıdır. Çünki belə qiymətləndirmə:

- Maddi məsul şəxslərin öhdəsində olan əmlakın əskik gəlməsi və çatışmazlığı aşkar olunduqda;
- Hüquqi şəxslərin ləğvi və yenidən təşkili ilə əlaqədar əmlak üzərində mülkiyyət hüququ itirildikdə (özgələşdirildikdə);
- Təsisçi tərəfindən nizamnamə fondu formalaşdırılan zaman qoyulan əmlakın qiyməti süni surətdə artırıldıqda;
- Təsisçi tərəfindən vaxtilə nizamnamə fonduna qoyulmuş payın müqabilində digər əmlak götürüldükdə;
- Tərəflər arasında əmlak iddiası olduqda;
- Üçüncü şəxs tərəfindən şəxsin əmlakının götürülməsi (müsadirəsi) zamanı qiymətləndirmənin obyektivliyinə şübhə yarandıqda və s. hallarda aparılır. Bu hallar isə tərəflərdən, ən azı, birini maraqlı tərəf edir. Auditor qiymətləndirmənin məhz maraqlı tərəfin mənafeyinə xidmət edib-etməməsini xüsusi diqqətlə araşdırmalı, yəni qərəzsiz və ədalətli mövqe tutmalıdır.

Mal və materialların qiymətləndirilməsinin auditi zamanı, ilk növbədə, onların alınmasını təsdiq edən ilkin sənədlərdən (qaimələr, təhvil-təslim aktları, alış aktları, gömrük bəyannamələri və digər ilkin sənədlər) istifadə olunmalıdır. Bu sənədlər olmadıqda isə uçot registrlərindən – anbar kitablarından, mal və materialın hərəkəti cədvəllərindən, uçot kartoçkalarından, digər sintetik və analitik uçot sənədlərindən, habelə maliyyə və vergi hesabatlarından istifadə edilə bilər.

Audit zamanı nəzərə alınmalıdır ki, bu xarakterli əmlakın qiymətləndirməsinin fərqli xüsusiyyəti bundan ibarətdir ki, onların beynəlxalq standartlara uyğun qiymətlərini bütün istiqamətlərdə müəyyən etmək ya mümkün deyil, ya da məqsədəuyğun deyil. Yəni auditor malların: alternativ istifadə dövründə qiymət ilə, əvəzetmənin qalıq dəyəri ilə və istifadə dövründə qiymət ilə qiymətləndirilməsini məqbul saymamalıdır. Müvafiq olaraq, qiymətləndirmə metodlarının hamısından da (məsələn, gəlirə görə qiymətləndirmədən) istifadə etmək mümkün deyil.

Malların müqayisə metodu ilə qiymətləndirilməsi zamanı auditor:

- müqayisə üçün götürülən malın eyni növ və eyni cinsli olmasını;
- eyni keyfiyyətə malik olmasını;
- topdansatış məqsədləri ilə alınmış malların pərakəndə satış qiymətləri ilə (və ya əksinə) qiymətləndirilib-qiymətləndirilməməsini və s. yoxlamalıdır.

Xərc metodu ilə qiymətləndirmə zamanı:

- bənzər malın istehsalı üçün zəruri olan material və əmək sərfinin texniki (texnoloжi) normalara müvafiqliyi;

- ümumistehsalat və ümumtəsərrüfat xərclərinin xüsusi çəkiyə görə düzgün müəyyənləşdirilməsi;
- malın daşınması, quraşdırılması, saxlanması və s. xərclərinin maya dəyərinə daxil edilməsi diqqətlə araşdırılmalıdır.

## IX. Intellektual (əqli) mülkiyyətin qiymətləndirilməsinin auditi

Intellektual (əqli) mülkiyyətin qiymətləndirilməsinin auditi zamanı onların aşağıdakı qaydada təsnifləşdirilməsinə əmin olmaq lazımdır:

- Intellektual və ya ona bərabər tutulan fəaliyyətin nəticəsi üzərində olan müstəsna hüquq;
- Fərdiləşmiş məhsulun (işin, xidmətin) üzərində olan hüquq (bunlara kəşflər, faydalı modellər, kompüter (EHM) proqramları və məlumat bazaları, inteqral mikrosxem topologiyası, seleksiya nümunələri, elm, ədəbiyyat və incəsənət əsərləri aiddir);
- Nou-hau (istehsalat sirləri üzərində hüquq);
- Yuxarıda göstərilən hüquqların istifadə üçün başqa şəxslərə verilməsi hüququ.

Qiymətləndirmənin auditi zamanı intellektual mülkiyyətin aşağıdakı xüsusuyyətləri nəzərə alınmalıdır:

- Qiymətləndirmə obyektinin unikal qeyri-maddi xarakteri;
- Intellektual mülkiyyət obyektinin cari istifadəsi;
- Intellektual mülkiyyətin istifadə edilə biləcəyi sahələr, ehtimal olunan bazarda həcmi və həmin mülkiyyətin bazarda tutacağı yer, intellektual mülkiyyətin istifadə edilməsi sayəsində istehsal olunacaq məhsulların maya dəyəri və satışı, bu və ya digər sahədə intellektual mülkiyyətin istifadə və tətbiq edilməsi ilə bağlı tələb olunan investisiyaların həcmi;
- Intellektual mülkiyyətin istifadə və tətbiq edilməsi nəticəsində gözlənilən texniki, iqtisadi, istismar və ekoloжi göstəricilərin əldə edilməməsi riski, haqsız rəqabət riski və s.;
- Intellektual mülkiyyətin hazırlanması və sənaye tətbiqi mərhələləri;
- Hüquqi müdafiənin mövcudluğu və dərəcəsi;
- Intellektual mülkiyyət obyektinin yaradılması, istifadəsi, özgəninkiləşdirilməsi müqavilələrində mövcud ola bilən digər şərtlərin olması;
- Intellektual mülkiyyətin istifadəsinə görə mükafatlandırmanın olması və s.

Qiymətləndirmə prosedurunu üç metodla aparmaq olar.

Intellektual mülkiyyət gəlirə görə qiymətləndirmə metodu ilə qiymətləndirilərkən həmin intellektual mülkiyyətin istifadəsi zamanı əldə oluna biləcək gəlir əsas götürülür; bu gəlir isə aşağıdakılardan yarana bilər:

1. Məhsulun (işin, xidmətin) istehsalı və satışı zamanı xərclərə qənaət edilməsindən;
2. Istehsal olunan məhsulun (işin, xidmətin) vahidinin qiymətinin yüksəlməsindən;
3. Satılan məhsulun (işin, xidmətin) fiziki həcminin artmasından;
4. Məcburi ödənişlərin məbləğinin azalmasından;
5. Qiymətləndirilən əmlakın istifadəsi nəticəsində müxtəlif risklərin azalmasından;
6. Qiymətləndirilən əmlakın istifadəsi nəticəsində gəlirlərin strukturunun yaxşılaşmasından;
7. Sair amillərdən.

Müəyyən dövrlər ərzində qeyri-bərabər məbləğdə pul axını gətirən intellektual mülkiyyətin qiymətləndirilməsi həmin mülkiyyətin istifadəsindən əldə ediləcək pul axınının diskontlaşdırılması yolu ilə, müəyyən dövrlər ərzində bərabər məbləğdə və ya sabit artım tempi ilə pul axını gətirən intellektual mülkiyyətin qiymətləndirilməsi isə həmin mülkiyyətin istifadəsindən əldə ediləcək pul axınının kapitallaşdırılması yolu ilə aparılır.

Hər iki halda əvvəlcə intellektual mülkiyyətin istifadəsindən əldə oluna bilən pul axını hesablanır, sonra diskontlaşdırma və ya kapitallaşdırma dərəcəsi müəyyən edilir və bunların

əsasında əmlakın qiyməti müəyyənləşdirilir. Bu metod səriştə, biznes biliyi və müvafiq sahədə təcrübə tələb etməklə, öz çətinliyi ilə fərqlənir.

Müqayisə metodu ilə intellektual mülkiyyətin qiymətləndirilməsi analoжi əmlakın qiyməti haqqında dəqiq informasiya əldə etmək mümkün olduqda aparılır. Bu zaman alqı-satqı, tələb və təklif barədə məlumatlardan istifadə etmək olar.

Müqayisə metodu ilə intellektual mülkiyyətin qiymətləndirilməsi aşağıdakı mərhələlərdən ibarətdir:

- Qiymətləndirilən mülkiyyətin analoжi mülkiyyətlə müqayisə olunan elementlərinin müəyyənləşdirilməsi;
- Qiymətləndirilən mülkiyyətin analoжi mülkiyyətlə müqayisə olunan hər bir elementinin fərqlərinin müəyyən edilməsi;
- Fərqlərə görə hər bir element üzrə qiymət düzəlişinin aşkarlanması;
- Analoжi mülkiyyətlə fərqinə görə, qiymətləndirilən mülkiyyətin əsaslandırılmış bazar qiymətinin müəyyənləşdirilməsi.

Audit zamanı nəzərə alınmalıdır ki, intellektual mülkiyyətin qiymətləndirilməsində xərc metodundan istifadə həmin əmlakın əldə edilməsi (yaradılması, hazırlanması, bərpa edilməsi və s.) ilə əlaqədar xərclərin müəyyən olunmasına əsaslanır (köhnəlmə nəzərə alınmaqla).

Xərc metodu ilə əmlakın qiymətləndirilməsinin auditi zamanı aşağıdakı mərhələlərin ardıcıllığına riayət olunması yoxlanılmalıdır:

- Qiymətləndirmə obyekti ilə eyni mülkiyyətin yenidən yaradılması üçün tələb olunan xərcin məbləğinin müəyyən edilməsi;
- Yeni mülkiyyətlə müqayisədə qiymətləndirilən obyektin köhnəlmə məbləğinin müəyyən edilməsi;
- Yeni intellektual mülkiyyətin yaradılması üçün tələb olunan məbləğdən qiymətləndirilən obyektin kohnəlməsinin çıxılması yolu ilə mülkiyyətin bazar qiymətinin müəyyən edilməsi.

### *X. Əsas fondların (vəsaitlərin) yenidən qiymətləndirilməsinin aparılması qaydaları*

Audit zamanı əsas fondların (vəsaitlərin) yenidən qiymətləndirilməsi faktına qayıdılması istisna edilmir. Bu zaman nəzərə almaq lazımdır ki, əsas fondlar «Azərbaycan Respublikasında əsas fondların (vəsaitlərin) yenidən qiymətləndirilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1993-cü il 19 yanvar tarixli 57 saylı, 1994-cü il 16 iyun tarixli 238 saylı və 1996-cı il 2 avqust tarixli 99 saylı qərarlarına əsasən, üç dəfə yenidən qiymətləndirilmişdir. Audit zamanı göstərilən normativ aktların tələblərinə riayət olunması, əmsalların tətbiqinin düzgünlüyü, əsas vəsaitlərin növlər üzrə düzgün qruplaşdırılması və s. yoxlanılmalıdır.

### *XI. Azərbaycan Respublikasında fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin müəyyən edilməsi qaydalarının auditi*

Azərbaycan Respublikasında fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyərinin qiymətləndirilməsinin auditi zamanı nəzərə almaq lazımdır ki, bu prosedur normativ

aktla tənzimləndiyi üçün həmin aktın tələblərinin icra vəziyyəti qiymətləndirmədə ön plana çəkilməlidir.

Azərbaycan Respublikasında fiziki şəxslərin mülkiyyətində olan binaların inventar dəyəri icbari dövlət sığortası məqsədləri üçün nəzərdə tutulmuşdur və inventar dəyərinə, 1982-ci ildən 1997-ci ilədək tətbiq olunmuş normativlərin əvəzində, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 16 mart tarixli 58 saylı qərarı ilə 42,7 min əmsalı tətbiq olunur. Həmçinin Nazirlər Kabinetnin 1999-ci il 28 iyun tarixli 110 saylı qərarı ilə «Fiziki şəxslərin mylkiyyətində olan binaların inventar dəyərinin hesablanması qaydaları» təsdiq edilmişdir. Həmin qərara görə, binaların inventar dəyəri onların texniki inventarizasiyasına əsasən, həqiqi dəyərindən qiymətləndirmə anına olan faktiki köhnəlməsi çıxılmaqla, hesablanır.

Şəxsi evlərin və bağ evlərinin (təsdiq edilmiş layihə-smeta sənədlərinə əsasən tikilmiş və sonradan özəlləşdirilmiş kommunal evlər istisna olmaqla) inventar dəyəri müəyyənləşdirilərkən auditor:

- Azərbaycan Respublikasının müxtəlif zonalarında yerləşmiş şəxsi evlərin və bağ evlərinin inventar dəyərinin, göstərilən qərarın 1 və 2 saylı əlavələrinə müvafiq olaraq, binanın hər kubmetrinin baza qiymətinə 42,7 min əmsalının tətbiq edilməsi ilə müəyyənləşdirilməsini;
- Üç və daha çox mərtəbəli binaların inventar dəyəri hesablanarkən göstərilən «Qaydalar»ın 2 saylı əlavəsinə əsasən, bir kubmetrin dəyərinin, ikinci mərtəbədən başlayaraq, hər mərtəbədə əvvəlki mərtəbənin bir kubmetrinin dəyərindən 5% az olmaqla hesablanmasını;
- Binanın fasadı suvanmışdırsa, onda binanın dəyərinin 4,5% artırılmasını;
- Mərtəbəarası və çardaq örtüyü dəmir-beton olan binalarda 1,1 əmsalının tətbiq edilməsini;
- Zirzəmi və yarımzirzəmilərin dəyəri müəyyən edilərkən 0,60 və 0,85 əmsallarının tətbiq edilməsini;

- Binanın həcmi «Qaydalar»ın 2 saylı əlavəsində göstərilən maksimum həcmdən 30%-dən çox olduqda isə 0,95 əmsalının tətbiq edilməsini yoxlamalıdır.

Özəlləşdirilmiş mənzillərin (təsdiq edilmiş layihə-smeta sənədlərinə əsasən tikilmiş və sonradan özəlləşdirilmiş kommunal evlər daxil olmaqla) inventar dəyərinin, texniki pasport tərtib edildikdən sonra, binanın ilkin balans dəyərindən onun köhnəlməsi çıxılaraq, alınan məbləğin binanın həcminə bölünməsi və mənzilin həcminə vurulmaqla müəyyən edilməsinin riyazi düzgünlüyü audit zamanı yoxlanılmalıdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin «Azərbaycan Respublikasında əsas fondların (vəsaitlərin) yenidən qiymətləndirilməsi haqqında» 1993-cü il 29 yanvar tarixli 57 saylı, 1994-cü il 16 iyun tarixli 238 saylı və 1996-cı il 2 avqust tarixli 99 saylı qərarlarında bina və qurğuların tikilmə tarixindən və məqsədlərindən asılı olaraq nəzərdə tutulmuş əmsalların, müvafiq olaraq, yaşayış binalarına tətbiq edilərək, 1999-cu il 28 iyun tarixli 110 saylı qərarla təsdiq edilmiş «Qaydalar»ın 3 saylı əlavəsinə uyğun şəkildə hesablanması auditor tərəfindən araşdırılmalı və düzgünlüyü yoxlanılmalıdır. Bu zaman nəzərə alınmalıdır ki, qeyri-yaşayış binaları Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin təsdiq etdiyi formada tərtib edilmiş texniki pasportlara əsasən inventarlaşdırılır, onların qiymətləndirilməsi isə müvafiq köhnəlmə çıxılmaqla, «Qaydalar»ın 3 saylı əlavəsinə əsasən aparılır.

## *XII. Sair qiymətləndirmə əməliyyatlarının auditi*

Audit zamanı sifarişçi təsərrüfat subyektlərinin iqtisadi həyatında baş vermiş, qiymətləndirmə ilə birbaşa və ya dolayı əlaqəsi olan aşağıdakı təsərrüfat əməliyyatlarına da rast gəlinir:

1. **Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürulməsi və qiymətləndirilməsi.** Bu əməliyyat Azərbaycan Respublikası Milli Bankının 2001-ci il 5 may tarixində təsdiq etdiyi və 2001-ci il 22 may tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin qeydiyyata aldığı «Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürulməsi və qiymətləndirilməsi qaydaları»na əsasən həyata keçirilməlidir.

«Qaydalar»ın 1.8-ci maddəsində «Bazar dəyəri» ifadəsinin şərhi belə verilmişdir: «Bazar dəyəri – ədalətli satışın bütün şərtlərinə əməl edilməklə açıq bazarda əmlakı almaq üçün ehtimal olunan ən münasib qiymətdir. *Ədalətli satış* dedikdə aşağıdakılar başa düşülür: a) alıcının və satıcının hərəkətləri müstəqil və düşünülmüşdür; b) onların hər ikisi kənardan təsir olmadan öz iqtisadi marağından çıxış edir». Şərhdən göründüyü kimi, ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürulməsi və qiymətləndirilməsi qiymətləndirmədə nəzərdə tutulan «bazar qiyməti» ifadəsinə uyğun olaraq aparıla bilər, yəni bu halda qiymətiin: istifadə dövründə bazar qiyməti, alternativ istifadə zamanı bazar qiyməti, mənfi qiymət, əvəzetmə zamanı qalıq dəyəri, məcburi satış zamanı qiymət (ləğvetmə qiyməti) kimi digər növlərindən istifadə olunması yolverilməzdir. Qiymətləndirmə metodu isə istənilən metod (gəlirə görə, müqayisə və ya xərc metodu) ola bilər. Audit zamanı nəzərə alınmalıdır ki, əmlakla təmin edilmiş kreditin dəyəri 100 milyon manata qədər olduqda, qiymətləndirmə bankın mütəxəssisi, 100 milyon manatdan çox olduqda isə kənar (neytral) mütəxəssis tərəfindən aparıla bilər;

2. **Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin qiymətləndirilməsi.** Bu əməliyyatlar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 18 aprel tarixli 69 saylı qərarı ilə təsdiq edilmiş «Müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi və saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə»yə müvafiq olaraq aparılmalıdır. Əsasnaməyə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il 2 iyun tarixli 73 saylı və 2004-cü il 6 aprel tarixli 37 saylı qərarları ilə əlavə və dəyişikliklər edilmişdir. Audit zamanı həmin normativ aktın tələblərinə əməl edilməsi vəziyyətinin yoxlanılması zəruridir;

3. **Girovların qiymətləndirilməsi.** Bu əməliyyat «Girov haqqında» Azərbaycan Respublikası Qanununa əsasən həyata keçirilməlidir. Qanunun 10.4-cü maddəsində deyilir: «Girov qoyulmuş əmlakın dəyəri tərəflərin razılığı ilə, tərəflərdən biri təkid etdikdə isə qiymətləndirici tərəfindən müəyyən edilir»; 46-cı maddədə isə göstərilir ki, «Ipoteka qoyulan torpaq sahəsinə qanunvericilikdə müəyyən edilmiş normativ qiymətindən aşağı qiymət qoyula bilməz»;

4. **Görülmüş işlərin və göstərilmiş xidmətlərin qiymətləndirilməsinə** beynəlxalq təcrübədə az-az rast gəlinsə də, belə əməliyyatların aparılması mümkündür və bu zaman əsasən müqayisə metodundan istifadə oluna bilər. Audit zamanı işin həcmi, keyfiyyəti, icraçının fərdi keyfiyyətləri və s. nəzərə alınmalıdır;

5. **Zərərin qiymətləndirilməsi.** Özlüyündə zərər aktivlərin (və ya qeyri-maddi aktivlərin) itirilməsindən, gələcək gəlirlərin əldə edilməməsindən və s. ibarətdir. Audit zamanı qiymətləndirmənin metodlarından biri olan zərərin qiymətləndirilməsinin (müəyyənləşdirilməsinin) aparılması metodu araşdırılmalı, zərərin tərkibi müəyyənləşdirilməli və bu proqramın müvafiq bölmələrində göstərilən tövsiyələrə uyğunluğu araşdırılmalıdır;

6. **Investisiyaların qiymətləndirilməsi** də audit zamanı tərkib hissələrinə ayrılaraq, ilkin sənədlərlə təsdiq olunan görülmüş işlər (göstərilmiş xidmətlər), əldə edilmiş daşınar və daşınmaz əmlak olması baxımından aparılmalıdır;

7. **Kolleksiyalaşdırma obyektlərinin, incəsənət əsərlərinin, eksponatların, hər cür sənət nümunələrinin, əntiq əşyaların qiymətləndirilməsi** beynəlxalq təcrübədə ancaq müvafiq sahə üzrə mütəxəssislər (sənətşünaslar) tərəfindən aparıla bilər, qiymətləndirici və ya auditor isə onların mövcudluğunu təsdiq edə bilər (mütəxəssis rəyi əsasında);

8. **Biznesin, maliyyə idarəçiliyinin, müəssisələrin, qiymətli kağızların qiymətləndirilməsinin** auditi təqdim olunan proqramda nəzərdə tutulmamışdır;

9. **Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi** mövcud qanunvericilik və hüquqi-normativ aktlar əsasında, müvafiq icra hakimiyyəti orqanı tərəfindən aparılır. Həmin aktlar aşağıdakılardır:

1. «Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Azərbaycan Respublikasının Qanunu (16 may 2000-ci il, № 878-IQ);
2. Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin II Dövlət Proqramı (Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 10 avqust tarixli 383 saylı fərmanı ilə təsdiq edilmişdir);
3. Özəlləşdirilən dövlət əmlakının qiymətləndirilməsi haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 saylı fərmanı ilə təsdiq edilmişdir);
4. Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 19 dekabr tarixli 659 saylı fərmanı ilə təsdiq edilmişdir);
5. Özəlləşdirilən dövlət müəssisələrinin (obyektlərinin) ilkin qiymətinə tətbiq edilən əmsallar (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 24 yanvar tarixli 23 saylı qərarı ilə təsdiq edilmişdir);
6. Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin satılması qaydaları haqqında Əsasnamə (Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 19 dekabr tarixli 659 saylı fərmanı ilə təsdiq edilmişdir);
7. Özəlləşdirilən müəssisə və obyektlərin yerləşdiyi torpaq sahələrinin normativ qiyməti haqqında Əsasnamə (Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 27 aprel tarixli 93 saylı qərarı ilə təsdiq edilmişdir).

Audit zamanı qiymətləndirmənin həmin qanunvericilik və normativ hüquqi aktların tələblərinə müvafiq aparılması araşdırılmalı və düzgünlüyü yoxlanılmalıdır.

**PROQRAMI TƏRTIB ETDI:**
***Nəcəf TALIBOV –***
***Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri***

**RƏYÇILƏR:**
***Vəli RƏHIMOV –***
***Auditorlar Palatasının Maliyyə-təsərrüfat şöbəsinin müdiri***
***Nazim AXUNDOV –***
***sərbəst auditor***

**AS1DS 027/078-2005**
**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2005-ci il 19 yanvar tarixli**
**144/2 saylı qərarı ilə təsdiq edilmişdir**

## INVESTISIYA FONDLARINDA AUDIT APARILMASINA DAIR PROQRAM

***MÜNDƏRICAT:***

***1. Investisiya fondlarının yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi***
***2. Bank və kassa əməliyyatlarının auditi***
***3. Hesablaşma və kredit əməliyyatlarının auditi***
***4. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi***
***5. Fondun xərclərinin auditi***
***6. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi***
***7. Səhmlərlə bağlı əməliyyatların auditi***
***8. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi***
***9. Mühasibat uçotunun vəziyyətinin auditi***
***10. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər***

Investisiya fondlarının yaradılmasının, idarə edilməsinin və fəaliyyətinin tənzimlənməsinin spesifik xüsusiyyətlərə malik olması, qanunvericiliyə əsasən onlarda auditin aparılmasının məcburi xarakter daşıması nəzərə alınaraq, həmin fondlarda audit aparılmasına dair proqramın hazırlanması zəruri hesab edilmişdir. Proqram Azərbaycan Respublikasının Mülki Məcəlləsi, "Investisiya fondları haqqında", "Investisiya fəaliyyəti haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı haqqında" qanunları, digər normativ hüquqi aktları və Azərbaycan Respublikası Auditorlar Palatası Şurasının təsdiq etdiyi milli audit standartları rəhbər tutulmaqla tərtib edilmişdir.

Proqramın məqsədi respublikanın ərazisində fəaliyyət göstərən investisiya fondlarında aparılan auditor yoxlamalarının keyfiyyətini yüksəltməkdən, audit zamanı tətbiq edilməsi zəruri hesab edilən audit prosedurlarını müəyyən etməkdən və bunlarla əlaqədar müvafiq tövsiyələr verməkdən ibarətdir.

## ***1. Investisiya fondlarının yaradılmasının hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi***

Investisiya fondunun idarəetmə orqanlarının təşkili, səhmdarların ümumi yığıncağının və müşahidə şurasının səlahiyyətləri, eləcə də fondun müdiriyyətinin vəzifə və səlahiyyətləri Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, "Investisiya fondları haqqında" və "Investisiya fəaliyyəti haqqında" qanunlarına uyğun olaraq özünün nizamnaməsi ilə müəyyən edilir.

Investisiya fondunun auditi zamanı, ilk növbədə, investisiya fondunun yaradılması şərtlərini, nizamnamədə göstərilmiş fəaliyyət növlərini, nizamnamə kapitalının məbləğini, səhmlərin kateqoriyalarını, nominal dəyərini və miqdarını, səhmdarların hüquqlarını, fondun idarəetmə orqanlarının tərkibini və səlahiyyətlərini, qərarların qəbul edilməsi haqqında məlumatları və fondun ləğv olunması şərtlərini öyrənmək lazımdır.

Nəzərə almaq lazımdır ki, investisiya fondu qanunvericiliklə nəzərdə tutulmuş qaydada açıq tipli səhmdar cəmiyyəti formasında yaradılır və səhmdarlarla qarşılıqlı münasibətlərdən asılı olaraq, aşağıdakı növlərə bölünür:

- açıq investisiya fondu - buraxdığı səhmləri fondun səhmdarlarından qanunvericiliklə müəyyən edilmiş qaydada geri satın almaq öhdəliyi olan investisiya fondu;
- qapalı investisiya fondu – buraxdığı səhmləri fondun səhmdarlarından geri satın almaq öhdəliyi olmayan investisiya fondu.

Investisiya fondunun nizamnaməsində investisiya fondunun növü (açıq və ya qapalı) göstərilməklə, Azərbaycan dilində tam rəsmi adı olmalıdır.

Investisiya fondu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq filiallar və nümayəndəliklər yarada bilər.

Investisiya fondunun təsis yığıncağı tərəfindən investisiya bəyannaməsi hazırlanır və təsdiq edilir. Açıq investisiya fondunun investisiya bəyannaməsində investisiya portfelinin likvidliyi üzrə tələblər də göstərilməlidir. Investisiya bəyannaməsi investisiya fondunun nizamnaməsində əks etdirilməlidir. Investisiya fondu investisiya portfelini formalaşdırarkən investisiya bəyannaməsinin tələblərini gözləməlidir.

Investisiya fondunun nizamnamə kapitalının minimum məbləğini və formalaşdırılmasının xüsusiyyətlərini müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Nizamnamə kapitalı artırıldıqda, səhmdarların yeni emissiya edilən səhmlərin alınmasında üstün hüquqları yoxdur.

Audit aparılarkən investisiya fondunun nizamnamə kapitalının həcminin artması və ya azalması şərtləri təhlil edilməlidir. Bu məqsədlə fondun səhmdarlarının ümumi yığıncağının qərarları tələb edilməli, artma və ya azalma şərtlərinin qanuna müvafiqliyi müəyyən edilməlidir. Bundan başqa, nizamnamə kapitalının azaldılması hallarında kreditorlara bildirişlərin göndərilib-göndərilməməsi müəyyən edilərək, onların tələbləri öyrənilməli və həmin tələblərə nə dərəcədə əməl olunması təhlil edilməlidir.

Investisiya fondunun nizamnamə kapitalına qoyuluşların formalarının qanunvericiliyə və təsisçilər arasında bağlanmış müqaviləyə uyğun olub-olmaması yoxlanılmalıdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, investisiya fondunun yaradılması zamanı pul olmayan əmlakın dəyəri təsis yığıncağının qərarı ilə, investisiya fondu yaradıldıqdan sonra isə fondun səhmdarlarının ümumi yığıncağının qərarı ilə müəyyən edilir.

Investisiya fondunun aktivlərinin (pul vəsaitləri, qiymətli kağızlar və digər daşınar və daşınmaz əmlak) dəyərinin nizamnamə kapitalından aşağı olduğu hallarda nizamnamə kapitalı məbləğinin azaldılması hallarını, nizamnamə kapitalı minimum məbləğdən aşağı endirilmişsə, fondun ləğvi hallarını təhlil etmək lazımdır.

Müvafiq bölmələrin auditi zamanı fondun səhmdarlarının yığıncaqlarında və müşahidə şurasının iclaslarında qəbul edilmiş qərarların icra edilib-edilməməsini yoxlamaq lazımdır.

Investisiya fondunun auditi zamanı nəzərə almaq lazımdır ki, qanunvericiliklə fondun fəaliyyətinə aşağıdakı məhdudiyyətlər qoyulmuşdur:

- adi səhmlərdən başqa qiymətli kağızların digər növlərini buraxmaq;
- altı aydan artıq müddətdə investisiya fondunun xalis aktivlərinin mütəmadi əsasda hesablanan dəyərinin 10 faizindən çox olan məbləğdə banklardan borc vəsaitini cəlb etmək;
- açıq investisiya fondu üçün xalis aktivlərinin dəyərinin 15 faizindən, qapalı investisiya fondu üçün isə xalis aktivlərinin dəyərinin 25 faizindən artıq məbləğdə bir emitentin qiymətli kağızları olan emissiya qiymətli kağızlarına investisiya qoyuluşunu həyata keçirmək. Dövlət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlara açıq investisiya fondu üçün xalis aktivlərinin 25 faizindən, qapalı infestisiya fondu üçün isə xalis aktivlərinin 35 faizindən artıq məbləğdə investisiya qoyuluşunu həyata keçirmək;
- açıq investisiya fondu üçün bir emitentin qiymətli kağızlarının qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmış ümumi məbləğinin 15 faizindən, qapalı investisiya fondu üçün isə 25 faizindən çoxunu almaq;
- afilə edilmiş şəxslərin qiymətli kağızlarını almaq;
- investisiya fondunun müvafiq müqavilələr bağladığı depozitar və reyestr saxlayıcının qiymətli kağızlarını almaq;
- hər hansı şəkildə borc vermək;
- marжa ilə istənilən qiymətli kağızları almaq;
- investisiya fonduna məxsus olmayan qiymətli kağızların satılmasına, fyuçers və opsion istisna olmaqla, qeyri-emissiya qiymətli kağızlarının alınmasına dair müqavilələr bağlamaq;
- istənilən növ təminatlar vermək, özünün xalis aktivlərinin dəyərinin 10 faizindən artıq məbləğdə qiymətli kağızlara girov əqdləri həyata keçirmək;

- investisiya fondlarının qovuşması və (və ya) birləşməsi halları istisna olmaqla, başqa investisiya fondlarının səhmlərini almaq və öz aktivlərində saxlamaq;
- investisiya fondunun əmlakı ilə bağlı, həmin fondun afilə edilmiş şəxsləri ilə əqdlər bağlamaq;
- investisiya fondunun törəmə müəssisələrini, yaxud hər hansı xüsusi və ya ehtiyat fondlarını yaratmaq;
- öz səhmlərinin satışı və alışının piramidal sxemlərindən istifadə etmək;
- tərkibində investisiya fondunun səhmləri üzrə gəlirlərə dair təminatlar, yaxud vədlər olan məlumatlar yaymaq;
- maddi istehsalla, habelə qiymətli kağızlar istisna olmaqla, digər əmlakın ticarəti ilə məşğul olmaq;
- xarici emitentlərin qiymətli kağızlarını almaq.

## 2. Bank və kassa əməliyyatlarının auditi

### 2.1. Kassa əməliyyatlarının auditi

Kassa əməliyyatlarının auditi zamanı auditor, ilk növbədə, kassada olan nağd pul vəsaitinin, qiymətli kağızların və ciddi uçot blanklarının faktiki mövcudluğu üzrə inventarizasiyasını aparmalıdır. Inventarizasiya başlanmazdan əvvəl kassada saxlanılan vəsaitlərin faktiki mövcudluğuna dair kassirin iltizamı alınmalı və inventarizasiya baş mühasib və kassirin iştirakı ilə aparılmalıdır.

Kassanın inventarizasiyası başa çatdıqdan sonra inventarizasiya nəticəsində kassada faktiki müəyyən edilən pul vəsaitlərinin, qiymətli kağızların və ciddi uçot blanklarının qalığı onların mühasibat uçotu üzrə qalıqları ilə müqayisə edilməlidir. Əgər müqayisə nəticəsində kənarlaşma halları aşkar edilərsə, onda inventarizasiyanın nəticəsinə dair baş mühasib və kassirin iştirakı ilə üzləşdirmə cədvəli tərtib edilməli və kənarlaşma hallarının səbəbləri araşdırılmalıdır.

Maddi məsuliyyət haqqında kassirlə fondun rəhbərliyi arasında bağlanmış müqavilənin mövcudluğu, kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin sərəncamının olub-olmaması və həmin sərəncama əməl edilməsinin düzgünlüyü yoxlanılmalıdır. Kassa kitabının səhifələnməsi, qaytanlanması, möhürlənməsi və müvafiq imzalarla təsdiqlənməsinin vəziyyəti yoxlanılmalı və kassa otağının müvafiq tələblərə cavab verib-verməməsi (yanmayan seyflə təmin edilməsi, qapı və pəncərələrin dəmir haşiyələrlə bağlanması və s.) müəyyən edilməlidir.

Kassa mədaxil və məxaric orderlərinin tərtib edilməsinin, kassa kitabında onların müvafiq ardıcıllıqla yazılmasının düzgünlüyü yoxlanılmalıdır. Bu zaman ciddi uçot blankları olan kassa mədaxil orderlərinə daha çox diqqət yetirilməli, həmçinin ləğv edilmiş kassa mədaxil orderlərinin faktiki mövcudluğu yoxlanılmalıdır.

Kassadan nağd pul vəsaitinin verilməsinə dair tərtib edilmiş kassa məxaric orderlərində müvafiq kredit sərəncamçılarının imzalarının olub-olmamasına diqqət yetirilməlidir.

Baş kitaba əsasən, kassa üzrə pul vəsaitinin hərəkətinə dair cədvəllər tərtib edilməli və həmin məlumatlardan müvafiq audit bölmələrində istifadə edilməlidir.

Vəkalətnamələrə əsasən, digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyü yoxlanılmalı, həmin vəkalətnamələrin ciddi uçot blanklarında olmasına diqqət yetirilməli, həmçinin həmin məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə edilməlidir.

Xarici valyutada kassa əməliyyatı aparılıbsa, əməliyyatın ayrıca kassa kitabında aparılmasına diqqət yetirilməklə, kassa kitablarında və əmək haqqı üzrə ödəniş cədvəllərində hesab səhvinə yol verilib-verilməməsi yoxlanılmalıdır.

Xarici valyutada nağd qaydada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün müəyyən edilməsini və məzənnə fərqinin hesablanmasının düzgünlüyünü yoxlamaq lazımdır.

Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitləri üzrə qalıq məbləğlərinin kassaya vaxtında qaytarılması, habelə tam maddi məsuliyyət barədə müqavilənin və rəhbərliyin sərəncamının

mövcudluğu yoxlanılmalı və bu məlumatlardan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Aparılmış kassa əməliyyatlarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

## 2.2. Bank əməliyyatlarının auditi

*a) Bankda olan hesablaşma hesablarının auditi*

Bankda olan hesablaşma hesablarında auditlə əhatə olunan dövrün sonuna mövcud olan qalıq məbləğləri barədə müvafiq banklardan arayış alınaraq, bank çıxarışlarında, baş kitabda və maliyyə hesabatlarında göstərilən qalıqlarla müqayisə edilməli, kənarlaşma halları olarsa, bunun səbəbləri araşdırılmalıdır. Bank çıxarışlarında göstərilən məbləğlərin təsdiqi ilkin sənədlərə əsasən yoxlanılmalıdır.

Baş kitaba əsasən, hesablaşma hesabları üzrə pul vəsaitlərinin hərəkəti cədvəli tərtib edilməli və həmin cədvəlin məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir. Bundan başqa, bank çıxarışlarında düzəlişlər olduqda, onların bank tərəfindən təsdiqlənməsi tələb edilməli, həmçinin ilkin sənədlərdə bankın ştampı olmadığı halda, əməliyyatın düzgünlüyü barədə bankdan arayış alınmalıdır.

Ilkin sənədlərə əsasən, hesablaşma hesabları üzrə aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar xüsusi əhəmiyyət kəsb etdiyi hallarda, aparılmış əməliyyatların düzgünlüyü yoxlanılmalı və bu məlumatlardan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir.

*b) Xarici valyutada aparılan bank əməliyyatlarının auditi*

Bankda olan cari tranzit, habelə xarici ölkələrin banklarında açılan valyuta hesabları barədə arayış alınmalıdır. Əgər bir necə valyuta üzrə hesablar açılmışdırsa, onda onların nə dərəcədə qanuna müvafiq olması araşdırılmalıdır.

Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların aparılması zamanı bank xidmətləri, birжa rüsumları və yaranmış məzənnə fərqlərinin uçotda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirilməsinin düzgünlüyü müəyyən edilməlidir.

Maddi dəyərlilərə görə xarici banklara köçürülmüş pul vəsaitlərinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və hesablaşma əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilərək, valyuta hesabı üzrə verilmiş mühasibat yazılışlarının düzgünlüyü araşdırılmalıdır.

Qeyri-rezident şəxslərə görülmüş işlərə və xidmətlərə görə köçürmələr edilmişdirsə, qeyri-rezidentin mənfəətindən gəlir vergisinin və əlavə dəyər vergisinin tutulmasının düzgünlüyü yoxlanılaraq, bu məlumatlar vergilər üzrə hesablaşmaların auditi zamanı aparılan audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir.

*c) Xüsusi vəsaitlər üzrə hesablaşma hesablarının auditi*

Bank çıxarışlarına əsasən, ödəniş məbləğləri ilkin sənədlərlə müqayisə edilməli, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir. Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tərtib edilməsinə yəqinlik əldə edilməsi məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydaları və ödəniş müddətləri öyrənilməli və əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və həmin vəsaitlərin başqa məqsədlər üçün istifadə edilib-edilməməsi müəyyənləşdirilməlidir.

Limitləşdirilmiş çeklərdən və elektron kredit kartlarından istifadənin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü, onlarla aparılmış əməliyyatların məqsədəuyğunluğu, çeklər və kartlar təqdim edilən şəxslərlə müqavilələrin bağlanmasının və onlardan qəbul edilən hesabatların düzgünlüyü yoxlanılmalıdır.

Pul sənədlərinin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş təyyarə biletləri və s.) kassada saxlanmasının, hesabat sənədlərinin tərtib edilməsinin və pul sənədlərinin analitik uçotunun aparılmasının düzgünlüyü yoxlanılmalıdır.

Yenidən satılmaq və ya ləğv edilmək üçün səhmdarlardan alınmış səhmlərin faktiki mövcudluğu yoxlanılmalıdır.

Hesabat dövrünün sonuna yolda olan ödəniş köçürmələrinin hesabatlarda əks etdirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə, təqdim edilmiş ilkin sənədlərə əsasən, balans hesabından daxil olan vəsaitlər müqayisə edilməli, kənarlaşma halları aşkar edildikdə, səbəbləri araşdırılmalıdır.

Maliyyə hesabatlarında qısamüddətli maliyyə qoyuluşları kimi əks etdirilən qiymətli kağızların, depozitlərin və verilmiş borclar üzrə subhesabların aparılmasına və müddətinin həqiqətən bir ildən çox olmamasına diqqət yetirilməklə, depozit hesabların yaradılması şərtləri təhlil edilməli və bu əməliyyatlar üzrə alınmış faizlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Qiymətli kağızların alış dəyəri nominal dəyərindən fərqləndiyi hallarda, fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olmasının düzgünlüyü və xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda əks etdirilməsinin düzgünlüyü müəyyən edilməklə, səhmlərin və digər qiymətli kağızların satışı üzrə əməliyyatların nəticələrinin mənfəətin və ya zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

## 3. *Hesablaşma və kredit əməliyyatlarının auditi*

### 3.1. Əmək haqqı üzrə hesablaşmaların auditi

Fondun işçiləri ilə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğu yoxlanılmalı, işçilərin orta siyahı sayı, onların kateqoriyaları, həmçinin tətbiq edilən əmək haqqı sistemi və forması öyrənilməlidir.

Vaxtamuzd ödəniş sistemində əmək haqqının ştat cədvəlinə uyğun olaraq hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalı, əmək haqqının hesablanması cədvəli tabellərdə göstərilmiş iş vaxtı ilə müqayisə edilməlidir. Artıq işlənmiş vaxta görə (istirahət və bayram günləri də daxil olmaqla) ödənişlərin Əmək Məcəlləsinə uyğunluğuna yəqinlik əldə edilməli və məzuniyyət haqlarının, sosial təyinatlı ödənişlərin hesablanmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

**«Investisiya fondu haqqında» Azərbaycan Respublikası Qanununun 23-cü maddəsinə uyğun olaraq, fondun müdiriyyətinin (müdirinin) mükafatının miqdarı tərəflərin razılığı ilə qiymətli kağızların idarə edilməsi haqqında müvafiq müqavilədə müəyyən edilir. Investisiya fondunun müdiriyyətinin (müdirinin) illik mükafatının maksimum həcmi fondun xalis aktivlərinin orta illik dəyərinin 5 faizindən artıq ola bilməz.**

Əmək haqqından tutulmaların (gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna tutulma, icra vərəqələri üzrə tutulma və s.) müvafiq qanunvericilik aktlarının və normativ sənədlərin tələblərinə uyğunluğu seçmə qaydasında yoxlanılmalı, fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin tətbiq edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının düzgünlüyü hesab qaydasında təkrar yoxlanılmalı, əmək haqqı üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin və əmək haqqı üzrə xərclərin fondun xərclərinə aid edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesab cədvəlləri tərtib edilərək, bu cədvəllərdə gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və digər tutulmaların məbləğləri əks etdirilərək, həmin məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə edilməlidir.

### 3.2. Malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi

Fondun rəhbərliyindən malsatan və podratçı təşkilatlar üzrə mövcud borcların siyahısı alınaraq, həmin təşkilatlarla bağlanmış müqavilələrin mövcudluğu və tərtib edilməsinin düzgünlüyü araşdırılmalı, tərəflərin öhdəlikləri və müqavilə məbləğinin ödənilməsi şərtləri öyrənilməlidir.

Malsatan və podratçı təşkilatlarla hesablaşmalar üzrə borcların əmələ gəlməsinin tarixi və səbəbləri müəyyən edilməklə, bu növ hesablaşmalar üzrə aparılmış əməliyyatların mühasibat uçotunda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyən edilməlidir.

Mühüm əhəmiyyət kəsb edən borclar üzrə üzləşmə aktları tələb edilməli, əgər üzləşmə aparılmayıbsa, borcların reallığını təsdiq etmək məqsədilə, üzləşmənin aparılması və nəticəsi üzrə müvafiq aktın tərtib edilməsi fondun rəhbərliyindən tələb edilməlidir.

Məbləğcə daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünü yoxlamaq məqsədilə bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə edilməli və əsassız ödənişlərin mövcud olub-olmaması müəyyənləşdirilməlidir.

Alınmış qiymətli kağızların və maddi dəyərlilərin tam mədaxil edilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə ödəniş sənədlərində göstərilən məbləğlər mədaxil sənədləri ilə müqayisə edilməli, əgər xidmət göstərilmişdirsə, belə hallarda məsrəflərin gəlirdən çıxılmalı olan xərclərin tərkibinə aid edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bütün iri malsatan və podratçı təşkilatlar üzrə hesablaşmaların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalı və bununla əlaqədar alınan izahatlar təsdiqedici sənədlərə isnad edilməklə, audit materiallarına əlavə edilməlidir.

Xarici iqtisadi əlaqələr üzrə aparılan hesablaşma əməliyyatları zamanı maddi dəyərlilərin tərtib edilmiş gömrük bəyannamələrində gömrük dəyəri müəyyən edilərkən və onların dəyəri ödənilərkən, bank çıxarışlarında göstərilmiş valyuta məzənnəsinə əsasən, mühasibat üçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Malsatan və podratçı təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğun olması araşdırılmalı və müqavilə üzrə nəzərdə tutulan şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmaların hesabına silinməsinin düzgünlüyü yoxlanılmalı və hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə aparılmışdırsa, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilməlidir.

Qaldırılmış iddialar üzrə iddiaların nə dərəcədə əsaslı olması araşdırılmalı və bununla əlaqədar aparılmış əməliyyatların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

### 3.3. Alıcı və sifarişçilərlə hesablaşmaların auditi

Alıcı və sifarişçilərlə hesablaşmaların hansı metodla (kassa və ya hesablaşma metodu ilə) aparılması öyrənilməli, müqavilələrin mövcudluğu, onların tərtib edilməsinin düzgünlüyü və ödəmə şərtləri araşdırılmalı, kassanın və hesablaşma hesabının auditi zamanı aparılmış audit prosedurlarının nəticəsindən bu bölmənin auditi zamanı istifadə edilməlidir.

Göndərilmiş məhsul (mal), görülmüş iş və göstərilmiş xidmətlər üzrə ilkin sənədlərin tərtib edilməsinin düzgünlüyü araşdırılmalı, əgər hesablaşma veksellərdən istifadə yolu ilə aparılıbsa, veksellər üzrə faizlərin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Debitor və kreditor borclarına dair arayış alınmalı, yekun məbləğinin mühasibat üçotunda göstərilən məbləğlərlə uyğunluğu yoxlanılaraq, həmin borclar arasında iddia müddəti keçmiş olan borc məbləğləri və onların əmələ gəlməsinin səbəbləri araşdırılmalıdır.

Mühüm əhəmiyyət kəsb edən və vaxtında ödənilməyən debitor borcları üzrə üzləşmələrin aparılıb-aparılmaması müəyyən edilməlidir; əgər üzləşmə aparılmayıbsa, onun icra edilməsi və nəticələri üzrə müvafiq aktların tərtib edilməsi fondun rəhbərliyindən tələb edilməlidir.

Alıcı və sifarişçi təşkilatlardan alınmış avans məbləğlərinin hesabatlarda əks etdirilməsinin, həmin avans məbləğlərinə görə əlavə dəyər vergisinin hesablanmasının və yüklənmiş mallara (görülmüş işlərə) görə alınmış avans məbləğlərinin alıcı və sifarişçi təşkilatların hesabına silinməsinin düzgünlüyü yoxlanılmalıdır.

**3.4. Sosial fondlarla hesablaşmaların auditi**

Sosial fondlarla hesablaşmaların auditi aparılarkən dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında və baş kitabda göstərilən qalıq məbləğləri üzləşdirilməli və kənarlaşma hallarının olub-olmaması müəyyənləşdirilməlidir.

Sosial fondlara ödəmələrin hesablanması bazasının və tətbiq edilmiş normaların düzgünlüyü araşdırılmalı və qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin hesablaşmalarda nəzərə alınmasının düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Dövlət Sosial Müdafiə Fondunun hesabına edilən ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Sosial fondlara ödənişlərin təyinatı üzrə vaxtında edilməsi və hesabatların vaxtında təqdim edilib-edilməməsi araşdırılmalı, nöqsan və çatışmazlıq halları aşkar edilərsə, bu barədə fondun rəhbərliyinə yazılı məlumat verilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində əldə edilən məlumatlar bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə üzləşdirilərək, sosial fondlara ödəmələr üzrə qalıq məbləğləri müəyyən edilməli və alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıq məbləğlərinə uyğunluğu yoxlanılmalıdır.

**3.5. Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi**

Təhtəlhesab şəxslərlə tam maddi məsuliyyət haqqında bağlanmış müqavilələrin mövcudluğu müəyyənləşdirilməli, onlar tərəfindən təqdim edilmiş avans hesabatlarının tərtib edilməsinin və xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarılmasının düzgünlüyü, həmçinin avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, nəqliyyat biletləri və s.) mövcudluğu və məbləğlərin avans hesabatlarında əks etdirilməsinin düzgünlüyü seçmə qaydasında yoxlanılmalıdır.

Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara uyğun olaraq hesablanıb ödənilməsinin və təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə əməliyyatların maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdr.

Bu prosedurların nəticələrindən seçmə qaydasında kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə edilməlidir.

**3.6. Vergilər üzrə hesablaşmaların auditi**

Investisiya fondunun fəaliyyətindən asılı olaraq, hesablanan və ödənilən vergilər barədə məlumat alınmalı, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirilməsinin və hər bir vergi növü üzrə analitik uçotun aparılmasının düzgünlüyünə yəqinlik əldə edilməlidir.

**3.7. Kreditlər, borclar və digər hesablaşmalar üzrə əməliyyatların auditi**

Alınmış kreditlər və borc məbləğlərinə dair bağlanmış müqavilələrə əsasən, ödəmə şərtləri öyrənilməli, onların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirilib-etdirilməməsi müəyyənləşdirilərək, kredit və borclardan istifadəyə görə hesablanmış faizlərin və xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalıqların hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda əks etdirilməsinin düzgünlüyü araşdırılaraq, bu növ maliyyələşmələrdən təyinatı üzrə istifadə edilib-edilməməsinin

düzgünlüyü yoxlanılmalı və kənarlaşma halları aşkar edildikdə, səbəbləri müəyyənləşdirilməlidir.

Əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə qaydasında öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, xərclərin tərkibinə daxil edilən sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə üzləşdirilməlidir.

Əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli və bu hesablaşmaların aparılmasının düzgünlüyü yoxlanılmalıdır.

Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtləri təhlil edilərək, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğunluğu və bu fəaliyyətin nəticəsinin mənfəətin və ya zərərin hesabatında, həmçinin maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

## *4. Əsas vəsaitlərin (ƏV), qeyri-maddi aktivlərin (QMA) və mal-material dəyərlilərinin (MMD) auditi*

**Bu sahənin auditi aparılarkən nəzərə almaq lazımdır ki, "Investisiya fondu haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, fondun fəaliyyəti üçün zəruri olan daşınar və daşınmaz əmlakın ümumi dəyəri onun ümumi əmlakının dəyərinin 20 faizindən artıq olmamalıdır.**

Mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları haqqında məlumatlar əldə edilməli və onların hesabat dövrünün sonuna analitik və sintetik uçot qalıqları ilə müqayisə edilməlidir. Kənarlaşma halları müəyyən edilərsə, səbəbləri araşdırılmalıdır.

Hesabat dövrünün sonuna fondun əsas vəsaitlərinin inventarizasiyasının aparılıb-aparılmaması müəyyənləşdirilməli, əgər aparılıbsa, nəticələrinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı, həmçinin əsas vəsaitlərin silinməsi halları olarsa, bunun qanuna uyğunluğu təhlil edilməlidir.

ƏV, QMA və MMD-nin alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və onların alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin ilkin dəyərlərinə əlavə edilib-edilməməsi müəyyənləşdirilərək, mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Əgər ƏV, QMA və MMD xaricdən idxal edilərək alınmışdırsa, onda gömrük bəyannamələrində onların gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyü araşdırılmalı, həmçinin gömrük dəyərinə gömrük prosedurları ilə əlaqədar ödənilmiş vergi və rüsum məbləğlərinin əlavə edilərək mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

ƏV və MMD-nin alınması zamanı malgöndərən və podratçı təşkilatlara ödənilmiş ƏDV məbləğinin onların ilkin dəyərinə əlavə edilərək, 68 saylı balans hesabına aid edilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

ƏV, QMA və MMD-nin kateqoriyalar üzrə qruplaşdırılmasının düzgünlüyü, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının mövcud qanunvericiliyin tələblərinə uyğunluğu yoxlanılmalı və QMA-nın amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablanmasına yəqinlik əldə edilməlidir.

ƏV, QMA və MMD-nin xaric olmasının maliyyə hesabatlarında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalı və əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin müəyyən edilməsinin düzgünlüyü araşdırılmalıdır. Əgər ƏV qalıq dəyərindən aşağı qiymətləndirilmişdirsə, onda tətbiq edilən qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətlərinə uyğun olması barədə qiymətləndirici ekspertin rəyi tələb edilməli və xaricolmanın nəticələrinin mənfəətin və ya zərərin hesabatında sair satışın nəticələri kimi əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Azqiymətli və tezköhnələn əşyaların istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

### *5. Fondun xərclərinin auditi*

Xərclərin tərkibinə aid edilmiş məsrəflər və məbləğlər araşdırılaraq, aşağıdakı elementlər üzrə qruplaşdırılmalıdır:

- mal-material xərcləri;
- səhmlərin və qiymətli kağızların dərc edilməsi və satışı ilə bağlı xərclər;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;
- sair xərclər.

Mal-material dəyərlilərinin alınması, saxlanması və silinməsi prosesi öyrənilməlidir.

Səhmlərin hazırlanması və satışı ilə bağlı xərclərin düzgünlüyü araşdırılmalıdır.

ƏV, QMA və MMD bölməsində istifadə olunmuş audit prosedurları nəticəsində əldə edilmiş məlumatlardan bu bölmənin auditi zamanı istifadə edilməli və təyinatından asılı olaraq, auditin aparılması proqramında müəyyən edilən yoxlama metoduna əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Sair xərclərin tərkibində mühüm əhəmiyyətə malik olan xərclərin düzgünlüyü ilkin sənədlərə əsasən təhlil edilməli və həmin xərclərin tərkibinə daxil edilən müxtəlif xərc elementləri (təbii qaz, elektrik enerжisi, su, kommunal xərclər və s.) təqdim edilmiş kalkulyasiyalarda göstərilən hesablamalarla müqayisə edilməlidir. Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədlərin düzgünlüyü yoxlanılaraq, göstərilən təşkilatlarla bağlanmış müqavilə şərtləri öyrənilməli və əldə edilən məlumatlardan həmin təşkilatlarla aparılmış hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Işçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olub-olmamasını müəyyənləşdirmək məqsədilə ezamiyyə xərcləri üzrə təqdim edilmiş hesabatlar seçmə qaydasında yoxlanılmalıdır. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu sahənin auditi zamanı istifadə edilməlidir.

Xərclərin tərkibi təhlil edilərək, onların aidiyyəti üzrə mühasibat uçotunda, həmçinin mənfəətin və zərərin hesabatında əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bu bölmədə istifadə edilən audit prosedurları nəticəsində əldə edilən məlumatlardan maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyü yoxlanılarkən istifadə edilməlidir.

### *6. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi*

Maliyyə hesabatları və dövriyyə-qalıq cədvəllərinə əsasən, qalıqlar dəqiqləşdirilməli və uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparılmasına yəqinlik əldə edilərək, onların riyazi düzgünlüyü yoxlanılmalıdır.

Səhmlərin və qiymətli kağızların dəyərinin onların nominal dəyərindən artıq və ya əskik olması hallarının mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilərək, bu prosedurların nəticələri maliyyə vəziyyətinin təhlili bölməsində aparılmış prosedurların nəticələri ilə müqayisə edilməlidir.

Kapital qoyuluşlarının hansı səhmdarların və vəsaitlərin hesabına, eyni zamanda, nə məqsədlə həyata keçirilməsi araşdırılmalıdır. Kapital qoyuluşuna aid edilmiş xərclərin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü ilkin sənədlərə əsasən yoxlanılmalıdır.

Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılması nəzərə alınaraq, bu məqsədlə yerinə yetirilən prosedurların nəticələri müqayisə edilməlidir.

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalı, kənarlaşma halları aşkar edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

### *7. Səhmlərlə bağlı əməliyyatların auditi*

**Investisiya fondunun səhmləri adi səhm olmaqla, hər bir səhm onun sahibinə investisiya fondunun səhmdarlarının yığıncağında bir səs hüququ verir və səhmdarların onlara məxsus səhmlərin sayına mütənasib olaraq dividend, habelə investisiya fondu ləğv edildikdə, onun əmlakının müvafiq hissəsini almaq hüququ vardır.**

Fondun səhmləri ilə bağlı əməliyyatların auditi aparılarkən səhmlərin buraxılışı, qeydiyyatı və yerləşdirilməsinin qanuna uyğunluğu hərtərəfli təhlil edilərək, səhmlərin sayı və növləri barədə rəhbərlikdən məlumat alınmalı və səhmlərin reyestrində edilən dəyişikliklərin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır. Qeyd etmək lazımdır ki, investisiya fondunun səhmlərinin dəyərinin artırılması və əlavə səhmlərin buraxılması qaydaları qiymətli kağızlar bazarını tənzimləyən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**Nəzərə almaq lazımdır ki, fondun investisiya portfeli investisiya fondunun malik olduğu, aşağıda göstərilən tələblərə cavab verən investisiyaların məcmusudur:**

- **açıq investisiya fondu üçün xalis aktivlərinin dəyərinin 15 faizə qədəri, qapalı investisiya fondu üçün isə xalis aktivlərinin dəyərinin 25 faizə qədəri bir emitentin qiymətli kağızları olan emissiya qiymətli kağızlarına investisiya oluna bilər. Dövlət, yaxud bələdiyyə orqanları tərəfindən buraxılan qiymətli kağızlara açıq investisiya fondunun xalis aktivlərinin 25 faizə qədəri, qapalı investisiya fondunun xalis aktivlərinin isə 35 faizə qədəri investisiya oluna bilər;**
- **açıq investisiya fondu bir emitentin qiymətli kağızlarının qanunvericiliklə müəyyən edilmiş qaydada qeydiyyata alınmış ümumi məbləğinin 15 faizə qədərini, qapalı investisiya fondu isə 25 faizə qədərini ala bilər.**

Investisiya fondunun müşahidə şurası ilə fondun depozitarisi arasında bağlanmış müqavilənin şərtləri öyrənilməlidir. Bu müqavilənin əsasında fondun depozitarisində saxlanan qiymətli kağızların hərəkətinin mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü ilkin sənədlərə əsasən yoxlanılmalıdır.

**Fondun depozitarisi və ya reyestr saxlayıcısı tərəfindən aparılan səhmdarların reyestri təhlil edilərkən, nəzərə almaq lazımdır ki, fondun müdiriyyəti, müdiriyyətin afilə edilmiş şəxsləri və fondun vəzifəli şəxsləri ilə yanaşı, fondun bütün səhmlərinin 5 faizindən artıq hissəsinə sahib olan səhmdarlar və səhmdar cəmiyyətləri investisiya fondunun afilə edilmiş şəxsləri hesab edilir.**

Uçot siyasətinə və qəbul edilmiş uçot prinsiplərinə əsasən, səhmlərin satışı və geri alınması üzrə əməliyyatların hansı metodla hesablanması araşdırılmalı və hesabat dövrü ərzində uçot siyasətinin dəyişdirilməməsinə yəqinlik əldə edilməlidir.

**Səhmlərin geri satın alınması üzrə əməliyyatların yoxlanılması zamanı nəzərə almaq lazımdır ki, açıq investisiya fondunun buraxdığı səhmlərin geri satın alınması nizamnamə kapitalının elan olunmuş məbləği tam ödənildikdən sonra aparılır və bu qayda nizamnamə kapitalı artırıldığı hallarda açıq investisiya fondunun səhmlərinin əvvəlki emissiyalarına şamil edilir.**

Açıq investisiya fondunun buraxdığı səhmlərin geri alınması prosesi fondun səhmdarlarından səhmlərin geri alınması üçün sifariş verilən vaxtdan sonra, fondun özünün pul vəsaiti hesabına 10 gün müddətində başa çatdırılmalıdır. Bu zaman səhmlərin orta alış qiymətinin fondun xalis aktivlərinin dəyərini onun səhmlərinin ümumi sayına bölməklə müəyyən edilməsi qaydasına diqqət yetirmək lazımdır. Eyni zamanda, açıq investisiya fondunun buraxdığı səhmlərin geri satın alınması prosesində açıq investisiya fondunun xalis aktivlərinin məbləği onun nizamnamə kapitalının ilkin qeydə alınan həcmindən az olmamalıdır.

Açıq investisiya fondunun səhmlərinin satılması zamanı onların qiyməti sərbəst müəyyən edilə bilər, lakin bu zaman müşahidə şurası fondun potensial investorlarına səhmlərin qiymətinin tərkib hissəsi haqqında məlumat verməlidir.

Səhmlər alınarkən onların bazar məzənnəsinə uyğun qiymətlərlə alınmasının və bu əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Bir il ərzində satılmayan səhmlərin ləğv edilməsi barədə səhmdarların ümumi yığıncağının qərarı ilə nizamnamə fondunun bu səhmlərin nominal dəyəri məbləğində azaldılmasına yəqinlik əldə edilməlidir.

Geri alınmış səhmlərin bir il ərzində alış qiymətindən yuxarı və ya aşağı qiymətlərlə satılması hallarının mühasibat uçotunda əks etdirilməsinin və ehtiyat fonduna aid olan vəsaitlərin ayrıca subhesabda əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilməli, əgər səhmlərin etibarsız sayılması halları olmuşdursa, bu əməliyyatların qanunvericiliyə uyğunluğu yoxlanılmalıdır.

Alış qiyməti qiymətləndirmə dəyərindən və ya hərrac qiymətindən artıq (əskik) olan zaman əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir. Nəzərə alınmalıdır ki, alış qiyməti qiymətləndirmə dəyərindən artıq olduqda, artıq ödənilmiş vəsait investisiya fondunun qiyməti (qudvil) kimi dəyərləndirilərək, hesabatlarda qeyri-maddi aktiv şəklində əks etdirilməlidir.

Səhmlərin nominal dəyərinin azalması halları müşahidə edilərsə və ya səhmlərə sahib olanlardan səhmlər alınıb ləğv edilərsə, belə hallarda investisiya fondunun nizamnamə fondu məbləğinin azaldılmasının düzgünlüyünə yəqinlik əldə edilməli və bu məqsədlə nizamnamə kapitalının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.

**Nəzərə almaq lazımdır ki, investisiya fondunun nizamnamə kapitalının azaldılması haqqında səhmdarların ümumi yığıncağının qərarı qəbul edildiyi gündən on beş təqvim günü müddətində cəmiyyət kreditorlara bu barədə yazılı surətdə məlumat verməlidir. Cəmiyyətin kreditorları məlumatı aldıqdan sonra otuz təqvim günü ərzində cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl icrasını və ya onlara xitam verilməsini və çəkdikləri zərərin ödənilməsini tələb edə bilərlər.**

### *8. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi*

Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində dövriyyə və ilin sonuna qalıq əks etdirilməklə, hesabat dövrü ərzində balans hesabları üzrə dövriyyə-qalıq cədvəlləri tərtib edilərək, əldə edilən məlumatlar baş kitabın məlumatları ilə müqayisə edilməli və aşağıdakı balans hesabları araşdırılaraq təhlil edilməlidir:

- ehtiyat kapitalı;
- əlavə kapital;
- keçmiş illərin bölüşdürülməmiş mənfəəti;
- keçmiş illərin ödənilməmiş zərəri;
- xüsusi fondlar və ehtiyatlar.

Hesabat dövrü ərzində fondun səhmdarlarının, ümumi yığıncağının, müşahidə şurasının və müdiriyyətin iclaslarının protokollarının surəti alınaraq, qəbul edilmiş qərarların icrası araşdırılmalı və hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

**Nəzərə alınmalıdır ki, investisiya fondunun xalis mənfəəti vergilər və digər məcburi ödənişlər ödənildikdən sonra yaranır və qanunvericiliklə və fondun nizamnaməsi ilə müəyyən edilən məqsədlərə yönəldilə bilər. Xalis mənfəətin investisiya fondunun maliyyə ili üzrə bölüşdürülməsi fondun səhmdarlarının ümumi yığıncağının qərarı ilə qəbul edilir.**

**Investisiya fondu, nizamnamədə müəyyən edilməsindən asılı olaraq, dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər. Investisiya fondunun dividendlərin ödənilməsi barədə öhdəlikləri onların ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.**

**Əgər investisiya fondunun xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalının miqdarından azdırsa və ya dividendlərin ödənilməsi nəticəsində az olacaqsa, investisiya fondu dividendləri elan edə və ödəyə bilməz.**

Qəbul edilmiş qərarlara əsasən verilmiş dividendlərin hesablanmasının düzgünlüyü yoxlanılmalı, bu zaman hesablanmış dividendlərdən gəlir vergisinin tutulub-tutulmamasına

yəqinlik əldə etmək məqsədilə vergilər üzrə hesablaşmalar bölməsində tətbiq edilən audit prosedurlarının nəticələri dividenddən tutulmuş vergilərlə müqayisə edilməlidir.

Dividendlərin hazır məhsul və ya əmlaka ödənildiyi hallarda qiymətlərin müəyyən edilməsinin düzgünlüyü araşdırılaraq, imtiyazlı səhmlər üzrə ödənilmiş dividendlərin hesablanmasının düzgünlüyü yoxlanılmalıdır.

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz verilməsi və ya alınması halları təhlil edilməli və bu əməliyyatların mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Əlavə emissiya və ya nominal qiymətlərin artması yolu ilə səhmlərin nominal dəyərindən yuxarı qiymətə satılması halları təhlil edilməli, satış qiyməti ilə nominal dəyər arasındakı fərqin emissiya gəlirinə aid edilməsinə yəqinlik əldə edilməlidir.

Uçot siyasətinə və təsis sənədlərinə əsasən, xüsusi təyinatlı fondların yaradılmasının qanunauyğunluğu yoxlanılmalı və bu məlumatlardan səhmlərlə bağlı əməliyyatların auditi zamanı istifadə edilməlidir.

Fondun hesabına xərclənmiş vəsaitlərin smetasına əlavə edilən ilkin sənədlərə əsasən, çəkilmiş xərclərin əsaslılığı təhlil edilməlidir. Hesabat dövrü zərərlə başa vurularsa, zərərin örtülməsinin və mühasibat uçotunda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

### *9. Mühasibat uçotunun vəziyyətinin auditi*

Bu sahənin auditi zamanı nəzərə almaq lazımdır ki, investisiya fondu öz fəaliyyətinin nəticələri haqqında hesabatı müəyyən edilmiş qaydada və vaxtda müvafiq icra hakimiyyəti orqanına təqdim etməli, habelə səhmdarların və investorların bu hesabatlarla tanış olmasını təmin etməlidir.

Mühasibat balansının, mənfəət və zərər hesabatlarının dövriyyə cədvəllərinə əsasən düzgün tərtib edilməsinə yəqinlik əldə edilməli, məbləğlərin riyazi düzgünlüyü yoxlanılaraq, baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edilməsinə və tətbiq olunmuş hesabların "Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat"a uyğun olub-olmaması müəyyən edilməlidir.

Dövriyyə cədvəlinə əsasən, hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar ayrı-ayrı bölmələr üzrə qruplaşdırılmalı, maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmə ehtimalı olan məbləğlər müəyyənləşdirilməlidir. Dövriyyə cədvəlində maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmə ehtimalı olmayan məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Milli Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Balans hesabları üzrə cari ilin əvvəlinə mövcud olan qalıqlar əvvəlki ilin hesabatlarında ilin sonuna mövcud olan qalıqlarla müqayisə edilməli, kənarlaşma halları aşkar edilərsə, səbəbləri araşdırılmalıdır.

Aşkar edilmiş kənarlaşmalara görə edilməli mühasibat düzəlişləri nəzərə alınmaqla, yekun dövriyyə cədvəli tərtib edilməli və həmin məlumatların maliyyə (mühasibat) uçotunda tam əks etdirilməsinin düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara görə düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə təsir etməsi amilləri müəyyənləşdirilməli və həmin amillər auditin nəticəsi üzrə verilən rəydə öz əksini tapmalıdır.

### *10. Maliyyə vəziyyətinin təhlili və auditin nəticəsi üzrə verilən təkliflər*

Audit nəticəsində düzgün hesab edilmiş balans hesabatı və hesabata əlavələr araşdırılaraq, daha çox əhəmiyyət kəsb edən aşağıdakı göstəricilər müəyyənləşdirilməlidir:

cari likvidlik əmsalı (dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə nisbəti);
xalis dövriyyə kapitalı (dövriyyə vəsaitləri ilə qısamüddətli öhdəliklərin fərqi);
fərdilik əmsalı (fərdi kapitalın aktivlərin məbləğinə nisbəti);
maliyyə asılılığı əmsalı (ödəniləsi kapitalın (passivlərin) fərdi kapitala nisbəti);
fərdi kapitalın rentabelliyi (mənfəətin kapitala nisbəti);
səmərəlilik və rentabellik səviyyəsi;
daha çox əhəmiyyət kəsb edən digər göstəricilər.

Bu göstəricilər əvvəlki illərin nəticələrinə dair göstəricilərlə üzləşdirilərək, müqayisə cədvəli tərtib edilməli, iqtisadi göstəricilərin aşağı düşməsi halları müşahidə edilərsə, səbəbləri təhlil edilərək, rəhbərliyə təqdim olunan məlumatda əks etdirilməlidir.

Səhmlər üzrə ödənilən dividendin onun bazar qiymətinə olan nisbəti hesablanaraq, dividendlərin xalis gəlirə nisbətdə xüsusi çəkisi müəyyənləşdirilməli və bunun gələcəkdə dövriyyə kapitalının azalmasına təsiri amilləri təhlil edilməlidir.

Investisiya fondunun aktivlərinin dəyərinin aşağı düşməsi halları təhlil edilməli və onların qalıq məbləğinin nizamnamə kapitalından aşağı olmamasına yəqinlik əldə edilməlidir.

Aktivlərin dəyərinin aşağı düşməsinin nizamnamə kapitalının aşağı düşməsinə səbəb olması və öz növbəsində, nizamnamə kapitalının minimum məbləğdən aşağı düşməsinin fondun fəaliyyətinin dayandırılması ilə nəticələnə bilməsi amili nəzərə alınmalıdır.

Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların auditlə əhatə edilən dövr ərzində aradan qaldırılıb-qaldırılmamasına xüsusi diqqət yetirilməlidir. Audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqlar, onların aradan qaldırılmasına dair rəy və təkliflər, həmçinin mühasibat uçotunun vəziyyətinə verilən qiymət barədə mülahizələr auditin nəticəsinə dair tərtib edilən auditor aktına daxil edilməklə, rəhbərliyə ünvanlanan məktubda əks etdirilməlidir.

**Investisiya fondunun illik fəaliyyətinin auditinin nəticəsi üzrə verilən auditor rəyi fondun rəhbərliyinin müvafiq icra hakimiyyəti orqanına təqdim etdiyi maliyyə hesabatlarına edilməli olan məcburi əlavələrdən biridir.**


**PROQRAMI TƏRTIB ETDI:**
***Cəmaləddin AXUNDOV –***
***Auditorlar Palatasının Audit qanunvericiliyi və metodik təminat şöbəsinin müdiri***

**RƏYÇILƏR:**
***Islam BAYRAMOV –***
***"Kapital-Audit LTD" məhdud məsuliyyətli cəmiyyətinin direktoru***
***Nəcəf TALIBOV –***
***Auditorlar Palatası sədrinin elmi-metodik məsələlər üzrə müşaviri***


**AS1DS 030/081-2005**
**Azərbaycan Respublikasının**
**Auditorlar Palatası Şurasının**
**2005-ci il 19 yanvar tarixli**
**144/2 saylı qərarı ilə təsdiq edilmişdir**

## MƏHDUD MƏSULIYYƏTLI CƏMIYYƏTLƏRDƏ AUDIT APARILMASINA DAIR PROQRAM

*MÜNDƏRICAT:*


1. Məhdud məsuliyyətli cəmiyyətin hüquqi əsasları və nizamnamə kapitalının formalaşması
2. Dövriyyə cədvəli və mühasibat hesabatları
3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi
4. Hesablaşma və kredit əməliyyatları
5. Əsas vəsaitlər (ƏV) və qeyri-maddi aktivlər (QMA)
6. Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (IE) auditi
7. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmalar
8. Istehsal xərclərinin auditi
9. Kapital qoyuluşları və uzunmüddətli investisiyalar
10. Malların (iş və xidmətlərin) satışı
11. Mənfəət (zərər), fondlar və ehtiyatlar
12. *MALİYYƏ VƏZİYYƏTİNİN TƏHLİLİ, AUDİTİN NƏTİCƏSİNƏ ƏSASƏN TƏKLİFLƏR*


Qanunvericiliyə əsasən, məhdud məsuliyyətli cəmiyyətlərdə (mmc) audit aparilmasinin məcburi xarakter daşidiği nəzərə alinaraq, bu proqramin hazirlanmasi məqsədəuyğun hesab edilmişdir. Proqram azərbaycan respublikasinin mülki məcəlləsi və azərbaycan respublikasinin auditorlar palatasi şurasinin təsdiq etdiyi milli audit standartlari rəhbər tutulmaqla, habelə mmc-lərin yaradilmasinin, idarə edilməsinin və fəaliyyətinin spesifik xüsusiyyətləri nəzərə alinmaqla tərtib olunmuşdur.

Proqramin hazirlanmasindan məqsəd mmc-lərdə aparilan auditor yoxlamalarinin keyfiyyətinin yüksəldilməsi üçün audit zamani zəruri hesab edilən audit prosedurlarinin tətbiqi ilə bağli tövsiyələrin verilməsidir.

### *1. Məhdud məsuliyyətli cəmiyyətin hüquqi əsasları və nizamnamə kapitalının formalaşması*

Məhdud məsuliyyətli cəmiyyətin hüquqi əsasları, yəni cəmiyyətin yaradılması, iştirakçıları, nizamnaməsi, nizamnamə kapitalı, mənfəətin bölüşdürülməsi, cəmiyyətdə idarəetmə, cəmiyyətin yenidən təşkili və ləğvi, nizamnamə kapitalındakı payın keçməsi, iştirakçının mmc-nin əmlakındakı payına tutmanın yönəldilməsi, iştirakçının cəmiyyətdən çıxması və iştirakçı cəmiyyətdən çıxarkən hesablaşmalar azərbaycan respublikasının mülki məcəlləsinin 87-96-cı maddələrinə əsasən və cəmiyyətin nizamnaməsi ilə müəyyən edilir.

Audit zamanı mmc-nin yaradılması şərtləri, nizamnamədə göstərilmiş fəaliyyət növləri, nizamnamə kapitalının məbləği, cəmiyyətin idarəetmə orqanlarının tərkibi və səlahiyyətləri, qərarların qəbul edilməsi haqqında məlumatlar və cəmiyyətin ləğvi şərtləri öyrənilməlidir.

Məhdud məsuliyyətli cəmiyyətin azərbaycan respublikasinin mülki məcəlləsinin 130.1-ci və 130.3-cü maddələrinə uyğun olaraq dövlət reyestrində qeydə alinmasi (qeydə alinma tarixi, dövlət şəhadətnaməsinin nömrəsi) auditor tərəfindən müvafiq sənədlər əsasinda yoxlanilmalidir.

Nizamnamə kapitalının formalaşdırılmasının auditi zamanı mülki məcəllənin 90-cı maddəsində nəzərdə tutulmuş şərtlərə riayət edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

Nizamnamə fondunun maddi dəyərlilər və qeyri-maddi aktivlərlə formalaşdığı hallarda bu əməliyyatların düzgünlüyünə əmin olmaq məqsədilə müvafiq bölmələrin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.

Nizamnamə kapitalının həcminin artması və ya azalması şərtləri təhlil edilməlidir. Bunun üçün cəmiyyətin ümumi yığıncağının qərarı tələb edilməli, artma və ya azalma şərtlərinin qanuna müvafiq olduğu qiymətləndirilməlidir. Nəzərə alınmalıdır ki, MMC-nin nizamnamə

kapitalı yalnız onun tam ödənilməsindən sonra Mülki Məcəllədə və cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin əmlakı hesabına iştirakçıların nizamnamə kapitalındakı mayalarının dəyərinə mütənasib şəkildə artırılması və (və ya) iştirakçılar tərəfindən əlavə mayaların qoyulması vasitəsilə və (və ya) cəmiyyətə qəbul edilən yeni iştirakçıların mayaları hesabına artırıla bilər.

MMC-nin nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılması cəmiyyətin nizamnaməsində nəzərdə tutulmuş qaydada cəmiyyətin ümumi yığıncağının qərarı ilə həyata keçirilir. Belə qərar yalnız cəmiyyətin ötən il üçün mühasibat hesabatının göstəriciləri əsasında qəbul edilə bilər. Nizamnamə kapitalının cəmiyyətin əmlakı hesabına artırılan miqdarı cəmiyyətin xalis aktivlərinin dəyəri, nizamnamə kapitalının miqdarı və cəmiyyətin ehtiyat fondu arasındakı fərqi keçməməlidir. Cəmiyyətin nizamnamə kapitalı bu cür artırıldıqda, iştirakçıların sərmayələrinin məbləği dəyişmədən bütün iştirakçıların sərmayələrinin nominal dəyəri proporsional surətdə artır.

Nəzərə alınmalıdır ki, MMC-nin nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə həyata keçirilə bilər. Bütün iştirakçıların mayalarının nominal dəyərinin azaldılması yolu ilə nizamnamə kapitalının azaldılması bütün iştirakçıların mayalarının nisbəti saxlanılmaqla həyata keçirilir. Cəmiyyətin nizamnamə kapitalının azaldılması cəmiyyətin ümumi yığıncağının qərarı əsasında həyata keçirilir. Nizamnamə kapitalının azaldılması haqqında ümumi yığıncağın qərarı qəbul edildikdən sonra nizamnamədə və ya cəmiyyətin ümumi yığıncağının qərarında müəyyən edilmiş müddətdə cəmiyyət özünün bütün kreditorlarına bu barədə yazılı məlumat göndərməlidir. Məlumat alındığı gündən bir ay müddətində cəmiyyətin kreditorlarının cəmiyyətin müvafiq öhdəliklərinin vaxtından əvvəl yerinə yetirilməsini və ya xitamını, çəkdikləri zərərin əvəzinin ödənilməsini tələb etmək hüququ vardır. Ona görə də nizamnamə kapitalının azaldılması hallarında kreditorlara bildirişlərin göndərilib-göndərilmədiyi müəyyən edilməli, onların tələbləri öyrənilməli, tələblərin nə dərəcədə ödənildiyi təhlil edilməlidir.

Auditor cəmiyyətin ümumi yığıncağının protokollarından və direktorlar şurasının (müşahidə şurasının) qərarlarından çıxarışlarla tanış olmalı, müvafiq bölmələrin auditi zamanı bu qərarların icrası vəziyyətini araşdırmalıdır.

Nizamnamədə və ya nizamnamə kapitalında qeydə alınmış faktın yuxarıda göstərilən hər bir sonrakı faktik dəyişiklikləri olarsa, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 130.4-cü maddəsinə uyğun olaraq, faktiki dəyişikliyin hüquqi şəxslərin dövlət reyestrində qeydə alınmaq üçün təqdim edilməsini auditor yoxlamalıdır. Nizamnamədə və nizamnamə kapitalında dəyişikliklər yalnız hüquqi şəxslərin reyestrində qeydə alındığı andan hüquqi qüvvəyə minir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

### *2. Dövriyyə cədvəli və mühasibat hesabatları*

Mövcud qanunvericiliyə uyğun olaraq, mühasibat balansı, mənfəətin və zərərin hesabatı, auditlə əhatə edilən dövrün sonuna aktivlərin, passivlərin, gəlirlərin, xərclərin, hesabların qalığını əks etdirən dövriyyə cədvəli alınmalıdır.

Mühasibat balansının, mənfəətin və zərərin hesabatının dövriyyə cədvəlinə əsasən düzgün doldurulduğuna əmin olduqdan sonra məbləğlərin riyazi düzgünlüyü yoxlanılmalı və baş kitabın məlumatları ilə üzləşdirilməlidir. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edildiyi və tətbiq olunan hesablar planının Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 1995-ci il 20 oktyabr tarixli I-94 saylı əmri ilə təsdiq edilmiş «Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat»a uyğunluğu yoxlanılmalıdır.

Dövriyyə cədvəlinə əsasən hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqlar bölmələr üzrə qruplaşdırılmalı, daha çox maddi əhəmiyyətli (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan) məbləğlər müəyyənləşdirilməlidir.

Dövriyyə cədvəlində əhəmiyyətli olmayan (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan) məbləğlər maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qiymətləndirilməlidir.

Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Milli Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə düzgün qiymətləndirilərək hesabatlarda əks etdirildiyi yoxlanılmalıdır.

Keçən ilin hesabatları ilə bu ilin hesabatları müqayisə edilməli, hesabatlarda eyni tarixə (ilin sonuna və növbəti ilin əvvəlinə) balans hesabları üzrə göstəricilərin eyniliyi yoxlanılmalıdır. ciddi kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Bütün bölmələr üzrə audit yekunlaşdırıldıqdan sonra audit prosedurları nəticəsində əldə edilmiş məlumatlar və lazımi düzəlişlər yekun dövriyyə cədvəlinə daxil edilməlidir.

Audit zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər auditor sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə maddi əhəmiyyətli təsir göstərdiyi müəyyənləşdirilməli və bu barədə fikirlər auditor rəyində ifadə edilməlidir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

## *3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi*

### 3.1. Kassa əməliyyatlarının auditi

Kassada aparılmış əməliyyatların auditinə kassada olan vəsaitlərin inventarizasiyasından başlanılmalıdır. Inventarizasiya baş mühasib və kassirin iştirakı ilə keçirilməlidir.

Maddi məsuliyyət haqqında kassirlə bağlanmış müqavilənin mövcudluğu yoxlanılmalı, kassada saxlanılan pul vəsaitlərinin həqiqi mövcudluğu barədə kassirdən iltizam alınmalıdır.

Kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin sərəncamının olub-olmaması yoxlanılmalıdır.

Kassanın inventarizasiyasi başa çatdıqdan sonra kassa kitabının qalığı ilə kassada olan pul vəsaitlərinin həqiqi mövcudluğu tutuşdurulmalı, kənarlaşma aşkar edilərsə, səbəbləri araşdırılmalıdır.

Kassa kitabının səhifələrinin möhürlənməsi, qaytanlanması və müvafiq imzalarla təsdiqlənməsi yoxlanılmalı, kassa otağının müvafiq tələblərə cavab verdiyi qiymətləndirilməlidir.

Kassa mədaxil və məxaric orderlərinin müvafiq qaydada tərtib olunması, kassa kitabında yazılışların düzgün aparılması yoxlanılmalıdır.

Ciddi hesabat blankları olan kassa mədaxil orderlərinin nömrələrinin ardıcıllığına riayət olunduğu, ləğv edilmiş mədaxil orderlərinin saxlandığı yoxlanılmalıdır.

Auditor bankdan alınan bütün nağd pulların vaxtında və tamamilə kassaya mədaxil edilməsini və təyinatı üzrə istifadə edilməsini, bank çıxarışı ilə çek kitabçasını, kassa mədaxil orderini və kassa kitabını üzləşdirməlidir.

Kassadan nağd pulun verilməsi barədə sənədlərdə məsul şəxslərin imzalarının olub-olmaması yoxlanılmalıdır.

Mədaxil və məxaric orderlərinin kassa əməliyyatlarının qeydiyyatı kitabında düzgün və vaxtında əks etdirilməsi yoxlanılmalıdır.

Baş kitaba əsasən, kassa üzrə pul vəsaitlərinin hərəkət cədvəlləri tərtib edilməli və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir.

Vəkalətnamələrə əsasən, digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyü yoxlanılmalı, verilmiş vəkalətnamələrin düzgün tərtib edildiyinə və ciddi hesabat blankları olduğuna baxılmalı, bu məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə edilməlidir.

Kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyü seçmə yolu ilə yoxlanılmalıdır.

Xarici valyutada kassa əməliyyatı aparılırsa, əməliyyatların ayrıca kassa kitabında aparılıb-aparılmadığı yoxlanılmalıdır.

Nağd xarici valyutada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edildiyi və məzənnə fərqlərinin düzgün hesablandığı yoxlanılmalıdır.

Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitlərinin qalığının kassaya vaxtında qaytarıldığı, habelə tam maddi məsuliyyət barədə müqavilənin və rəhbərliyin sərəncamının mövcudluğu yoxlanılmalı və bu məlumatlardan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Deponentləşdirilmiş vəsaitlərin vaxtında banklara qaytarıldığı və bununla bağlı əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Aparılmış kassa əməliyyatlarının mühasibat yazılışlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

### 3.2. Bank əməliyyatlarının auditi

Bankda olan hesablaşma hesabları barədə, müraciət etməklə, arayış alınmalı, auditlə əhatə olunan dövrün sonuna bank çıxarışlarında olan məbləğin baş kitabda və maliyyə hesabatlarında düzgün əks etdirildiyi, bank çıxarışlarında göstərilmiş məbləğlərin onlara əlavə edilmiş ilkin sənədlərlə uyğunluğu yoxlanılmalıdır.

Baş kitaba əsasən, hesablaşma hesabı üzrə pul vəsaitlərinin hərəkət cədvəlləri tərtib edilməli və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə edilməlidir.

Ilkin sənədlərdə bank ştampının mövcudluğuna diqqət yetirilməli, əgər ştamp yoxdursa, əməliyyatın düzgünlüyü barədə bankdan arayış tələb edilməlidir.

Bank çıxarışlarında düzəlişlər olarsa, onların bank tərəfindən təsdiqlənməsi tələb edilməlidir.

Auditlə əhatə edilən dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox maddi əhəmiyyət kəsb edirsə, bankdan bu barədə təsdiqləyici arayış alınmalıdır.

Hesablaşma hesabı ilə aparılan əməliyyatlara verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar daha böyük maddi əhəmiyyət kəsb edirsə, aparılmış əməliyyatların düzgünlüyü yoxlanılmalı və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir.

### 3.3. Xarici valyutada aparılan bank əməliyyatları

Bankda olan cari, tranzit və xaricdəki valyuta hesabları barədə arayış alınmalıdır.

Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların, bank xidmətləri, birja rüsumları və yaranmış məzənnə fərqlərinin uçotda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Xarici valyutada aparılan əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edilməsi və məzənnə fərqlərinin düzgün hesablanması, hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirildiyi yoxlanılmalıdır.

Valyuta hesabı üzrə verilmiş mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalıdır.

Xarici iqtisadi fəaliyyətlə bağlı satışın nəticəsinə görə xaricdən əldə edilmiş gəlirlərin, habelə maddi dəyərlilərə görə xaricə köçürülmüş vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalı, hesablaşma əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə müqayisə edilməlidir.

Valyuta hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatların düzgünlüyünə əminlik hasil edilməli və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə edilməlidir.

Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, qeyri-rezidentdən ödəmə mənbəyində verginin tutulması və əlavə dəyər vergisinin düzgün hesablanması yoxlanılmalı, vergilər üzrə hesablaşmaların auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurulmalıdır.

### 3.4. Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri, pul sənədləri

Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tətbiq edildiyinə əmin olmaq məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydaları və müddətləri öyrənilməlidir.

Bank çıxarışlarına əsasən, ödənişlər ilkin sənədlərlə tutuşdurulmalı, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və oradakı vəsaitlərin başqa məqsədlərlə istifadə edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

Limitləşdirilmiş çeklərdən və elektron kredit kartlarından istifadənin mühasibat uçotunda düzgün əks etdirildiyini, onlarla aparılmış əməliyyatların məqsədəuyğun olduğunu, çeklərin və kartların təqdim edildiyi şəxslərlə müqavilələrin bağlanması və onlardan hesabatların qəbul edilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Pul sənədlərinin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş təyyarə biletləri və s.) kassada saxlanması və hesabat göstəricilərinin mövcudluğu yoxlanılmalıdır.

Hesabat dövrünün sonuna yolda olan köçürmələrin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq üçün təqdim edilmiş ilkin sənədlərlə balans hesabından daxil olan vəsaitlər müqayisə edilməli, kənarlaşma aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

Qısamüddətli maliyyə qoyuluşları kimi hesabatlarda əks etdirilən qiymətli kağızların, depozitlərin və verilmiş borclar üzrə subhesabların aparıldığı və müddətinin həqiqətən bir ildən çox olmadığı yoxlanılmalıdır.

Depozit hesabların yaradılması şərtləri təhlil edilməli və düzgünlüyünə qiymət verilməlidir. Depozitə görə müqavilələrin şərtləri öyrənilməli və depozitlərə görə alınmış faizlərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda düzgün əks etdirilməsi yoxlanılmalıdır.

Auditor mühasibat müxabirləşməsinin düzgün verilməsinə diqqət yetirməli, "Bankda olan xüsusi hesablar", "Yolda olan köçürmələr" və "Qısamüddətli maliyyə qoyuluşları" balans hesablarını bank çıxarışları və analitik uçot yazılışları ilə üzləşdirməlidir.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

### *4. Hesablaşma və kredit əməliyyatları*

#### 4.1. Malsatan və podratçı təşkilatlarla hesablaşmalar

Sifarişçi təşkilatdan malsatan və podratçı təşkilatlar üzrə mövcud borcların siyahısı alınmalı, malsatan və podratçı təşkilatlarla bağlanmış müqavilələrin mövcudluğu və düzgün tərtib edildiyi yoxlanmalı, tərəflərin hüquq və vəzifələri, müqavilə məbləğinin ödənilməsi şərtləri öyrənilməlidir.

Malsatan və podratçı təşkilatlarla hesablaşmalar üzrə borcların əmələ gəlməsinin vaxtı və səbəbləri müəyyənləşdirilməli, bu növ hesablaşmalar üzrə aparılmış əməliyyatların mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Daha çox maddi əhəmiyyət kəsb edən borclar üzrə üzləşmə aktlarının mövcudluğu yoxlanılmalı, əgər belə aktlar yoxdursa, borcların reallığına əmin olmaq üçün sifarişçi təşkilatdan üzləşmə aktlarının tərtib olunması tələb edilməlidir.

Daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünə əmin olmaq məqsədilə bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə edilməli və əsassız ödənişlərin olub-olmadığı yoxlanılmalıdır.

Alınmış maddi dəyərlilərin düzgün mədaxil edildiyinə əmin olmaq üçün ödəniş sənədlərində göstərilən məbləğlər mədaxil sənədləri ilə tutuşdurulmalı, əgər xidmət göstərilmişdirsə, bu halda xərclərin gəlirdən çıxılmali olan xərclərin tərkibinə aid edildiyi yoxlanılmalıdır.

Hesablaşma əməliyyatları üzrə analitik və sintetik uçot arasında fərqin olmamasına əmin olmaq məqsədilə riyazi hesablamaların düzgünlüyü yoxlanılmalıdır.

Bütün iri malsatan və podratçı təşkilatlar üzrə hesablaşmaların mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalı, kənarlaşmalar aşkar edilərsə, sifarişçidən izahat alınmalıdır. Bütün alınmış izahatlar təsdiqedici sənədlərə isnad edilməklə, izahata əlavə olunmalıdır.

Xarici valyutada aparılmış hesablaşma əməliyyatları üzrə maddi dəyərlilərin tərtib edilmiş gömrük bəyannamələrində və maddi dəyərlilərin dəyəri ödənilərkən bank çıxarışlarında göstərilmiş valyuta məzənnəsinə əsasən mühasibat uçotunda düzgün əks etdirildiyi və məzənnə fərqlərinin düzgün müəyyən edilib-edilmədiyi yoxlanılmalıdır.

Malsatan və podratçı təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğunluğu araşdırılmalı və müqavilə ilə nəzərdə tutulmuş şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmalar hesabına düzgün silindiyi yoxlanılmalıdır.

Hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə rəsmiləşdirilmişdirsə, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Barter əməliyyatları zamanı malsatan və podratçı təşkilatlarla alıcı və sifarişçi təşkilatlar arasında yaranmış qarşılıqlı borcların silinməsinin düzgünlüyü və vergilərin düzgün hesablandığı yoxlanılmalıdır.

Qaldırılmış iddialar üzrə sənədləşmənin düzgün aparıldığı və iddiaların nə dərəcədə əsaslı olduğu araşdırılmalı, iddialar üzrə əməliyyatların hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

#### 4.2. Alıcı və sifarişçilərlə hesablaşmalar

Uçot siyasətinə əsasən, satış əməliyyatlarının hansı metodla (kassa və ya hesablama metodu ilə) aparıldığı müəyyən edilməlidir.

Müqavilələrin mövcudluğu və qeydiyyat jurnalında qeydiyyata alındığı yoxlanılmalı, məhsulun (malların) göndərilmə şərtləri və ödəniş qaydaları öyrənilməlidir.

Kassanın, hesablaşma hesabının auditi zamanı aparılmış audit prosedurlarının nəticəsindən bu bölmənin auditi zamanı istifadə edilməlidir.

Göndərilmiş məhsul (mal), görülmüş iş və göstərilmiş xidmətlər üzrə ilkin sənədlərin həqiqi mövcudluğu və düzgün tərtib edildiyi yoxlanılmalıdır.

Hesablaşma veksellərdən istifadə yolu ilə aparılırsa, veksellər üzrə faizlərin mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Daha çox maddi əhəmiyyət kəsb edən, vaxtında ödənilməyən debitor borcları üzrə üzləşmə aktları tələb edilməli, əgər belə aktlar tərtib edilməmişdirsə, onların tərtib olunması rəhbərlikdən tələb edilməlidir.

Debitor və kreditor borclarının arasında iddia müddəti ötmüş borcların mövcudluğu aydınlaşdırılmalıdır.

Xarici valyutada aparılmış əməliyyatlar üzrə valyuta məzənnəsinin düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Barter əməliyyatları zamanı malsatan və podratçı təşkilatlarla alıcı və sifarişçi təşkilatlar arasında yaranmış qarşılıqlı borcların silinməsinin düzgünlüyü və vergilərin düzgün hesablanması yoxlanılmalıdır. Bu prosedurların nəticələrinin mənfəətin və zərərin hesabatında düzgün əks etdirilib-etdirilmədiyi müəyyənləşdirilməlidir.

Alıcı və sifarişçi təşkilatlardan alınmış avansların hesabatlarda düzgün əks etdirilməsi, alınmış avanslara görə əlavə dəyər vergisinin düzgün hesablanması, mallar yükləndikdə (işlər görüldükdə) alınmış avans məbləğlərinin alıcı və sifarişçi təşkilatların hesabına silindiyi yoxlanılmalıdır.

### 4.3. Sosial fondlarla hesablaşmalar

Müəssisənin uçot siyasətindən asılı olaraq, dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında və baş kitabda göstərilən qalıq məbləğləri tutuşdurulmalı və kənarlaşmalara yol verilib-verilmədiyi yoxlanılmalıdır.

Ödənişlərin hesablanması bazasının, tətbiq edilmiş normaların düzgünlüyü və qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin düzgün tətbiq edildiyi seçmə yolu ilə yoxlanılmalıdır.

Dövlət Sosial Müdafiə Fondunun (DSMF) hesabına həyata keçirilən ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin düzgünlüyü seçmə yolu ilə yoxlanılmalıdır.

Sosial fondlara ödənişlərin vaxtında və təyinatı üzrə həyata keçirildiyi, hesabatların vaxtında təqdim edildiyi yoxlanılmalı, nöqsanlar aşkar edilərsə, rəhbərliyə yazılı məlumat verilməlidir.

Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində sosial fondlara hesablanmış ödənişlərin məbləği bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə tutuşdurularaq, bu növ ödəmələr üzrə qalıq məbləği müəyyənləşdirilməli, alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıqlara uyğunluğu yoxlanılmalıdır. Kənarlaşmalar aşkar edilərsə, səbəbi araşdırılmalıdır.

### 4.4. Təhtəlhesab şəxslərlə hesablaşmalar

Hesabat dövrünün sonuna təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə yaranmış qalıqların analitik uçot məlumatları əldə edilməlidir.

Tam maddi məsuliyyət haqqında təhtəlhesab şəxslərlə bağlanmış müqavilələrin mövcudluğu yoxlanılmalıdır.

Avans hesabatlarının düzgün tərtib edildiyi və xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarıldığı yoxlanılmalı, avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, biletlər və s.) mövcudluğu və bu məbləğlərin avans hesabatlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara əsasən hesablandığı yoxlanılmalıdır.

Bu prosedurların nəticələrindən seçmə yolu ilə kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə edilməlidir.

### 4.5. Vergilər üzrə hesablaşmalar

MMC-nin fəaliyyət növündən asılı olaraq, hesablanan və ödənilən vergilər barədə məlumat alınmalı, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirildiyinə və hər bir vergi növü üzrə analitik uçotun aparılmasının düzgünlüyünə yəqinlik əldə edilməlidir.

Audit planlaşdırılarkən, auditor MMC-nin gəlirin və xərcin müəyyənləşdirilməsinin hansı metodundan (kassa və ya hesablama metodlarından) istifadə etməsi, ödədiyi bütün vergilər barədə dəqiq məlumatlar toplamalı və hər bir vergi növünün necə yoxlanılacağını müəyyənləşdirməlidir.

MMC-nin ödədiyi vergilər üzrə hesablamaların düzgünlüyünü müəyyən etmək üçün testlər tərtib edilməlidir.

Hər bir verginin hesabat dövründəki dövriyyəsi (ilin əvvəlinə qalıq, hesablamalar və ödənişlər, ilin sonuna qalıq əks etdirilməklə) araşdırılmalı və mühasibat uçotunun məlumatları ilə tutuşdurulmalıdır. Hər bir vergi üzrə riyazi hesablamaların düzgünlüyü yoxlanılmalıdır.

Auditor dövlət vergi orqanları tərəfindən hesabat dövründə aparılmış yoxlamaların (əgər hesabat dövründə aparılmamışdırsa, sonuncu yoxlamanın) nəticələri barədə aktla tanış olmalı, göstərilmiş nöqsan və çatışmazlıqların hesabatlarda necə əks etdirildiyi və aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməlidir.

Vergi orqanları ilə yazışmalar və tərtib edilmiş üzləşmə aktları ilə tanış olmaq, vergi borclarının qarşılıqlı əvəzləşdirilmə hallarına xüsusi diqqət yetirmək, vergilərin hesabat göstəricilərinə uyğun olduğuna əmin olmaq lazımdır.

Hesablanmış vergilərin mühasibat uçotunda mövcud qanunvericiliyə uyğun şəkildə əks etdirildiyi, vergi dərəcələrinin düzgün tətbiq edildiyi yoxlanılmalıdır.

Daha çox əhəmiyyətli olan vergi öhdəlikləri üzrə nəzarət testləri hazırlanmaldır.

Əlavə dəyər vergisi (ƏDV) üzrə təqdim edilmiş və ya alınmış vergi hesab-fakturalarının mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyi, aylıq bəyannamələrin vaxtında və düzgün təqdim edildiyi yoxlanılmalıdır.

Satış əməliyyatlarının auditi zamanı tətbiq edilmiş prosedurların nəticələrindən ƏDV və mənfəət vergisinin auditi zamanı istifadə edilməlidir.

Vergilər hesablanarkən tətbiq edilən güzəştlərin mövcud qanunvericiliyə əsasən həyata keçirildiyi yoxlanılmalıdır.

Baş kitaba və ilkin sənədlərə əsasən, aylar üzrə vergilərin hesablanması və ödənilməsi haqqında məlumatlar əldə edilməli, vergilər üzrə vaxtı keçmiş və ya gecikdirilmiş ödənişlərin olmadığı yəqinləşdirilməlidir.

Vaxtı keçmiş, gecikdirilmiş ödənişlər, hesabatlarda düzgün əks etdirilməmiş vergilər üzrə yarana biləcək cərimə və maliyyə sanksiyalarının MMC-nin maliyyə vəziyyətinə təsiri ehtimalı araşdırılmalı və bu barədə rəhbərliyə məlumat verilməlidir.

### 4.6. Digər hesablaşma əməliyyatlarının auditi

Sığorta ilə bağlı əməliyyatların analitik uçotu üzrə qalıqlar əldə edilməlidir.

Daha çox əhəmiyyətli sayılan əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri seçmə yolu ilə öyrənilməli, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır. Xərclərin tərkibində olan sığorta ödənişlərinin məbləği bu prosedurların nəticələri ilə tutuşdurulmalıdır.

Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti ilə və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə edilməli, bu hesablaşmaların düzgün aparıldığı yoxlanılmalıdır.

Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtləri öyrənilməli, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğun olduğu və hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş mənfəətin və ya zərərin hesabatlarda necə əks etdirildiyi yoxlanılmalı və onların maliyyə hesabatlarında düzgün əks etdirilib-etdirilmədiyi müəyyənləşdirilməlidir.

### 4.7. Kreditlər və borclar üzrə əməliyyatların auditi

Alınmış kreditlərin və borcların analitik və sintetik uçotunun ilkin mühasibat registrlərində düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kredit və borc müqavilələrinin şərtləri öyrənilməli, onların qaytarılması vaxtının uzadılması və ya vaxtı ötmüş kimi qiymətləndirilməsi şərtlərinə diqqət yetirilməlidir.

Kredit və borclardan istifadəyə görə faizlərin hesablanmasının və hesabatlarda əks etdirilməsinin düzgünlüyü yoxlanılmalıdır.

Xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalığın hesabatda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kredit və borclar üzrə qalıqların audit dövrünün sonuna hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə bu məbləğin arayış ilə təsdiq edilməsi digər tərəfdən tələb edilməlidir.

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyi, bu növ maliyyələşmələrdən məqsədyönlü və təyinatı üzrə istifadə edildiyi və düzgünlüyü yoxlanılmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

### *5. Əsas vəsaitlər (ƏV) və qeyri-maddi aktivlər (QMA)*

Hazırlanmış mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar alınmalıdır.

ƏV və QMA-nın hesabat dövrünün sonuna analitik uçot məlumatları əldə edilməli, sintetik hesabın qalıqları ilə tutuşdurulmalı, kənarlaşmalar müəyyən edilərsə, onların səbəbləri aydınlaşdırılmalıdır.

Əsas vəsaitlərin üzərində daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparılması və nəticələrinin mühasibat uçotunda düzgün əks etdirilməsi yoxlanılmalıdır. Inventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktları tələb edilməlidir.

ƏV və QMA-nın alınması və xaric olması ilə bağlı əməliyyatların düzgün sənədləşdirilməsi və mühasibat uçotunda əks etdirilməsi yoxlanılmalıdır. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə qiymət verilməlidir. ƏV və QMA-nın alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin onların ilkin dəyərinə həqiqətən daxil edilib-edilmədiyi müəyyənləşdirilməlidir.

ƏV və QMA xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyi və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyi yoxlanılmalıdır.

Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədlər yoxlanılmalıdır.

Əsas vəsaitlərin alınması zamanı malgöndərən və podratçı təşkilatlara ödənilmiş ƏDV-nin ƏV-nin ilkin dəyərinə daxil edilmədiyi, 68 saylı balans hesabına aid edildiyi yoxlanılmalıdır.

ƏV və QMA-nın alınması, quraşdırılması və sazlanması üzrə bütün xərclərin əvvəlcə 08 saylı hesabda yığıldığı, ƏV və QMA istifadəyə verildikdə isə 01 və ya 04 saylı hesablara keçirildiyi yoxlanılmalıdır.

Mənfəət vergisinin məqsədləri üçün istehsal təyinatlı kapital qoyuluşlarına tətbiq edilən amortizasiya normalarının düzgünlüyü yoxlanılmalıdır. Bu məlumatlardan mənfəət vergisinin auditi zamanı istifadə edilməlidir.

ƏV və QMA-nın kateqoriyalar üzrə düzgün qruplaşdırıldığı, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının düzgünlüyü, bu normaların mövcud qanunvericiliyin tələbləri həddində olduğu yoxlanılmalıdır. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların səmərəli istifadə müddətinə uyğun şəkildə hesablandığının düzgünlüyü yoxlanılmalıdır.

ƏV və QMA-nın xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyi, əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyi yoxlanılmalıdır.

Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalı, lizinq müqaviləsinin şərtləri öyrənilməlidir.

Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyi, görülmüş təmir işlərinin xarakteri və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığı yoxlanılmalıdır. Müəyyən edilmiş normalardan artıq olan təmir xərclərinin hər bir kateqoriyaya dair əsas vəsaitlərin balans üzrə qalıq dəyərinə düzgün aid edildiyi yoxlanılmalıdır.

Istehsal prosesi ilə bağlı olmayan ƏV və QMA-nın amortizasiya ayırmalarının satılmış malların (görülmüş işlərin, göstərilmiş xidmətlərin) gəlirdən çıxılan xərclərin tərkibinə aid edilmədiyi və təyinatı üzrə xərclərdə əks etdirildiyi yoxlanılmalıdır.

Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirilməli və bu zaman vergi qanunvericiliyinin tələblərinə riayət edilməsi yoxlanılmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, aşkar edilmiş əlavə nöqsan və çatışmazlıqları aktda (hesabatda) əks etdirməli və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

### *6. Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (IE) auditi*

Ilin sonuna mühasibat hesabatlarinda əks etdirilmiş ehtiyatların (xammal və materialların, azqiymətli və tezköhnələn əşyaların, malların, ticarət əlavəsinin) qalığı sifarişçinin analitik uçot məlumatları ilə tutuşdurulmalıdır.

Uçot siyasətinə əsasən ehtiyatların qiymətləndirilməsində hansı (LIFO, FIFO və ya digər) metoddan istifadə edildiyi müəyyən edilməli və hesabat ilində uçot siyasətinin dəyişdirilmədiyi yəqinləşdirilməlidir.

MMD və IE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiyanın aparılması yoxlanılmalı və inventarizasiya aktları tələb edilməlidir. Inventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyi yoxlanılmalıdır. MMD və IE-nin subhesablar üzrə düzgün əks etdirildiyi yəqinləşdirilməlidir.

MMD və IE mədaxil edilərkən faktiki maya dəyərinin düzgün müəyyənləşdirildiyinə qiymət vermək məqsədilə onların əldə edilməsinə çəkilən xərclərin faktiki maya dəyərinə aid edilməsinin düzgünlüyü ilkin sənədlərdən istifadə edilərək seçmə yolu ilə yoxlanılmalıdır.

ƏDV-nin ödəyicisi tərəfindən MMD və IE-nin mədaxil zamanı malsatanlara nağdsız qaydada ödənilmiş əlavə dəyər vergisinin faktiki maya dəyərinə aid edilmədiyi və 68 saylı balans hesabına, ödənilməmiş ƏDV-nin isə 19 saylı balans hesabına aid edilib-edilmədiyi yoxlanılmalıdır.

Sadələşdirilmiş vergi ödəyicisi olan MMC-də alınmış MMD və IE-nin dəyərinə ƏDV-nin əlavə edilib-edilməməsi yoxlanılmalıdır. MMD və IE-nin anbarlarda saxlanması şəraiti öyrənilməli və bunun qəbul edilmiş tələblərə uyğunluğuna, anbar uçotunun, dəyərlilərin müəssisədaxili hərəkətinin necə təşkil edildiyinə və düzgün sənədləşdirildiyinə qiymət verilməlidir.

Maddi ehtiyatların istifadəsinin təsdiq edilmiş texnoloji normalara uyğunluğu yoxlanılmalı, fərqlər aşkar edilərsə, səbəbləri araşdırılmalıdır. Bu məlumatlardan istehsal xərcləri və maya dəyərinin auditi zamanı istifadə edilməlidir.

MMD və IE-nin əskik (və ya artıq) gəlməsi, xarab olması hallarının mövcudluğu, belə hallar baş vermişdirsə, təbii itki normaları və müəssisə tərəfindən görülmüş tədbirlər barədə məlumatlar alınmalıdır.

MMD və IE-yə görə tam maddi məsuliyyət barədə maddi məsul şəxslərlə bağlanmış müqavilələrin mövcudluğu yoxlanılmalıdır.

Istifadə edilməyən və ya artıq olan maddi dəyərlilərin satışının mühasibat uçotunda, mənfəətin və zərərin hesabatında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Azqiymətli və tezköhnələn əşyaların (AQTƏ) istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyü yoxlanılmalıdır.

Uçot siyasətinə əsasən, istehsal edilmiş hazır məhsulun hesabatlarda faktiki maya dəyəri ilə və ya normativ (plan) istehsal maya dəyəri ilə əks etdirildiyi müəyyənləşdirilməli və onların yükləmə anında mühasibat uçotunda necə əks etdirildiyi öyrənilməli, bu prosedurların nəticələrindən satış əməliyyatlarının, sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Ticarət, təchizat müəssisələrində malların uçotunun alınma qiyməti və ya satış qiyməti ilə aparıldığı müəyyənləşdirilməlidir. Malların uçotu satış qiyməti ilə aparılarkən və onlar topdan satılarkən endirimlərin (və ya əlavələrin) tətbiq edilməsi hallarına xüsusi diqqət yetirilməli və bu qiymətlərin mövcud bazar qiymətlərinə uyğunluğu yəqinləşdirilməlidir. Ticarət əlavələrinin uçotda düzgün əks edildiyi yoxlanılmalı və prosedurların nəticələrindən satış əməliyyatlarının auditi zamanı istifadə edilməlidir.

MMD və IE-nin yenidən qiymətləndirilməsinin səbəb və nəticələri, onların cari bazar qiymətlərinə uyğunluğu araşdırılmalı və qiymətləndirmənin nəticələrinin mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

MMD və IE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiyanın aparılması yoxlanılmalı və inventarizasiya aktları tələb edilməlidir. Inventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyi və mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Inventarizasiya aparılmayıbsa və ya inventarizasiya aktlarında nöqsanlar aşkar edilərsə, seçmə yolu ilə daha böyük maddi əhəmiyyət kəsb edən MMD və IE-nin həqiqi mövcudluğu maddi məsul şəxslərin iştirakı ilə yoxlanılmalı və nəticələri hesabatlarla tutuşdurularaq aktlaşdırılmalıdır.

### *7. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmalar*

Işçilərin orta siyahı sayı və kateqoriyaları, müəssisədə tətbiq edilən əmək haqqı sistemi və formaları barədə məlumat alınmalıdır.

Işçilərlə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğu yoxlanılmalıdır.

Əmək haqqının, məzuniyyətlərin, sosial təyinatlı ödənişlərin hesablanmasının düzgünlüyü seçmə yolu ilə yoxlanılmalıdır.

Əmək haqqından tutulmaların (gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna tutulma, icra vərəqələri üzrə tutulma, borclar və s.) müvafiq qanunvericilik aktlarının, normativ və icra sənədlərinin tələblərinə uyğunluğu seçmə yolu ilə yoxlanılmalıdır. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin düzgün tətbiq edildiyi yoxlanılmalıdır.

Deponentləşdirilmiş əmək haqqının uçotunun düzgünlüyü yoxlanılmalı, analitik uçotun aparılması yəqinləşdirilməli və bu məlumatlar kassa əməliyyatları və ödəniş cədvəlləri ilə tutuşdurulmalıdır. Bu prosedurlar nəticəsində kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının riyazi düzgünlüyü yoxlanılmalıdır.

Əmək haqqı üzrə hesablamaların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə tərtib edilmiş mühasibat yazılışlarının düzgünlüyü, əmək haqqı üzrə xərclərin istehsal xərcləri maddələrinə düzgün aid edildiyi yoxlanılmalıdır.

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesablama cədvəli tərtib edilməli, bu cədvələ əsasən gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və tutulmaların məbləğləri hesablanmalıdır.

Bu prosedurlar nəticəsində əldə edilmiş məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə edilməlidir.

## *8. Istehsal xərclərinin auditi*

Xərclərin tərkibinə aid edilmiş məsrəflərin siyahısı və məbləğlərini əks etdirən məlumat əldə edilməlidir.

Məhsulun (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilən xərclər aşağıdakı elementlər üzrə qruplaşdırılmalıdır:

- material xərcləri;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;
- sair xərclər.

Materialların təsdiq edilmiş məsrəf normaları tələb edilməli, bunların istehsala silinmə prosesi öyrənilməlidir.

Istehsal edilmiş məhsulun həcmi ilə faktiki silinmiş materialların həcmi müqayisə edilməli və düzgünlüyü qiymətləndirilməlidir.

Materialların artıq işlənməsi halları aşkar edilərsə, səbəbləri araşdırılmalı və kənarlaşmaların təsdiq edilmiş normalara uyğunluğu yoxlanılmalıdır.

Çatışmayan və ya itirilmiş maddi ehtiyatların təbii itki normaları çərçivəsində olduğu dəqiqləşdirilməlidir.

Istehsala aid olmayan digər materialların silinərək gəlirdən çıxılan xərclərin tərkibinə aid edildiyi hallarının mövcudluğu araşdırılmalıdır.

Zay məhsulun uçotunun necə aparıldığı yoxlanılmalı, istehsal maya dəyərinə aid edilən zay məhsulun texnoloji normalar çərçivəsində olduğu yəqinləşdirilməlidir.

Istehsal ehtiyatları və mallar bölməsində istifadə edilmiş audit prosedurları nəticəsində əldə olunmuş məlumatlardan istifadə edilməlidir.

Istehsal dövrünün müddətini, mərhələlərini və məhsulun həcmini nəzərə alaraq, bitməmiş istehsalın hesabat dövrünün sonuna, uçot siyasətinə uyğun olaraq, düzgün qiymətləndirildiyi və inventarizasiyasının aparıldığı yoxlanılmalıdır.

Istehsal xüsusiyyətlərindən asılı olaraq, auditin aparılması proqramında müəyyənləşdirilmiş yoxlama metoduna əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyü yoxlanılmalıdır.

Istehsal edilən hər bir növ məhsula görə tərtib olunmuş xərclərin kalkulyasiyası alınmalı və onların plan maya dəyəri müəyyənləşdirilməlidir.

Kalkulyasiyalardan istifadə edərək, əmək haqqının xərclərin tərkibinə düzgün silindiyi yoxlanılmalıdır.

Əldə edilmiş məlumatlardan əmək haqqı və sosial ehtiyaclara ayırmaların auditi zamanı istifadə edilməlidir.

Qaimə xərclərinin, ümumtəsərrüfat və ümumistehsal xərclərinin, köməkçi istehsal xərclərinin, qəbul edilmiş uçot siyasətinə uyğun olaraq, gəlirdən çıxılan xərclərin tərkibinə aid edildiyi yoxlanılmalıdır.

Amortizasiya xərclərinin istehsal prosesində həqiqətən istifadə edilən əsas vəsaitlərə aid olduğu dəqiqləşdirilməlidir.

Tətbiq edilən audit prosedurları nəticəsində əldə edilmiş məlumatlardan əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsində istifadə edilməlidir.

Sair xərclərin tərkibində daha çox maddi əhəmiyyəti olan xərclərin düzgünlüyü ilkin sənədlərlə tutuşdurulmalıdır.

Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədlər yoxlanılmalı və xidmətləri göstərən təşkilatlarla bağlanmış üzləşmə aktları tələb edilməlidir. Əldə edilən məlumatlardan alıcı və sifarişçi təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməlidir.

Işçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olduğuna əmin olmaq məqsədilə ezamiyyə vərəqələri seçmə yolu ilə yoxlanılmalıdır. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu məqsədlə istifadə edilməlidir.

Gələcək dövrün xərclərinin uçotunun düzgünlüyü və bu xərclərin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kommersiya xərclərinin tərkibi təhlil edilməli və onların aidiyyəti üzrə əks etdirildiyi yoxlanılmalıdır.

Xidmətedici istehsalat və təsərrufatlar üzrə çəkilmiş xərclər seçmə yolu ilə yoxlanılmalı və onların mühasibat hesabatlarında düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mənfəət və zərərin hesabatında xərclərin tərkibinin düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Bu bölmədə istifadə edilən audit prosedurlarının nəticələrindən maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyü yoxlanılarkən istifadə edilməlidir.

### *9. Kapital qoyuluşları və uzunmüddətli investisiyalar*

Maliyyə hesabatları və dövriyyə-qalıq cədvəlinə əsasən qalıqlar müəyyənləşdirilməlidir.

Uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparıldığı və riyazi düzgünlüyü yoxlanılmalıdır.

Kənar təşkilatlardan alınmış qiymətli kağızların həqiqətən uzunmüddətli qiymətli kağızlar olduğu yoxlanılmalıdır.

Kapital qoyuluşlarının hansı vəsaitlər hesabına və nə məqsədlə həyata keçirildiyi araşdırılmalıdır.

Kapital qoyuluşuna aid edilmiş xərclərin qanuniliyi və mühasibat uçotunda düzgün əks etdirildiyi ilkin sənədlərlə yoxlanılmalıdır. Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılmalı olduğu nəzərə alınmalıdır. Bu məqsədlə yerinə yetirilən prosedurların nəticələri əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsindəki prosedurların nəticələri ilə tutuşdurulmalıdır.

Başa çatmamış kapital qoyuluşlarının dəyərinin hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə mühasibat yazılışlarının düzgünlüyü yoxlanılmalı, kənarlaşmalar aşkar edilərsə, səbəbləri aydınlaşdırılmalıdır.

Vergiqoyma məqsədilə mənfəət vergisi üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrinə əsasən, istehsal təyinatlı kapital qoyuluşlarına hesablanmış amortizasiya ayırmalarının düzgünlüyü yoxlanılmalıdır.

Həyata keçirilmiş kapital qoyuluşlarının nə dərəcədə səmərəli olduğu təhlil edilməlidir.

### *10. Malların (iş və xidmətlərin) satışı*

Maliyyə hesabatları (gəlirlər və xərclər barədə hesabat) və dövriyyə-qalıq cədvəli üzrə məlumatlar əldə edilməlidir.

Uçot siyasətinə və qəbul edilmiş uçot prinsiplərinə əsasən, satış əməliyyatlarının hansı metodla hesablandığı araşdırılmalı və hesabat dövrü ərzində uçot siyasətinin dəyişdirilmədiyi yəqinləşdirilməlidir.

Istehsal edilən malların çeşidlər üzrə siyahısı alınmalı, istehsal xərcləri və maya dəyəri bölməsində tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə edilməlidir.

Satışla əlaqədar olan müqavilələrin mövcudluğu yoxlanılmalı və şərtləri öyrənilməlidir. Müqavilə qiyməti və ya razılaşma protokollarının mövcudluğu araşdırılmalıdır.

Satış qiymətlərinin müqavilənin şərtlərinə uyğun (yüklənmə, daşınma, gömrük rüsumları və s. xərclər əlavə edilməklə) müəyyən edildiyi yoxlanılmalıdır.

Istehsal edilmiş məhsulun sərbəst buraxılış qiyməti ilə və ya dövlət tərəfindən tənzimlənən qiymətlərlə satıldığı araşdırılmalıdır.

Satışla əlaqədar olan ilkin mühasibat sənədlərinin (qaimə, vergi hesab-fakturaları) düzgün tərtib edildiyi yoxlanılmalıdır.

Tətbiq edilmiş prosedurların nəticələrindən sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə edilməli və nəticələrlə tutuşdurulmalıdır. Kənarlaşmalar aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

Pərakəndə ticarət sahəsində satış əməliyyatlarının nəticələrinin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə kassa-nəzarət aparatlarından çıxarışlar əldə edilməli və bu məlumatlar maliyyə hesabatları ilə tutuşdurulmalıdır. Kənarlaşmalar aşkar edilərsə, səbəbi aydınlaşdırılmalıdır.

Maliyyə nəticələrinə təsir göstərən sair satış əməliyyatları və satışdankənar əməliyyatlar üzrə gəlirlər araşdırılmalı, onların mövcud mühasibat uçotu prinsiplərinə uyğun əks etdirildiyi yoxlanılmalıdır.

Aşağıdakı gəlir və xərclərə xüsusi diqqət yetirilməlidir:

- xarici valyutada aparılmış əməliyyatların məzənnə fərqlərindən gəlirlər və xərclər;
- alınmış cərimə və peniyalar;
- əmlakın icarəyə verilməsindən gəlirlər və xərclər;
- birgə fəaliyyətdən gəlirlər və xərclər;
- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaric olmasından gəlirlər və xərclər.

Sair satış üzrə əldə edilmiş gəlirlərin düzgünlüyünə əmin olmaq məqsədilə hesabat göstəriciləri müvafiq bölmələrdə aparılmış audit prosedurlarının nəticələri ilə üzləşdirilməli, bu növ satış əməliyyatlarının hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mallarin satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) zamanı xüsusi razılıq (lisenziya) tələb olunan halların mövcud olub-olmadığına diqqət yetirilməlidir.

Satış əməliyyatları üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyü, gəlirin maliyyə nəticələri barədə hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

### *11. Mənfəət (zərər), fondlar və ehtiyatlar*

Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində daxilolma, il ərzində xaricolma və ilin sonuna qalığı əks etdirməklə, hesabat dövrü ərzində balans hesabları üzrə

dövriyyə-qalıq cədvəli tərtib edilməli və bu məlumatlar baş kitabın məlumatları ilə tutuşdurulmalıdır.

Aşağıdakı balans hesabları araşdırılmalıdır:

- ehtiyat kapitalı;
- əlavə kapital;
- keçmiş illərin bölüşdürülməmiş mənfəəti;
- keçmiş illərin ödənilməmiş zərəri;
- xüsusi fondlar və ehtiyatlar.

Hesabat dövrü ərzində cəmiyyətin ümumi yığıncağının protokolları, direktorlar şurasının (müşahidə şurasının) qərarlarının surəti tələb edilməli, qəbul edilmiş qərarların hesabatlarda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Mənfəətin bölüşdürülməsinin auditi zamanı nəzərə alınmalıdır ki, MMC aşağıdakı hallarda mənfəətin bölüşdürülməsi haqqında qərar qəbul edə bilməz:

- əgər qərar qəbul edildiyi anda cəmiyyət müəyyən edilmiş müflisləşmə və ya iflas əlamətlərinə uyğun gəlirsə və ya həmin qərarın qəbul edilməsi nəticəsində belə əlamətlər əmələ gələcəksə;
- əgər qərar qəbul edildiyi anda cəmiyyətin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından azdırsa və ya həmin qərarın qəbul edilməsi nəticəsində onun məbləğindən az olacaqsa.

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz alınması və ya əvəzsiz verilməsi halları araşdırılmalı və onların mühasibat uçotunda düzgün əks etdirildiyi yoxlanılmalıdır.

Nizamnaməyə və uçot siyasətinə əsasən xüsusi təyinatlı fondların düzgün yaradıldığı yoxlanılmalıdır. Fondlar hesabına xərclənmiş vəsaitlərin smetasına əlavə edilmiş ilkin sənədlərə əsasən çəkilmiş xərclərin nə dərəcədə əsaslı və məqsədəuyğun olduğu qiymətləndirilməlidir.

**HESABAT DÖVRÜ ZƏRƏRLƏ BAŞA VURULARSA, ZƏRƏRİN ÖRTÜLMƏSİ VƏ MÜHASİBAT UÇOTUNDA DÜZGÜN ƏKS ETDİRİLMƏSİ YOXLANILMALIDIR.**

Mənfəətin maliyyə və vergi uçotu üzrə müxtəlif olduğu hallar araşdırılmalı və düzgünlüyü yoxlanılmalıdır.

### *12. Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsinə əsasən təkliflər*

Audit nəticəsində düzgün sayılmış balans hesabatı və hesabata əlavələr tərtib edildikdən sonra daha çox əhəmiyyətli olan aşağıdakı göstəricilər müəyyənləşdirilməlidir:

- Cari likvidlik əmsalı (dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə nisbəti);
- Xalis dövriyyə kapitalı (dövriyyə vəsaitləri ilə qısamüddətli öhdəliklərin fərqi);
- Fərdilik əmsalı (fərdi kapitalın aktivlərin məbləğinə nisbəti);
- Maliyyə asılılığı əmsalı (ödəniləsi kapitalın (passivlərin) fərdi kapitala nisbəti);
- Fərdi kapitalın rentabelliyi (mənfəətin fərdi kapitala nisbəti);
- Səmərəlilik və rentabellik səviyyəsi;
- Daha çox əhəmiyyətli sayılan digər göstəricilər.

Bu göstəricilər keçən illərin nəticələrinin göstəriciləri ilə üzləşdirilməli və üzləşdirmə üçün müqayisə cədvəli tərtib edilməlidir. Iqtisadi göstəricilərin aşağı düşməsi halları aşkar edilərsə, səbəbləri təhlil edilməli və rəhbərliyə məktubda açıqlanmalıdır.

Auditor keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqlarla tanış olmalı, auditin əhatə etdiyi dövrdə həmin nöqsan və çatışmazlıqların aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirməli, eyni zamanda, audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqları, bu nöqsan və çatışmazlıqların aradan qaldırılması barədə lazımi təklif və tövsiyələri, mühasibat uçotunun vəziyyətinə verilən qiymət barədə mülahizələrini auditor aktına və rəhbərliyə ünvanlanan məktuba daxil etməlidir.

**PROQRAMI TƏRTIB EDƏNLƏR:**
***Islam BAYRAMOV –***
***"Kapital-Audit LTD" məhdud məsuliyyətli cəmiyyətinin direktoru***
***Namiq ABBASLI –***
***sərbəst auditor***
***Eldəniz ISGƏNDƏROV –***
***sərbəst auditor***

**RƏYÇILƏR:**
***Vaqif AĞAYEV –***
***"RR &VAM – Beynəlxalq" müstəqil auditor firmasının direktoru***
***Nigar RƏHIMOVA –***
***sərbəst auditor***

***AS1DS 026/077-2005***
***Azərbaycan Respublikasının***
***Auditorlar Palatası Şurasının***
***2005-ci il 19 yanvar tarixli***
***144/2 saylı qərarı ilə təsdiq edilmişdir***

## SƏHMDAR CƏMIYYƏTLƏRINDƏ AUDIT APARILMASINA DAIR PROQRAM

***MÜNDƏRICAT:***

***1. Səhmdar cəmiyyətinin hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi***
***2. Dövriyyə cədvəli və mühasibat hesabatlarının auditi***
***3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi***
***4. Hesablaşma və kredit əməliyyatlarının auditi***
***5. Əsas vəsaitlərin (ƏV) və qeyri-maddi aktivlərin (QMA) auditi***
***6. Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (IE) auditi***
***7. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmaların auditi***
***8. Xərclərin və maya dəyərinin auditi***
***9. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi***
***10. Səhmlərlə bağlı əməliyyatların auditi***
***11. Malların satışı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi***
***12. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi***
***13. Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər***

## *1. Səhmdar cəmiyyətinin hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi*

- **SƏHMDAR CƏMİYYƏTİNİN YARADILMASI ŞƏRTLƏRİNİ, NİZAMNAMƏDƏ GÖSTƏRİLMİŞ FƏALİYYƏT NÖVLƏRİNİ, NİZAMNAMƏ KAPİTALININ MƏBLƏĞİNİ, SƏHMLƏRİN KATEQORİYALARINI, NOMİNAL DƏYƏRİNİ VƏ MİQDARINI, SƏHMDARLARIN HÜQUQLARINI, CƏMİYYƏTİN İDARƏETMƏ ORQANLARININ TƏRKİB VƏ SƏLAHİYYƏTLƏRİNİ, QƏRARLARIN QƏBUL EDİLMƏSİ HAQQINDA MƏLUMATLARI VƏ LƏĞVİ ŞƏRTLƏRİNİ ÖYRƏNƏRƏK TƏHLİL ETMƏK;**
- Dövlət müəssisələri SC-yə çevrilərkən əmlakın qiymətləndirilməsindən sonra nizamnamə fondunun alış dəyərinə və ya təsis sənədlərində göstərilmiş nizamnamə kapitalına uyğunluğuna əmin olmaq;
- Əmlakın qiymətləndirilməsinin nəticələrinə görə alış qiymətinin müəyyən edildiyi tarixə nizamnamə kapitalını, əmlakı və öhdəlikləri göstərən son maliyyə hesabatını almaq və təhlil etmək;
- Keçmiş illərin zərərinin cari ilin mənfəəti, ehtiyat kapitalı, xüsusi təyinatlı fondlar hesabına bağlandığına, qalan vəsaitlərin nizamnamə fondunun artırılmasına yönəldildiyinə əmin olmaq;
- Nizamnamə kapitalının sosial təyinatlı və xüsusi özəlləşdirmə rejimi tələb edilən digər obyektlərin dəyəri məbləğində azaldığına əmin olmaq;
- Son maliyyə hesabatları tərtib edildiyi tarixdən SC kimi qeydiyyata alındığı tarixə qədər nizamnamə kapitalının tamamilə ödənildiyinə və bu müddət ərzində baş vermiş əməliyyatların uçotda və hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq;
- Nizamnamə fondunun maddi dəyərlilər və qeyri-maddi aktivlərlə formalaşdığı hallarda bu əməliyyatların düzgünlüyünə əmin olmaq məqsədilə müvafiq bölmələrin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə etmək;
- Hərrac və ya müsabiqə yolu ilə alınmış müəssisələrin SC-yə çevrildiyi anda səhmlərin satış növləri (əmək kollektivinə güzəştli satış, investisiya müsabiqəsi və ya pul hərracı və s.) üzrə necə bölündüyünü müəyyənləşdirmək;
- Alış qiyməti qiymətləndirmə dəyərindən və ya hərrac qiymətindən artıq (əskik) olan zaman əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq. Nəzərə almaq lazımdır ki, alış qiyməti qiymətləndirmə dəyərindən artıq olduqda, artıq ödənilmiş vəsait müəssisənin qiyməti (qudvil) kimi qiymətləndirilərək, hesabatlarda qeyri-maddi aktiv şəklində əks etdirilir;
- Buraxılmış imtiyazlı səhmlərin nizamnamə kapitalının ümumi həcmində 25%-dən çox olmadığını yoxlamaq;
- Nizamnamə kapitalının həcminin artması şərtlərini təhlil etmək. Bunun üçün səhmdarların ümumi yığıncağının qərarını tələb etmək. Nizamnamə kapitalının artırılmasının səhmlərin nominal dəyərini artırmaq və ya əlavə səhmlər buraxmaq yolu ilə həyata keçirildiyini müəyyənləşdirmək. Əlavə buraxılmış səhmlər alınarkən, sadə və ya digər səsli səhmlərə malik olan səhmdarların üstünlük hüququnu araşdırmaq və qiymət vermək;
- Nizamnamə kapitalının azaldılmasının hansı yolla (səhmlərin geri alınması, səhmlərin nominal dəyərinin aşağı düşməsi, səhmdarların tələbi və s.) həyata keçirildiyini aydınlaşdırmaq. Belə hallarda kreditorlara bildirişlərin göndərildiyini və onların tələblərini öyrənmək, tələblərin nə dərəcədə ödənildiyini təhlil etmək;
- SC aktivlərinin dəyərinin nizamnamə kapitalından aşağı olduğu hallarda nizamnamə kapitalının məbləğinin azaldılması hallarını, nizamnamə kapitalı minimum məbləğdən aşağı endirilmişdirsə, cəmiyyətin ləğvi ehtimalının olub-olmadığını araşdırmaq;

- Səhmdarların ümumi yığıncağının protokollarından və direktorlar şurasının qərarlarından çıxarışlarla tanış olmaq, müvafiq bölmələrin auditi zamanı bu qərarlara düzgün riayət edildiyini yoxlamaq.

***2. Dövriyyə cədvəli və mühasibat hesabatlarının auditi***

- Mövcud qanunvericiliyə uyğun olaraq tərtib edilmiş mühasibat balansını, mənfəətin və zərərin hesabatını əldə etmək. Auditlə əhatə edilən dövrün sonuna aktivlərin, passivlərin, gəlirlərin, xərclərin, hesabların qalığını əks etdirən dövriyyə cədvəlini almaq;
- Mühasibat balansının, mənfəətin və zərərin hesabatının dövriyyə cədvəlinə əsasən düzgün doldurulduğunu, məbləğlərin riyazi düzgünlüyünü yoxlamaq və baş kitabın məlumatları ilə üzləşdirmək. Bütün sintetik hesabların dövriyyə cədvəlinə daxil edildiyinə və tətbiq olunan hesablar planının Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 1995-ci il 20 oktyabr tarixli I-94 saylı əmri ilə təsdiq edilmiş «Müəssisələrin mühasibat uçotunun hesablar planı və onun tətbiqinə dair təlimat»a uyğunluğuna əmin olmaq;
- Dövriyyə cədvəlinə əsasən hər bir audit bölməsi üzrə yoxlanılacaq dövriyyə və qalıqları bölmələr üzrə qruplaşdırmaq, daha çox maddi əhəmiyyətli (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olan) məbləğləri müəyyənləşdirmək;
- Dövriyyə cədvəlində əhəmiyyətli olmayan (maliyyə (mühasibat) hesabatlarına əhəmiyyətli təsir etmək ehtimalı olmayan) məbləğləri maddi əhəmiyyət kəsb etməyən göstəricilər kimi qəbul etmək;
- Xarici valyutada əks etdirilən aktivlərin və passivlərin qalıqlarının Azərbaycan Respublikası Milli Bankının hesabat dövrünün sonuna olan rəsmi məzənnəsinə uyğun şəkildə düzgün qiymətləndirilərək hesabatlarda əks etdirildiyini yoxlamaq;
- Keçən ilin hesabatları ilə bu ilin hesabatlarını müqayisə etmək. Hesabatlarda eyni tarixə (ilin sonuna və növbəti ilin əvvəlinə) balans hesabları üzrə göstəricilərin eyniliyini yoxlamaq. Əgər kənarlaşmalar aşkar edilərsə, səbəblərini araşdırmaq;
- Edilmiş düzəlişlərə mühasibat yazılışlarını nəzərə almaqla, yekun dövriyyə cədvəlini tərtib etmək və dövriyyə cədvəlində əks etdirilmiş məbləğlərin maliyyə (mühasibat) uçotunda tam əks etdirildiyini yoxlamaq;
- **Bütün bölmələr üzrə auditi yekunlaşdırdıqdan sonra audit prosedurları nəticəsində əldə edilmiş məlumatları və lazımi düzəlişləri yekun dövriyyə cədvəlinə daxil etmək;**
- **Düzəlişlər nəzərə alınmaqla, yekun dövriyyə cədvəli hazırlamaq və maliyyə (mühasibat) hesabatlarını düzəlişlərə əsasən yenidən tərtib etmək;**
- Auditor yoxlaması zamanı tətbiq edilmiş audit prosedurları nəticəsində rəy vermək üçün kifayət qədər audit sübutlarının toplanması mümkün olmadıqda və ya aşkar edilmiş nöqsan və çatışmazlıqlara düzəlişlərin edilməsi mümkün olmadıqda, bu məqamların maliyyə (mühasibat) hesabatlarına nə dərəcədə maddi əhəmiyyətli təsir göstərdiyini müəyyənləşdirmək və auditor rəyində maliyyə hesabatlarının vəziyyəti barədə fikri ifadə etmək.

***3. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi***

**3.1. Kassada aparılan əməliyyatların auditi**

- Kassa əməliyyatlarının auditinə kassada olan pul vəsaitlərinin və qiymətli kağızların inventarizasiyasından başlamaq. Inventarizasiyanı baş mühasib və kassirin iştirakı ilə keçirmək;
- Kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin yazılı sərəncamının olub-olmamasını yoxlamaq;

- Maddi məsuliyyət haqqında kassirlə bağlanmış müqavilənin mövcudluğunu yoxlamaq. Kassada saxlanılan pul vəsaitlərinin həqiqi mövcudluğu barədə kassirdən iltizam almaq;
- Kassanın inventarizasiyasi başa çatdıqdan sonra kassa kitabının qalığı ilə kassada olan pul vəsaitlərinin həqiqi mövcudluğunu tutuşdurmaq, kənarlaşma aşkar edilərsə, səbəblərini araşdırmaq;
- Kassa kitabının səhifələrinin möhürləndiyinə, qaytanlandığına və müvafiq imzalarla təsdiqləndiyinə əmin olmaq, kassa otağının müvafiq tələblərə cavab verdiyini qiymətləndirmək;
- Kassa mədaxil və məxaric orderlərinin müvafiq qaydada tərtib olunduğunu, kassa kitabında yazılışların düzgün aparıldığını yoxlamaq;
- Ciddi hesabat blankları olan kassa mədaxil orderlərinin nömrələrinin ardıcıllığına riayət olunduğuna, ləğv edilmiş mədaxil orderlərinin saxlandığına əmin olmaq;
- Kassadan nağd pulun verilməsi barədə sənədlərdə məsul şəxslərin imzalarının olub-olmadığını yoxlamaq;
- Mədaxil və məxaric orderlərinin kassa əməliyyatlarının qeydiyyatı kitabında düzgün və vaxtında əks etdirildiyinə əmin olmaq;
- Baş kitaba əsasən kassa üzrə pul vəsaitlərinin hərəkət cədvəllərini tərtib etmək və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə etmək;
- Vəkalətnamələrə əsasən digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyünü yoxlamaq, verilmiş vəkalətnamələrin düzgün tərtib edildiyinə əmin olmaq və ciddi hesabat blankları olduğunu yoxlamaq, bu məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə etmək;
- Kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;
- Xarici valyutada kassa əməliyyatı aparıldığı hallarda, əməliyyatların ayrıca kassa kitabında aparıldığına əmin olmaq;
- Nağd xarici valyutada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edildiyini və məzənnə fərqlərinin düzgün hesablandığını yoxlamaq;
- Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitlərinin qalığının kassaya vaxtında qaytarıldığına, habelə tam maddi məsuliyyət barədə müqavilənin və nağd pulun verilməsi barədə rəhbərliyin sərəncamının mövcudluğuna əmin olmaq. Bu məlumatlardan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə etmək;
- Deponentləşdirilmiş vəsaitlərin vaxtında banklara qaytarıldığını, kassa sənədlərində bu barədə müvafiq qeydlərin aparıldığını yoxlamaq;
- Həyata keçirilmiş kassa əməliyyatlarının mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq.

### 3.2. Hesablaşma hesabı üzrə əməliyyatların auditi

- Bankda olan hesablaşma hesabları barədə arayış almaq;
- Auditlə əhatə olunan dövrün sonuna bank çıxarışlarında olan qalıq məbləğini baş kitabın və maliyyə hesabatlarının məlumatları ilə tutuşdurmaq və düzgünlüyinə əmin olmaq;
- Bank çıxarışlarında göstərilmiş məbləğlərin onlara əlavə edilmiş ilkin sənədlərlə uyğunluğunu yoxlamaq;
- Baş kitaba əsasən hesablaşma hesabı üzrə pul vəsaitlərinin hərəkət cədvəllərini tərtib etmək və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə etmək;
- Ilkin sənədlərdə bank ştampının mövcudluğuna diqqət yetirmək. Əgər ştamp yoxdursa, əməliyyatın düzgünlüyü barədə bankdan təsdiqedici arayışın alınmasını tələb etmək;
- Bank çıxarışlarında düzəlişlər olarsa, onların bank tərəfindən təsdiqlənməsini tələb etmək;
- Auditlə əhatə edilən dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox maddi əhəmiyyət kəsb edirsə, bankdan bu barədə təsdiqedici arayışın alınmasını tələb etmək;

- Hesablaşma hesabı ilə həyata keçirilmiş əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq;
- Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar daha böyük maddi əhəmiyyət kəsb edirsə, aparılmış əməliyyatların düzgünlüyünü yoxlamaq və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə etmək.

### 3.3. Xarici valyutada aparılan bank əməliyyatlarının auditi

- Bankda olan cari, tranzit və xaricdəki valyuta hesabları barədə arayış almaq;
- Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların, bu əməliyyatlarla bağlı bank xidmətlərinin və yaranmış məzənnə fərqlərinin uçotda düzgün əks etdirildiyini yoxlamaq;
- Xarici valyutada aparılan əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edilməsi və məzənnə fərqlərinin düzgün hesablanması, hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirildiyinə əmin olmaq;
- Xarici iqtisadi fəaliyyətlə bağlı satışın nəticəsinə görə xaricdən əldə edilmiş gəlirlərin, habelə maddi dəyərlilərə və xidmətlərə görə xaricə köçürülmüş vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq, hesablaşma və satış əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;
- Valyuta hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatların düzgünlüyünə əmin olmaq və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə etmək;
- Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, qeyri-rezidentin mənbədən gəlir vergisinin düzgün tutulduğunu və əlavə dəyər vergisinin düzgün hesablandığını yoxlamaq, vergilər üzrə hesablaşmaların auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;
- Valyuta hesabı ilə həyata keçirilmiş əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq.

### 3.4. Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi

- Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tətbiq edildiyinə əmin olmaq məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydalarını və müddətlərini öyrənmək;
- Bank çıxarışlarına əsasən ödənişləri ilkin sənədlərlə tutuşdurmaq, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;
- Əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və hesabda qalan vəsaitlərin başqa məqsədlərlə istifadə edilmədiyinə əmin olmaq;
- Limitləşdirilmiş çeklərdən və elektron kartlardan istifadənin mühasibat uçotunda düzgün əks etdirildiyini, onlarla aparılmış əməliyyatların məqsədəuyğun olduğunu, çeklərdən və kartlardan istifadə hüququ verilmiş şəxslərlə maddi məsuliyyət barədə müqavilələrin bağlandığını və onlardan vəsaitlərin istifadəsi barədə hesabatların qəbul edildiyini araşdırmaq;
- Pul sənədlərinin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş nəqliyyat vasitələrinə biletlər, sanatoriya yollayışları və s.) kassada saxlanmasına və hesabat göstəricilərinin mövcudluğuna əmin olmaq;
- Pul sənədləri üzrə analitik uçotun düzgün aparıldığını yoxlamaq. Yenidən satmaq və ya ləğv edilmək üçün səhmdarlardan alınmış səhmlərin həqiqi mövcudluğuna əmin olmaq məqsədilə maddi məsul şəxslərlə birgə onların inventarizasiyasını keçirmək;
- Hesabat dövrünün sonuna yolda olan köçürmələrin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq üçün təqdim edilmiş ilkin sənədlərlə daxil olan vəsaitləri müqayisə edmək. Əgər auditlə əhatə edilən dövrün sonuna yolda olan köçürmələr üzrə qalıqlar mövcuddursa, bu

qalıqların düzgünlüyünə əmin olmaq məqsədilə auditlə əhatə edilən dövrdən sonrakı dövrdə bu məbləğlərin həqiqətən daxil olduğunu yoxlamaq. Kənarlaşma aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;

- Qısamüddətli maliyyə qoyuluşları kimi hesabatlarda əks etdirilən qiymətli kağızlar, depozitlər və verilmiş borclar üzrə subhesabların aparıldığına və müddətinin həqiqətən bir ildən az olduğuna əmin olmaq;
- Depozit hesabların yaradılması şərtlərini təhlil etmək və düzgünlüyünə qiymət vermək. Depozit müqavilələrinin şərtlərini öyrənmək, depozitlərin vaxtında geri alındığını və depozitlərə görə alınmış faizlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;
- Qiymətli kağızların alış dəyərinin nominal dəyərindən fərqləndiyi hallarda, fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olduğuna əmin olmaq;
- Istiqrazlar və digər qiymətli kağızlarla bağlı əməliyyatların nəticələrinin, habelə depozitlərə görə alınmış faizlərin mənfəətin və zərərin hesabatında və mənfəət vergisi bəyannaməsində düzgün əks etdirildiyinə əmin olmaq;
- Xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq.

### *4. Hesablaşma və kredit əməliyyatlarının auditi*

#### 4.1. Malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi

- SC-nin malsatan və podratçı təşkilatlar üzrə hesabat dövrünün əvvəlinə və sonuna, yaranma tarixi göstərilməklə, mövcud borclarının siyahısını almaq;
- Malsatan və podratçı təşkilatlarla bağlanmış müqavilələrin mövcudluğuna və düzgün tərtib edildiyinə əmin olmaq, tərəflərin hüquq və vəzifələrini, müqavilə üzrə əldə edilmiş maddi dəyərlilərin və xidmətlərin məbləğinin ödənilməsi şərtlərini öyrənmək;
- Daha çox maddi əhəmiyyət kəsb edən borclar üzrə üzləşmə aktlarını tələb etmək. Əgər belə aktlar yoxdursa, borcların reallığına əmin olmaq üçün SC-dən auditlə əhatə edilən dövrün sonuna üzləşmə aktlarının tərtib edilməsini tələb etmək və üzləşmə aktlarındakı məlumatları hesabat məlumatları ilə tutuşdurmaq;
- Daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünə əmin olmaq məqsədilə bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə etmək və əsassız ödənişlərin olmadığına əmin olmaq;
- Alınmış maddi dəyərlilərin düzgün mədaxil edildiyinə əmin olmaq üçün ödəniş sənədlərində göstərilən məbləğləri mədaxil sənədləri ilə tutuşdurmaq. Əgər xidmət göstərilmişdirsə, onda göstərilmiş xidmətlərin dəyərinin xərclərin tərkibində düzgün ifadə olunduğuna əmin olmaq;
- Hesablaşma əməliyyatları üzrə analitik və sintetik uçot arasında fərqin olmadığına əmin olmaq məqsədilə riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;
- **BÜTÜN İRİ MALSATAN VƏ PODRATÇI TƏŞKİLATLAR ÜZRƏ HESABLAŞMALARIN MÜHASİBAT UÇOTUNDA DÜZGÜN ƏKS ETDİRİLDYİNİ YOXLAMAQ. KƏNARLAŞMALAR AŞKAR EDİLƏRSƏ, İZAHATLAR ALMAQ VƏ SƏBƏBLƏRİNİ AYDINLAŞDIRMAQ. BÜTÜN ALINMIŞ İZAHATLARI TƏSDİQEDİCİ SƏNƏDLƏRƏ İSNAD ETMƏKLƏ, İZAHATLARA ƏLAVƏ ETMƏK;**
- Xarici valyutada aparılmış hesablaşma əməliyyatları üzrə maddi dəyərlilər əldə edilərkən tərtib edilmiş gömrük bəyannamələrində göstərilən və maddi dəyərlilərin dəyəri ödənilərkən həmin günə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq mühasibat uçotunda əks etdirildiyini yoxlamaq, məzənnə fərqlərinin düzgün müəyyən edildiyinə əmin olmaq;

- Malsatan və podratçı təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğun olduğunu araşdırmaq və müqavilə ilə nəzərdə tutulmuş şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmalar hesabına düzgün silindiyinə əmin olmaq;
- Hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə rəsmiləşdirilmişdirsə, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirildiyini yoxlamaq;
- Barter əməliyyatları zamanı malsatan və podratçı təşkilatlarla alıcı və sifarişçi təşkilatlar arasında yaranmış qarşılıqlı borcların silinməsinin düzgünlüyünü yoxlamaq və bu əməliyyatlar zamanı vergilərin düzgün hesablandığına əmin olmaq;
- Qaldırılmış iddialar üzrə sənədləşmənin düzgün aparıldığını və iddiaların nə dərəcədə əsaslı olduğunu yoxlamaq. Iddialar üzrə əməliyyatların hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq.

### 4.2. Alıcı və sifarişçilərlə hesablaşmaların auditi

- Uçot siyasətinə əsasən satış əməliyyatlarının hansı metodla (kassa və ya hesablama metodu ilə) aparıldığını müəyyən etmək;
- Müqavilələrin mövcudluğuna və qeydiyyat jurnalında qeydiyyata alındığına əmin olmaq, məhsulun (malların) göndərilmə, işlərin görülmə və xidmətlərin göstərilmə şərtlərini və ödəniş qaydalarını öyrənmək;
- Kassa, hesablaşma və valyuta hesablarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələrindən bu bölmənin auditi zamanı istifadə etmək;
- Yüklənmiş məhsul (mal), görülmüş iş və göstərilmiş xidmətlər üzrə ilkin sənədlərin həqiqi mövcudluğunu yoxlamaq və bu sənədlərin düzgün tərtib edildiyinə əmin olmaq;
- Hesablaşma veksellərdən istifadə yolu ilə aparılırsa, veksellər üzrə faizlərin mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini yoxlamaq;
- Daha çox maddi əhəmiyyət kəsb edən, vaxtında ödənilməyən debitor borcları üzrə üzləşmə aktlarını tələb etmək. Əgər belə aktlar tərtib edilməmişdirsə, onların auditlə əhatə edilən dövrün sonuna tərtib edilməsini tələb etmək və üzləşmə aktlarındakı məlumatları hesabat göstəriciləri ilə tutuşdurmaq;
- Debitor və kreditor borclarının arasında iddia müddəti ötmüş borcların mövcudluğunu aydınlaşdırmaq. Ümidsiz və şübhəli borcların silinməsinin düzgünlüyünü yoxlamaq. Bu əməliyyatların nəticələrinin mənfəətin və zərərin hesabatında və mənfəət vergisi bəyannaməsində düzgün əks etdirildiyinə əmin olmaq;
- Xarici valyutada aparılmış əməliyyatlar üzrə valyuta məzənnəsinin düzgün əks etdirildiyini yoxlamaq;
- Barter əməliyyatları zamanı malsatan və podratçı təşkilatlarla alıcı və sifarişçi təşkilatlar arasında yaranmış qarşılıqlı borcların silinməsinin və vergilərin hesablanmasının düzgünlüyünü yoxlamaq;
- Alıcı və sifarişçi təşkilatlardan alınmış avansların hesabatlarda düzgün əks etdirildiyini, alınmış avanslara görə əlavə dəyər vergisinin düzgün hesablandığını, mallar yükləndikdə (işlər görüldükdə) alınmış avans məbləğlərinin alıcı və sifarişçi təşkilatların hesabına silindiyini yoxlamaq.

### 4.3. Dövlət Sosial Müdafiə Fondu (DSMF) ilə hesablaşmaların auditi

- Dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında və baş kitabda göstərilən qalıq məbləğlərini tutuşdurmaq və kənarlaşmaların olmadığına əmin olmaq;
- Ödənişlərin hesablanması bazasının və tətbiq edilmiş normaların düzgünlüyünə əmin olmaq. Qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin düzgün tətbiq edildiyini yoxlamaq;
- Dövlət Sosial Müdafiə Fondunun (DSMF) hesabına həyata keçirilən ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin (xəstəlik vərəqələri, müavinətlərin alınması üçün sənədlər toplusu, kəsilmiş pensiya məbləği barədə arayış və s.) düzgünlüyünü yoxlamaq;

- Ödənişlərin vaxtında və təyinatı üzrə həyata keçirildiyinə, hesabatların vaxtında təqdim edildiyinə əmin olmaq. Nöqsanlar aşkar edilərsə, rəhbərliyə yazılı məlumat vermək;
- Dövlət Sosial Müdafiə Fondu tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış faizlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;
- Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində sosial fondlara edilmiş (əmək haqqından hesablanmış və tutulmuş) ödənişlərin məbləğini bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə tutuşduraraq, bu növ ödəmələr üzrə qalıq məbləğini müəyyənləşdirmək;
- Alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıqlara uyğunluğuna əmin olmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini araşdırmaq.

### 4.4. Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi

- Hesabat dövrünün sonuna təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə yaranmış qalıqların analitik uçotunu tələb etmək;
- Tam maddi məsuliyyət haqqında təhtəlhesab şəxslərlə bağlanmış müqavilələrin mövcudluğunu yoxlamaq;
- Avans hesabatlarının düzgün tərtib edildiyinə və xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarıldığına əmin olmaq, avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, biletlər və s.) mövcudluğunu və bu sənədlərdəki məbləğlərin avans hesabatlarında düzgün ifadə edildiyini yoxlamaq;
- Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara əsasən hesablandığına əmin olmaq;
- Bu prosedurların nəticələrindən kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə etmək.

### 4.5. Vergilər üzrə hesablaşmaların auditi

- SC-nin fəaliyyət sferasından asılı olaraq hesablanan və ödənilən vergilər barədə məlumat almaq, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirildiyinə və hər bir vergi üzrə analitik uçotun aparıldığına əmin olmaq;
- Hər bir verginin auditlə əhatə edilən dövrdəki dövriyyəsini (ilin əvvəlinə qalıq, hesablamalar və ödənişlər, ilin sonuna qalıq əks etdirilməklə) araşdırmaq və mühasibat uçotunun məlumatları ilə tutuşdurmaq. Hər bir vergi üzrə riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;
- Baş kitaba və ilkin sənədlərə əsasən aylar üzrə vergilərin hesablanması və ödənilməsi haqqında məlumatları əldə etmək, vergilər üzrə vaxtı keçmiş və ya gecikdirilmiş ödənişlərin olmadığına əmin olmaq;
- Dövlət vergi orqanları tərəfindən auditlə əhatə edilən dövrdə aparılmış yoxlamaların (əgər bu dövrdə aparılmamışdırsa, sonuncu yoxlamanın) nəticələri barədə aktı tələb etmək, göstərilmiş nöqsan və çatışmazlıqların hesabatlarda necə əks etdirildiyinə və aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək;
- Vergi orqanları ilə yazışmaları və tərtib edilmiş üzləşmə aktlarını əldə etmək, vergi borclarının qarşılıqlı əvəzləşdirilmə hallarına xüsusi diqqət yetirmək, vergi orqanından alınmış üzləşmə aktlarındakı məlumatların mühasibat uçotunun məlumatları ilə üyğunluğuna əmin olmaq;
- Hesablanmış vergilərin mühasibat uçotunda mövcud vergi qanunvericiliyinə uyğun şəkildə əks etdirildiyinə, vergi dərəcələrinin düzgün tətbiq edildiyinə əmin olmaq;
- Daha çox əhəmiyyətli olan vergi öhdəlikləri üzrə nəzarət testləri hazırlamaq və keçirmək;
- Əlavə dəyər vergisi (ƏDV) üzrə təqdim edilmiş və ya alınmış vergi hesab-fakturalarının mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini, aylıq bəyannamələrin vaxtında və düzgün tərtib edilərək təqdim edildiyini yoxlamaq;
- Satış əməliyyatlarının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən ƏDV və mənfəət vergisinin auditi zamanı istifadə etmək;

- Vergilər hesablanarkən tətbiq edilən güzəştlərin mövcud qanunvericiliyə əsasən həyata keçirildiyinə əmin olmaq;
- Əmlak vergisinin düzgün hesablanmasını yoxlayarkən əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi bölməsində əldə edilmiş məlumatlardan istifadə etmək;
- Ödəniş mənbəyində tutulmuş vergilər üzrə hesablaşmaların düzgün aparıldığına, tutulmaların müvafiq normalara uyğun həyata keçirildiyinə, vaxtında təyinatı üzrə köçürüldüyünə və bu növ vergilər üzrə hesabatların düzgün tərtib edildiyinə əmin olmaq;
- Vergi orqanları tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış faizlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;
- Vaxtı keçmiş, gecikdirilmiş ödənişlər, hesabatlarda düzgün əks etdirilməmiş vergilər üzrə yarana biləcək cərimə və maliyyə sanksiyalarının SC-nin maliyyə vəziyyətinə təsiri ehtimalını təhlil etmək və bu barədə rəhbərliyə məlumat vermək.

**4.6. Digər hesablaşma əməliyyatlarının auditi**

- Sığorta ilə bağlı əməliyyatların analitik uçot üzrə qalıqlarını tələb etmək;
- Daha çox əhəmiyyətli sayılan əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri ilə tanış olmaq, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq. Xərclərin tərkibində olan sığorta ödənişlərinin məbləğini bu prosedurların nəticələri ilə tutuşdurmaq və düzgünlüyünə əmin olmaq;
- Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti ilə və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə etmək, bu hesablaşmaların düzgün aparıldığına əmin olmaq;
- Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtlərini öyrənmək, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğun olduğunu və hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;
- Birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş mənfəətin və ya zərərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;
- Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq məqsədilə donor və respient arasında bağlanmış müqavilələrin şərtlərini öyrənmək, tərtib edilmiş smetalar üzrə xərc maddələri ilə tanış olmaq. Bu növ maliyyələşmələrdən məqsədəyönlü və təyinatı üzrə istifadə edildiyini yoxlamaq, donorlara təqdim edilmiş hesabatlarla tanış olmaq və bu əməliyyatların düzgünlüyünə əmin olmaq.

**4.7. Kreditlər və borclar üzrə əməliyyatların auditi**

- Alınmış kreditlər və borclar üzrə analitik və sintetik uçotların ilkin mühasibat registrlərində düzgün əks etdirildiyinə əmin olmaq;
- Kredit və borc müqavilələrinin şərtlərini öyrənmək, onların qaytarılması vaxtının uzadılması və ya vaxtı ötmüş kimi qiymətləndirilməsi şərtlərinə diqqət yetirmək;
- Kreditlərin müqavilə üzrə müddətindən (uzunmüddətli, qısamüddətli) asılı olaraq, onların mühasibat uçotunda və maliyyə hesabatlarında müvafiq balans hesabatlarında düzgün əks etdirildiyini yoxlamaq;
- **KREDİT VƏ BORCLARDAN İSTİFADƏYƏ GÖRƏ FAİZLƏRİN HESABLANMASININ VƏ HESABATLARDA ƏKS ETDİRİLDİYİNİN DÜZGÜNLÜYÜNÜ YOXLAMAQ;**
- Xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalığın hesabatda düzgün əks etdirildiyinə əmin olmaq;
- Kredit və borclar üzrə qalıqların auditlə əhatə edilən dövrün sonuna hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə bu məbləğin arayış ilə təsdiq edilməsini digər tərəfdən tələb etmək.

### *5. Əsas vəsaitlərin (ƏV) və qeyri-maddi aktivlərin (QMA) auditi*

- Mühasibat hesabatlarında əks etdirilmiş ƏV və QMA-nın ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar toplamaq;
- ƏV və QMA-nın hesabat dövrünün sonuna analitik uçotunu tələb etmək, sintetik hesabın qalıqları ilə tutuşdurmaq, kənarlaşmalar müəyyən edilərsə, onların səbəblərini aydınlaşdırmaq;
- Əsas vəsaitlərin üzərində daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparıldığını və əgər aparılıbsa, nəticələrinin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq. Inventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktlarını tələb etmək;
- ƏV və QMA-nın alınması və məxaric edilməsi ilə bağlı əməliyyatların sənədləşdirildiyini və mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə qiymət vermək məqsədilə onların alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin ilkin dəyərlərinə həqiqətən daxil edildiyinə əmin olmaq;
- ƏV və QMA xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyini və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq, düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyini yoxlamaq;
- Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədləri tələb etmək;
- Hərrac və ya müsabiqə yolu ilə SC-yə çevrilmə zamanı əmlak faktiki dəyərindən artıq qiymətləndirilərsə, artıq olan məbləğin SC-nin qiyməti (qudvil) kimi qiymətləndirilərək, mühasibat uçotunda qeyri-maddi aktiv kimi əks etdirildiyinə əmin olmaq. Aparılmış audit prosedurlarının nəticələrindən nizamnamə kapitalı ilə bağlı əməliyyatların auditi zamanı istifadə etmək;
- Əsas vəsaitlərin alınması zamanı malgöndərən və podratçı təşkilatlara ödənilmiş ƏDV-nin onların ilkin dəyərinə daxil edilmədiyini və büdcə ilə hesablaşmaların balans hesabına düzgün aid edildiyini yoxlamaq;
- QMA-nın alınması, ƏV-nin əldə edilməsi, quraşdırılması və sazlanması, tikilməsi və istifadəyə verilməsi ilə bağlı bütün xərclərin mühasibat uçotunda əvvəlcə kapital qoyuluşları kimi, istifadəyə verildikdə isə müvafiq balans hesablarında düzgün əks etdirildiyinə əmin olmaq;
- Mənfəət vergisinin məqsədləri üçün istehsal təyinatlı kapital qoyuluşlarına tətbiq edilən mənfəət vergisi məqsədilə artırılmış amortizasiya normalarının düzgünlüyünü yoxlamaq. Amortizasiya ayırmalarının mənfəət vergisi bəyannaməsində düzgün əks etdirildiyinə əmin olmaq;
- ƏV və QMA-nın kateqoriyalar üzrə düzgün qruplaşdırıldığını, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının düzgünlüyünü yoxlamaq, bu normaların mövcud qanunvericiliyin tələbləri həddində olduğuna və uçot siyasəti barədə əsasnaməyə uyğunluğuna əmin olmaq. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların istifadə müddətinə uyğun şəkildə düzgün hesablandığını yoxlamaq;
- ƏV-yə hesablanmış amortizasiya ayırmalarının məbləği vergi və mühasibat uçotu üzrə müxtəlif olarsa, bu məbləğlərin müvafiq hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq;
- ƏV və QMA-nın xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyini yoxlamaq. Əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyinə əmin olmaq. Əgər ƏV qalıq dəyərindən aşağı qiymətə satılmışdırsa, tətbiq olunan qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətinə uyğun olduğu barədə təsdiqedici sənədləri tələb etmək. Xaricolmanın nəticələrinin mənfəətin və zərərin hesabatında sair satışın nəticələri kimi əks etdirildiyinə əmin olmaq;
- Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq, lizinq müqaviləsinin şərtləri ilə tanış olmaq;

- Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq. Çəkilmiş təmir xərclərinin xarakterini öyrənmək, istismar və işçi vəziyyətdə saxlama ilə bağlı xərclərin təmir xərclərinin tərkibinə aid edilmədiyinə və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığına əmin olmaq. Vergi uçotu məqsədilə müəyyən edilmiş normalardan artıq olan təmir xərclərinin hər bir kateqoriyaya dair əsas vəsaitlərin balans üzrə qalıq dəyərinə düzgün aid edildiyini yoxlamaq;
- Istehsal prosesi ilə bağlı olmayan ƏV və QMA-nın amortizasiya ayırmalarının satılmış mallara (görülmüş işlərə, göstərilmiş xidmətlərə) görə gəlirdən çıxılan xərclərin tərkibinə aid edilmədiyinə və təyinatı üzrə xərclərdə əks etdirildiyinə əmin olmaq;
- Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirmək və bu zaman yaranmış vergi öhdəliklərinin düzgün yerinə yetirildiyinə əmin olmaq.

### *6. Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (IE) auditi*

- Ilin sonuna mühasibat hesabatlarında əks etdirilmiş ehtiyatların (xammal və materialların, azqiymətli və tezköhnələn əşyaların, malların, ticarət əlavəsinin) qalığını SC-nin analitik uçotunun məlumatları ilə tutuşdurmaq;
- Uçot siyasətinə əsasən ehtiyatların qiymətləndirilməsində hansı (LIFO, FIFO və ya digər) metoddan istifadə edildiyini öyrənmək və hesabat ilində uçot siyasətinin dəyişdirilmədiyinə əmin olmaq;
- MMD və IE-yə görə tam maddi məsuliyyət barədə maddi məsul şəxslərlə bağlanmış müqavilələrin mövcudluğunu yoxlamaq;
- MMD və IE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiya aparılmasını yoxlamaq və inventarizasiya aktlarını tələb etmək. Inventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyini yoxlamaq və mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq;
- Inventarizasiya keçirilməyibsə və ya inventarizasiya aktlarında nöqsanlar aşkar edilərsə, seçmə yolu ilə daha böyük maddi əhəmiyyət kəsb edən MMD və IE-nin həqiqi mövcudluğunu məsul şəxslərin iştirakı ilə yoxlamaq və nəticələrini hesabatlarla tutuşdurub aktlaşdırmaq;
- MMD və IE mədaxil edilərkən faktiki maya dəyərinin düzgün müəyyənləşdirildiyinə qiymət vermək məqsədilə onların əldə edilməsinə çəkilən xərclərin faktiki maya dəyərinə aid edildiyinin düzgünlüyünü ilkin sənədlərdən istifadə edərək yoxlamaq;
- ƏDV-nin ödəyicisi tərəfindən MMD və IE-nin mədaxili zamanı malsatanlara nağdsız ödənilmiş əlavə dəyər vergisinin faktiki maya dəyərinə aid edilmədiyinə, büdcə ilə hesablaşmalar hesabına aid edildiyinə əmin olmaq;
- MMD və IE-nin anbarlarda saxlanması şəraitini öyrənmək və onun qəbul edilmiş tələblərə uyğunluğuna, anbar uçotunun, dəyərlilərin müəssisədaxili hərəkətinin necə təşkil edildiyinə və düzgün sənədləşdirildiyinə qiymət vermək;
- Maddi ehtiyatların istifadəsinin təsdiq edilmiş texnoloji normalara uyğunluğuna əmin olmaq. Fərqlər aşkar edilərsə, səbəblərini araşdırmaq. Bu məlumatlardan istehsal xərcləri və maya dəyərinin auditi zamanı istifadə etmək;
- MMD və IE-nin əskik (və ya artıq) gəlməsi, xarab olması hallarının mövcudluğunu, belə hallar baş vermişdirsə, təbii itki normalarına uyğunluğu təhlil etmək, əgər təbii itki normalarına uyğun deyilsə, bu halda SC tərəfindən görülmüş tədbirlər barədə məlumat almaq;
- Istifadə edilməyən və ya artıq olan maddi dəyərlilərin satışı ilə bağlı əməliyyatların mühasibat uçotunda, mənfəətin və zərərin hesabatında düzgün əks etdirildiyini yoxlamaq;
- Azqiymətli və tezköhnələn əşyaların (AQTƏ) istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyünü yoxlamaq;
- Uçot siyasətinə əsasən istehsal edilmiş hazır məhsulun hesabatlarda faktiki maya dəyəri ilə və ya normativ (plan) istehsal maya dəyəri ilə əks etdirildiyini müəyyənləşdirmək və onların

yükləmə anında mühasibat uçotunda necə əks etdirildiyini öyrənmək, bu prosedurların nəticələrindən satış əməliyyatlarının, sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə etmək;

- Ticarət, təchizat fəaliyyəti ilə məşğul olan SC-də malların uçotunun alış qiyməti (faktiki dəyəri) və ya satış qiyməti ilə aparıldığını müəyyənləşdirmək. Malların uçotu satış qiyməti ilə aparılarkən və onlar topdan satılarkən endirimlərin (və ya əlavələrin) tətbiq edilməsi hallarına xüsusi diqqət yetirmək və satış qiymətlərinin mövcud bazar qiymətlərinə uyğunluğuna əmin olmaq;
- Ticarət əlavələrinin uçotda düzgün əks edildiyini yoxlamaq və prosedurların nəticələrindən satış əməliyyatlarının auditi zamanı istifadə etmək;
- MMD və IE-nin yenidən qiymətləndirilməsinin səbəb və nəticələrini, onların cari bazar qiymətlərinə uyğunluğunu araşdırmaq və qiymətləndirmənin nəticələrinin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq.

### *7. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmaların auditi*

- Işçilərin orta siyahı sayı və kateqoriyaları barədə məlumat almaq;
- Işçilərlə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğuna əmin olmaq;
- SC-nin ştat cədvəlini əldə etmək, tətbiq edilən əmək haqqı sistemi və formaları barədə məlumat almaq;
- Vaxtamuzd ödəniş sistemində əmək haqqının ştat cədvəlinə və tarif dərəcələrinə uyğun düzgün hesablandığını yoxlamaq. Tabellərdə göstərilən iş vaxtını əmək haqqının hesablanması cədvəli ilə tutuşdurmaq;
- Əməyin işəmuzd ödəniş sistemində naryad, raport, marşrut vərəqələri və s. sənədlərdən istifadə etmək. Işəmuzd işçilərin əmək haqqını onların hazırladığı hazır məhsulun, gördüyü işin, göstərdiyi xidmətin uçotu üzrə məlumatlarla tutuşdurmaq və düzgünlüyünə əmin olmaq;
- Həftəlik iş vaxtı müddətinin 40 saatdan artıq olmadığına əmin olmaq, artıq işlənilmiş vaxta görə (istirahət və bayram günləri də daxil olmaqla) ödənişlərin Əmək Məcəlləsinə müvafiq olduğunu yoxlamaq;
- Məzuniyyətlərin, sosial təyinatlı ödənişlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq düzgün hesablandığını yoxlamaq;
- Əmək haqqından tutulmaların (gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna tutulma, icra vərəqələri üzrə tutulma, borclar və s.) müvafiq qanunvericilik aktlarının, normativ və icra sənədlərinin tələblərinə uyğunluğunu yoxlamaq. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin düzgün tətbiq edildiyinə əmin olmaq;
- Deponentləşdirilmiş əmək haqqının uçotunun düzgünlüyünü yoxlamaq, analitik uçotun aparılmasına əmin olmaq və bu məlumatları kassa əməliyyatları və ödəniş cədvəlləri ilə tutuşdurmaq. Bu prosedurlar nəticəsində kənarlaşmalar aşkar edilərsə, səbəblərini aydınlaşdırmaq;
- Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının riyazi düzgünlüyünü yoxlamaq;
- Əmək haqqı üzrə hesablamaların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə tərtib edilmiş mühasibat yazılışlarının düzgünlüyünü yoxlamaq, əmək haqqı üzrə xərclərin istehsal xərcləri maddələrinə düzgün aid edildiyinə əmin olmaq;
- Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesablama cədvəli tərtib etmək, bu cədvələ əsasən gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və tutulmaların məbləğlərini hesablamaq;
- Bu prosedurlar nəticəsində əldə edilmiş məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə etmək.

### *8. Xərclərin və maya dəyərinin auditi*

- Xərclərin tərkibinə aid edilmiş məsrəflərin siyahısını və məbləğlərini almaq;
- Məhsulun (işlərin, xidmətlərin) maya dəyərinə daxil edilən xərcləri aşağıdakı elementlər üzrə qruplaşdırmaq:

- material xərcləri;
- əmək haqqı xərcləri;
- sosial ehtiyaclara ayırmalar;
- əsas vəsaitlərin amortizasiyası;
- sair xərclər;

- Xərclərin uçotunun SC-nin uçot siyasətinə əsasən düzgün aparıldığına əmin olmaq;
- Materialların təsdiq edilmiş istifadə normalarını tələb etmək və onların bu normalara uyğun istehsala silinmə prosesini öyrənmək;
- Istehsal edilmiş məhsulun həcmi ilə faktiki silinmiş materialların həcmini müqayisə etmək və düzgünlüyünü qiymətləndirmək;
- Materialların artıq işlənməsi halları aşkar edilərsə, səbəblərini araşdırmaq və kənarlaşmaların təsdiq edilmiş normalara uyğun olduğuna əmin olmaq;
- Istehsala aid olmayan digər materialların silinərək gəlirdən çıxılan xərclərin tərkibinə aid edildiyi hallarının mövcudluğunu araşdırmaq;
- Zay məhsulun uçotunun necə aparıldığını yoxlamaq, istehsal maya dəyərinə aid edilən zay məhsulun texnoloji normalar çərçivəsində olduğuna əmin olmaq;
- Istehsal ehtiyatları və mal-material dəyərliləri bölməsində istifadə edilmiş audit prosedurları nəticəsində əldə olunmuş məlumatlardan istifadə etmək;
- Istehsal dövrünün müddətini (xammaldan hazır məhsula qədər keçilən istehsal prosesinin müddətini), mərhələlərini və məhsulun həcmini nəzərə alaraq, bitməmiş istehsalın hesabat dövrünün sonuna uçot siyasətinə uyğun olaraq düzgün qiymətləndirildiyini və inventarizasiyasının düzgün aparıldığını yoxlamaq;
- Istehsal xüsusiyyətlərindən asılı olaraq, auditin planlaşdırma məramnaməsində müəyyənləşdirilmiş yoxlama metoduna (auditor seçməsinə) əsasən, gəlirdən çıxılan xərclərin düzgünlüyünü yoxlamaq;
- Istehsal edilən hər bir növ məhsula görə tərtib olunmuş xərclərin kalkulyasiyasını almaq və onların plan maya dəyərini müəyyənləşdirmək;
- Kalkulyasiyalardan istifadə edərək, əmək haqqı və material məsrəflərinin xərclərin tərkibinə düzgün silindiyini yoxlamaq;
- Əldə edilmiş məlumatlardan əmək haqqı və sosial ehtiyaclara ayırmaların, MMD və IE-nin auditi zamanı istifadə etmək;
- Qaimə xərclərinin, ümumtəsərrüfat və ümumistehsal xərclərinin, köməkçi istehsal xərclərinin istehsal maya dəyərinin tərkibinə, qəbul edilmiş uçot siyasətinə uyğun olaraq, düzgün aid edildiyini yoxlamaq;
- Xərclərin tərkibinə silinmiş amortizasiya ayırmalarının istehsal prosesində həqiqətən istifadə edilən əsas vəsaitlərə aid olduğuna əmin olmaq;
- Əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsində tətbiq edilən audit prosedurları zamanı əldə edilmiş məlumatlardan amortizasiya ayırmalarının xərclərin tərkibində düzgün əks etdirildiyini yoxlayarkən istifadə etmək;
- Sair xərclərin tərkibində daha çox maddi əhəmiyyətli olan xərclərin düzgünlüyünü ilkin sənədlərlə tutuşdurmaq;

- Istehsal xüsusiyyətlərindən asılı olaraq, sair xərclərin tərkibində olan müxtəlif xərc elementlərini (qaz, buxar, sıxılmış hava, elektrik enerжisi, yanacaq, kommunal xərclər və s.) kalkulyasiyada göstərilmiş maddələrlə müqayisə edərək, uyğunluğunu yoxlamaq. Maddi əhəmiyyətli kənarlaşmalar aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;
- Bu növ xidmətlərə görə təqdim edilmiş ilkin sənədləri yoxlamaq, əldə edilən məlumatlardan malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə etmək;
- Işçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olduğuna əmin olmaq məqsədilə ezamiyyə vərəqələrini və təqdim edilmiş ilkin sənədlərin məlumatlarını təhlil etmək. Təhtəlhesab şəxslərlə aparılmış hesablaşmaların auditi nəticəsində əldə edilmiş məlumatlardan bu məqsədlə istifadə etmək;
- Gələcək dövrün xərclərinin uçotunun düzgünlüyünü yoxlamaq və bu xərclərin hesabatlarda aid olduğu dövrlərə uyğun olaraq əks etdirildiyinə əmin olmaq;
- Kommersiya xərclərinin tərkibini təhlil etmək və onların aidiyyəti üzrə maya dəyərinin tərkibində əks etdirildiyinə əmin olmaq;
- Xidmətedici istehsalat və təsərrufatlar üzrə çəkilmiş xərcləri yoxlamaq və onların mühasibat hesabatlarında düzgün əks etdirildiyinə əmin olmaq;
- Mənfəətin və zərərin hesabatında və mənfəət vergisi bəyannaməsində xərclərin düzgün əks etdirildiyinə əmin olmaq;
- Bu bölmədə istifadə edilən audit prosedurlarının nəticələrindən maliyyə (mühasibat) hesabatlarının tərtib edilməsinin düzgünlüyünü yoxlayarkən istifadə etmək.

### *9. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi*

- Maliyyə hesabatları və dövriyyə-qalıq cədvəlinə əsasən qalıqları müəyyənləşdirmək;
- Uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparıldığına əmin olmaq və onların riyazi düzgünlüyünü yoxlamaq;
- Kənar təşkilatlardan alınmış qiymətli kağızların həqiqətən uzunmüddətli qiymətli kağızlar olduğuna əmin olmaq;
- Digər təşkilatların istiqrazları və səhmlərinin onların nominal dəyərindən artıq və ya əskik olması hallarının mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq və bu prosedurların nəticələrini maliyyə hesabatları bölməsində aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;
- Kapital qoyuluşlarının hansı fondlar və vəsaitlər hesabına və nə məqsədlə həyata keçirildiyini araşdırmaq;
- Kapital qoyuluşuna aid edilmiş xərclərin qanuniliyini və mühasibat uçotunda düzgün əks etdirildiyini ilkin sənədlərlə yoxlamaq. Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılmalı olduğunu nəzərə almaq. Bu məqsədlə yerinə yetirilən prosedurların nəticələrini əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsindəki prosedurların məlumatları ilə tutuşdurmaq;
- Başa çatmamış kapital qoyuluşlarının dəyərinin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;
- Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq, kənarlaşmalar aşkar edilərsə, səbəblərini aydınlaşdırmaq;
- Vergiqoyma məqsədilə mənfəət vergisi üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrinə əsasən, istehsal təyinatlı kapital qoyuluşlarına hesablanmış amortizasiya ayırmalarının düzgünlüyünə əmin olmaq;
- Həyata keçirilmiş kapital qoyuluşlarının nə dərəcədə səmərəli olduğunu təhlil etmək.

### *10. Səhmlərlə bağlı əməliyyatların auditi*

- Səhmlərin sayı və növləri barədə məlumat almaq. Əgər imtiyazlı səhmlər varsa, onların sayının səhmlərin ümumi məbləğinin 25%-dən çox olmadığına əmin olmaq;
- Səhmlərin reyestrində edilən dəyişikliklərin mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini yoxlamaq;
- Səhmlərin geri alınması prosesinin səhmdarların ümumi yığıncağının qərarına əsasən həyata keçirildiyinə əmin olmaq;
- Səhmlər geri alınarkən onların bazar məzənnəsinə uyğun olaraq alındığını və bu əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;
- Bir il ərzində satılmayan səhmlərin ləğv edilməsi barədə səhmdarların ümumi yığıncağının qərarını tələb etmək və nizamnamə fondunun bu səhmlərin nominal dəyəri məbləğində həqiqətən azaldıldığına əmin olmaq;
- Geri alınmış səhmlərin bir il ərzində alış qiymətindən baha və ya ucuz satılması hallarının mühasibat uçotunda düzgün əks etdirildiyini və ehtiyat fonduna aid olan vəsaitlərin ayrıca subhesabda əks olunduğunu yoxlamaq;
- Səhmlərin etibarsız sayılması halları olmuşdursa, bu əməliyyatların qanunvericiliyə uyğunluğunu yoxlamaq;
- Səhmlərin nominal dəyərinin azalması halları müşahidə edilərsə və ya səhmlərə sahib olanlardan səhmlər alınıb ləğv edilərsə, bu hallarda səhmdar cəmiyyətinin nizamnamə fondunun məbləğinin düzgün azaldıldığına əmin olmaq və bu məqsədlə nizamnamə kapitalının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə etmək;
- Səhmlərlə bağlı əməliyyatların auditi aparılarkən pul sənədlərinin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə emək.

### *11. Malların satışı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi*

- Maliyyə hesabatlarını, gəlirlər və xərclər barədə məlumatları, dövriyyə-qalıq cədvəli üzrə məlumatları əldə etmək;
- Uçot siyasətinə və qəbul edilmiş uçot prinsiplərinə əsasən, satış əməliyyatlarının hansı metodla hesablandığını aydınlaşdırmaq və hesabat dövrü ərzində uçot siyasətinin dəyişdirilmədiyinə əmin olmaq;
- Istehsal edilən malların çeşidlər üzrə siyahısını almaq, istehsal xərcləri və maya dəyəri bölməsində tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə etmək;
- Satışla əlaqədar olan müqavilələrin mövcudluğunu yoxlamaq və müqavilə şərtlərini öyrənmək. Müqavilə qiyməti və ya razılaşma protokollarının mövcudluğuna əmin olmaq;
- Satış qiymətlərinin müqavilənin şərtlərinə uyğun (yüklənmə, daşınma, gömrük rüsumları və s. xərclər əlavə edilməklə) müəyyən edildiyinə əmin olmaq;
- Istehsal edilmiş məhsulun sərbəst buraxılış qiyməti ilə və ya dövlət tərəfindən tənzimlənən qiymətlərlə satıldığını araşdırmaq;
- Satışla əlaqədar olan ilkin mühasibat sənədlərinin (qaimə, vergi hesab-fakturaları və s.) düzgün tərtib edildiyinə, alıcı və sifarişçi təşkilatlara vaxtında təqdim edildiyinə əmin olmaq;
- Tətbiq edilmiş prosedurların nəticələrindən sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə etmək və əldə edilmiş nəticələri tutuşdurmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;
- Pərakəndə ticarət sahəsində satış əməliyyatlarının nəticələrinin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə kassa-nəzarət aparatlarından çıxarışları əldə etmək və bu məlumatları maliyyə hesabatları ilə tutuşdurmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;
- Maliyyə nəticələrinə təsir göstərən sair satış əməliyyatları və satışdankənar əməliyyatlar üzrə gəlirləri araşdırmaq, onların mövcud mühasibat uçotu prinsiplərinə uyğun əks etdirildiyinə əmin olmaq.
- Aşağıdakı gəlir və xərclərə xüsusi diqqət yetirmək:

- xarici valyutada aparılmış əməliyyatların məzənnə fərqlərindən gəlirlər və xərclər;
- alınmış cərimə və peniyalar;
- əmlakın icarəyə verilməsindən gəlirlər və xərclər;
- birgə fəaliyyətdən gəlirlər və xərclər;
- əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaric olmasından gəlirlər və xərclər;
- qiymətli kağızların alqı-satqısı nəticəsində əldə edilmiş gəlirlər və xərclər;

- Sair satış üzrə əldə edilmiş gəlirlərin düzgünlüyünə əmin olmaq məqsədilə hesabat göstəricilərini müvafiq bölmələrdə aparılmış audit prosedurlarının nəticələri ilə üzləşdirmək, bu növ satış əməliyyatlarının hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq;
- Malların satışı (işlərin görülməsi, xidmətlərin göstərilməsi) zamanı xüsusi razılıq (lisenziya) tələb olunan halların mövcud olub-olmadığına diqqət yetirmək;
- Satış əməliyyatları üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyünü yoxlamaq, gəlirin mənfəət və zərər hesabatında və vergi hesabatlarında düzgün əks etdirildiyinə əmin olmaq.

## *12. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi*

- Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində daxilolma, il ərzində xaricolma və ilin sonuna qalığı əks etdirməklə, hesabat dövrü ərzində balans hesabları üzrə dövriyyə-qalıq cədvəli tərtib etmək və bu məlumatları baş kitabın məlumatları ilə tutuşdurmaq;
- Aşağıdakı balans hesablarını araşdırmaq:

- ehtiyat kapitalı;
- əlavə kapital;
- keçmiş illərin bölüşdürülməmiş mənfəəti;
- keçmiş illərin ödənilməmiş zərəri;
- xüsusi fondlar və ehtiyatlar;

- Hesabat dövrü ərzində səhmdarların ümumi yığıncağının protokollarının, idarə heyətinin qərarlarının surətini tələb etmək, qəbul edilmiş qərarlarla tanış olmaq və bu qərarların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq;
- Verilmiş dividendlərin qəbul edilmiş qərarlara əsasən düzgün hesablandığını yoxlamaq. Hesablanmış dividendlərdən ödəmə mənbəyində tutulan gəlir vergisinin düzgün hesablandığına əmin olmaq məqsədilə vergilər üzrə hesablaşmalar bölməsində audit prosedurlarının nəticələrini dividenddən tutulmuş vergilərlə tutuşdurmaq;
- Dividendlərin hazır məhsul və ya əmlakla ödənildiyi hallarda qiymətlərin düzgün müəyyən edildiyini yoxlamaq;
- ***Imtiyazlı səhmlər üzrə ödənilmiş dividendlərin hesablanmasının düzgünlüyünə əmin olmaq;***
- ***Dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) dividendlərin ödənilməsi halları varsa, bu halların nizamnamədə nəzərdə tutulduğuna əmin olmaq və onların ödənilməsi barədə qərarlarla tanış olmaq;***
- ***SC-nin xalis aktivlərinin dəyəri onun nizamnamə kapitalından az olduğu hallarda dividendlərin elan edilib ödənilmədiyinə əmin olmaq;***
- Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz alınması və ya əvəzsiz verilməsi hallarını araşdırmaq və onların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;
- Əlavə emissiya və ya nominal qiymətlərin artması yolu ilə səhmlərin nominal dəyərindən yüksək qiymətə satılması hallarını araşdırmaq. Satış qiyməti ilə nominal dəyər arasındakı fərqin emissiya gəlirinə aid edildiyinə əmin olmaq;
- Uçot siyasətinə və təsis sənədlərinə (qərarlarına) əsasən xüsusi təyinatlı fondların düzgün yaradıldığına əmin olmaq, bu məlumatlardan səhmlərlə bağlı əməliyyatların auditi zamanı istifadə etmək;

- Fondlar hesabına xərclənmiş vəsaitlərin smetasına əlavə edilmiş ilkin sənədlərə əsasən çəkilmiş xərclərin nə dərəcədə əsaslı və məqsədəuyğun olduğuna qiymət vermək;
- **HESABAT DÖVRÜ ZƏRƏRLƏ BAŞA VURULARSA, ZƏRƏRİN ÖRTÜLMƏSİNİN HANSI VƏSAİTLƏR HESABINA HƏYATA KEÇİRİLDİYNİ ARAŞDIRMAQ VƏ BU ƏMƏLİYYATLARIN MÜHASİBAT UÇOTUNDA DÜZGÜN ƏKS ETDİRİLDİYİNİ YOXLAMAQ;**
- Mənfəətin maliyyə və vergi uçotuna görə müxtəlif olduğu halları araşdırmaq və düzgünlüyünə əmin olmaq.

### *13. Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər*

- Audit nəticəsində düzgün sayılmış balans hesabatı və hesabata əlavələr tərtib edildikdən sonra daha çox əhəmiyyətli olan aşağıdakı göstəriciləri hesablamaq:

- cari likvidlik əmsalı (dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə nisbəti);
- xalis dövriyyə kapitalı (dövriyyə vəsaitləri ilə qısamüddətli öhdəliklərin fərqi);
- fərdilik əmsalı (fərdi kapitalın aktivlərin məbləğinə nisbəti);
- maliyyə asılılığı əmsalı (ödənilərsi kapitalın (passivlərin) fərdi kapitala nisbəti);
- fərdi kapitalın rentabelliyi (mənfəətin fərdi kapitala nisbəti);
- səmərəlilik və rentabellik səviyyəsi;
- daha çox əhəmiyyətli sayılan digər göstəricilər.

- Bu göstəriciləri keçən illərin nəticələrinin göstəriciləri ilə üzləşdirmək üçün müqayisə cədvəli tərtib etmək. Iqtisadi göstəricilərin aşağı düşməsi halları aşkar edilərsə, səbəblərini təhlil etmək və rəhbərliyə məktubda və auditin nəticələri barədə aktda açıqlamaq;
- Səhmlərə görə gəlirlərin, imtiyazlı səhmlərin dividendlərinin həcmi qədər azaldılacaq xalis gəlirin adi səhmlərin ümumi sayına olan nisbətinin səhmlərin bazar qiymətinə nə dərəcədə təsir göstərdiyini təhlil etmək;
- Səhmlər üzrə ödənilən dividendin onların bazar qiymətinə olan nisbətini hesablamaq, dividendlərin xalis gəlirə nisbətən xüsusi çəkisini müəyyənləşdirmək və bunun gələcəkdə dövriyyə kapitalının azalmasına təsirini təhlil etmək;
- Səhmdar cəmiyyətinin aktivlərinin dəyərinin aşağı düşməsi hallarını təhlil etmək, bu məbləğin nizamnamə kapitalindan aşağı olmadığına əmin olmaq. Aktivlərin dəyərinin aşağı düşməsinin nizamnamə kapitalının aşağı düşməsinə səbəb olduğunu və nizamnamə kapitalının minimum məbləğdən aşağı olmasının səhmdar cəmiyyətinin ləğvi ilə nəticələnə biləcəyini nəzərə almaq;
- Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların auditlə əhatə edilən dövr ərzində aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək;
- Audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqları,onların aradan qaldırılmasına dair lazımi təklif və tövsiyələri, mühasibat uçotunun vəziyyətinə verilmiş qiymət barədə mülahizələri auditor aktına və rəhbərliyə ünvanlanan məktuba daxil etmək.

**PROQRAMI TƏRTIB ETDI:**
**NAZİM AXUNDOV –**
***sərbəst auditor***

RƏYÇILƏR:
***Ramiz QƏNIZADƏ –***
***Auditor xidməti departamentinın direktoru***
***Südeyif MƏMMƏDOV*** –
**BAKI ŞƏHƏR AUDİTOR TƏŞKİLATININ DİREKTORU**

MÜNDƏRICAT

**1.Səhmdar cəmiyyətinin hüquqi əsasları və nizamnamə kapitalının formalaşdırılmasının auditi---------------------------------------------------------1**
**2.Dövriyyə cədvəli və mühasibat hesabatlarının auditi-----------------3**
**3.Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi-----------------4**
**3.1.Kassada aparılan əməliyyatların auditi--------------------------------4**
**3.2.Hesablaşma hesabı üzrə əməliyyatların auditi-----------------------6**
**3.3.Xarici valyutada aparılan bank əməliyyatlarının auditi-----------7**
**3.4.Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi-----------------------------------------------------------------8**
**4.Hesablaşma və kredit əməliyyatlarının auditi-------------------------9**
**4.1.Malsatan və podratçı təşkilatlarla hesablaşmaların auditi--------9**
**4.2.Alıcı və sifarişçilərlə hesablaşmaların auditi------------------------11**
**4.3.Dövlət Sosial Müdafiə Fondu (DSMF) ilə hesablaşmaların auditi-------------------------------------------------------------------------------------12**
**4.4.Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi-----------------------13**
**4.5.Vergilər üzrə hesablaşmaların auditi---------------------------------13**
**4.6.Digər hesablaşma əməliyyatlarının auditi---------------------------15**
**4.7.Kreditlər və borclar üzrə əməliyyatların auditi--------------------17**
**5.Əsas vəsaitlərin (ƏV) və qeyri-maddi aktivlərin (QMA) auditi----17**
**6.Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyyatlarının (IE) auditi---------------------------------------------------------------------------------19**
**7.Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmalarının auditi-------------------------------------------------------------21**
**8.Xərclər və maya dəyərinin auditi-----------------------------------------23**
**9.Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi----------26**
**10.Səhmlərlə bağlı əməliyyatların auditi-----------------------------------27**
**11.Malların satışı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi---------------------------------------------------------------28**
**12.Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi-----------------------------------------------------------------------------------30**
**13.Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər ---------------------------------------------------------------------------------------31**

**AS1DS 028/079-2005**

***Azərbaycan Respublikasının***
Auditorlar Palatası Şurasının
***2005-ci il 19 yanvar tarixli***
***144/2 saylı qərarı ilə təsdiq edilmişdir***

***SIĞORTA TƏŞKILATLARINDA***

***AUDIT APARILMASINA DAIR***

***PROQRAM***

**MÜNDƏRICAT:**

***I. Sığorta təşkilatı haqqında məlumat***
*II. Sığorta təşkilatının əsas fəaliyyəti*
*III. Pul vəsaitləri və qisamüddətli maliyyə qoyuluşları*
*IV. Əsas vəsaitlər və başqa uzunmüddətli qoyuluşlar*
*V. Material dəyərliləri*
*VI. Gəlirlər*
*VII. Xərclər və ödənişlər*
***VIII. Maliyyə nəticələri və mənfəətdən istifadə***
*IX. Hesablaşmalar*
***X. Kreditlər və maliyyələşmələr***
*XI. Kapitallar (fondlar) və ehtiyatlar*
***XII. Sığorta ehtiyatlarının yaradılması***
***XIII. Sığorta fəaliyyətinə nəzarətin yoxlanılması***
***XIV. Nəticə və təkliflər***

Sığorta təşkilatlarının spesifik xüsusiyyətlərə malik olması və onlarda audit aparılmasının vacibliyi nəzərə alınaraq, aşağıdakı proqramın hazırlanması məqsədəuyğun sayılmışdır.

Proqram «Sığorta haqqında» Azərbaycan Respublikasının Qanunu və Auditorlar Palatası Şurasının təsdiq etdiyi audit standartları rəhbər tutulmaqla tərtib edilmişdir.

### *I. Sığorta təşkilatı haqqında məlumat*

**1. Sığorta işinin təşkilinin yoxlanılması:**
- Sığortaçının təsisçiləri
- Nizamnamə kapitalının formalaşması
- Sığortaçının təşkilati strukturu
- Sığortanın könüllü növləri üzrə razılaşdırılmış qaydalar
- Lisenziyanın alınması.

### *II. Sığorta təşkilatının əsas fəaliyyəti*

**1. Sığorta müqaviləsinin yoxlanılması:**
- Sığorta müqaviləsinin razılaşdırılmış sığorta qaydalarına və qanunvericilik aktlarına müvafiq bağlanması
- Sığorta müqaviləsinin qüvvədə olma müddəti
- Sığorta müqaviləsinə xitam verilməsi

- Sığorta məbləği, tariflər və sığorta haqları.

**2. Sığorta fəaliyyətinin əsasları və maliyyə sabitliyinin yoxlanılması:**
- Sığorta obyektləri, sahələri və formaları
- Maliyyə sabitliyinin əsası
- Xüsusi təminat
- Sığorta risklərinin təkrar sığortalanması.

**3. Həyat və qeyri-həyat sığortasının yoxlanılması:**
- Həyat sığortası
- Qeyri-həyat sığortaları üzrə sığortanın növləri
- Tibbi sığorta
- Icbari sığorta
- Təkrar sığorta.

**4. Sığorta təşkilatlarının fəaliyyəti üçün təsdiq edilmiş formaların yoxlanılması:**
- Sığorta təşkilatının hesabat sənədləri (balans və ona əlavələr)
- "Sığorta ehtiyatlarının investisiyaya yönəldiməsinə dair" 15 saylı, "Bağlanmış sığorta müqavilələri və sığortaçının öz vəsaitləri haqqında" 6 saylı, "Təkrar sığorta haqqında" 7 saylı və digər hesabat formalarının ilkin sənədlərə əsasən tərtib edilməsinin düzgünlüyünün yoxlanılması.

### *III. Pul vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları*

**1. Kassa əməliyyatları:**
- Kassa əməliyyatlarının qüvvədə olan qanunvericilik aktlarına və normativ aktlara uyğun aparılmasının yoxlanılması
- Kassada maddi məsul şəxslərin iştirakı ilə ciddi hesabat blanklarının və qiymətli kağızların inventarizasiyasının aparılması
- Kassaya bankdan və digər mənbələrdən daxil olmuş pul vəsaitlərinin hərəkətinin və onların məqsədyönlü sərf edilməsinin yoxlanılması
- Kassa mədaxil və məxaric sənədlərinin düzgün tərtib edilməsinə və onların düzgünlüyünü təsdiq edən ilkin sənədlərin hərəkətinə fikir verilməsi
- Kassa kitabının təlimata uyğun tərtib edilməsinin yoxlanılması və kassa əməliyyatlarının digər əməliyyatlarla üzləşdirilməsi.

**2. Hesablaşma hesabının yoxlanılması:**
- Sığorta təşkilatının bankdakı hesablaşma hesabının və valyuta hesablarının yoxlanılması
- Hesablaşma hesabında olan pul vəsaitinin hərəkətinin yoxlanılması
- Hesablaşma hesabında olan qalığın düzgünlüyünün, bank çıxarışları ilə müəssisənin məlumatlarının uyğunluğunun yoxlanılması
- Hesablaşma hesabından istifadə edilən pul vəsaitlərinin düzgünlüyünün ilkin sənədlərlə yoxlanılması
- Cari hesablardan istifadə edilməsinin, çek kitabçalarının saxlanmasının, akkreditivlərin və s. əməliyyatların düzgünlüyünün yoxlanılması.

**3. Valyuta hesabının yoxlanılması:**
- Valyuta əməliyyatlarının qabaqcadan ödəmə, inkassa, akkreditiv vasitəsilə aparılmasının yoxlanılması
- Valyuta hesabında əmələ gələn məzənnə fərqinin uçotda düzgün əks etdirilməsinin yoxlanılması

- Valyuta əməliyyatları nəticəsində yaranan debitor və kreditor borclarının düzgünlüyünün yoxlanılması.

**4. Banklarda olan xüsusi vəsaitlərin yoxlanılması:**

- **BANKLARDA İSTƏR MİLLİ, İSTƏRSƏ DƏ XARİCİ VALYUTADA OLAN XÜSUSİ VƏSAİTLƏRİN YOXLANILMASI**
- **MƏQSƏDLİ MALİYYƏLƏŞMƏ, XARİCDƏ YERLƏŞƏN MÜƏSSİSƏLƏRƏ AÇILMIŞ AKKREDİTİVLƏRİN YOXLANILMASI**
- **TƏTBİQ EDİLMİŞ AKKREDİTİV HESABLAŞMALARININ DÜZGÜNLÜYÜNÜN YOXLANILMASI**
- Məqsədli maliyyələşmə üçün ayrılmış pul vəsaitlərinin düzgün istifadəsinin yoxlanılması
- Bankdan alınmış nağd depozitlərin düzgünlüyünün yoxlanılması.

**5. Pul sənədləri və yolda olan vəsaitlərin yoxlanılması:**

- Pul sənədlərinin uçotunun düzgünlüyünün, mədaxil və məxaric sənədlərinin yoxlanılması
- Pul sənədlərinin hərəkəti barədə tərtib edilmiş hesabatın yoxlanılması
- Pul sənədlərinin mühasibat uçotunda nominal qiymətlə uçota düzgün alınıb-alınmamasının yoxlanılması
- Yolda olan vəsaitlərin yoxlanılması.

**6. Qısamüddətli maliyyə qoyuluşlarının yoxlanılması:**

- Qısamüddətli maliyyə qoyuluşlarının həyata keçirilməsi mənbəyinin yoxlanılması
- Qısamüddətli maliyyə qoyuluşlarının növlərinin yoxlanılması
- Qısamüddətli maliyyə qoyuluşlarının həyata keçirildiyi obyektlərin düzgün seçildiyinin təyin edilməsi
- Sığorta təşkilatı tərəfindən əldə edilən qısamüddətli istiqrazların və bunlara oxşar qiymətli kağızların alış dəyəri ilə nominal dəyərinin fərqləndirilməsi
- Qısamüddətli qiymətli kağızların analitik və sintetik uçotunun yoxlanılması.

### *IV. Əsas vəsaitlər və başqa uzunmüddətli qoyuluşlar*

**1. Əsas vəsaitlərin yoxlanılması:**

- Əsas vəsaitlərin uçotunun nəzərdən keçirilməsi
- Əsas vəsaitlərin mədaxil və məxaric sənədlərinin yoxlanılması
- Əsas vəsaitlərin qiymətləndirilməsinin qanuna uyğunluğunun yoxlanılması
- Əsas vəsaitlərə amortizasiyanın hesablanmasının düzgün əks etdirilməsinin yoxlanılması
- Əsas vəsaitlərin siniflər üzrə qruplaşdırılmasının yoxlanılması
- Əsas vəsaitlərin silinməsinin və satılmasının yoxlanılması
- Uzun müddətə icarəyə götürülmüş əsas vəsaitlərin sənədləşdirilməsinin yoxlanılması
- Uzun müddətə icarəyə götürülmüş əsas vəsaitlərin ödəniş haqqının düzgünlüyünün yoxlanılması.

**2. Qeyri-maddi aktivlər:**

- Qeyri-maddi aktivlərə aid edilən vəsaitlərin düzgünlüyünün və qeyri-maddi aktivlərin hansı dəyərlə uçota alınmasının yoxlanılması
- Təsisçilər və digər təşkilatlar tərəfindən sığorta təşkilatına verilən qeyri-maddi aktivlərin düzgün uçota alınmasının yoxlanılması
- Qeyri-maddi aktivlərin satılması və silinməsi zamanı uçotda düzgün əks etdirilməsinin yoxlanılması.

**3. Uzunmüddətli maliyyə qoyuluşlarının yoxlanılması:**

- Uzun müddətə alınmış qiymətli kağızlara qoyulan vəsaitin düzgünlüyünün yoxlanılması
- Digər müəssisə və təşkilatların nizamnamə kapitalına qoyulan vəsaitin yaranma mənbəyinin yoxlanılması
- Uzunmüddətli maliyyə qoyuluşlarının reallığının yoxlanılması
- Uzun müddətə verilmiş borcların həqiqiliyinin yoxlanılması
- Uzun müddətə qoyulan paylar və səhmlərin həqiqiliyinin yoxlanılması
- Xarici ölkələrə qoyulan uzunmüddətli maliyyə qoyuluşlarının hərəkətinin, onların uçotunun düzgünlüyünün yoxlanılması.

**4. Uzunmüddətli qiymətli kağızların yoxlanılması:**

- Sığorta təşkilatının başqa müəssisə və təşkilatların səhmlərinə, istiqrazlarına və digər qiymətli kağızlarına qoyduğu vəsaitlərin uçotunun düzgünlüyünün yoxlanılması
- Uzunmüddətli investisiyaların mövcudluğunun və hərəkətinin yoxlanılması
- Uzunmüddətli qiymətli kağızların alış dəyəri ilə nominal dəyəri arasında fərqin yoxlanılması
- Istiqraz və digər buna bənzər qiymətli kağızlardan gələn gəlirin uçotda necə əks etdirilməsinin yoxlanılması
- Uzunmüddətli qiymətli kağızların uçota alınması zamanı onların uçota alınma qiymətinin nominal qiymətinə müvafiq olub-olmamasının yoxlanılması
- Sığorta təşkilatı tərəfindən pulu ödənilən, lakin uçota hələ düşməyən vəsaitlərin düzgünlüyünün yoxlanılması.

*V. Material dəyərliləri*

**1. Materialların yoxlanılması:**

- Materialların inventarizasiyası nəticələrinin yoxlanılması
- Materialların əldə edilməsinin və uçota alınmasının yoxlanılması
- Sığorta təşkilatının balansında olan materialların növlər üzrə düzgün uçota alınmasının yoxlanılması
- Materialların mədaxil olunmasının və alınmasının düzgünlüyünün yoxlanılması.

**2. Azqiymətli və tezköhnələn əşyaların yoxlanılması:**

- Sığorta təşkilatına məxsus azqiymətli və tezköhnələn əşyaların düzgün sənədləşdirilməsinin yoxlanılması
- Onların silinməsinin və xərcə düzgün aid edilməsinin yoxlanılması
- Azqiymətli və tezköhnələn əşyaların mühasibat uçotunda düzgün əks etdirilməsinin yoxlanılması
- Onların hərəkətini nəzərdən keçirməklə, əməliyyatların uçotda düzgün qeyd edilməsinin və köhnəlmənin düzgün hesablanmasının yoxlanılması.

***VI. Gəlirlər***

**1. Alınmış komisyon və broker faiz mükafatlarının, tantyemlərin (əlavə mükafatların), rüsumların yoxlanılması:**

- Sığorta təşkilatı tərəfindən alınmış komisyon və broker faiz mükafatları və onların bağlanmış müqavilələrdə nəzərdə tutulan müddəalara uyğunluğunun yoxlanılması

- Xalis gəlirdən bank və müəssisə rəhbərlərinə verilən əlavə mükafatların düzgünlüyünün yoxlanılması
- Təkrar sığorta əməliyyatlarından əldə edilmiş komisyon və broker faiz mükafatlarının uçotda əks etdirilməsinin yoxlanılması
- Tantyemlərin (əlavə mükafatların) verilməsi, onların sənədlərinin düzgün tərtibatının yoxlanılması.

**2. Təkrar sığortaya qəbul edilmiş risklər üzrə alınan sığorta mükafatlarının yoxlanılması:**

- Sığorta tədiyyələrinin məbləğinin dəqiqləşdirilməsi
- Təkrar sığortaya qəbul edilmiş risklərə görə alınacaq sığorta mükafatının yoxlanılması
- Təkrar sığorta əməliyyatlarının maliyyə nəticələrinin düzgünlüyünün yoxlanılması
- Təkrar sığortaya qəbul edilmiş risklərə görə alınan vəsaitlərin uçotda düzgün əks etdirilməsinin yoxlanılması.

**3. Təkrar sığortaya və başqa təkrar sığortaçılara verilmiş retrosessiya (sığortaçılara verilmiş risklər) üzrə dəyərin geri alınmasının yoxlanılması:**

- Təkrar sığortaya verilmiş risklər üzrə əmələ gəlmiş dəyərlərin ödənilməsi üçün təkrar sığortaçıdan alınmış məbləğlərin yoxlanılması
- Təkrar sığortaya və başqa təkrar sığortaçılara verilmiş retrosessiya üzrə zərərin geri alınması zamanı onların mühasibat uçotunda düzgün müxabirləşməsinin və qeydə alınmasının yoxlanılması.

**4. Təkrar sığortaya verilmiş risklər üzrə mükafatın yoxlanılması:**

- Qazanılmamış mükafat ehtiyatında təkrar sığortaçıların payının yoxlanılması
- Tənzimlənməmiş zərərlər ehtiyatında təkrar sığortaçıların payının yoxlanılması
- Bütün sığorta növləri üzrə təkrar sığortaçıların payının yoxlanılması
- Təkrar sığortaçılara verilmiş risklər üzrə analitik uçotun düzgünlüyünün yoxlanılması
- Təkrar sığorta müqavilələrində nəzərdə tutulmuş komisyon məbləğlərinin alınmasının düzgünlüyünün yoxlanılması.

**5. Birbaşa sığorta üzrə sığorta mükafatlarının (haqlarının) yoxlanılması:**

- Sığorta təşkilatının bağladığı və ya sığorta təşkilatının adından bağlanmış sığorta müqavilələri üzrə alınmış sığorta haqlarının (mükafatlarının) məbləğlərinin yoxlanılması
- Birbaşa sığorta üzrə mükafatların (haqların) daxil olduğu hər bir valyuta üzrə (milli valyutada və ya xarici valyutada) ayırmaların yoxlanılması
- Birbaşa sığorta üzrə sığorta haqları (mükafatları) kimi daxil olan vəsaitin analitik uçotunun yoxlanılması.

**6. Sair gəlirlərin yoxlanılması:**

- Əmlakın icarəyə verilməsindən əldə edilən gəlirlərin yoxlanılması
- Keçmiş illərdə müəssisənin zərərinə silinmiş ümidsiz debitor borcunun ödənilməsindən daxil olan vəsaitlərin yoxlanılması
- Təsərrüfat müqavilələri şərtlərinin pozulmasına görə məhkəmə tərəfindən kəsilmiş, yaxud borclu tərəfindən etiraf edilmiş cərimələr, peniyalar, dəbbə pulları və başqa sanksiyalar, həmçinin dəyən zərərlərin ödənilməsinin yoxlanılması
- Sığorta əməliyyatları ilə əlaqədar fəaliyyətdən əldə edilən başqa növ gəlirlərin yoxlanılması.

**7. Əsas vəsaitlərin satışı və sair xaricolmalardan gələn gəlirlərin yoxlanılması:**

- Əsas vəsaitlərin satışından daxil olan pul vəsaitlərinin yoxlanılması
- Sıradan çıxmış, bərpası mümkün olmayan əsas vəsaitlərin satışından daxil olan pul vəsaitlərinin yoxlanılması.

**8. Sair aktivlərin satışından gələn gəlirlərin yoxlanılması:**

- Qeyri-maddi aktivlərin satışından daxil olan pul vəsaitlərinin yoxlanılması
- Dövriyyədəki vəsaitlərin satışından daxil olan pul vəsaitlərinin yoxlanılması
- Sair mal-material qiymətlilərinin satışından daxil olan pul vəsaitlərinin yoxlanılması.

**9. Sığorta ehtiyatlarının dəyişməsi nəticəsində daxil olan gəlirlərin yoxlanılması:**

- Qazanılmış mükafat ehtiyatının dəyişməsinin yoxlanılması
- Bildirilmiş, lakin tənzimlənməmiş zərərlər ehtiyatının dəyişməsinin yoxlanılması
- Baş vermiş, lakin bildirilməmiş zərərlər ehtiyatının dəyişməsinin yoxlanılması
- Qəzalar ehtiyatının dəyişməsinin yoxlanılması
- Zərərlilik dəyişmələri ehtiyatının dəyişməsinin yoxlanılması
- Həyat sığortası üzrə ehtiyatın dəyişməsinin yoxlanılması
- Sığorta ehtiyatlarının dəyişməsindən daxil olan vəsaitlərin analitik uçotu və onların növlər üzrə qeydiyyatının yoxlanılması.

## *VII. Xərclər və ödənişlər*

**1. Işlərin aparılmasına dair xərclərin yoxlanılması:**

- Sığorta şəhadətnaməsinə, ciddi hesabat blanklarına, qəbzlərə çəkilən xərclər
- Sığorta qaydalarının çoxaldılma xərcləri
- Səhiyyə xərcləri, arayışların alınması, rəylərin verilməsi xərci
- Statistik məlumatların verilməsi xərcləri
- Sığorta agenti və brokerinin xidməti xərci və komisyon mükafatlandırılma xərci
- Sığorta hadisəsindən sonra çəkilən xərclər
- Mütəxəssislərin xidmət xərcləri
- Idarəetmə aparatının xərci
- Qeyri-dövlət təşkilatlarına ödəmələr
- Təsərrüfat xərci
- Ezamiyyə xərci
- Amortizasiya ayırmaları
- Məsləhət xidməti xərci
- Informasiya xidməti xərci
- Auditor xidməti xərci
- Illik balansın dərc edilməsi xərci
- Xidməti nəqliyyat xərci
- Nümayəndəlik xərci
- Kadr hazırlığı xərci
- Reklam xərci
- Bank xidməti xərci
- Inkassator xərci
- Rabitə xərci
- Kənar təşkilatların xidmətinin xərci
- Işçilərin toplanması üzrə xərc
- Mühafizə və yanğından qorunmağa çəkilən xərc
- Əsas fondların təmir xərcləri

- Sığorta fəaliyyəti ilə bağlı gəlirdən çıxılan digər xərclər.

**2. Sair xərclərin yoxlanılması:**
- Faiz xərcləri
- Əsas vəsaitlərdən və qiymətli kağızlardan gələn zərər
- Qeyri-maddi aktivlərdən və digər materiallardan gələn zərər
- Keçmiş illərin zərəri
- Məzənnə fərqi
- Fəlakət zamanı bağlanmayan xərclər
- Vergi ödənişləri
- Təhsil müəssisələrinin xərci (hüquqi şəxslər üçün)
- Reklam vergisi
- Yaşayış fondunun saxlanması və sosial-mədəni tədbirlər xərci
- Sosial xərclər.

**3. Birbaşa sığorta üzrə sığorta ödənişlərindən gələn zərərlərin yoxlanılması:**
- Sığorta müqavilələrinin vaxtından əvvəl pozulması zamanı sığorta olunanlara ödənilən məbləğlərdən, sığorta hadisəsinin baş verməsi nəticəsində sığorta olunanlara verilmiş məbləğlərdən gələn zərərlərin və ödənişlərin yoxlanılması
- Vaxtından əvvəl dayandırılmış sığorta müqavilələrindən dəyən zərərin yoxlanılması
- Hesabat dövründən əvvəl baş vermiş sığorta hadisələrindən dəyən zərərlərin və ödənişlərin yoxlanılması
- Hesabat dövründə baş verən sığorta hadisələrindən dəyən zərərlərin və ödənişlərin yoxlanılması
- Həyat sığortasından dəyən zərərlərin və ödənişlərin yoxlanılması
- Birbaşa sığorta üzrə ödənişlərin analitik uçotu və onların növlər üzrə qeydə alınmasının yoxlanılması.

**4. Təkrar sığortaya qəbul edilmiş risklər üzrə ödənilməli zərərlərin yoxlanılması:**
- Təkrar sığortaya qəbul edilmiş risklər üzrə ödənilməli zərərin ödənişinin yoxlanılması
- Təkrar sığortaya və retrosessiyaya verilmiş risklər üzrə ödənilmiş sığorta mükafatlarının yoxlanılması.

**5. Xidmətedici istehsalat və təsərrüfat xərclərinin yoxlanılması:**
- Sığorta təşkilatının balansında olan sosial-mədəni obyektlərə və yaşayış fonduna çəkilən xərclərin yoxlanılması
- Mənzil-kommunal təsərrüfatının istismarından yaranan xərclərin yoxlanılması
- Xidmətedici istehsalat və təsərrüfat xərclərinin ayrı-ayrı xərc maddələri üzrə düzgün uçota alınmasının yoxlanılması.

**6. Gələcək dövrün xərclərinin yoxlanılması:**
- Əsas vəsaitlərin il ərzində qeyri-bərabər aparılan təmir xərclərinin yoxlanılması
- Gələcək dövr üçün icarə haqlarının yoxlanılması
- Bu cür xərclərin normativ sənədlərə uyğun həyata keçirilməsinin yoxlanılması.

**7. Ödənilmiş komisyon və broker faiz mükafatlarının, xalis gəlirdən bank və müəssisə rəhbərlərinə verilən əlavə mükafatların yoxlanılması:**
- Sığorta təşkilatları tərəfindən ödənilmiş komisyon və broker faiz mükafatlarının düzgün verilməsinin yoxlanılması
- Xalis gəlirdən bank və müəssisə rəhbərlərinə verilən əlavə mükafatların və onların ödədikləri cərimə mənbəyinin yoxlanılması

- Təkrar sığortaya qəbul edilmiş müqavilələr üzrə tantyemlər kimi verilən vəsaitlərin yoxlanılması.

*VIII. Maliyyə nəticələri və mənfəətdən istifadə*

**1. Mənfəət və zərərlərin yoxlanılması:**

- Maliyyə nəticəsi və onların istifadəsinə dair 2 №-li forma hesabatının düzgün tərtib edilməsinin yoxlanılması
- Birbaşa sığorta üzrə ödənişlər
- Işlərin aparılması xərcləri
- Sığorta ehtiyatlarının dəyişməsi
- Zərərlər ehtiyatı və başqa texniki ehtiyatlar
- Sair xərclər
- Birbaşa sığorta üzrə sığorta haqları
- Sair gəlirlər
- Təkrar sığortaya verilmiş risklər üzrə ödənilmiş sığorta mükafatları və alınmış sığorta mükafatları
- Alınmış komisyon və broker faiz mükafatları, tantyemlər və rüsumlar.

**2. Mənfəətin istifadəsinin yoxlanılması:**

- Sığorta təşkilatında hesabat ilinin başa çatması ilə əlaqədar mənfəətdən istifadənin düzgünlüyünün yoxlanılması
- Mənfəətin digər məqsədlər üçün istifadəsinin uçotda düzgün qeydə alınması, ödəmələrin növlərinin analitik uçotunun yoxlanılması.

**3. Qiymətləndiriləcək ehtiyatların yoxlanılması:**

- Sığorta təşkilatında qiymətləndiriləcək ehtiyatlar üzrə əməliyyatların yoxlanılması
- Şübhəli borcların, qiymətli kağızlara qoyuluşların qiymətdən düşməsinin yoxlanılması.

**4. Gələcək dövrlərin gəlirlərinin yoxlanılması:**

- Gələcək dövrlərin hesabına alınmış gəlirlər
- Keçmiş illərə aid müəyyən edilmiş əskikgəlmələr üzrə daxil olan borclar
- Məzənnə fərqləri
- Sığorta edilmiş əmlaka vurulmuş zərər üçün təqsirkar olan şəxslərə məhkəmədə sığortaçının xeyrinə kəsilmiş və ya həmin şəxslər tərəfindən etiraf edilmiş məbləğlər
- Əskik gələn dəyərlilərin balans dəyəri ilə təqsirkar şəxslərdən tutulan məbləğlər arasında yaranan fərqlər.

**5. Dəyərlilərin əskik gəlməsindən və xarab olmasından yaranan itkilərin yoxlanılması:**

- Əskik gəlmiş (oğurlanmış), yaxud tamamilə xarab edilmiş mal-material dəyərlilərinin dəyərinin yoxlanılması
- Əskik gəlmiş (oğurlanmış), yaxud tamamilə xarab edilmiş əsas vəsaitlərin qalıq dəyərinin yoxlanılması
- Mal-material dəyərlilərinin qismən xarab olmasının səbəbinin aydınlaşdırılması və itki məbləğinin müəyyənləşdirilməsi.

*IX. Hesablaşmalar*

**1. Malsatan və podratçılarla hesablaşmaların yoxlanılması:**

- Alınmış mal-material dəyərlilərinin, yerinə yetirilmiş işlər və göstərilmiş xidmətlərin dəyərinin ödənilməsinin düzgünlüyünün yoxlanılması
- Malsatan, yaxud podratçılardan hesablaşma sənədlərinə əsasən daxil olmamış mal-material dəyərliləri, iş və xidmətlərin yoxlanılması
- Mal-material dəyərlilərinin qəbulu zamanı aşkar edilən artıqlığın yaranma səbəblərinin aydınlaşdırılması
- Daşımalar üzrə göstərilmiş xidmətlərin, həmçinin rabitə xidmətinin bütün növlərinin yoxlanılması
- Ödəmə müddəti çatmamış aksept edilmiş sənədlərin yoxlanılması
- Vaxtında ödənilməmiş hesablaşma sənədlərinin yoxlanılması
- Malsatanlardan hesablaşma sənədləri alınmayan mal-material dəyərlilərinin yoxlanılması.

**2. Iddialar və iddia tələbləri üzrə hesablaşmaların yoxlanılması:**

- Malsatan, podratçı və nəqliyyat təşkilatlarının hesablaşmaları yoxlanılan zaman müqavilə və ya preyskurantda nəzərdə tutulmuş qiymət və tariflərin yoxlanılması
- Keyfiyyət standartları və sifarişlər üzrə uyğunsuzluqların yoxlanılması
- Yolda olan yükün təbii itki normalarından artıq əskikgəlməsinə görə malsatanlara, nəqliyyat təşkilatlarına və başqa təşkilatlara təqdim edilən iddiaların yoxlanılması
- Sığorta təşkilatlarının hesablarından səhvən silinmiş məbləğlərə görə banka təqdim edilən iddiaların yoxlanılması
- Sığorta olunan iddia tələbləri üzrə sığorta olunmuş əmlaka vurulmuş zərərin yoxlanılması
- Iddia və başqa tələblərin ödənilməsi üçün daxil olan məbləğin yoxlanılması.

**3. Təkrar sığortaya verilmiş risklər üzrə hesablaşmaların yoxlanılması:**

- Təkrar sığortaya verilmiş risklər üzrə hesablaşmaların auditi zamanı təkrar sığorta ilə əlaqədar bu hesablara daxil olan və məxaric olunan vəsaitlərin hərəkətinin yoxlanılması.

**4. Büdcə ilə hesablaşmaların yoxlanılması:**

- Sığorta təşkilatı tərəfindən büdcəyə ödənilən məbləğlərin düzgün hesablanmasının, onların qanunvericilik aktlarına və normativ aktlara uyğun olmasının yoxlanılması
- Büdcə ilə hesablaşmalar zamanı vergilərin dövlət büdcəsinə ödənilməsinin düzgünlüyünün yoxlanılması.

**5. Sosial sığorta və təminat üzrə hesablaşmaların yoxlanılması:**

- Sosial sığorta üzrə hesablaşmalar
- Pensiya təminatı üzrə hesablaşmalar
- Tibbi sığorta üzrə hesablaşmalar
- Digər fondlarla hesablaşmalar.

**6. Əməyin ödənişi üzrə işçi heyəti ilə və təhtəlhesab şəxslərlə hesablaşmaların yoxlanılması:**

- Sığorta təşkilatında işçi heyətinə əməyin ödənilməsi ilə bağlı əmək haqqı, mükafat, maddi yardım, işçilərə verilən təqaüd və digər ödəmələrin yoxlanılması
- Sığorta təşkilatının işçilərinə verilən vəsaitlərin (inzibati-təsərrüfat və əməliyyat, habelə ezamiyyə xərclərinin) yoxlanılması.

**7. Müxtəlif debitor və kreditorlarla hesablaşmaların yoxlanılması:**

• Kommersiya xarakteri daşımayan əməliyyatlardan yaranan debitor və kreditor borclarının, həmin əməliyyatlar üzrə digər təşkilatlarla hesablaşmaların və bu kimi digər ödəmələrin yoxlanılması.

**8. Təsərrüfatdaxili və törəmə təşkilatlarla hesablaşmaların yoxlanılması:**

- Sığorta təşkilatının törəmə təşkilatlarla cari hesablaşmalarının bütün növlərinin yoxlanılması
- Sığorta təşkilatının ayrıca balansda olan filialları, nümayəndəlikləri, digər ayrı-ayrı bölmələri ilə bütün növ hesablaşmalarının yoxlanılması. Bu hesablaşmalara aiddir:

- ayrılmış əmlak;
- material dəyərliləri;
- ümumi idarə xərcləri;
- əmək haqqı;
- istehlak fondları və məsrəfləri.

*X. Kreditlər və maliyyələşmələr*

**1. Işçilər üçün bank kreditlərinin yoxlanılması:**

- Sığorta təşkilatının işçilərinə fərdi mənzil tikintisi, bağ evlərinin tikintisi və sair məqsədlərlə borc verilmiş, həmçinin kreditə satılmış mallara görə ticarət təşkilatlarına ödəniləsi məbləğlərin yoxlanılması.

**2. Qısamüddətli və uzunmüddətli borcların yoxlanılması:**

- Bir ildən artıq olmayan müddətə, milli və xarici valyutada, respublika daxilində və xaricində borc verənlərdən alınmış kreditlərin və digər cəlb olunmuş vəsaitlərin yoxlanılması
- Bir ildən artıq müddətə, milli və xarici valyutada, respublika daxilində və xaricində borc verənlərdən alınmış kreditlərin və digər cəlb olunmuş vəsaitlərin yoxlanılması.

**3. Məqsədli maliyyələşmə və daxilolmaların yoxlanılması:**

- Məqsədli tədbirlərin həyata keçirilməsi üçün nəzərdə tutulmuş vəsaitlərin, onların yaranma mənbəyinin yoxlanılması
- Məqsədli maliyyələşmələrin və daxilolmaların analitik uçotu, məqsədli vəsaitlərin təyinatı və daxilolma mənbələri üzrə düzgün yerləşdirilməsinin yoxlanılması.

**4. Icarə öhdəliklərinin yoxlanılması:**

- Uzunmüddətli icarəyə verilmiş əsas vəsaitlərə görə daxil olan vəsaitlərin yoxlanılması
- Icarə müqaviləsində nəzərdə tutulmuş qiymətlərin yoxlanılması
- Uzunmüddətli icarə müqaviləsi üzrə hesablanmış faizlərin yoxlanılması.

**5. Qısamüddətli və uzunmüddətli bank kreditlərinin yoxlanılması:**

- Sığorta təşkilatının respublika ərazisindəki və xarici banklardan milli və xarici valyutada aldığı müxtəlif qısa, orta və uzunmüddətli kreditlərin yoxlanılması
- Vaxtında ödənilməmiş bank kreditlərinin gecikmə səbəbinin aydınlaşdırılması
- Kreditləşmə və kreditlərin sənədləşdirilməsinin düzgünlüyünün yoxlanılması
- Müqavilələrin düzgün sənədləşdirilməsi, onların şərtlərinin icra vəziyyətinin yoxlanılması.

*XI. Kapitallar (fondlar) və ehtiyatlar*

**1. Nizamnamə kapitalının yoxlanılması:**

- Sığorta təşkilatının nizamnamə kapitalının vəziyyəti və hərəkətinin yoxlanılması
- Təsisçilər tərəfindən nizamnamə fondunun düzgün formalaşdırılmasının yoxlanılması
- Sığorta təşkilatı dövlət qeydiyyatından keçdikdən sonra onun nizamnamə kapitalına təsis sənədlərində nəzərdə tutulan iştirakçıların qoyduğu məbləğin düzgünlüyünün yoxlanılması.

**2. Ehtiyat kapitalının yoxlanılması:**

- Qanunvericiliyə və təsis sənədlərinə müvafiq olaraq yaradılan ehtiyat kapitalının vəziyyəti və hərəkətinin yoxlanılması.

**3. Əlavə kapitalın yoxlanılması:**

- Yenidənqiymətləndirmə nəticəsində əmlakın dəyərinin artmasından yaranan vəsaitin yoxlanılması
- Emissiya gəlirindən yaranan vəsaitin yoxlanılması
- Əvəzsiz olaraq alınmış dəyərlilərdən yaranan vəsaitin yoxlanılması.

**4. Bölüşdürülməmiş mənfəət və ya ödənilməmiş zərərlərin yoxlanılması:**

- Hesabat ilinin bölüşdürülməmiş mənfəəti
- Keçən illərin bölüşdürülməmiş mənfəəti
- Yığım fondları
- Sosial sfera fondu
- Istehlak fondu
- Bölüşdürülməmiş mənfəətin xüsusi təyinatlı fondlara aid olan hissəsi
- Əvəzsiz olaraq alınmış sosial sferaya aid əmlakın mədaxili
- Yığım fondunun vəsaiti ilə hesabat ilində təşkilatın gördüyü işlərin nəticəsi üzrə aşkar edilməmiş zərər
- Yeni əmlakın yaradılması ilə əlaqədar müəyyən edilmiş qaydada bu əmlakın ilkin dəyərinə daxil edilməyən məsrəflər
- Sığorta təşkilatının mənfəətindən ödəniləsi mükafat və həvəsləndirmələr.

**5. Qarşıdakı xərclər və ödəmələr üçün ehtiyatların yoxlanılması:**

- Işçilərin məzuniyyətinin qarşıdakı ödənişi
- Uzunmüddətli xidmətə görə illik mükafat ödənişi
- Əsas vəsaitlərin təmiri üzrə qarşıdakı məsrəflər.

*XII. Sığorta ehtiyatlarının yaradılması*

**1. Sığorta ehtiyatlarının tərkibinin yoxlanılması:**

- Texniki ehtiyatlar
- Zərərlər ehtiyatı
- Qəzalar ehtiyatı
- Zərərlilik dəyişilməsi ehtiyatı.

**2. Texniki ehtiyatların hesablanmasının yoxlanılması:**

- Ödənilmiş komisyon mükafatları
- Qarşısıalınma tədbirlərinə yönəldilmiş vəsaitlər
- Brutto mükafat.

**3. Sığorta ehtiyatlarının yaradılması qaydası və təyinatının yoxlanılması:**

- Qazanılmamış mükafatlar ehtiyatı
- Hər üç uçot qrupu
- Zərərlər və qəzalar ehtiyatı
- Qarşısıalınma tədbirləri üçün ehtiyatlar.

### *XIII. Sığorta fəaliyyətinə nəzarətin yoxlanılması*

**1. Inhisar fəaliyyətinə və haqsız rəqabətə qarşı tədbirlərin yoxlanılması.**
**2. Əvvəlki dövrün auditinin nəticəsi.**
**3. Sığorta təşkilatının maliyyə hesabatlarının dərc etdirilməsinin yoxlanılması.**

### *XIV. Nəticə və təkliflər*

**Bu bölmədə sığorta təşkilatının auditi nəticəsində aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üzrə, habelə sığorta təşkilatının daha səmərəli işləməsi üçün konkret təkliflər öz əksini tapmalıdır.**

**PROQRAMI TƏRTIB EDƏNLƏR:**
***Vaqif AĞAYEV –***
***«RR&VAM – Beynəlxalq" müstəqil auditor firmasının prezidenti***
***Abbasəli QURBANOV –***
***"RR&VAM – Beynəlxalq" müstəqil auditor firmasının auditoru***

**RƏYÇILƏR:**
***Cəlal IMAMQULIYEV –***
***Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Uçot siyasəti şöbəsinin müdir müavini***
***Yaşar NAMAZƏLIYEV –***
***Auditorlar Palatasının Keyfiyyətə nəzarət bölməsinin müdiri***

Azərbaycan Respublikasının
Auditorlar Palatası Şurasının
2015-ci il 25 noyabr tarixli
269/3 saylı qərarı ilə təsdiq edilmişdir

## TURİZM MÜƏSSİSƏLƏRİNDƏ AUDİT APARILMASINA DAİR
## P R O Q R A M

Bu metodik göstəriş Azərbaycanda auditin inkişaf konsepsiyasına (2012-2020-ci illər) və Auditorlar Palatasının 2015-2017-ci illər üzrə iş planının 1.4-cü "Auditor xidməti ilə əlaqədar təlimatlar, tövsiyələr və metodik göstərişlərin hazırlanması" bəndinə müvafiq olaraq hazırlanmışdır.

MÜNDƏRİCAT:

1. Ümumi müddəalar
2. Turizm müəssisələrində mühasibat uçotu və hesabatlılılq
3.Turizm müəssisələrinin hüquqi əsaslarının və nizamnamə kapitalının formalaşdırılmasının auditinin xüsusiyyətləri
4. Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi
-Nəqd pul əməliyyatların auditi
-Hesablaşma hesabı üzrə əməliyyatların auditi
-Xarici valyutada aparılan bank əməliyyatlarının auditi
-Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi
5. Hesablaşma və kredit əməliyyatlarının auditi
-Malsatan və podratçı təşkilatlarla, alıcı və sifarişçilərlə hesablaşmaların auditi
-Vergilər üzrə hesablaşmaların auditi
-Dövlət Sosial Müdafiə Fondu (DSMF) ilə hesablaşmaların auditi
-Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi
-Digər hesablaşma əməliyyatlarının auditi
6. Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi
7. Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (İE) auditi
8. Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmaların auditi
9. Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi
10. Səhmlərlə bağlı əməliyyatların auditi
11. Malların satışı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi
12. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi
13. Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər

**1. Ümumi müddəalar**

Turizm haqqinda"Azərbaycan Respublikasinin Qanunu (4 iyun 1999-cu il № 674-IQ) ölkəmizdə turizmin normativ hüquqi bazasını təşkil edir. Həmin Qanuna əsasən turizm - Azərbaycan Respublikası vətəndaşlarının, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərtilə istirahət, sağlamlaşdırma, tanış olma, idraki (tarix və mədəniyyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələri (səyahətləri)dir.

Turizm təşkilatları öz fəaliyyət xarakterinə görə iki əsas qrupa bölünürlər:

1.turoperator - turların komplektləşdirilməsi, turizm məhsulunun formalaşdırılması, hərəkətə gətirilməsi və satışı ilə məşğul olan turizm təşkilatı;

2.turagent - turoperator tərəfindən turların satışı, turizm məhsulunun hərəkətə gətirilməsi və satışı üzrə vasitəçilik fəaliyyəti göstərən fiziki və ya hüquqi şəxs;

Turagentlik - turizm və ekskursiya yollayışlarının satışı, habelə turizm - ekskursiya fəaliyyətinin təşkili üzrə (informasiya, reklam, marketinq və s.) digər xidmətlər göstərilməsi ilə məşğul olan vasitəçi təşkilatdır.

Auditor nəzərə almalıdır ki, turoperatorlar:

✓ *Turistlərin daşınmasından, otellərdə yerləşdirməsindən, ekskursiyaların təşkil olunmasından,sığortalanmasından, əlyəncə proqramlarının yaradılmasından, geri daşınmasından və digər bu yönümli xidmətlərin göstərməlidirlər.*

✓ *Bunun üçün hər hansı turoperator nəqliyyat müəssisəsi ilə müqavilələr bağlamalıdır.Yəni aviaşirkətlər, dəniş daşınması müəssisələri, dəmir yolu nəqliyyatı şirkətləri, quru daşınması firmaları və digər daşınma şirkətləri ilə müqavilələr bağlanmalıdır.*

✓ *Bundan əlavə turistlərin yerləşdirilməsi üçün otellər və mehmanxanalar ilə müqavilələr bağlanmalıdır.Orada turistlərin qidalanması məsələləri çox önəmlidir və müqavilələrdə bu məsələlərə diqqət yetirilməlidir.*

✓ *Həmçinin turistlərin tarixi-mədəni yerlərə və digər maraqlı yerlərə ekskursiyaların təşkil olunması üçün həmin yerlerlə müqavilələr bağlanmalıdır, razılaşmalar aparılmalıdır.Bu zamanı bələdçi-tərçüməçi xidmətlərini göstərən şəxsləri işçi kimi turoperatorlar özləri də cəlb edə bilərlər və ya müvafiq şirkətlərlə də müqavilələr bağlaya bilərlər.*

✓ *Sığorta şirkətləri ilə sığorta müqavilələri bağlayırlar.*

✓ *Bütün bu xidmət kompleks formada turistlərə turoperatorlar tərəfindən təqdim olunur.Və bu vauçerlər vasitəsilə rəsmiləşdirilir.*

Proqramdan istifadə zamanı turizm müəssisələri , proqramdan yararlananlar və auditorlar audit zamanı ən əsas məqamlardam olan yuxarıdakı məsələlərə diqqət yetirməlidir.Yəni tuqoperatorların qeyd olunan məsələlərlə bağlı nəqliyyat , otel, mehmanxana, sığorta, ekskursiya və bu kimi müəssisələrlə olan müqavilələrin şərtlərinə diqqət yetirməlidir.

Turagentlər:

✓ *Əsas fəaliyyəti turoperatorların məhsullarının satışından ibarətdir.Yəni turoperator məhsul olaraq hər hansı bir istiqamətə məhsul kimi tur yaradır və bu məhsulu turistlərə təqdim edir.Və turaqent isə həmin turu turoperatorun adından turistlərə satır.*

✓ *Belə ki, məhsul kimi turu operator birbaşa özü də sata bilər və ya da aqent vasitəslə də sata bilər.*

✓ *Aqent turu ancaq turoperatorun adından sata bilər.*

✓ *Bunun üçün də turaqentlər turoperatorlar ilə aqent müqavilələrini bağlamalıdır.*

Auditorlar audit zamanı turoperator ilə turaqent arasında olan müqavilənin şərtlərinə diqqət yetirməlidir.

Turizm müəssisələrində audit aşağıdakı əsas mərhələlərə ayrılır:

1. Strateji təhlil.

Bu təhlil müəssisənin iqtisadi vəziyyətinin, fəaliyyət üzrə ixtisaslaşması səviyyəsinin və müasir vəziyyətdə mövcud olan potensialının öyrənilməsinə yönəldilməlidir. Müəssisənin risklərinə əhəmiyyətli təsir göstərən aşağıdakı amillərə xüsusi diqqət yetirilməlidir:

- müəssisənin strategiyasının iqtisadi reallığın tələblərinə müvafiqliyi;
- müəssisənin strategiya və məqsədlərinə təsisçilərin (səhmdarların) təsiri.

2. Maliyyə-təsərrüfat əməliyyatlarının təhlili.

Belə təhlilin məqsədi müəssisənin fəaliyyətinin ayrı-ayrı mərhələləri səviyyəsində əhəmiyyətli risklərin aşkar olunması, daxili nəzarət və düzgün idarəetmə nəticəsində onların nəzərə alınması və azaldılmasıdır.

3. Fəaliyyət risklərinin qiymətləndirilməsi.

Bu mərhələ özündə rəhbərliyin:

1. əhəmiyyətli risklər barəsində məlumatlı olmasını;
2. risklərin mövcudluğunun tanınqması zamanı onun əhəmiyyətlilik dərəcəsini və onun müəssisənin fəaliyyətinə təsirininqiymətləndirməsini;
3. mümkün risklərin qarşısının alınmasını və onların azaldılmasını etiva edir.

Auditor nəzərə almalıdır ki, müəssisədaxili risklərin qiymətləndirilməsi, bütün audit dövrünü əhatə edən fasiləsiz proses olmaqla üç mərhələdə aparılır. Birinci mərhələdə risklər aşkar edilir, onların əhəmiyyətlililyi və mövcudluğunun vaxt çərçivəsi müəyyən edilir, ikinci mərhələdə müəssisənin daxili nəzarət sisteminini səmərəliliyi və risklərin azaldılmasında onun rolu, üçüncü mərhələdə isə daxili nəzarət sisteminin əhatə etmədiyi sahələrdə risk dərəcəsinin müəyyənləşdirilməsi həyata keçirilir.

4.Təsərrüfat fəaliyyətinin təhlili.

Təhlil zamanı keçmiş dövrün göstəricilərinin dinamikası nəzərə alınmalı, əldə olunan nəticələr proqnozlaşdırmaya imkan verməlidr.

5. Taktiki təhlil.

Sifarişçi subyekt tərəfindən auditora tapşırıq verildiyi tədqirdə taktiki təhlil aparıla bilər. Nəzərə alınmalıdır ki, taktiki təhlil - müəssisənin iqtisadi göstəricilərinin müntəzəm izlənməsi,

müqayisə edilməsi və strateji-taktiki planlardan kənarlaşmaların vaxtında aşkar edilməsidir. Taktiki təhlil əlaqəli auditor xidmətləri göstərilməsi zamanı aparıla bilər.

6. Auditin aparılması və onun nəticələrinin rəhbərliyə təqdim edilməsi.

Turizm müəssisələrinin auditi Azərbaycan Respublikasının Auditorlar Palatası Şurasının müvafiq qərarları ilə təsdiq edilmiş "Səhmdar cəmiyyətlərində audit aparılmasına dair proqram"a və "Məhdud məsuliyyətli cəmiyyətlərdə audit aparılmasına dair proqram"a müvafiq olaraq müəyyən edilmiş prosedurlara tam əməl edilməklə aparılmalıdır.

**2. Turizm müəssisələrində mühasibat uçotu və hesabatlılılq**

Turizm müəssisələrində mühasibat uçotunun və maliyyə hesabatlarının auditi zamanı müəssisənin uçot siyasətinin ekspertizası aparılmalıdır.

Nəzərə alınmalıdır ki, turizm müəssisələrinin uçot siyasətində

mühasibat uçotunun metodoloji, təşkilati və texniki təminatı əksini tapmalıdır.

Turizm müəssisələri mühasibat uçotunu "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasinin Qanununa (29 iyun 2004-cü il № 716-IIQ)" müvafiq olaraq aparmaqla, öz maliyyə hesabatlarını aşağıdakı qaydada tərtib etməlidirlər.

1. Turizm sahəsində fəaliyyət göstərən kiçik sahibkarlıq subyektləri:

-sadələşdirilmiş uçotun qaydalarına uyğun olaraq maliyyə hesabatlarını tərtib etməlidirlər; və ya

-öz seçimlərindən asılı olaraq maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun şəkildə tərtib edə bilərlər.

2. Turizm sahəsində fəaliyyət göstərən ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatlarının maliyyə hesabatlarının tərtib edilməsi.

Turizm sahəsində fəaliyyət göstərən ictimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla, kommersiya təşkilatları:

- maliyyə hesabatlarını Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib etməlidirlər; və ya
- öz seçimlərindən asılı olaraq, maliyyə hesabatlarını Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun şəkildə tərtib edə bilərlər.

Bir və ya daha çox törəmə cəmiyyətlərə malik olan turizm kommersiya təşkilatları birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını qrupun göstəriciləri (illik gəliri, hesabat ili ərzində işçilərin orta sayı və balansın yekun məbləği), həmin hesabatların tərtib olunduğu tarixə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi müvafiq meyar göstəricilərinin (illik gəliri, hesabat ili ərzində işçilərin orta sayı və balansın yekun məbləği) ikisindən yuxarı olduqda, Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib edirlər.

Turizm sahəsində fəaliyyət göstərən, bir və ya daha çox törəmə cəmiyyətlərə malik olan kommersiya təşkilatlarından, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasinin Qanununun 10.2-ci maddəsinə əsasən Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun tərtib edilməsi tələb olunmadıqda, onlar bu hesabatları Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun tərtib edirlər.

Turizm sahəsində fəaliyyət göstərən (İctimai əhəmiyyətli qurumlar və kiçik sahibkarlıq subyektləri istisna olmaqla), bir və ya daha çox törəmə cəmiyyətlərə malik olan kommersiya təşkilatları, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını aşağıda göstərilən dörd şərti bütövlükdə yerinə yetirdikdə tərtib etməyə bilər:

- Turizm müəssisəsi törəmə cəmiyyət olduqda və onun bütün mülkiyyətçiləri (iştirakçıları, səhmdarları), səs vermə hüququ olmayanlar da daxil olmaqla, birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının təqdim edilməməsi üzrə yekdilliklə razılığa gəldikdə;
- Turizm müəssisəsinin qiymətli kağızları açıq şəkildə satılmadıqda;
- Turizm müəssisəsi açıq bazara qiymətli kağızları buraxmadıqda;
- Turizm müəssisəsinin bilavasitə və ya son nəticədə tabe olduğu əsas cəmiyyət Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Kommersiya Təşkilatları üçün Milli Mühasibat

Uçotu Standartlarına uyğun birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını bu qanunun 12-ci maddəsinin tələblərinə müvafiq olaraq dərc etdirdikdə.

Turizm müəssisəsinin illik maliyyə hesabatları üçün aşağıdakı hesabat dövrləri müəyyən edilir:

- İl ərzində oktyabr ayının 1-dək yeni yaradılan mühasibat uçotunun subyektləri üçün birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən dekabr ayının 31-i də daxil olmaqla;
- Oktyabr ayının 1-dən sonra yeni yaradılmış mühasibat uçotunun subyektləri üçün isə birinci hesabat dövrü onların qanunvericiliklə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındığı tarixdən növbəti ilin dekabr ayının 31-i də daxil olmaqla;
- Digər mühasibat uçotunun subyektləri üçün hesabat dövrü yanvar ayının 1-dən dekabr ayının 31-i də daxil olmaqla.

Turizm müəssisələri illik maliyyə hesabatlarını və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını dövlət orqanlarına qanunvericilik aktları ilə, digər şəxslərə isə nizamnamələri ilə müəyyən olunmuş hallarda, qaydada və müddətlərdə təqdim edirlər.

İctimai əhəmiyyətli qurumlardan və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını hazırlayan turizm müəssisələrindən həmçinin aşağıdakılar tələb olunur:

- Turizm müəssisəsinin İnternet səhifəsi olduqda, həmin məlumatlardan sərbəst istifadə edilməsini təmin etmək şərtilə, illik maliyyə hesabatının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının, qanunvericiliklə müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə, həmin internet səhifəsində dərc olunması;
- Turizm müəssisəsinin illik maliyyə hesabatının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının qanunvericiliklə müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə mətbu orqanda dərc olunması;
- Turizm müəssisəsinin illik maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının nüsxəsinin qanunvericiliklə müəyyən edilmiş hallarda auditor rəyi ilə birlikdə hər hansı şəxsə, onun müraciəti əsasında pulsuz təqdim olunması.

Turizm müəssisəsinin nizamnaməsi ilə müəyyən olunmuş idarəetmə orqanı bu subyektin maliyyə hesabatlarının və birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarının hazırlanmasına, təqdim və dərc olunmasına cavabdehdir.

## 3.Turizm müəssisələrinin hüquqi əsaslarının və nizamnamə kapitalının formalaşdırılmasının auditinin xüsusiyyətləri

Turizm müəssisələrinin auditi onların fəaliyyət göstərməsinin hüquqi əsaslarının və nizamnamə kapitalının formalaşdırılmasının yoxlanılmasından başlanılmalıdır.

*Audit zamanı nəzərə alınmalıdır ki, turizm fəaliyyəti xüsusi razılıq tələb olunan fəaliyyət növüdür və həmin razılığın mövcudluğu xüsusi yoxlanmalıdır.*

Turizm müəssisəsinin hüquqi əsaslarının və nizamnamə kapitalının formalaşdırılmasının audit zamanı aşağıdakılar zəruridir:

- Turizm müəssisəsinin yaradılması şərtlərini, nizamnamədə göstərilmiş fəaliyyət növlərini, nizamnamə kapitalının məbləğini, nominal dəyərini və miqdarını, təsisçilərin hüquqlarını, idarəetmə orqanlarının tərkib və səlahiyyətlərini, qərarların qəbul edilməsi haqqında məlumatları və ləğvi şərtlərini öyrənərək təhlil etmək;
- Əmlakın qiymətləndirilməsinin nəticələrinə görə alış qiymətinin müəyyən edildiyi tarixə nizamnamə kapitalını, əmlakı və öhdəlikləri göstərən son maliyyə hesabatını almaq və təhlil etmək;
- Keçmiş illərin zərərinin cari ilin mənfəəti, ehtiyat kapitalı, xüsusi təyinatlı fondlar hesabına bağlandığına, təsisçilərin (səhmdarların) qərarı olduğu hallarda qalan vəsaitlərin nizamnamə kapitalının artırılmasına yönəldildiyinə əmin olmaq;
- Səhmdarların (təsisçilərin) ümumi yığıncağının protokollarından və direktorlar şurasının qərarlarından çıxarışlarla tanış olmaq, müvafiq bölmələrin auditi zamanı bu qərarlara düzgün riayət edildiyini yoxlamaq;

- Turizm müəssisəsinin mənfəətlə və yaxud zərərlə işləməsini müəyyən etmək; zərər olduğu halda onun necə ödənməsini müəyyən etmək.

**4.Pul vəsaitləri, bank və kassa əməliyyatlarının auditi**

**Nəqd pul əməliyyatların auditi**

Kassa əməliyyatlarının auditinə kassada olan pul vəsaitlərinin və qiymətli kağızların inventarizasiyasından başlamaq. İnventarizasiyanı baş mühasib və kassirin iştirakı ilə keçirmək;

Kassada dövri inventarizasiyaların keçirilməsi barədə rəhbərliyin yazılı sərəncamının olub-olmamasını yoxlamaq;

Maddi məsuliyyət haqqında kassirlə bağlanmış müqavilənin mövcudluğunu yoxlamaq. Kassada saxlanılan pul vəsaitlərinin həqiqi mövcudluğu barədə kassirdən iltizam almaq;

Kassanın inventarizasiyasi başa çatdıqdan sonra kassa kitabının qalığı ilə kassada olan pul vəsaitlərinin həqiqi mövcudluğunu tutuşdurmaq, kənarlaşma aşkar edilərsə, səbəblərini araşdırmaq;

Kassa kitabının səhifələrinin möhürləndiyinə, qaytanlandığına və müvafiq imzalarla təsdiqləndiyinə əmin olmaq, kassa otağının müvafiq tələblərə cavab verdiyini qiymətləndirmək;

Kassa mədaxil və məxaric orderlərinin müvafiq qaydada tərtib olunduğunu, kassa kitabında yazılışların düzgün aparıldığını yoxlamaq;

Ciddi hesabat blankları olan kassa mədaxil orderlərinin nömrələrinin ardıcıllığına riayət olunduğuna, ləğv edilmiş mədaxil orderlərinin saxlandığına əmin olmaq;

Kassadan nağd pulun verilməsi barədə sənədlərdə məsul şəxslərin imzalarının olub-olmadığını yoxlamaq;

Mədaxil və məxaric orderlərinin kassa əməliyyatlarının qeydiyyatı kitabında düzgün və vaxtında əks etdirildiyinə əmin olmaq;

Baş kitaba əsasən kassa üzrə pul vəsaitlərinin hərəkət cədvəllərini tərtib etmək və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə etmək;

Vəkalətnamələrə əsasən digər təşkilatlara pul vəsaitlərinin verilməsinin düzgünlüyünü yoxlamaq, verilmiş vəkalətnamələrin düzgün tərtib edildiyinə əmin olmaq və ciddi hesabat blankları olduğunu yoxlamaq, bu məlumatlardan hesablaşma əməliyyatlarının auditi zamanı istifadə etmək;

Kassa kitabında və əmək haqqının ödənişi cədvəllərində riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;

Xarici valyutada kassa əməliyyatı aparıldığı hallarda, əməliyyatların ayrıca kassa kitabında aparıldığına əmin olmaq;

Nağd xarici valyutada aparılmış əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edildiyini və məzənnə fərqlərinin düzgün hesablandığını yoxlamaq;

Valyuta risklərinin hesablanmasına əmin olmaq;

Təhtəlhesab şəxslərə verilmiş pul vəsaitlərinin qalığının kassaya vaxtında qaytarıldığına, habelə tam maddi məsuliyyət barədə müqavilənin və nağd pulun verilməsi barədə rəhbərliyin sərəncamının mövcudluğuna əmin olmaq. Bu məlumatlardan təhtəlhesab şəxslərlə hesablaşmaların auditi zamanı istifadə etmək;

Həyata keçirilmiş kassa əməliyyatlarının mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq.

**Hesablaşma hesabı üzrə əməliyyatların auditi**

Bankda olan hesablaşma hesabları barədə arayış almaq;

Auditlə əhatə olunan dövrün sonuna bank çıxarışlarında olan qalıq məbləğini baş kitabın və maliyyə hesabatlarının məlumatları ilə tutuşdurmaq və düzgünlüyinə əmin olmaq;

Bank çıxarışlarında göstərilmiş məbləğlərin onlara əlavə edilmiş ilkin sənədlərlə uyğunluğunu yoxlamaq;

Baş kitaba əsasən hesablaşma hesabı üzrə pul vəsaitlərinin hərəkət cədvəllərini tərtib etmək və cədvəl məlumatlarından müvafiq audit bölmələrində istifadə etmək;

İlkin sənədlərdə bank ştampının mövcudluğuna diqqət yetirmək. Əgər ştamp yoxdursa, əməliyyatın düzgünlüyü barədə bankdan təsdiqedici arayışın alınmasını tələb etmək;

Bank çıxarışlarında düzəlişlər olarsa, onların bank tərəfindən təsdiqlənməsini tələb etmək;

Auditlə əhatə edilən dövrün sonuna hesablaşma hesabında olan pul vəsaitinin qalığı maliyyə hesabatlarında daha çox maddi əhəmiyyət kəsb edirsə, bankdan bu barədə təsdiqedici arayışın alınmasını tələb etmək;

Hesablaşma hesabı ilə həyata keçirilmiş əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq;

Hesablaşma hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatlar daha böyük maddi əhəmiyyət kəsb edirsə, aparılmış əməliyyatların düzgünlüyünü yoxlamaq və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə etmək.

## Xarici valyutada aparılan bank əməliyyatlarının auditi

Bankda olan cari, tranzit və xaricdəki valyuta hesabları barədə arayış almaq;

Xarici valyutanın alınması və ya satılması üzrə əməliyyatların, bu əməliyyatlarla bağlı bank xidmətlərinin və yaranmış məzənnə fərqlərinin uçotda düzgün əks etdirildiyini yoxlamaq;

Xarici valyutada aparılan əməliyyatların manatla məzənnəsinin düzgün ifadə edilməsi və məzənnə fərqlərinin düzgün hesablanması, hesabat dövrünün sonuna valyuta hesabında olan qalığın valyuta məzənnəsinə uyğun olaraq manatla əks etdirildiyinə əmin olmaq;

Xarici iqtisadi fəaliyyətlə bağlı satışın nəticəsinə görə xaricdən əldə edilmiş gəlirlərin, habelə maddi dəyərlilərə və xidmətlərə görə xaricə köçürülmüş vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq, hesablaşma və satış əməliyyatlarının auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;

Valyuta hesabının auditi zamanı bu və ya digər bölmələrdə yoxlanılacaq əməliyyatların düzgünlüyünə əmin olmaq və bu informasiyadan həmin bölmələrin auditi zamanı istifadə etmək;

Görülmüş işlərə və xidmətlərə görə qeyri-rezident şəxslərə köçürmələr edilmişdirsə, qeyri-rezidentin mənbədən gəlir vergisinin düzgün tutulduğunu və əlavə dəyər vergisinin düzgün hesablandığını yoxlamaq, vergilər üzrə hesablaşmaların auditi zamanı aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;

Valyuta hesabı ilə həyata keçirilmiş əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyinə və mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq.

## Bankda olan xüsusi hesablar, digər pul vəsaitləri və pul sənədlərinin auditi

Akkreditiv əməliyyatlarının normativ və qanunverici sənədlərin tələblərinə uyğun tətbiq edildiyinə əmin olmaq məqsədilə müqavilədə göstərilmiş hesablaşma qaydalarını və müddətlərini öyrənmək;

Bank çıxarışlarına əsasən ödənişləri ilkin sənədlərlə tutuşdurmaq, xarici valyutada aparılmış akkreditiv əməliyyatlarının manatla məzənnəsinin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Əməliyyat başa çatdıqdan sonra akkreditiv hesabının bağlanması və hesabda qalan vəsaitlərin başqa məqsədlərlə istifadə edilmədiyinə əmin olmaq;

Limitləşdirilmiş çeklərdən və elektron kartlardan istifadənin mühasibat uçotunda düzgün əks etdirildiyini, onlarla aparılmış əməliyyatların məqsədəuyğun olduğunu, çeklərdən və kartlardan istifadə hüququ verilmiş şəxslərlə maddi məsuliyyət barədə müqavilələrin bağlandığını və onlardan vəsaitlərin istifadəsi barədə hesabatların qəbul edildiyini araşdırmaq;

Pul sənədlərinin (poçt markaları, dövlət rüsumu markaları, veksel markaları, dəyəri ödənilmiş nəqliyyat vasitələrinə biletlər, sanatoriya yollayışları və s.) kassada saxlanmasına və hesabat göstəricilərinin mövcudluğuna əmin olmaq;

Pul sənədləri üzrə analitik uçotun düzgün aparıldığını yoxlamaq.

Hesabat dövrünün sonuna yolda olan köçürmələrin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq üçün təqdim edilmiş ilkin sənədlərlə daxil olan vəsaitləri müqayisə edmək. Əgər auditlə əhatə edilən dövrün sonuna yolda olan köçürmələr üzrə qalıqlar mövcuddursa, bu qalıqların düzgünlüyünə əmin olmaq məqsədilə auditlə əhatə edilən dövrdən sonrakı dövrdə bu məbləğlərin həqiqətən daxil olduğunu yoxlamaq. Kənarlaşma aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;

Qısamüddətli maliyyə qoyuluşları kimi hesabatlarda əks etdirilən qiymətli kağızlar, depozitlər və verilmiş borclar üzrə subhesabların aparıldığına və müddətinin həqiqətən bir ildən az olduğuna əmin olmaq;

Depozit hesabların yaradılması şərtlərini təhlil etmək və düzgünlüyünə qiymət vermək. Depozit müqavilələrinin şərtlərini öyrənmək, depozitlərin vaxtında geri alındığını və depozitlərə görə alınmış faizlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;

Qiymətli kağızların alış dəyərinin nominal dəyərindən fərqləndiyi hallarda, fərq məbləğinin qiymətli kağızların ödənişi zamanı onların nominal dəyərinə uyğun olduğuna əmin olmaq;

İstiqrazlar və digər qiymətli kağızlarla bağlı əməliyyatların nəticələrinin, habelə depozitlərə görə alınmış faizlərin mənfəətin və zərərin hesabatında və mənfəət vergisi bəyannaməsində düzgün əks etdirildiyinə əmin olmaq;

Xarici valyutada həyata keçirilmiş qısamüddətli kapital qoyuluşlarının manatla məzənnəsinin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq.

## 5.Hesablaşma və kredit əməliyyatlarının auditi

### Malsatan və podratçı təşkilatlarla, alıcı və sifarişçilərlə hesablaşmaların auditi

Uçot siyasətinə əsasən satış əməliyyatlarının hansı metodla (kassa və ya hesablama metodu ilə) aparıldığını müəyyən etmək;

Müqavilələrin mövcudluğuna və qeydiyyat jurnalında qeydiyyata alındığına əmin olmaq, məhsulun (malların) göndərilmə, işlərin görülmə və xidmətlərin göstərilmə şərtlərini və ödəniş qaydalarını öyrənmək;

Təşkilatlar və şəxslər üzrə hesabat dövrünün əvvəlinə və sonuna, yaranma tarixi göstərilməklə, mövcud borclarının siyahısını almaq;

Təşkilatlarla və şəxslərlə bağlanmış müqavilələrin mövcudluğuna və düzgün tərtib edildiyinə əmin olmaq, tərəflərin hüquq və vəzifələrini, müqavilə üzrə əldə edilmiş maddi dəyərlilərin və xidmətlərin məbləğinin ödənilməsi şərtlərini öyrənmək;

Daha çox maddi əhəmiyyət kəsb edən borclar üzrə üzləşmə aktlarını tələb etmək. Əgər belə aktlar yoxdursa, borcların reallığına əmin olmaq üçün auditlə əhatə edilən dövrün sonuna üzləşmə aktlarının tərtib edilməsini tələb etmək və üzləşmə aktlarındakı məlumatları hesabat məlumatları ilə tutuşdurmaq;

Daha çox əhəmiyyətli olan qalıqların yaranmasının düzgünlüyünə əmin olmaq məqsədilə bank əməliyyatlarının auditi zamanı əldə edilmiş məlumatlardan istifadə etmək və əsassız ödənişlərin olmadığına əmin olmaq;

Alınmış maddi dəyərlilərin, xidmətlərin düzgün mədaxil edildiyinə əmin olmaq üçün ödəniş sənədlərində göstərilən məbləğləri mədaxil sənədləri ilə tutuşdurmaq. Əgər xidmət göstərilmişdirsə, onda göstərilmiş xidmətlərin dəyərinin xərclərin tərkibində düzgün ifadə olunduğuna əmin olmaq;

Hesablaşma əməliyyatları üzrə analitik və sintetik uçot arasında fərqin olmadığına əmin olmaq məqsədilə riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;

Xarici valyutada aparılmış hesablaşma əməliyyatları üzrə maddi dəyərlilər əldə edilərkən tərtib edilmiş gömrük bəyannamələrində göstərilən və maddi dəyərlilərin dəyəri ödənilərkən həmin günə mövcud olan valyuta məzənnəsinə uyğun olaraq mühasibat uçotunda əks etdirildiyini yoxlamaq, məzənnə fərqlərinin düzgün müəyyən edildiyinə əmin olmaq;

Təşkilatlara verilmiş avansların müqavilə şərtlərinə uyğun olduğunu araşdırmaq və müqavilə ilə nəzərdə tutulmuş şərtlər tam yerinə yetirildikdə, verilmiş avans məbləğlərinin malsatan və podratçılarla hesablaşmalar hesabına düzgün silindiyinə əmin olmaq;

Hesablaşma əməliyyatları üzrə öhdəliklər vekselin verilməsi ilə rəsmiləşdirilmişdirsə, borc öhdəliyinin və faizlərin hesabatlarda vaxtında və düzgün əks etdirildiyini yoxlamaq;

Barter əməliyyatları zamanı malsatan və podratçı təşkilatlarla alıcı və sifarişçi təşkilatlar arasında yaranmış qarşılıqlı borcların silinməsinin düzgünlüyünü yoxlamaq və bu əməliyyatlar zamanı vergilərin düzgün hesablandığına əmin olmaq;

Qaldırılmış iddialar üzrə sənədləşmənin düzgün aparıldığını və iddiaların nə dərəcədə əsaslı olduğunu yoxlamaq. İddialar üzrə əməliyyatların hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq.

## Vergilər üzrə hesablaşmaların auditi

Auditor turizm müəssisələrində gəlirlərin yerli vergilərə cəlb olunmasını nəzərə almalıdır. turizm fəaliyyətinin özünəməxsusluğu vardır.Əlbətdə ki, bu özünəməxsusluğun vergitutulmalarında(vergi uçotunda) da müəyyən məqamlar vardır ki, onların da bu proqramda əks olunması vacibdir.

Turoperatorlar üçün əldə olunan gəlirlərər üzrə vergi məcəlləsinə əsasən vergi aşağıdakı kimi tənzimlənir və bu məsələdə turoperatorlar, turizm müəssisələri və auditorlar diqqətli olmalıdır.

- *Sadələşdirilmiş vergi ödəyicisi olan turoperatorlar satdığı məhsuldan əldə olunan ümumi gəlirdən sadələşdirilmiş vergini ödəyirlər.*
- *ƏDV-si ödəyici olan turoperatorlar isə ƏDV-sini ödəyirlər(vergi məcəlləsinə əsasən müvafiq əvzələşdirmə aparılandan sonra)*
- *Vergi Məcəlləsinə əsasən gəlirlərdən xərclər çıxılır və yerdə qalan məbləğdən mənfət vergisi tutulur və bunu da ƏDV-si ödəyicisi olan turoperatorlar tədbiq etməlidirlər.*
- *Təsisçilər , səhmdarlar bölüşdürülməmiş mənfəəti bölüşdürərsə, onda ödəmə mənbəyində divident vergisini tutub ödəməlidirlər.*

Turaqentlərin fəaliyyətində isə daha diqqətli olmaq lazımdır.Belə ki, bəzi turaqentlər sadələşdirilmiş vergi ödəyicisi və bəziləri də ƏDV-si ödəyicisi olurlar.Sadələşdirilmiş ödəyicilərdə adətən vergitutma məqsədləri üçün gəlirlər iki formada uçota alırlar.

- *Birinci hal kimi aqentlər turoperatorların , aviaşirkətlərin, otelerin, mehmanxanaların və digər məhsullarının satışından əldə olunan gəlirlərin hamısını özlərinin mühasibat uçotunda əks etdirirlər.*
- ***<u>Məsələn</u>:***

  *turoperatorun təşkil etdiyi turun qiyməti 1.000,00 manatdır və bu turun satışından 10% komission məbləğ turaqentə çatacaqdır.Əvvəldə də qeyd olunduğu kimi turaqent turoperatorun adından çıxış edir.Bəzi aqentlər baxmayaraq ki, bu turdan onun gəliri 100,00 manat olacaqdır, turistə məhsulu satanda əldə olunan bütün(1.000,00 manat) məbləğə öz adından mədaxil sənədini turistə verir.Bura sadələşdirilmiş verginin tutulması məqsədləri üçün aqentdə bütün məbləğin vergiyə cəlb olunmasına gətirib çıxarır.*
- *Bir çox turaqentlə isə misalda qeyd olunan turun ümumi məbləğinə (1.000,00 manat) birbaşa turoperatorun adından mədaxil sənədini yazaraq turistə təqdim edir.Və özünün komission haqqını isə(100,00 manat) mədaxil sənədini birbaşa turoperatorun adına yazır.Belə olan halda da turaqenrdə sadələşdirilmiş verginin tutulması məqsədləri üçün ancaq ona aid olan komission haqqı cəlb olunacaqdır.*

Turizm müəssisəsləri və auditorlar bu məsələlərə ciddi yanaşmalıdırlar.

Əvvəldə də qeyd olunduğu kimi bir çox turaqentlər vardır ki, onlar ƏDV-si ödəyicisi olurlar.Onların ƏDV-si üzrə vergi məsələləri Vergi Məcəlləsində xüsusi vurğulanmışdır və həmin hissələri bu proqrama daxil olunması həm turizm müəssisələri, proqramdan yararlananlar və həm də auditorlar üçün də vacib olardı.

**Maddə 172. Agentin həyata keçirdiyi əməliyyatlar**

172.1. Digər şəxsin (vəkalət verən) agenti (vəkalət alan) olan şəxs tərəfindən mallar göndərilməsi, işlər görülməsi və ya xidmətlər göstərilməsi vəkalət verənin həyata keçirdiyi əməliyyat sayılır.

172.4. Digər şəxsin agent vasitəsilə həyata keçirdiyi əməliyyatlar üzrə ƏDV-nin vergitutma bazası aşağıdakı kimi müəyyənləşdirilir:

172.4.1. Digər şəxs agent vasitəsilə malları təqdim etdikdə, işlər gördükdə və ya xidmətlər göstərdikdə, həmin malların (işlərin, xidmətlərin) dəyəri vergi tutulan əməliyyatların dəyəri və vergitutma bazası hesab edilir.

Agent tərəfindən göstərilən xidmətlərə görə ona ödənilən haqlar (mükafatlar) agentin vergi tutulan əməliyyatlarına daxil edilməklə yanaşı, digər şəxsin gəlirdən çıxılan xərclərinə aid edilir.

Agentin digər şəxsdən aldığı elektron vergi hesab-fakturası ona ƏDV məbləğini əvəzləşdirmək hüququ vermir.

172.4.2. Digər şəxs üçün vergi tutulan əməliyyatların vaxtı malların (işlərin, xidmətlərin) agentə verildiyi vaxt sayılır. Mallar (işlər, xidmətlər) hissə-hissə (qismən) verildikdə, vergi tutulan əməliyyatların vaxtı hər hissə üçün ayrılıqda müəyyən edilir.

172.4.3. Agent ƏDV üzrə vergi ödəyicisi olduqda, yalnız digər şəxsə göstərdiyi xidmətlərə görə elektron vergi hesab-fakturası verir. Elektron vergi hesab-fakturası ƏDV ödəyicisi olan digər şəxs tərəfindən agentə ödənilmiş ƏDV-ni əvəzləşdirmək hüququ verir.

Digər şəxs tərəfindən agentə verilmiş malların (işlərin, xidmətlərin) dəyərinə ƏDV daxil edilib-edilməməsindən asılı olmayaraq, agent malların (işlərin, xidmətlərin) alıcısına (sifarişçisinə) elektron vergi hesab-fakturası verə bilməz.

172.4.4. Agent üçün vergitutma bazası onun digər şəxslərə malların təqdim edilməsi (işlərin görülməsi, xidmətlərin göstərilməsi) üzrə göstərdiyi xidmətlərin dəyəri, vergi tutulan əməliyyatların vaxtı bu xidmətlərin faktiki göstərildiyi vaxt, vergi tutulan əməliyyatların dəyəri isə onun digər şəxsdən almalı olduğu (aldığı) haqdır (mükafatdır).

Məsələnin daha da aydın olması üçün buna misal gətirək.

Turaqent 1.000,00 manat + 180 manat (18% ƏDV-si) = 1.180,00 manat olan məhsulu, turoperatordan alıb satır və buna görə də 10% komission haqq 100 manat + 18 manat (18% ƏDV-si) = 118,00 manat alır.Bu zamanı turaqent turistə turoperator adından təqdim etdiyi 1.180,00 manatlıq məhsula görə EVHF-nı öz adından yox turoperatorun adından təqdim etməlidir.Yəni tam tur məbləğinə EVHF-ni turoperator təqdim etməlidir.Turaqent isə ƏDV-si ödəyicisi olduğundan özünün komission haqqına 118,00 manata görə EVHF-nı birbaşa turoperatora təqdim etməlidir.Və ƏDV-si məqsədləri üçün də turaqentdə 118,00 manat cəlb olunur.

Yəni ƏDV-sı məqsədləri üçün aqentlərdə vergi məcəlləsinin tələbləri yuxarıdakı kimidir.

Bəzi hallarda isə turaqentlər turistlərə 1.180,00 manatlıq tura görə EVHF-nı birbaşa öz adından təqdim edirlər və turoperatorlardan da əvəzləşdirmək üçün 10% komission çıxılmaqla EVHF-nı tələb edirlər.

Artıq bu əməliyyat aqentlik fəaliyyəti sayılmır.Belə olan əməliyyat artıq məhsulin alqı-satqı əməliyyatı sayılır.

Bundan başqa auditor aşağıdakılara nail olmalıdır:

Turizm sahəsinin fəaliyyət xüsusiyyətlərindən asılı olaraq hesablanan və ödənilən vergilər barədə məlumat almaq, bütün vergi öhdəliklərinin hesabatlarda tam əks etdirildiyinə və hər bir vergi üzrə analitik uçotun aparıldığına əmin olmaq;

Hər bir verginin auditlə əhatə edilən dövrdəki dövriyyəsini (ilin əvvəlinə qalıq, hesablamalar və ödənişlər, ilin sonuna qalıq əks etdirilməklə) araşdırmaq və mühasibat uçotunun məlumatları ilə tutuşdurmaq. Hər bir vergi üzrə riyazi hesablamaların düzgünlüyünü yoxlamaq;

Baş kitaba və ilkin sənədlərə əsasən aylar üzrə vergilərin hesablanması və ödənilməsi haqqında məlumatları əldə etmək, vergilər üzrə vaxtı keçmiş və ya gecikdirilmiş ödənişlərin olmadığına əmin olmaq;

Dövlət vergi orqanları tərəfindən auditlə əhatə edilən dövrdə aparılmış yoxlamaların (əgər bu dövrdə aparılmamışdırsa, sonuncu yoxlamanın) nəticələri barədə aktı tələb etmək, göstərilmiş nöqsan və çatışmazlıqların hesabatlarda necə əks etdirildiyinə və aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək;

Vergi orqanları ilə yazışmaları və tərtib edilmiş üzləşmə aktlarını əldə etmək, vergi borclarının qarşılıqlı əvəzləşdirilmə hallarına xüsusi diqqət yetirmək, vergi orqanından alınmış üzləşmə aktlarındakı məlumatların mühasibat uçotunun məlumatları ilə üyğunluğuna əmin olmaq;

Hesablanmış vergilərin mühasibat uçotunda mövcud vergi qanunvericiliyinə uyğun şəkildə əks etdirildiyinə, vergi dərəcələrinin düzgün tətbiq edildiyinə əmin olmaq;

Daha çox əhəmiyyətli olan vergi öhdəlikləri üzrə nəzarət testləri hazırlamaq və keçirmək;

Əlavə dəyər vergisi (ƏDV) üzrə təqdim edilmiş və ya alınmış elektron vergi hesab-fakturalarının mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini, aylıq bəyannamələrin vaxtında və düzgün tərtib edilərək təqdim edildiyini yoxlamaq;

Satış əməliyyatlarının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən ƏDV və mənfəət vergisinin auditi zamanı istifadə etmək;

Vergilər hesablanarkən tətbiq edilən güzəştlərin mövcud qanunvericiliyə əsasən həyata keçirildiyinə əmin olmaq;

Əmlak vergisinin düzgün hesablanmasını yoxlayarkən əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi bölməsində əldə edilmiş məlumatlardan istifadə etmək;

Ödəniş mənbəyində tutulmuş vergilər üzrə hesablaşmaların düzgün aparıldığına, tutulmaların müvafiq normalara uyğun həyata keçirildiyinə, vaxtında təyinatı üzrə köçürüldüyünə və bu növ vergilər üzrə hesabatların düzgün tərtib edildiyinə əmin olmaq;

Vergi orqanları tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış faizlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Vaxtı keçmiş, gecikdirilmiş ödənişlər, hesabatlarda düzgün əks etdirilməmiş vergilər üzrə yarana biləcək cərimə və maliyyə sanksiyalarının müəssisənin maliyyə vəziyyətinə təsiri ehtimalını təhlil etmək və bu barədə rəhbərliyə məlumat vermək.

**Dövlət Sosial Müdafiə Fondu (DSMF) ilə hesablaşmaların auditi**

Dövriyyə-qalıq cədvəlində, maliyyə hesabatlarında və baş kitabda göstərilən qalıq məbləğlərini tutuşdurmaq və kənarlaşmaların olmadığına əmin olmaq;

Ödənişlərin hesablanması bazasının və tətbiq edilmiş normaların düzgünlüyünə əmin olmaq. Qanunvericilikdə nəzərdə tutulmuş güzəştlərin düzgün tətbiq edildiyini yoxlamaq;

Dövlət Sosial Müdafiə Fondunun hesabına həyata keçirilən ödəmələrin və onlar üçün əsas sayılan ilkin sənədlərin (xəstəlik vərəqələri, müavinətlərin alınması üçün sənədlər toplusu, kəsilmiş pensiya məbləği barədə arayış və s.) düzgünlüyünü yoxlamaq;

Dövlət Sosial Müdafiə Fondu tərəfindən tətbiq edilmiş maliyyə sanksiyalarının və hesablanmış faizlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş prosedurlar nəticəsində sosial fondlara edilmiş (əmək haqqından hesablanmış və tutulmuş) ödənişlərin məbləğini bank və kassa əməliyyatlarının auditi zamanı həyata keçirilmiş prosedurların nəticələri ilə tutuşduraraq, bu növ ödəmələr üzrə qalıq məbləğini müəyyənləşdirmək;

Alınmış nəticələrin maliyyə hesabatlarında əks etdirilmiş qalıqlara uyğunluğuna əmin olmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini araşdırmaq.

Təhtəlhesab şəxslərlə hesablaşmaların auditi

Tam maddi məsuliyyət haqqında təhtəlhesab şəxslərlə bağlanmış müqavilələrin mövcudluğunu yoxlamaq;

Hesabat dövrünün sonuna təhtəlhesab şəxslərlə hesablaşmalar üzrə yaranmış qalıqların analitik uçotunu tələb etmək;

Avans hesabatlarının düzgün tərtib edildiyinə və xərclənməmiş məbləğlərin vaxtında kassaya qaytarıldığına əmin olmaq, avans hesabatlarına əlavə edilmiş ilkin sənədlərin (qaimələr, əmtəə çekləri, biletlər və s.) mövcudluğunu və bu sənədlərdəki məbləğlərin avans hesabatlarında düzgün ifadə edildiyini yoxlamaq;

Ezamiyyə xərclərinin mövcud qanunvericiliklə müəyyən edilmiş normalara əsasən hesablandığına əmin olmaq;

Bu prosedurların nəticələrindən kassa əməliyyatlarının və xərclərin auditi zamanı istifadə etmək.

**Digər hesablaşma əməliyyatlarının auditi**

Sığorta ilə bağlı əməliyyatların analitik uçot üzrə qalıqlarını tələb etmək;

Daha çox əhəmiyyətli sayılan əmlak və şəxsi sığorta əməliyyatları üzrə bağlanmış müqavilələrin şərtləri ilə tanış olmaq, sığorta hadisələri üzrə itkilərin və sığorta ödənişlərinin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq. Xərclərin tərkibində olan sığorta ödənişlərinin məbləğini bu prosedurların nəticələri ilə tutuşdurmaq və düzgünlüyünə əmin olmaq;

Əmək və əmək haqqı üzrə hesablaşmaların auditi zamanı yerinə yetirilmiş prosedurların nəticələrindən işçi heyəti ilə və icra sənədləri üzrə aparılmış hesablaşmaların yoxlanılmasında istifadə etmək, bu hesablaşmaların düzgün aparıldığına əmin olmaq;

Birgə fəaliyyət barədə bağlanmış müqavilələrin şərtlərini öyrənmək, iştirakçılar tərəfindən bu fəaliyyətə qoyulmuş əmlakın və ya verilmiş vəsaitin müqavilə şərtlərinə uyğun olduğunu və hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;

Birgə fəaliyyətin həyata keçirilməsi nəticəsində əldə edilmiş mənfəətin və ya zərərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;

Məqsədli maliyyələşmələr və daxilolmalar üzrə vəsaitlərin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq məqsədilə donor və respient arasında bağlanmış müqavilələrin şərtlərini öyrənmək, tərtib edilmiş smetalar üzrə xərc maddələri ilə tanış olmaq. Bu növ maliyyələşmələrdən məqsədəyönlü və təyinatı üzrə istifadə edildiyini yoxlamaq, donorlara təqdim edilmiş hesabatlarla tanış olmaq və bu əməliyyatların düzgünlüyünə əmin olmaq.

Alınmış kreditlər və borclar üzrə analitik və sintetik uçotların ilkin mühasibat registrlərində düzgün əks etdirildiyinə əmin olmaq;

Kredit və borc müqavilələrinin şərtlərini öyrənmək, onların qaytarılması vaxtının uzadılması və ya vaxtı ötmüş kimi qiymətləndirilməsi şərtlərinə diqqət yetirmək;

Kreditlərin müqavilə üzrə müddətindən (uzunmüddətli, qısamüddətli) asılı olaraq, onların mühasibat uçotunda və maliyyə hesabatlarında müvafiq balans hesabatlarında düzgün əks etdirildiyini yoxlamaq;

Kredit və borclardan istifadəyə görə faizlərin hesablanmasının və hesabatlarda əks etdirildiyinin düzgünlüyünü yoxlamaq;

Xarici valyutada alınmış borc və kreditlərə məzənnə fərqlərinin və qalığın hesabatda düzgün əks etdirildiyinə əmin olmaq;

Kredit və borclar üzrə qalıqların auditlə əhatə edilən dövrün sonuna hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə bu məbləğin arayış ilə təsdiq edilməsini digər tərəfdən tələb etmək.

**6.Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin auditi**

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyəri, qalıq dəyəri və hesablanmış amortizasiya ayırmaları barədə məlumatlar toplamaq;

Əsas vəsaitlərin üzərində daxili nəzarətin səviyyəsinə qiymət vermək məqsədilə hesabat dövrünün sonuna inventarizasiyanın aparıldığını və əgər aparılıbsa, nəticələrinin mühasibat

uçotunda düzgün əks etdirildiyini yoxlamaq. İnventarizasiyanın nəticələrinə görə silinmə halları olmuşdursa, ləğvetmə aktlarını tələb etmək;

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin alınması və məxaric edilməsi ilə bağlı əməliyyatların sənədləşdirildiyini və mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq. Əldə edilmiş əsas vəsaitlərin və qeyri-maddi aktivlərin ilkin dəyərinin formalaşdırılmasının düzgünlüyünə qiymət vermək məqsədilə onların alınmasına, daşınmasına, quraşdırılmasına və hazırlanmasına çəkilən xərclərin ilkin dəyərlərinə həqiqətən daxil edildiyinə əmin olmaq;

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaricdən alınmışdırsa, gömrük bəyannamələrində göstərilən rüsumların onların ilkin dəyərinə aid edildiyini və əməliyyatın baş verdiyi tarixə mövcud valyuta məzənnəsinə uyğun olaraq, düzgün qiymətləndirilərək mühasibat uçotunda əks etdirildiyini yoxlamaq;

Qeyri-maddi aktivlərin qiymətləndirilməsinin düzgünlüyünü yoxlamaq məqsədilə mövcud qanunvericiliklə müəyyənləşdirilmiş təsdiqedici sənədləri tələb etmək;

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin əldə edilməsi, quraşdırılması və sazlanması, tikilməsi və istifadəyə verilməsi ilə bağlı bütün xərclərin mühasibat uçotunda əvvəlcə kapital qoyuluşları kimi, istifadəyə verildikdə isə müvafiq balans hesablarında düzgün əks etdirildiyinə əmin olmaq;

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin kateqoriyalar üzrə düzgün qruplaşdırıldığını, tətbiq edilmiş amortizasiya ayırmaları normalarının düzgünlüyünü yoxlamaq, bu normaların mövcud qanunvericiliyin tələbləri həddində olduğuna və uçot siyasəti barədə əsasnaməyə uyğunluğuna əmin olmaq. Qeyri-maddi aktivlərin amortizasiya normalarının onların istifadə müddətinə uyğun şəkildə düzgün hesablandığını yoxlamaq;

Hesablanmış amortizasiya ayırmalarının məbləği vergi və mühasibat uçotu üzrə müxtəlif olarsa, bu məbləğlərin müvafiq hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq;

Əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaric olmasının maliyyə hesabatlarında düzgün əks etdirildiyini yoxlamaq. Əsas vəsaitlərin satışı zamanı onların qalıq dəyərinin düzgün müəyyən edildiyinə əmin olmaq. Əgər əsas vəsaitlər qalıq dəyərindən aşağı qiymətə satılmışdırsa, tətbiq olunan qiymətin əməliyyat baş verən dövrə mövcud bazar qiymətinə uyğun olduğu barədə təsdiqedici sənədləri tələb etmək. Xaricolmanın nəticələrinin mənfəətin və zərərin hesabatında sair satışın nəticələri kimi əks etdirildiyinə əmin olmaq;

Uzunmüddətli icarəyə götürülmüş və ya lizinqlə əldə edilmiş əsas vəsaitlərin mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq, lizinq müqaviləsinin şərtləri ilə tanış olmaq;

Əsas vəsaitlərin təmiri ilə bağlı xərclərin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq. Çəkilmiş təmir xərclərinin xarakterini öyrənmək, istismar və işçi vəziyyətdə saxlama ilə bağlı xərclərin təmir xərclərinin tərkibinə aid edilmədiyinə və təmir xərclərinin müəyyənləşdirilmiş normalardan artıq olmadığına əmin olmaq. Vergi uçotu məqsədilə müəyyən edilmiş normalardan artıq olan təmir xərclərinin hər bir kateqoriyaya dair əsas vəsaitlərin balans üzrə qalıq dəyərinə düzgün aid edildiyini yoxlamaq;

Əsas vəsaitlərin əvəzsiz və ya qismən dəyəri ödənilməklə alınması və verilməsi hallarına ayrı-ayrılıqda diqqət yetirmək və bu zaman yaranmış vergi öhdəliklərinin düzgün yerinə yetirildiyinə əmin olmaq.

### 7.Mal-material dəyərlilərinin (MMD) və istehsal ehtiyatlarının (İE) auditi

İlin sonuna mühasibat hesabatlarında əks etdirilmiş ehtiyatların (xammal və materialların, azqiymətli və tezköhnələn əşyaların, malların, ticarət əlavəsinin) qalığını SC-nin analitik uçotunun məlumatları ilə tutuşdurmaq;

Uçot siyasətinə əsasən ehtiyatların qiymətləndirilməsində hansı (LIFO, FIFO və ya digər) metoddan istifadə edildiyini öyrənmək və hesabat ilində uçot siyasətinin dəyişdirilmədiyinə əmin olmaq;

MMD və İE-yə görə tam maddi məsuliyyət barədə maddi məsul şəxslərlə bağlanmış müqavilələrin mövcudluğunu yoxlamaq;

MMD və İE-nin üzərində daxili nəzarətin səviyyəsini qiymətləndirmək məqsədilə inventarizasiya aparılmasını yoxlamaq və inventarizasiya aktlarını tələb etmək. İnventarizasiyanın nəticələrinin düzgün sənədləşdirildiyini yoxlamaq və mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq;

İnventarizasiya keçirilməyibsə və ya inventarizasiya aktlarında nöqsanlar aşkar edilərsə, seçmə yolu ilə daha böyük maddi əhəmiyyət kəsb edən MMD və İE-nin həqiqi mövcudluğunu məsul şəxslərin iştirakı ilə yoxlamaq və nəticələrini hesabatlarla tutuşdurub aktlaşdırmaq;

MMD və İE mədaxil edilərkən faktiki maya dəyərinin düzgün müəyyənləşdirildiyinə qiymət vermək məqsədilə onların əldə edilməsinə çəkilən xərclərin faktiki maya dəyərinə aid edildiyinin düzgünlüyünü ilkin sənədlərdən istifadə edərək yoxlamaq;

ƏDV-nin ödəyicisi tərəfindən MMD və İE-nin mədaxili zamanı malsatanlara nağdsız ödənilmiş əlavə dəyər vergisinin faktiki maya dəyərinə aid edilmədiyinə, büdcə ilə hesablaşmalar hesabına aid edildiyinə əmin olmaq;

MMD və İE-nin anbarlarda saxlanması şəraitini öyrənmək və onun qəbul edilmiş tələblərə uyğunluğuna, anbar uçotunun, dəyərlilərin müəssisədaxili hərəkətinin necə təşkil edildiyinə və düzgün sənədləşdirildiyinə qiymət vermək;

Maddi ehtiyatların istifadəsinin təsdiq edilmiş texnoloji normalara uyğunluğuna əmin olmaq. Fərqlər aşkar edilərsə, səbəblərini araşdırmaq. Bu məlumatlardan istehsal xərcləri və maya dəyərinin auditi zamanı istifadə etmək;

MMD və İE-nin əskik (və ya artıq) gəlməsi, xarab olması hallarının mövcudluğunu, belə hallar baş vermişdirsə, təbii itki normalarına uyğunluğu təhlil etmək, əgər təbii itki normalarına uyğun deyilsə, bu halda SC tərəfindən görülmüş tədbirlər barədə məlumat almaq;

İstifadə edilməyən və ya artıq olan maddi dəyərlilərin satışı ilə bağlı əməliyyatların mühasibat uçotunda, mənfəətin və zərərin hesabatında düzgün əks etdirildiyini yoxlamaq;

Azqiymətli və tezköhnələn əşyaların (AQTƏ) istismara verilməsi zamanı onlara tətbiq edilən köhnəlmənin düzgünlüyünü yoxlamaq;

Uçot siyasətinə əsasən istehsal edilmiş hazır məhsulun hesabatlarda faktiki maya dəyəri ilə və ya normativ (plan) istehsal maya dəyəri ilə əks etdirildiyini müəyyənləşdirmək və onların yükləmə anında mühasibat uçotunda necə əks etdirildiyini öyrənmək, bu prosedurların nəticələrindən satış əməliyyatlarının, sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə etmək;

Malların (xidmətilərin) uçotunun alış qiyməti (faktiki dəyəri) və ya satış qiyməti ilə aparıldığını müəyyənləşdirmək. Malların uçotu satış qiyməti ilə aparılarkən və onlar topdan satılarkən endirimlərin (və ya əlavələrin) tətbiq edilməsi hallarına xüsusi diqqət yetirmək və satış qiymətlərinin mövcud bazar qiymətlərinə uyğunluğuna əmin olmaq;

Ticarət əlavələrinin uçotda düzgün əks edildiyini yoxlamaq və prosedurların nəticələrindən satış əməliyyatlarının auditi zamanı istifadə etmək;

MMD və İE-nin yenidən qiymətləndirilməsinin səbəb və nəticələrini, onların cari bazar qiymətlərinə uyğunluğunu araşdırmaq və qiymətləndirmənin nəticələrinin mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq.

**8.Əmək qanunvericiliyinə əməl edilməsi və əmək haqqı üzrə hesablaşmaların auditi**

İşçilərin orta siyahı sayı və kateqoriyaları barədə məlumat almaq;

İşçilərlə bağlanmış əmək müqavilələrinin Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğunluğuna əmin olmaq;

Ştat cədvəlini əldə etmək, tətbiq edilən əmək haqqı sistemi və formaları barədə məlumat almaq;

Vaxtamuzd ödəniş sistemində əmək haqqının ştat cədvəlinə və tarif dərəcələrinə uyğun düzgün hesablandığını yoxlamaq. Tabellərdə göstərilən iş vaxtını əmək haqqının hesablanması cədvəli ilə tutuşdurmaq;

Əməyin işəmuzd ödəniş sistemində naryad, raport, marşrut vərəqələri və s. sənədlərdən istifadə etmək. İşəmuzd işçilərin əmək haqqını onların hazırladığı hazır məhsulun, gördüyü işin, göstərdiyi xidmətin uçotu üzrə məlumatlarla tutuşdurmaq və düzgünlüyünə əmin olmaq;

Həftəlik iş vaxtı müddətinin 40 saatdan artıq olmadığına əmin olmaq, artıq işlənilmiş vaxta görə (istirahət və bayram günləri də daxil olmaqla) ödənişlərin Əmək Məcəlləsinə müvafiq olduğunu yoxlamaq;

Məzuniyyətlərin, sosial təyinatlı ödənişlərin mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq düzgün hesablandığını yoxlamaq;

Əmək haqqından tutulmaların (gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna tutulma, icra vərəqələri üzrə tutulma, borclar və s.) müvafiq qanunvericilik aktlarının, normativ və icra sənədlərinin tələblərinə uyğunluğunu yoxlamaq. Fiziki şəxslərin gəlir vergisi üzrə güzəştlərin düzgün tətbiq edildiyinə əmin olmaq;

Deponentləşdirilmiş əmək haqqının uçotunun düzgünlüyünü yoxlamaq, analitik uçotun aparılmasına əmin olmaq və bu məlumatları kassa əməliyyatları və ödəniş cədvəlləri ilə tutuşdurmaq. Bu prosedurlar nəticəsində kənarlaşmalar aşkar edilərsə, səbəblərini aydınlaşdırmaq;

Əmək haqqının hesablama-ödəniş cədvəllərinin yekunlarının riyazi düzgünlüyünü yoxlamaq;

Əmək haqqı üzrə hesablamaların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə tərtib edilmiş mühasibat yazılışlarının düzgünlüyünü yoxlamaq, əmək haqqı üzrə xərclərin istehsal xərcləri maddələrinə düzgün aid edildiyinə əmin olmaq;

Əmək haqqı üzrə əməliyyatların düzgünlüyünə əmin olduqdan sonra müvafiq hesablama cədvəli tərtib etmək, bu cədvələ əsasən gəlir vergisi, Dövlət Sosial Müdafiə Fonduna ayırma və tutulmaların məbləğlərini hesablamaq;

Bu prosedurlar nəticəsində əldə edilmiş məlumatlardan fiziki şəxslərin gəlir vergisi üzrə büdcə ilə hesablaşmanın, sosial fondlarla hesablaşmaların, istehsal xərcləri və gəlirdən çıxılan xərclərin auditi zamanı istifadə etmək.

**9.Kapital qoyuluşları və uzunmüddətli investisiyaların auditi**

Maliyyə hesabatları və dövriyyə-qalıq cədvəlinə əsasən qalıqları müəyyənləşdirmək;

Uzunmüddətli investisiyalar və kapital qoyuluşları hesabları üzrə analitik uçotun aparıldığına əmin olmaq və onların riyazi düzgünlüyünü yoxlamaq;

Kənar təşkilatlardan alınmış qiymətli kağızların həqiqətən uzunmüddətli qiymətli kağızlar olduğuna əmin olmaq;

Digər təşkilatların istiqrazları və səhmlərinin onların nominal dəyərindən artıq və ya əskik olması hallarının mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq və bu prosedurların nəticələrini maliyyə hesabatları bölməsində aparılmış audit prosedurlarının nəticələri ilə tutuşdurmaq;

Kapital qoyuluşlarının hansı fondlar və vəsaitlər hesabına və nə məqsədlə həyata keçirildiyini araşdırmaq;

Kapital qoyuluşuna aid edilmiş xərclərin qanuniliyini və mühasibat uçotunda düzgün əks etdirildiyini ilkin sənədlərlə yoxlamaq. Kapital qoyuluşları ilə ƏV və QMA-nın auditinin qarşılıqlı əlaqədə aparılmalı olduğunu nəzərə almaq. Bu məqsədlə yerinə yetirilən prosedurların nəticələrini əsas vəsaitlər və qeyri-maddi aktivlər bölməsindəki prosedurların məlumatları ilə tutuşdurmaq;

Başa çatmamış kapital qoyuluşlarının dəyərinin hesabatlarda düzgün əks etdirildiyini yoxlamaq;

Kapital qoyuluşları və uzunmüddətli investisiyalar üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyünə əmin olmaq, kənarlaşmalar aşkar edilərsə, səbəblərini aydınlaşdırmaq;

Vergiqoyma məqsədilə mənfəət vergisi üzrə hesablaşmaların auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrinə əsasən, istehsal təyinatlı kapital qoyuluşlarına hesablanmış amortizasiya ayırmalarının düzgünlüyünə əmin olmaq;

Həyata keçirilmiş kapital qoyuluşlarının nə dərəcədə səmərəli olduğunu təhlil etmək.

**10.Səhmlərlə bağlı əməliyyatların auditi (Turizm müəssisəsi səhmdar cəmiyyət olduğu hallarda)**

Səhmlərin sayı və növləri barədə məlumat almaq. Əgər imtiyazlı səhmlər varsa, onların sayının səhmlərin ümumi məbləğinin 25%-dən çox olmadığına əmin olmaq;

Səhmlərin reyestrində edilən dəyişikliklərin mühasibat uçotunda vaxtında və düzgün əks etdirildiyini yoxlamaq;

Səhmlərin geri alınması prosesinin səhmdarların ümumi yığıncağının qərarına əsasən həyata keçirildiyinə əmin olmaq;

Səhmlər geri alınarkən onların bazar məzənnəsinə uyğun olaraq alındığını və bu əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Bir il ərzində satılmayan səhmlərin ləğv edilməsi barədə səhmdarların ümumi yığıncağının qərarını tələb etmək və nizamnamə fondunun bu səhmlərin nominal dəyəri məbləğində həqiqətən azaldıldığına əmin olmaq;

Geri alınmış səhmlərin bir il ərzində alış qiymətindən baha və ya ucuz satılması hallarının mühasibat uçotunda düzgün əks etdirildiyini və ehtiyat fonduna aid olan vəsaitlərin ayrıca subhesabda əks olunduğunu yoxlamaq;

Səhmlərin etibarsız sayılması halları olmuşdursa, bu əməliyyatların qanunvericiliyə uyğunluğunu yoxlamaq;

Səhmlərin nominal dəyərinin azalması halları müşahidə edilərsə və ya səhmlərə sahib olanlardan səhmlər alınıb ləğv edilərsə, bu hallarda səhmdar cəmiyyətinin nizamnamə fondunun məbləğinin düzgün azaldıldığına əmin olmaq və bu məqsədlə nizamnamə kapitalının auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə etmək;

Səhmlərlə bağlı əməliyyatların auditi aparılarkən pul sənədlərinin auditi zamanı tətbiq edilmiş audit prosedurlarının nəticələrindən istifadə emək.

**11.Malların satışı (işlərin görülməsi və xidmətlərin göstərilməsi) üzrə əməliyyatların auditi**

Audit zamanı turizm müəssisəsinin xərclərinə xüsusi diqqət yetirilməlidir. Nəzərə alınmalıdır ki, turizm sahəsinin xüsusiyyətləri nəzərə alınmaqla, xərclər maddələr üzrə göstərilməklə (əmək haqqı və ayırmalar, material, amortizasiya, kənar təşkilatların xərcləri və s.), aşağıdakı sahələr üzrə ayrıca qruplaşdırılmalıdır:

- ölkədən xaricə göndərilər tusistlər üzrə;
- ölkəyə xaricdən gələn turistlər üzrə;
- ekskursiyalar üzrə;
- daxili turizm üzrə.

Nəzərə alınmalıdır ki, turist agenlərinin xərcləri mühasibat uçotunda xərc maddələrində əks olunmaqla, kontragentlərlə (turist operatorları, nəqliyyat, informasiya, ictimai iaşə müəssisələri,

informasiya agentlikləri və mehmanxana biznesi ilə məşğul olan təşkilatlarla) hesablaşmalar üzrə hesablarla müxabirələşməlidir.

Auditor ezamiyyə xərclərinə, habelə turistlərlə bağlı sığorta xərclərinə xüsusi diqqət yetirməli, eyni zamanda nəqliyyat, otel və ictimai iaşə xərclərinin turistlərin sayı ilə müvafiqliyini yoxlamalıdır. İşçilərə hesablanmış ezamiyyə xərclərinin təsdiq edilmiş normalara uyğun olduğuna əmin olmaq məqsədilə ezamiyyə vərəqələri yoxlanılmalıdır.

Xərcləri təsdiq edən ilkin sənədlər yoxlanılmalı və kənar təşkilatlarla bağlanmış üzləşmə aktları tələb edilməlidir.

Çəkilmiş xərclərin qanunvericiliyə və turizm müəssisəsinin uçot siyasətinə müvafiqliyinə diqqət yetirilməli, gəlirdən çıxılın xərclər olmasına, gəlirdən çıxılmayan xərclərin mühasibat uçotunda və maliyyə hesabatlarında düzgün əks olunmasına əminlik yaranmalıdır.

Növbəti mərhələdə auditor turizm müəssisəsinin gəlirlərini yoxlamalıdır. Bu gəlirlər türizm məhsulunun satışı və sair iş və xidmətlərin satışından ibarət ola bilər.

Auditor ilk növbədə nəzərə almalıdır ki, "Turizm haqqinda" Azərbaycan Respublikasinin Qanununun 9-cu maddəsinə əsasən turizm məhsulunun satışı müqavilə əsasında həyata keçirilməlidir. Müqavilə yazılı formada bağlanır və o, Azərbaycan Respublikasının qanunvericiliyinə, o cümlədən istehlakçıların hüquqlarının müdafiəsi sahəsində qanunvericiliyə uyğun olmalıdır.

Nəzərə alınmalıdır ki, müqavilənin digər şərtləri tərəflərin razılığı ilə müəyyən edilir. Turistin turoperatordan və ya turaqentdən tura daxil olan bütün xidmətlərin göstərilməsini tələb etmək hüququ var.

Tərəflərin hər birinin, səyahət vaxtı şəraitin əsaslı dəyişikliyi ilə əlaqədar olaraq, müqaviləni dəyişdirməyi və ya onu pozmağı tələb etmək hüququ var.

Şəraitin əsaslı dəyişikliyinə aşağıdakılar aiddir:

1. səyahətin şərtlərinin pisləşməsi, səyahətin müddətində dəyişiklik;
2. səyahətin baş tutması üçün müqavilədə göstərilmiş qrupda turistlərin minimal sayının natamamlığı;
3. nəqliyyat tariflərinin gözlənilmədən artması;
4. turoperatorun və ya turaqentin maliyyə vəziyyətini kəskin pisləşdirən yeni vergi və vergitutma qaydalarının tətbiqi və ya mövcud olanların artırılması;
5. milli valyuta kursunun kəskin dəyişilməsi.

Müqavilə pozulduqda, zərərin ödənilməsi tərəflərin çəkdikləri faktiki xərclərə uyğun surətdə həyata keçirilməsinə auditor xüsusi diqqət yetirməlidir. Zərərin əvəzi kimi ödənilən məbləğ turizm məhsulunun dəyərinin iki mislindən artıq ola bilməz.

Səyahətin konkret şərtləri, turizm məhsulunun pərakəndə qiyməti turistə turoperator və ya turaqent tərəfindən verilən turizm yollayışında göstərilməlidir.

Auditor diqqət yetirməlidir ki, turizm yollayışı müqavilənin ayrılmaz hissəsi olmaqla, turoperatorun və ya turaqentin turizm məhsulunun satışına yazılı razılıq və onun satıldığı faktını təsdiqləyən ilkin hesabat sənədidir.

Turist göndərən turoperatorla və ya turaqentlə turist qəbul edən turoperator və ya tura daxil olan konkret xidmətləri təklif edən şəxslər arasında qarşılıqlı ödəmələr turizm vauçeri əsasında həyata keçirilməlidir.

Gəlirlərin auditi zamanı, xərclərin auditində olduğu kimi, gəlirlər ölkədən xaricə göndərilən turistlər üzrə; ölkəyə xaricdən gələn turistlər üzrə; ekskursiyalar üzrə; daxili turizm üzrə ayrıca qruplaşdırılmalıdır. Gəlirlərin belə qruplaşdırılması, bu qruplar üzrə xərcləri müqayisə etməklə hər qrup üzrə rentabelliyi müəyyən etməyə imkan verir və bu təhlilin auditor tərəfindən aparılması zəruridir. Eyni zamanda belə təhlil turizm müəssisəsinin ümumistehsalat və ümumtəsərrüfat xərclərinin xüsusi çəkisini müəyyən etməyə baza yaratmaqla, auditor tərəfindən müəssisə rəhbərliyinə müvafiq tövsiyələrin verilməsində istifadə olunmalıdır.

Turizm müəssisələrinin sair satışına aviabiletlərin satışı, vasitəçilik, digər iş və xidmətlərin göstərilməsi aiddir. Auditor tərəfindən sair satışdan gəlirlərin ümumi gəlirdəki xüsusi çəkisi və rentabelliliyi müəyyənləşdirilməli, seçmə üsulla ayrı-ayrı əməliyyatlar əhəmiyyətlilik

baxımından seçilərək yoxlanılmalıdır. Əgər turizm agentləri bağlanmış müqavilələrə əsasən göstərdikləri vasitəçilik xidmətlərinə görə komissyon haqları əldə etmişlərsə, turizm məhsulunun alış və satış qiymətləri arasındakı fərqlə agentin gəlirləri (aldığı komissyon haqq) müqayisə edilməlidir. Eyni zamanda nəzərə alınmalıdır ki, vasitəçilik xidmətlərinin göstərilməsi zamanı turizm müəssisəsinin (turizm agentinin) gəlirləri göstərilmiş xidmətin dəyərinin müəyyən faizi həcmində; konkret müəyyənləşdirilmiş məbləğdə; alınmış və satılmış turizm məhsulunun qiymətləri arasındakı fərq şəklində kimi ola bilər. Bu hallar auditor tərəfindən araşdırılmalı və ilkin sənədlər seçmə üsulla, zəruri hesab edildiyi hallarda isə tam yoxlanılmalıdır.

Bundan başqa auditor aşağıdakı prosedurlara əməl etməlidir:

Maliyyə hesabatlarını, gəlirlər və xərclər barədə məlumatları, dövriyyə-qalıq cədvəli üzrə məlumatları əldə etmək;

Uçot siyasətinə və qəbul edilmiş uçot prinsiplərinə əsasən, satış əməliyyatlarının hansı metodla hesablandığını aydınlaşdırmaq və hesabat dövrü ərzində uçot siyasətinin dəyişdirilmədiyinə əmin olmaq;

Satışla əlaqədar olan müqavilələrin mövcudluğunu yoxlamaq və müqavilə şərtlərini öyrənmək. Müqavilə qiyməti və ya razılaşma protokollarının mövcudluğuna əmin olmaq;

Satış qiymətlərinin müqavilənin şərtlərinə uyğun müəyyən edildiyinə əmin olmaq;

Satışla əlaqədar olan ilkin mühasibat sənədlərinin (qaimə, vergi hesab-fakturaları və s.) düzgün tərtib edildiyinə, alıcı və sifarişçi təşkilatlara vaxtında təqdim edildiyinə əmin olmaq;

Tətbiq edilmiş prosedurların nəticələrindən sifarişçi və alıcı təşkilatlarla hesablaşmaların auditi zamanı istifadə etmək və əldə edilmiş nəticələri tutuşdurmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;

Satış əməliyyatlarının nəticələrinin hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq məqsədilə kassa-nəzarət aparatlarından çıxarışları əldə etmək və bu məlumatları maliyyə hesabatları ilə tutuşdurmaq. Kənarlaşmalar aşkar edilərsə, səbəbini aydınlaşdırmaq;

Maliyyə nəticələrinə təsir göstərən sair satış əməliyyatları və satışdankənar əməliyyatlar üzrə gəlirləri araşdırmaq, onların mövcud mühasibat uçotu prinsiplərinə uyğun əks etdirildiyinə əmin olmaq.

Aşağıdakı gəlir və xərclərə xüsusi diqqət yetirmək:

xarici valyutada aparılmış əməliyyatların məzənnə fərqlərindən gəlirlər və xərclər;

alınmış cərimə və peniyalar;

əmlakın icarəyə verilməsindən gəlirlər və xərclər;

birgə fəaliyyətdən gəlirlər və xərclər;

əsas vəsaitlərin və qeyri-maddi aktivlərin xaric olmasından gəlirlər və xərclər;

qiymətli kağızların alqı-satqısı nəticəsində əldə edilmiş gəlirlər və xərclər;

Sair satış üzrə əldə edilmiş gəlirlərin düzgünlüyünə əmin olmaq məqsədilə hesabat göstəricilərini müvafiq bölmələrdə aparılmış audit prosedurlarının nəticələri ilə üzləşdirmək, bu növ satış əməliyyatlarının hesabatlarda düzgün əks etdirildiyinə əmin olmaq;

Xidmətlərin göstərilməsi zamanı xüsusi razılıq tələb olunan halların mövcud olub-olmadığına diqqət yetirmək;

Satış əməliyyatları üzrə edilmiş mühasibat yazılışlarının düzgünlüyünü yoxlamaq, gəlirin mənfəət və zərər hesabatında və vergi hesabatlarında düzgün əks etdirildiyinə əmin olmaq.

## 12. Mənfəət (zərər), verilmiş dividendlər, fondlar və ehtiyatların auditi

Mənfəət, fondlar və ehtiyatlar üzrə ilin əvvəlinə qalıq, il ərzində daxilolma, il ərzində xaricolma və ilin sonuna qalığı əks etdirməklə, hesabat dövrü ərzində balans hesabları üzrə dövriyyə-qalıq cədvəli tərtib etmək və bu məlumatları baş kitabın məlumatları ilə tutuşdurmaq;

Aşağıdakı balans hesablarını araşdırmaq:

**33-cü bölmə: "Kapital ehtiyatları"**

331-Yenidənqiymətləndirmə üzrə ehtiyat;

332-Məzənnə fərqləri üzrə ehtiyat;

333-Qanunvericilik üzrə ehtiyat;

334-Nizamnamə üzrə ehtiyat;
335-Digər ehtiyatlar.
**34-cü bölmə: "Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)"**
341-Hesabat dövründə xalis mənfəət (zərər);
342-Mühasibat uçotu siyasətində dəyişikliklər və əhəmiyyətli səhvlərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər;
343-Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər);
344-Elan edilmiş dividendlər.
Göstərilən hesablardan istifadə edilməsi məqsədəuyğundur.

Hesabat dövrü ərzində səhmdarların ümumi yığıncağının protokollarının, idarə heyətinin qərarlarının surətini tələb etmək, qəbul edilmiş qərarlarla tanış olmaq və bu qərarların mühasibat uçotunda düzgün əks etdirildiyinə əmin olmaq;

Verilmiş dividendlərin qəbul edilmiş qərarlara əsasən düzgün hesablandığını yoxlamaq. Hesablanmış dividendlərdən ödəmə mənbəyində tutulan gəlir vergisinin düzgün hesablandığına əmin olmaq məqsədilə vergilər üzrə hesablaşmalar bölməsində audit prosedurlarının nəticələrini dividenddən tutulmuş vergilərlə tutuşdurmaq;

Dividendlərin hazır məhsul və ya əmlakla ödənildiyi hallarda qiymətlərin düzgün müəyyən edildiyini yoxlamaq;

İmtiyazlı səhmlər üzrə ödənilmiş dividendlərin hesablanmasının düzgünlüyünə əmin olmaq;

Dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) dividendlərin ödənilməsi halları varsa, bu halların nizamnamədə nəzərdə tutulduğuna əmin olmaq və onların ödənilməsi barədə qərarlarla tanış olmaq;

xalis aktivlərin dəyəri onun nizamnamə kapitalından az olduğu hallarda dividendlərin elan edilib ödənilmədiyinə əmin olmaq;

Əmlakın yenidən qiymətləndirilməsi, əvəzsiz alınması və ya əvəzsiz verilməsi hallarını araşdırmaq və onların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Əlavə emissiya və ya nominal qiymətlərin artması yolu ilə səhmlərin nominal dəyərindən yüksək qiymətə satılması hallarını araşdırmaq. Satış qiyməti ilə nominal dəyər arasındakı fərqin emissiya gəlirinə aid edildiyinə əmin olmaq;

Uçot siyasətinə və təsis sənədlərinə (qərarlarına) əsasən xüsusi təyinatlı fondların düzgün yaradıldığına əmin olmaq, bu məlumatlardan səhmlərlə bağlı əməliyyatların auditi zamanı istifadə etmək;

Fondlar hesabına xərclənmiş vəsaitlərin smetasına əlavə edilmiş ilkin sənədlərə əsasən çəkilmiş xərclərin nə dərəcədə əsaslı və məqsədəuyğun olduğuna qiymət vermək;

Hesabat dövrü zərərlə başa vurularsa, zərərin örtülməsinin hansı vəsaitlər hesabına həyata keçirildiyni araşdırmaq və bu əməliyyatların mühasibat uçotunda düzgün əks etdirildiyini yoxlamaq;

Mənfəətin maliyyə və vergi uçotuna görə müxtəlif olduğu halları araşdırmaq və düzgünlüyünə əmin olmaq.

## 13.Maliyyə vəziyyətinin təhlili, auditin nəticəsi üzrə verilən təkliflər

Audit nəticəsində düzgün sayılmış balans hesabatı və hesabata əlavələr tərtib edildikdən sonra daha çox əhəmiyyətli olan aşağıdakı göstəriciləri hesablamaq:

- cari likvidlik əmsalı (dövriyyə vəsaitlərinin qısamüddətli öhdəliklərə nisbəti);
- xalis dövriyyə kapitalı (dövriyyə vəsaitləri ilə qısamüddətli öhdəliklərin fərqi);
- fərdilik əmsalı (fərdi kapitalın aktivlərin məbləğinə nisbəti);
- maliyyə asılılığı əmsalı (ödəniləsi kapitalın (passivlərin) fərdi kapitala nisbəti);
- fərdi kapitalın rentabelliyi (mənfəətin fərdi kapitala nisbəti);
- səmərəlilik və rentabellik səviyyəsi;
- daha çox əhəmiyyətli sayılan digər göstəricilər.

Bu göstəriciləri keçən illərin nəticələrinin göstəriciləri ilə üzləşdirmək üçün müqayisə cədvəli tərtib etmək. İqtisadi göstəricilərin aşağı düşməsi halları aşkar edilərsə, səbəblərini təhlil etmək və rəhbərliyə məktubda və auditin nəticələri barədə aktda açıqlamaq;

Dividendlərinin həcmi qədər azaldılacaq xalis gəlirin adi səhmlərin ümumi sayına olan nisbətinin səhmlərin bazar qiymətinə nə dərəcədə təsir göstərdiyini təhlil etmək;

Dividendin onların bazar qiymətinə olan nisbətini hesablamaq, dividendlərin xalis gəlirə nisbətən xüsusi çəkisini müəyyənləşdirmək və bunun gələcəkdə dövriyyə kapitalının azalmasına təsirini təhlil etmək;

Aktivlərin dəyərinin aşağı düşməsi hallarını təhlil etmək, bu məbləğin nizamnamə kapitalindan aşağı olmadığına əmin olmaq. Aktivlərin dəyərinin aşağı düşməsinin nizamnamə kapitalının aşağı düşməsinə səbəb olduğunu və nizamnamə kapitalının minimum məbləğdən aşağı olmasının səhmdar cəmiyyətinin ləğvi ilə nəticələnə biləcəyini nəzərə almaq;

Keçən ilin auditi zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların auditlə əhatə edilən dövr ərzində aradan qaldırılıb-qaldırılmadığına xüsusi diqqət yetirmək;

Audit zamanı aşkar edilmiş bütün nöqsan və çatışmazlıqları, onların aradan qaldırılmasına dair lazımi təklif və tövsiyələri, mühasibat uçotunun vəziyyətinə verilmiş qiymət barədə mülahizələri auditor aktına və rəhbərliyə ünvanlanan məktuba daxil etmək.

PROQRAMI TƏRTİB ETDİ:

Nəcəf Talıbov-
Palata sədrinin elmi-metodik məsələlər üzrə müşaviri

RƏYÇİLƏR:
Maarif Abbasov –
Auditin hüquqi təminatı və standartlaşdırma İdarəsinin rəisi
Altaq Cəfərov –
sərbəst auditor